# AZƏRBAYCAN PROKURORLUĞU

Elmi-praktiki jurnal



№ 2

2025

www.genprosecutor.gov.az




**Biz qayıtmalıydıq və qayıtmışıq. Biz Ermənistan ordusunu məğlub etmişik və bununla Azərbaycan xalqı fəxr edir. Artıq dörd ildən çoxdur ki, biz müzəffər xalq və dövlət kimi yaşayırıq və əbədiyyətə qədər yaşayacağıq.**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Fazil Həsənəliyev

**Redaksiya heyətinin üzvləri:**
Tural Aslanov
Natiq Hüseynov
Aynur Osmanova
Səbuhi Alıyev
Elnur Musayev
Vüqar Əliyev
Natiq Abdullayev
Asəf Sarıkişiyev
Şəfahət İmranov

**Məsul katib:**
Fərizə Mirzəyeva

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu,
Süleyman Sani Axundov küçəsi 160.

**Telefon:** 361 14 26
**www.genprosecutor.gov.az**

*Elmi-praktiki jurnalın 2-ci nömrəsi*

*Aprel - İyun (2025-ci il)*

“Media haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbəəsində səhifələnmiş və 350 nüsxə kağız, 150 nüsxə elektron daşıyıcıda çap edilmişdir.

*Jurnalın çapına məsul:* Rövşən Abdullayev
*Texniki heyət:* Samir Vahidov, Səttar Əliyev

Çapa imzalanmışdır: 30.07.2025
60x84 1/8 formatda 248 səhifə həcmdədir.

© “Azərbaycan Prokurorluğu”, 2025

# MÜNDƏRİCAT

## ÖLKƏDƏ


**5** Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasları keçirilib
**12** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyəyə işgüzar səfər edib
**15** İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri
**20** Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibinin Azərbaycana səfəri
**24** İlham Əliyev Şuşa, Xocalı və Ağdama səfər çərçivəsində bir neçə açılışlarda iştirak edib
**29** İlham Əliyev Albaniyada keçirilən “Avropa Siyasi Birliyi” 6-cı Zirvə toplantısında iştirak edib
**31** İlham Əliyevin Macarıstana işgüzar səfəri
**35** Dövlətimizin başçısı İsmayıllı və Laçına səfər zamanı sosial-mədəni müəssisələrin açılışında və təməl qoyulmasında iştirak edib, sakinləri ilə görüşüb
**39** Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin Laçına səfəri
**49** Dövlətimizin başçısının Yevlax, Goranboy və Mingəçevirə səfəri


## PROKURORLUQDA


**63** “K.B.Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru təyin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
**63** “K.B.Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilməsinə razılıq verilməsi haqqında” Azərbaycan Respublikası Milli Məclisinin qərarı
**64** 1 may 2025-ci il tarixində Baş prokuror Kamran Əliyev təyinatla bağlı Milli Məclisdə çıxış etmişdir
**74** Baş prokurorun yerlərdə qəbulları
**78** Baş prokuror Aleksandr Zuyevlə görüşüb
**79** Baş prokuror Kamran Əliyev Xankəndində keçirilən “Heydər Əliyev və Suveren Azərbaycan” mövzusunda konfransda iştirak etmişdir.
**83** Kamran Əliyev Qarabağ Universitetində tələbələrlə görüşdü
**84** Baş prokuror Kamran Əliyev Xankəndi şəhərində əməliyyat müşavirəsi keçirib
**85** Baş prokuror Milli Aviasiya Akademiyasında mühazirə oxu-yub
**87** Bakı şəhər Pirallahı rayon prokurorluğunun yeni inzibati bina-sının açılışı olub
**88** Nəsimi rayon prokurorluğunun yeni inzibati binası istifadəyə verilib
**89** Prokurorluq əməkdaşları Çin Xalq Respublikasında təlimdə olub
**91** Baş prokuror Çində səfərdə olmuş nümayəndə heyətini qəbul edib
**92** Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə tədbir və Bakı Şəhər Prokurorluğunun inzibati binasının yeni korpusunun açılış mərasimi keçirilmişdir
**94** Prokurorluq əməkdaşları Fəxri Xiyabanı ziyarət edib
**95** Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102 illiyi ilə əlaqədar paytaxtın “ECOLEAD” layihəsi çərçivəsində ağacəkmə aksiyası keçirilib
**96** B.V.Əhmədovun Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru təyin edilməsi haqqında
**96** Baş prokuror Kamran Əliyev Bəhruz Əhmədovu Hərbi Prokurorluğun kollektivinə təqdim edib
**97** Azərbaycan Respublikasının Baş Prokurorluğunda prokurorluq orqanlarında görülmüş işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib
**99** Baş prokuror Vyanada işgüzar səfərdə olmuşdur
**101** Baş prokuror BMT Baş Katibinin müavini ilə görüşüb
**102** Baş prokuror Keniyada işgüzar səfərdə olmuşdur
**105** Baş prokuror Türkiyənin Baş Ombudsmanı ilə görüşüb
**106** Baş prokurorluqda dövlət qulluqçularının peşə bayramı qeyd olunub
**107** Baş prokuror Türkiyənin səfiri ilə görüşüb


## GLOBE NETWORK


**109** Bakıda "GlobE Network" çərçivəsində 6-cı plenar iclasın açılış mərasimi keçirilmişdir
**110** Prezident İlham Əliyev "GlobE Network"un altıncı plenar iclasının iştirakçılarına müraciət edib
**111** Bakıda BMT-nin Korrupsiyaya Qarşı Mübarizə üzrə Şəbəkəsinin (GlobE Network) İdarəetmə Komitəsinin Onuncu Görüşü keçirilib
**113** Vyetnam Sosialist Respublikasının Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizdə səfərdə olmuşdur
**115** Baş prokuror korrupsiyaya qarşı beynəlxalq əməkdaşlıq çərçivəsində üç ölkənin nümayəndə heyəti ilə görüş keçirib
**117** Qətər Dövlətinin İnzibati Nəzarət və Şəffaflıq Qurumunun rəhbəri ölkəmizdə səfərdə olmuşdur
**118** Baş Prokuror Kamran Əliyev 3 ölkənin nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirib
**119** BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Korrupsiya və iqtisadi cinayətlər şöbəsinin rəhbəri Azərbaycanda işgüzar səfərdə olmuşdur
**120** Avropa Dövlət Prokurorluğunun Baş prokurorunun müavini Petr Klementin Azərbaycanda səfərdə olmuşdur
**121** Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq genişləndirilir
**122** Bakı şəhərində "GlobE Network"-un Altıncı Plenar İclası keçirilmişdir
**123** GlobE Şəbəkəsinin 6-cı Plenar İclasında vəzifəli şəxslər tərəfindən törədilən ekoloji hüquqpozmalar müzakirə edilib
**124** Konstitusiya və İnsan Hüquqları: GlobE Şəbəkəsinin 6-cı Plenar İclasında müzakirə edilən mövzular
**125** Prokurorluq orqanlarının korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığı genişlənir
**126** Bakıda GlobE Şəbəkəsinin Plenar İclasında əsas müzakirələr mərhələsi
**127** "GlobE Şəbəkəsi, korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın vacib platformasıdır"
**128** Heydər Məmmədov: Bakı, 2026-cı ildə İƏT-ə üzv dövlətlərin anti-korrupsiya qurumlarının yüksək səviyyəli görüşünə ev sahibliyi edəcək
**129** GlobE Şəbəkəsinin Altıncı Plenar İclası Bakı şəhərində uğurla başa çatıb


## PROKURORLUQDA


**130** ADA Universitetinin tələbələri ilə “Gələcəyin hüquqşünasları ilə görüş” adlı tədbir keçirilib
**131** Baş prokurorun müavini və Qarabağ Universitetinin rektoru mühüm tərəfdaşlıq sənədi imzalayıb
**132** Baş Prokurorluqda kibercinayətlərin istintaq metodikası üzrə təlim keçirilib
**133** Prokurorluq əməkdaşları Mir Cəlal Paşayevin yaşadığı ev-muzeyi ziyarət edib
**134** Prokurorluq əməkdaşları növbəti ağacəkmə kampaniyası keçirib
**135** Ədliyyə işçiləri üçün “Korrupsiya hüquqpozmalarına qarşı cinayət-hüquqi mübarizənin xüsusiyyətləri” mövzusunda birgə təlimlər keçirilib
**136** Baş Prokurorluqda həbs qətimkan tədbirinin seçilməsinin əsasları və hüdudlarına dair seminar keçirilib
**137** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Baş Prokurorluq birgə respublika elmi-praktiki konfrans keçirib

# MÜNDƏRİCAT


**138** Azərbaycan Dövlət İqtisad Universiteti və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb
**139** Prokurorluq əməkdaşları "Bakı Marafonu 2025"də iştirak edib
**139** İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Baş Prokurorluqda media subyektləri və gənclərin iştirakı ilə tədbir keçirilib
**141** Baş Prokurorluğun dəstəyi ilə Bakı Dövlət Universitetinin Hüquq fakültəsi tərəfindən Respublika Hüquq Olimpiadası keçirilib
**142** Baş Prokurorluğun idarə rəisi Qarabağ Universitetində tələbələrlə görüşüb
**143** Baş Prokurorluqda gənc hüquqşünaslarla görüş keçirilib
**144** Baş Prokurorluğun idarə rəisi Qarabağ Universitetinin tələbələri üçün mühazirə deyib
**145** "Dövlət qulluğunda etik davranış qaydaları və prinsipləri" mövzusunda təlim keçirilib
**146** Baş Prokurorluqda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi əməkdaşları üçün antikorrupsiya təlimi keçirilib
**147** Baş Prokurorluq və Milli Aviasiya Akademiyası arasında formalaşmış əməkdaşlıq əlaqələri uğurla davam etdirilir
**148** Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən təhsil müəssisələrində korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi ilə bağlı maarifləndirici tədbir keçirilib
**149** Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizənin səmərəliliyinin artırılması məqsədilə təlimlər keçirilib
**150** Baş Prokurorluqda üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi ilə bağlı müzakirələr aparılıb
**151** Gömrük əməkdaşları üçün antikorrupsiya davranış modeli üzrə təlim keçirilib
**152** Baş Prokurorluqda Müdafiə Nazirliyinin işçiləri üçün təlim təşkil edilib
**153** Hərbi prokurorun hərbi qulluqçularla görüşü keçirilib
**154** Hərbi prokuror bayram günləri sərhədlərdə
**154** Dövlət Sərhəd Xidməti Hərbi Prokurorluqla birgə narkomaniyaya qarşı maarifləndirmə tədbirləri keçirib
**155** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə "Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan hüquqpozmalar və onların profilaktikası" mövzusunda maarifləndirmə tədbirləri keçirilib
**155** Naxçıvan Muxtar Respublikasının tabe rayon və şəhər prokurorluqlarında seminarlar keçirilib
**156** Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən orta ümumtəhsil məktəblərində "Ekoloji hüquqi məsuliyyət" mövzusunda açıq dərslər keçirilib
**156** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilakçılğı ilə "Ətraf mühitin mühafizəsinin hüquqi əsasları" mövzusunda maarifləndirici tədbirlər keçirlib
**157** Naxçıvan Muxtar Respublikası Prokurluğunun əməkdaşları Ümummilli Lider Heydər Əliyev Müzeyini ziyarət ediblər
**158** Naxçıvan Muxtar Respublikasının tabe rayon və şəhər prokurorluqlarında seminarlar keçirilib
**158** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda "Açıq Qapı" günü keçirilib
**159** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən Muxtar Respublikanın yerli icra hakimiyyəti orqanlarında "Ümummilli Lider Heydər Əliyev Müstəqil Azərbaycan Konstitusiyasinin Müəllifidir" mövzusunda tədbirlər keçirilmişdir
**160** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə kiberhücumlara qarşı mübarizə və təhlükəsizlik tədbirləri ilə bağlı toplantılar keçirilib
**161** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 23 iyun - Dövlət Qulluqçularının Peşə Bayramı Günü münasibəti ilə tədbir keçirilib
**162** Qarabağ Universitetinin tələbələri və media Nəsimi rayon prokurorluğunda olub
**164** Nəsimi Rayon Prokurorluğunda "Hüquq və Suverenlik: Prokurorluğun Yeni Çağırışları" mövzusunda seminar keçirilib
**165** "Konstitusiya və Suverenlik İli" çərçivəsində Baş Prokurorluq tərəfindən Qəbələdə regional konfrans keçirilib
**167** Qəbələ rayon prokurorluğunda "Açıq Qapı" günü keçirilib
**168** Qəbələ rayon prokurorluğunda "Hüquq və Suverenlik: Prokurorluğun Yeni Çağırışları" mövzusunda seminar keçirilib
**169** Kürdəmir rayon prokurorluğunda "Açıq Qapı" günü keçirilib
**170** Kürdəmir rayon prokurorluğunda "Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun Rolu" mövzusunda seminar keçirilib
**171** İnsan hüquqları aylığı ilə əlaqədar dəyirmi masa keçirildi


## BEYNƏLXALQ ƏLAQƏLƏR


**172** Baş Prokurorluğun əməkdaşı BMT tərəfindən təşkil olunan tədbirdə iştirak edib
**173** Baş Prokurorluğun nümayəndə heyəti Argentinada işgüzar səfərdə olub
**174** Baş Prokurorluğun əməkdaşı beynəlxalq təlimdə iştirak edib
**175** Baş Prokurorluğun nümayəndəsi Moldovanın Kişinyov şəhərində kibercinayətkarlıqla mübarizəyə həsr edilmiş regional seminarda iştirak edib
**176** Prokurorluq əməkdaşları seminarda iştirak edib
**177** Azərbaycan Respublikası Prokurorluğunun nümayəndə heyəti beynəlxalq tədbirdə iştirak edib
**178** Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə Qazaxıstan Respublikası Ali Məhkəmə Şurası yanında Ədalət Akademiyası arasında memorandum imzalanıb
**179** Baş Prokurorluğun nümayəndə heyəti MDB-nin tədbirində iştirak edib
**180** Strasburq şəhərində kibercinayətkarlıq üzrə beynəlxalq konfrans keçirilmişdir
**180** Beynəlxalq Konfransda Azərbaycan Respublikası Prokurorluğunun sosial media ilə iş sahəsində müsbət təcrübələri təqdim olundu
**182** Bakıda kibercinayətkarlıqla mübarizə üzrə beynəlxalq təlim keçirilib
**183** Baş Prokurorluğun idarə rəisi GRECO nümayəndə heyətinin tərkibində Türkiyədə görüşlər keçirib
**184** Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Belarusda keçirilən beynəlxalq elmi-praktiki konfransda iştirak edib


## PROKURORLUQ VƏ CƏMİYYƏT


**185** Mətbuat xidmətinin məlumatı
**191** *Heydər Məmmədov* – Azərbaycanın qlobal dialoqa növbəti töhfəsi: BMT-nin antikorrupsiya təşəbbüsləri Bakının ev sahibliyində
**197** *Firad Əliyev* – Dahinin dühasından doğan müasir Azərbaycan
**200** *Rauf Abdullayev* – Уголовно-правовая борьба с правонарушениями в области трансплантации органов
**202** *Faiq Səfərov* – Konstitusiya və Suverenlik İli: Azərbaycanın gələcəyinə doğru addımlar
**204** *İradə Xəlilova* – Beynəlxalq etika günü


## İKİ HÜQUQŞÜNAS – İKİ FƏRQLİ HÜQUQİ MÖVQE


**208** *Faiq Səfərov - Azərbaycanlıların deportasiyası və Naxçıvan*


## PROKURORLUĞUN VETERANLARI


**213** Xanlar Vəliyevin səlahiyyət müddətinin başa çatması ilə əlaqədar tədbir keçirilib
**214** Prokurorluğun veteranı təbrik edilib
**214** Qulluqda olmanın son yaş həddinə çatmış prokurorluq işçisi ilə görüş keçirilib
**215** Prokurorluğun veteranı Fərman Rzayevin müsahibəsi


## HÜQUQİ AKTLAR


**223** Qanunvericiliyə dəyişikliklər

# Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasları keçirilib




Aprelin 4-də Bakıda, "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasları keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Azərbaycanın energetika naziri Pərviz Şahbazov dedi:

– Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, hörmətli energetika və mənzil tikintisi komissarı cənab Dan Yorgensen, hörmətli nazirlər, əziz qonaqlar, xanımlar və cənablar.

Sizi Cənub Qaz Dəhlizi Məşvərət Şurası nazirlərinin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası nazirlərinin 3-cü iclaslarında salamlamaqdan böyük şərəf hissi duyuram. Bu toplantı həmin çərçivədə enerji təhlükəsizliyi ilə enerji keçidi arasında uzlaşmanı gücləndirmək üçün uğurlu səylərimiz də növbəti mühüm mərhələdən xəbər verir. Mən bu uğura təkan verilməsində qətiyyətli rəhbərliyinə və güclü dəstəyinə görə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə ən dərin təşəkkürümü bildirmək istəyirəm. İndi isə mən böyük məmnunluq hissi ilə Prezident İlham Əliyevi açılış nitqi ilə çıxış etməyə dəvət edirəm.

***

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı

– Sabahınız xeyir olsun, xanımlar və cənablar, əziz qonaqlar.

Mən sizin hamınızı Azərbaycanda salamlayıram. Mən Brüsseldən gəlmiş qonağımızı xüsusi olaraq salamlayıram. Cənab komissar, xoş gəlmisiniz. İlk dəfədir ki, bu tədbirdə iştirak edirsiniz. Lakin hamımız bilirik və mən artıq qeyd etdim ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurası 11-ci dəfədir Bakıda toplaşır. Azərbaycan tərəfindən başlanmış və Avropa Komissiyası tərəfindən dəstəklənmiş bu vacib toplantı enerji təhlükəsizliyi sahəsində yanaşmaların formalaşdırılmasında, həmin məsələlərin həllində və birgə səylərimizin əlaqələndirilməsində mühüm rol oynamışdır. Həmçinin bu gün birgə foto çəkdirdiyimiz zaman söylədim ki, bəlkə də bizə daha çox yer lazım olacaq, çünki komanda genişlənir. Bu isə əməkdaşlığın çox yaxşı təzahürüdür. Vaxt keçdikcə prosesdə iştirak edən ölkələrin və şirkətlərin sayı artır,



onlar ortaq məqsəd ətrafında birləşir. Birinci məqsəd əməkdaşlığın gücləndirilməsidir, çünki əməkdaşlıq olmadan enerji təhlükəsizliyi layihələrinin heç biri mümkün olmazdı.

İkinci məqsəd özləri, öz qonşuları və tərəfdaşları üçün enerji təhlükəsizliyini təmin etməkdir. Hesab edirəm ki, bizi birləşdirən tərəfdaşlığın və əməkdaşlığın çox müsbət əzmi məsuliyyətimizin aydın təzahürüdür. Bu, istehsalçıların, tranzit ölkələrin və istehlakçıların məsuliyyətidir. Əlbəttə ki, bu prosesin üç əsas iştirakçısı arasında maraqların tarazlığı beynəlxalq maliyyə təsisatlarının dəstəyi ilə bizim hekayətimizi və ya hekayətlərimizi uğura çevirdi. Ölkələr, onların hökumətləri, investorlar, şirkətlər, aparıcı maliyyə təsisatları bizim komandamızdır və bu komanda genişlənir. Bu gün heç vaxt görünmədiyi kimi aydındır ki, enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin ayrılmaz hissəsidir. Mən hətta deyərdim ki, bu gün biz, həmçinin sənaye təhlükəsizliyi haqqında danışa bilərik, çünki sənayeni inkişaf etdirmək üçün bizə enerji ehtiyatları, neft-kimya məhsulları, gübrələr lazımdır. Azərbaycan isə xam neftin, təbii qazın, neft məhsullarının, neft-kimya məhsullarının və gübrələrin istehsalçısı və ixracatçısıdır.

Enerji şirkətimiz - Dövlət Neft Şirkəti Azərbaycan daxilində və ondan kənarda həm hasilat, həm nəqlolunma, həm də çatdırılma ilə məşğuldur. Uzun illər ərzində Azərbaycan etibarlı tərəfdaş olub və bundan sonra da olacaq. Avropa Komissiyasının yüksəkrütbəli nümayəndələrinin qeyd etdikləri kimi, Azərbaycan enerji sahəsində etibarlı tərəfdaşdır və Pan-Avropa qaz təchizatçısıdır. Bu, həqiqətdir. Qaz təchizatımızın coğrafiyası genişlənir. Bizim Bakıda keçirilmiş son görüşdən, yəni, 10-cu Məşvərət Şurasından sonra əlavə 5 ölkə təbii qazımızın alıcısına çevrildi. Bu gün Azərbaycanın təbii qazı 12 ölkəyə çatdırılır. Onlardan 10-u Avropa ölkəsidir və 8-i isə Avropa İttifaqının üzvüdür. Avropada qaz təchizatımızın coğrafiyası birmənalı olaraq genişlənəcək, çünki bu gün bəzi Avropa ölkələrinin qazpaylama şəbəkəsinin yaradılmasında artıq iştirak edirik. Onların bəzilərində yoxdur, digərləri isə genişləndirilməlidir və Azərbaycan investor kimi bunu etməyi planlaşdırır. Beləliklə, qaz təchizatımızın coğrafiyası birmənalı olaraq müxtəlif yollarla, o cümlədən interkonnektorlar vasitəsilə genişlənəcək.

Təbii ki, biz mövcud qaz boru kəməri sisteminin genişləndirilməsində birgə səylər haqqında düşünməliyik. Cənub Qaz Dəhlizi hamımız üçün böyük uğur hekayətidir. Bu gün 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi bir çox ölkələrin enerji təhlükəsizliyi üçün əsas arteriyadır. İndi o, tam gücü ilə işləyir. İstər Cənubi Qafqaz Boru Kəməri, istərsə də TANAP və ya TAP - Cənub Qaz Dəhlizinin üç ayrılmaz hissəsi tam dolu işləyir. Biz onları genişləndirməliyik. Əlbəttə ki, bunun üçün bizə maliyyələşmə lazım olacaq. Burada biz vacib bir nöqtəyə gəlib çıxırıq və bu məsələni dəfələrlə qaldırmışıq. Bəlkə faydalı qazıntı layihələrinin maliyyələşdirilməsini dayandırmaq qərarını qəbul etmiş beynəlxalq maliyyə təsisatları, xüsusən də müşahidə etdiyimiz böyük geosiyasi dəyişiklikləri nəzərə alaraq, öz siyasətinə yenidən baxsınlar. Çünki nəql infrastrukturuna və hətta hasilata əlavə sərmayələr qoyulmasa, bu, çox problemli olacaqdır.

Biz nəhəng hasilat və nəqletmə layihələrinin icrasını mümkün etmiş korporativ maliyyələşmə, o cümlədən borca götürülmüş pul vəsaitlərinin kombinasiyasında böyük təcrübəyə malikik. AÇG, "Şahdəniz" və "Abşeron" - bütün bunlar bu gün bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edən neft və qaz yataqlarıdır. Bir neçə ildən sonra bir çox digər neft-qaz yataqlarının da istismarına başlanılacaq. Beləliklə, müqavilələr artıq imzalanıb, işçi proqram təsdiqlənib. Boru kəmərlərinin çəkilməsi, Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft boru kəmərləri və həmçinin Cənub Qaz Dəhlizi – bütün bu işlər qeyd etdiyim kimi, bütün iştirakçılarla əməkdaşlıq sayəsində görülmüşdür. Beləliklə, faydalı qazıntı layihələrinin maliyyələşdirilməsinin dayandırılması siyasəti başlayanda, bu, investorlara, şirkətlərə, ölkələrə müsbət olmayan siqnal göndərir. Bir sözlə, düşünürəm ki, həmin mühüm məqam da, ola bilsin, müzakirə ediləcək.

Ümid edirik ki, Avropada çox geniş yaşıl gündəliyə baxmayaraq, faydalı qazıntı hasilatçıları və ənənəvi yanacaq enerji təhlükəsizliyinin mühüm meyarı kimi yaddan çıxmayacaq və ayrı-seçkiliyə məruz qalmayacaq. Əslində, bu, bizim COP29-dakı mesajımız idi. Azərbaycan qlobal beynəlxalq tədbirə ev sahibliyi etdiyi zaman qeyd olundu ki, faydalı qazıntıları zəngin olan ölkələrlə sərvətləri olmayan ölkələr arasında ayrı-seçkilik və ayırıcı xətlər olmamalıdır.




Əksinə, faydalı qazıntıları zəngin olan və bərpaolunan enerjiyə sərmayə qoyan ölkələr alqışlanmalıdır, onlara hücum çəkilməli deyil.

Beləliklə, düşünürəm ki, əgər belə bir mühüm məsələ öz həllini taparsa, onda hasilatçıların işi asanlaşar. Eyni zamanda, uzunmüddətli müqavilələr prosesi də vacibdir. Çünki hamımız bilirik ki, neft və qaz, eləcə də enerji layihələrinə böyük sərmayələr yatırılmalıdır və siz onları uzun illərdən sonra qaytarırsınız. Yeri gəlmişkən, təbii ki, bu günə qədər biz ölkə kimi Cənub Qaz Dəhlizinə sərmayə qoymuşuq, lakin onlar hələ qayıtmayıb. Biz hələ də bu balansda sıfra çıxmamışıq. Ona görə əmin olmalıyıq ki, gələn bir neçə illər əsas bazarımız olacaq Avropada bizim təbii qaza ehtiyac duyulacaq. Yəni, biz əmin olmalıyıq ki, bunun üçün hələ bir neçə il bazar olacaq. Əgər bizdə belə bir təminat olmasa, onda investorlar və ölkələr sərmayə yatırmayacaqlar. Beləliklə, təbii qazın böyük qıtlığı yaranacaq. Bizim ehtiyatlar isə məlumdur.

Biz bu il yeni yataqlarda, əsasən "Azəri-Çıraq-Günəşli" Dərin Qaz Strukturunda yeni hasilatın başlamasını gözləyirik. Həmçinin düşünürəm ki, "Abşeron" yatağında hasilatın artırılmasına dair razılaşmanın son mərhələsindəyik. Yəni, ikinci fazaya keçid edərək hazırkı 1,5 milyard kubmetrə minimum 3 milyard kubmetr əlavə olunacaq.

Bir sözlə, bütün bunlar mümkündür, lakin dediyim kimi, iki əsas meyar olmalıdır: interkonnektorlar və Cənub Qaz Dəhlizinin genişləndirilməsi. Etibarlı proqnozlaşdırma və etibarlı tərəfdaşlıq da olmalıdır, çünki tərəfdaşlıqda bütün tərəflər etibarlı olmalıdır.

Yaşıl gündəliyə gəldikdə, qeyd etdiyim kimi, biz iki mühüm meyarı bir araya gətirə bildik və istehlakçılarımızın tələbatlarını qarşıladıq.

Yeri gəlmişkən, Azərbaycan və Avropa Komissiyası energetika sahəsində strateji tərəfdaşlıqla bağlı memoranduma imza atdıqdan sonra Avropaya qaz təchizatımız təxminən 60 faiz artdı. Bu memorandum Avropa Komissiyasının Prezidenti və mənim tərəfimdən 2022-ci ilin ortasında imzalandı. Avropaya qaz təchizatımız 2021-ci ildə təxminən 8 milyard kubmetr idi. Ötən il demək olar ki, 13 milyard kubmetr oldu. Yəni, bu, bizim ümumi ixracatımızın təxminən yarısından çoxdur. Bu, 25 milyard kubmetrdir və bundan sonra da artacaq. Bu gün həmin həcm artıq kifayət qədər çoxdur. Yeni yataqları əlavə etmək və mövcud qaz yataqlarında hasilatı artırmaq planlarımızı nəzərə alaraq, biz birmənalı olaraq istehlakçılarımıza daha çox qaz verəcəyik. Bir sözlə, təsəvvür edə bilərik ki, əgər bizə daha çox təbii qaza qənaət etmək imkanı verən yaşıl enerji gündəliyini əlavə etsək, Azərbaycan enerji təhlükəsizliyi baxımından tərəfdaşları üçün daha mühüm rol oynayacaq.

Bu gün Günəş və Külək Enerji stansiyalarına aid sərmayədarlarımızla artıq imzalanmış müqavilələr bizə 2030-cu ilə qədər 6 giqavat günəş və külək enerjisi təmin edəcək. Qeyd etdiyim kimi, nəticədə daxildə bu gün elektrik enerjisinin istehsalında



istifadə etdiyimiz təbii qaza xeyli dərəcə qənaət etmək imkanı yaranacaq və həmin qazı ixraca yönəldəcəyik. Biz öz sərmayələrimizlə fəal şəkildə inkişaf edirik. Ermənistan işğalından azad edilmiş Şərqi Zəngəzur və Qarabağ ərazilərində su elektrik enerjisi potensialına gəldikdə, biz artıq 270 meqavatlıq su elektrik stansiyalarını qurmuşuq. Artıq 30-dan çox kiçik su elektrik stansiyası istismara verilib və maksimum növbəti beş ildə bu rəqəm əlavə 30 kiçik su elektrik stansiyası ilə 500 meqavata çatdırılacaq. Beləliklə, nəticədə 2030-cu ilə qədər 6.5 giqavatlıq enerji potensialı yaranacaq. Sizi, sadəcə, məlumatlandırmaq üçün deyə bilərəm ki, bu gün Azərbaycanın yaradılmış imkanları 8 giqavatdan çoxdur. Beləliklə, biz növbəti beş il ərzində bərpaolunan mənbələrdən enerji istehsalı potensialımızı demək olar ki, iki dəfə artıracağıq.

Əlbəttə, bu gün əminəm ki, Yaşıl Enerji Məşvərət Şurasının iclasında Azərbaycandan Avropaya gedən yaşıl kabel də müzakirə olunacaq. Mənə verilən məlumata görə, həmin layihənin texniki əsaslandırma işləri son mərhələdədir. Beləliklə, tam başa çatandan sonra birmənalı olaraq maliyyələşmə ilə bağlı praktiki danışıqlar başlayacaq. Əlbəttə, biz indidən söyləyə bilərik, ümid edirik ki, yaşıl enerji layihələrinin maliyyələşdirilməsi ilə bağlı məhdudiyyətlər qoyulmayacaq. Lakin düşünürəm ki, Avropa təsisatlarında həmin layihələrin ümumi maraq doğuran layihə səviyyəsinə qədər təkmilləşdirilməsi vacibdir.

Bununla mən əməkdaşlığımızın fəal formatında əldə etdiyimiz nəticələri yüksək dəyərləndirərək, çıxışımı yekunlaşdırıram. Baxmayaraq ki, Bakıda ildə bir dəfə toplaşırıq, lakin bütün il ərzində çoxsaylı tədbirlər, görüşlər, konfranslar, ikitərəfli və çoxtərəfli tərəfdaşlıq formatları olur və bu format işbirliyi üçün əsas yaradır. Məşvərət Şurasında isə hər dəfə olduğu kimi, biz ötən il ərzində gördüyümüz işləri nəzərdən keçiririk və gələcək addımları planlaşdırırıq. Mən hər iki Məşvərət Şurasına uğurlar arzu edirəm.

***

**Pərviz Şahbazov:** Cənab Prezident, biz çox dəyərli şərhlərinizə görə Sizə olduqca minnətdarıq. Məşvərət Şurası həm regional, həm qlobal səviyyədə enerji təhlükəsizliyinin gücləndirilməsi üçün çox önəmli platformaya çevrilmişdir. Bu, Sizin uzaqgörən təşəbbüsünüz əsasında olmuşdur. Həm marşrutları, həm də mənbələri əhatə edən şaxələndirmə ilə bağlı verdiyiniz ardıcıl təlimatlar hazırda yaşıl enerji təşəbbüslərinə çevrilərək, Şuranın rolunu gözəl əməkdaşlığımızın təməl daşına çevirib. Biz davamlı dəstəyinizi yüksək dəyərləndiririk və Sizə səmimi təşəkkürümüzü bildiririk.

İcazənizlə, indi isə mən Məşvərət Şurasında həmsədrliyinə çox mühüm vaxtda başlayan Avropa İttifaqının energetika və mənzil tikintisi komissarı cənab Dan Yorgensenə müraciət edirəm: Biz sizinlə sıx işləməyi səbirsizliklə gözləyirik və sizə mühüm işinizdə uğurlar arzu edirik.

Cənab Yorgensen, söz sizindir.

## Komissar Dan Yorgensenin çıxışı




– Çox sağ olun və icazə verin, çıxışıma cənab Prezidentə təşəkkürümü bildirməklə başlayım. O, nəinki bu gün keçirilən şuraların iclaslarına rəhbərlik edib, o cümlədən Avropa İttifaqı ilə çox sıx dostluq və tərəfdaşlığa şəxsən sadiqliyini göstərib. Bunu yüksək dəyərləndiririk və buna görə Sizə olduqca minnətdaram.

Zati-aliləri, xanımlar və cənablar, mən bu gün burada olmaqdan məmnunam və hamınıza iştirakınıza görə təşəkkürümü bildirmək istəyirəm. Mən son illər ərzində Avropa İttifaqı Komissiyası ilə yaxşı əməkdaşlığına görə nazir Şahbazova xüsusi təşəkkürümü bildirmək istəyirəm.

Üç il əvvəl Rusiyanın Ukraynaya tammiqyaslı müdaxiləsi və enerji ticarətinin onun tərəfindən silaha çevrilməsi enerji bazarımızın əsaslarını tam dəyişdi və Avropanın enerji sistemində böyük dəyişikliyə səbəb oldu. Həmin çətin vaxtlarda Azərbaycan Avropa İttifaqı üçün etibarlı enerji tərəfdaşı kimi öz rolunu gücləndirdi. 2020-ci ildə Azərbaycandan Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya qaz nəql olunmağa başladı.

Bildiyiniz kimi, Prezident Fon der Lyayen iki il öncə buraya gəlmiş və cənab Prezident, Sizinlə enerji sahəsində strateji tərəfdaşlığa imza atmışdır. Azərbaycanla tərəfdaşlığımız və Cənub Qaz Dəhlizi üzrə əməkdaşlığımız qaz təchizatımızı şaxələndirmək və Rusiya qazından asılılığı azaltmaq üçün səylərimizdə əsas yer tuturdu. Biz gələn illərdə gözləyirik ki, Azərbaycandan daxil olacaq qaz xalis sıfra keçidimiz zamanı Avropa İttifaqının enerji sistemində mühüm rol oynayacaq.

Biz bu baxımdan ticarət imkanlarının artırılması üçün göstərilən səyləri alqışlayırıq. Cənub Qaz Dəhlizi Məşvərət Şurası dəhlizin işləməsinə nəzarət etmək, neft və qaz sektorunda metan emissiyalarını aradan qaldırmaq, bərpaolunan enerjidən istifadə etmək və elektrik enerji şəbəkəsini təşviq etmək kimi səylərin mühüm hissəsidir. Lakin işimiz yalnız bu günün çağırışlarının həllindən ibarət deyil.

Biz gələcəyimizə doğru yolu müəyyən edirik. Bu səbəbdən biz Cənubi Qafqaz ilə Avropa İttifaqı arasında yaşıl enerji dəhlizinin qurulması üzərində çalışırıq. Müxtəlif texnologiya və fərqli marşrutlardan istifadə etmək barədə müxtəlif konkret ideyalar var.

Ən perspektivli ideyaların bir araya gətirilməsini və onların lazımi yaşıl enerji dəhlizinə çevrilməsini






müəyyən etmək qalır. Bütün tərəflər yaxşı əməkdaşlıq əzminə və böyük maraqlara malikdirlər. Prezident Fon der Lyayenin qeyd etdiyi kimi, biz bütöv regionun bu layihədən faydalanmasını təmin etmək üçün inklüziv yanaşmanı dəstəkləyirik.

Bu, üçüncü Yaşıl Enerji Məşvərət Şurasında mühüm mövzu olacaq. O, həmçinin ötən il Azərbaycanın COP-da sədrliyi zamanı irəli sürdüyü təşəbbüslərdə irəliləyişi müzakirə etmək fürsəti olacaq. Xüsusi olaraq, mən Qlobal Enerji Saxlama və Elektrik Enerji Şəbəkəsi razılaşmasına istinad edirəm. Burada məqsəd 2030-cu ilə qədər 1500 giqavatlıq enerji saxlama gücünü və 25 milyon kilometrlik elektrik enerjisi şəbəkəsi infrastrukturunu yaratmaqdan ibarətdir. Həmin təşəbbüslər nəticəsində 2030-cu ilə qədər dünya səviyyəsində enerji səmərəliliyini iki dəfə və bərpaolunan enerji həcmini üç dəfə artırmaq kimi qlobal məqsədlər reallaşacaq. Onlar bizi ilhamlandırır, çünki biz Braziliyadakı COP30 ərəfəsində "milli səviyyədə müəyyən edilmiş töhfələr" adlı yeni və daha geniş səviyyəyə hazırlaşırıq.

İcazənizlə, mən 2030-cu ilədək qlobal metan emissiyalarının 30 faizədək azaldılması öhdəliyini götürmüş 160 ölkədən biri olaraq Azərbaycanın ötən il qoşulduğu Qlobal Metan Vədini vurğulamaq istəyirəm. Mən Azərbaycanın COP29-da bu məsələnin daha da qabardılmasına verdiyi töhfəni yüksək qiymətləndirirəm. Bu layihənin həyata keçirilməsi çox əhəmiyyətli olacaqdır. Eyni zamanda, Azərbaycan xüsusilə enerji sektorunda metan emissiyalarının azaldılmasının müsbət təsirləri baxımından qlobal örnəyə çevrilib. Həmçinin Dövlət Neft Şirkətinin – SOCAR-ın Neft və Qaz Metan Tərəfdaşlıq 2.0-a qoşulması ilə Azərbaycan enerji sektorunda metan emissiyalarının əhəmiyyətli dərəcədə azaldılması və Avropa İttifaqının metan normalarına uyğunluğun təmin olunması istiqamətində doğru yoldadır.

Bildiyiniz kimi, metan itkisinə yol verilməməsi iqlim dəyişikliyi təhlükəsinin aradan qaldırılmasında ən səmərəli tədbirlərdən biridir. Bu, həmçinin yerli bazarlar və ixrac üçün mövcud qazın həcmini artırır. Enerji sahəsində strateji tərəfdaşlığımızın mühüm elementi kimi, Avropa İttifaqı bu sahədə inkişafı sürətləndirmək və bizim birgə irəliləyişimizi nümayiş etdirmək üçün innovativ yanaşmaların tətbiqinin davam etdirilməsində maraqlıdır.

Bütün ölkələrimizdə bərpaolunan enerjinin yerli istehsalının inkişafı təbii qaza qənaət etməyə, münasib qiymətə elektrik enerjisinə çıxışı təmin etməyə və sənaye sahəsində rəqabətliliyi artırmağa kömək edə bilər. Xüsusilə Azərbaycana gəlincə, enerji səmərəliliyi və bərpaolunan enerji istiqamətində səylər qarşıdakı illərdə ixrac bazarları üçün daha çox qazı əhəmiyyətli dərəcədə əlçatan edə bilmək potensialına malikdir. Avropa İttifaqı Xəzər dənizində külək enerjisi texnologiyası da daxil olmaqla Azərbaycanın böyük potensialını inkişaf etdirmək üçün onunla əməkdaşlığı gücləndirməyə hazırdır.

Bizə gəlincə, son 5 il ərzində Avropa İttifaqı qanunvericiləri daha iddialı enerji səmərəliliyi və 2030-cu il üçün bərpaolunan enerji hədəfləri də daxil olmaqla, Yaşıl Saziş Gündəliyimizin və Avropa İttifaqının "Repower EU" strategiyasının həyata keçirilməsi üçün bütün yeni tədbirləri tamamlayıb. Yeni Komissiya əsas diqqəti onun həyata keçirilməsinə yönəldəcək. Ötən ay biz Təmiz Sənaye




Sazişini və Əlçatan Enerji Fəaliyyəti Planını təqdim etdik.

Bunlar təmiz keçidi sürətləndirməklə, daha əlaqələndirilmiş enerji birliyi qurmaqla və qaz bazarlarımızı daha ədalətli və rəqabətədavamlı etməklə, bizə evlərimizi və şirkətlərimizi ucuz, təhlükəsiz və dayanıqlı enerji ilə təmin etməyə imkan verəcək.

Biz qazı təkcə Avropaya yox, dünyaya çatdırmaq istəyirik. 2030-cu ilin hədəflərinə çatmaq üçün sürəti artırdıqca söhbət təkcə iqlim fəaliyyətindən yox, iqtisadi imkanlardan, enerji təhlükəsizliyindən və əlçatanlıqdan gedir.

Əminəm ki, insanlarımızı irəli aparsaq, onlara sərmayə yatırsaq və onların ədalətli keçiddə iştirakına nail olsaq, biz tarix yaza və gələcəyimizi təmin edə bilərik.

Yekunda, Zati-aliləri, nazirlər, səfirlər, xanımlar və cənablar, vətəndaşlarımız üçün enerji təhlükəsizliyini təmin etmək və gələcəyimiz naminə enerji keçidini irəli aparmaq üçün biz bir-birimizlə güclü enerji tərəfdaşlıqları yaratmalıyıq. Avropa İttifaqı işimizi sürətləndirmək, sənaye bazalarımızı gücləndirmək və 2050-ci ilə qədər iqtisadiyyatlarımızı iqlim neytrallığı istiqamətində inkişaf etdirmək üçün Azərbaycanla və digər beynəlxalq tərəfdaşlarla birlikdə işləməyə ümid edir.

Gəlin, enerji təhlükəsizliyimizi birlikdə gücləndirək, bərpaolunan enerji resurslarına investisiyaları yatıraq və bazarlar arasında ticarəti təşviq edək. Zati-aliləri, bu gün bizi qəbul etdiyinizə və fikir mübadiləsinin aparılmasına şərait yaratdığınıza görə Sizə bir daha təşəkkürümü bildirirəm. Ümid edirəm ki, bu gün hamımız üçün çox maraqlı və ilhamlandırıcı bir gün olacaq.

***

**Pərviz Şahbazov:** Cənab Yorgensen, mənalı çıxışınıza görə təşəkkür edirik. Ümid edirik ki, sizin həmsədrliyinizlə Azərbaycan və Avropa İttifaqı arasında enerji dialoqunda yaxşı nəticələr əldə olacaq.

Bununla da açılış sessiyamız başa çatır.

Cənab Prezident, bu gün bizimlə olduğunuza görə çox sağ olun.

***

Qeyd edək ki, toplantıya Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 24 ölkə, 7 beynəlxalq maliyyə institutu və 42 enerji şirkəti qatılıb. Tədbirdə nazirlər, nazir müavinləri və digər yüksəksəviyyəli nümayəndələr iştirak ediblər.

Toplantı açılış sessiyasından sonra işini nazirlər sessiyası, "Cənub Qaz Dəhlizi sessiyası: Cənub Qaz Dəhlizinin uğurlu istismarı, inkişafında tərəqqi və növbəti addımlar" və "Yaşıl enerji layihələri və yaşıl enerji dəhlizləri" üzrə plenar sessiyalarla davam etdirib.

Həmçinin Məşvərət Şurası çərçivəsində Azərbaycan, Türkiyə, Gürcüstan və Bolqarıstan arasında yaşıl enerjinin ötürülməsi və ticarəti üzrə II Nazirlər Görüşü, Xəzər-Qara Dəniz-Avropa Yaşıl Enerji Dəhlizi üzrə qeyri-rəsmi Rəhbər Komitə/Nazirlər Görüşü və Azərbaycan ilə Avropa İttifaqı arasında dənizdə külək enerjisinin inkişafı üzrə dəyirmi masa keçirilib.

Tədbir çərçivəsində enerji sahəsində əməkdaşlıq üzrə sənədlər imzalanıb.

Xatırladaq ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlər toplantısı 2015-ci ilin fevral ayından etibarən keçirilir.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyəyə işgüzar səfər edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 4-cü Antalya Diplomatiya Forumunda iştirak etmək üçün aprelin 10-da Türkiyədə işgüzar səfərdə olub.

Antalya Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Antalya şəhərinin valisi Hulusi Şahin və digər rəsmi şəxslər qarşılayıblar.

***






Aprelin 11-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü keçirilib.

Görüşdə Azərbaycanla Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunub, əlaqələrimizin perspektivləri müzakirə edilib.

Dövlətimizin başçısı Antalya Diplomatiya Forumuna dəvətə görə Türkiyə Prezidentinə təşəkkürünü bildirərək, bu tədbirin beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün dünyanın aparıcı platformalarından biri olduğunu deyib.

Söhbət zamanı dövlət başçıları ikitərəfli münasibətlər, Cənubi Qafqaz və Yaxın Şərq bölgələrində vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 11-də Antalyada Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ilə görüşü olub.

Söhbət zamanı Prezident İlham Əliyevlə Ersin Tatar arasında ölkəmizdə və beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşlər, həmçinin ötən il onun Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə toplantısında iştirakı məmnunluqla xatırlandı.

Prezident İlham Əliyev Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qatılmasını qeyd etdi.

Ersin Tatar dövlətimizin başçısına Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi həmrəyliyə və dəstəyə, həmçinin bir neçə gün əvvəl ADA Universitetində keçirilən beynəlxalq forumda dediyi sözlərə görə minnətdarlığını ifadə etdi.

Söhbət zamanı müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsi və bir sıra sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu.

***





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 11-də Antalyada Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşü olub.

Prezident İlham Əliyev Suriyada baş vermiş dəyişikliklərlə əlaqədar məmnunluğunu bildirərək, bununla bağlı Əhməd Əl Şaraanı təbrik etdi.

Dövlətimizin başçısı dedi ki, dəyişikliklərdən sonra Azərbaycan nümayəndə heyəti ən qısa müddət ərzində bu ölkəyə göndərilib və Əsəd rejiminin siyasəti səbəbindən uzun zaman fəaliyyət göstərməyən Azərbaycanın Suriyadakı səfirliyi fəaliyyətini bərpa edib.

Prezident İlham Əliyev Suriyada sabitliyin möhkəmləndirilməsi üçün zəruri olan bərpa prosesində Azərbaycanın iştirak etməyə hazır olduğunu qeyd etdi.

Əhməd Əl Şaraa Azərbaycan tərəfinin dəstəyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, gələcəkdə energetika, infrastruktur, təhlükəsizlik sahələrində Azərbaycanın Suriyaya dəstək göstərməsinin önəmini qeyd etdi.

Suriyada sabitliyin bərpası üçün əlindən gələni etdiyini deyən Əhməd Əl Şaraa bununla belə xarici amillərin bu məsələyə təsirindən narahatlığını vurğuladı.

Görüşdə, eyni zamanda, Azərbaycan-Suriya-Türkiyə üçtərəfli əməkdaşlıq formatının inkişafı məsələsinə toxunuldu.

Söhbət zamanı ölkələrimiz arasında yüksəksəviyyəli rəsmi nümayəndə heyətlərinin və biznes dairələrinin təmsilçilərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsi ilə bağlı razılıq əldə olundu.

Dövlətimizin başçısı Əhməd Əl Şaraanı ölkəmizə səfərə dəvət etdi.

Dəvət minnətdarlıqla qəbul olundu.

***







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Antalyada Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşüb.

Görüşdə Azərbaycanla Gürcüstan arasında dostluğun və strateji tərəfdaşlığın tarixi xarakter daşıdığı qeyd olundu.

Bu ilin yanvarında Azərbaycana işgüzar səfərini və səfər çərçivəsində Prezident İlham Əliyevlə görüşlərini məmnunluqla xatırlayan Gürcüstanın Baş naziri həmin görüşlərdə ölkələrimiz arasında iqtisadi-ticari, mədəni və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinə, bununla bağlı aidiyyəti dövlət qurumlarına verilən tapşırıqların icrası istiqamətində görülən işlərə toxundu.

İrakli Kobaxidze Prezident İlham Əliyevin bir neçə gün əvvəl ADA Universitetində beynəlxalq forumda çıxışı zamanı ikitərəfli əlaqələrimizə dair söylədiyi fikirlərin Gürcüstanda çox böyük maraqla qarşılandığını bildirdi.

Dövlətimizin başçısı hazırda dünyada cərəyan edən təlatümlü şəraitdə Azərbaycan və Gürcüstanın birliyinin, həmrəyliyinin vacibliyinə toxunaraq Cənubi Qafqaz bölgəsində regional məsələlərin məhz region ölkələri tərəfindən həll olunmasının vacibliyini qeyd etdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparıldı.

# İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Çin Xalq Respublikasına dövlət səfərinə gəlmişdir.

Pekin Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Çin Xalq Respublikasının nəqliyyat naziri Liu Vey və digər rəsmi şəxslər qarşılayıblar.

***



Aprelin 23-də Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə geniş tərkibdə görüşü olub.

Sədr Si Cinpin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafını və əldə etdiyi nailiyyətləri məmnunluqla qeyd etdi.

Söhbət zamanı ötən il Astanada keçirilmiş görüş əsnasında ölkələrimiz arasında strateji tərəfdaşlığa dair qəbul olunan Birgə Bəyannamə məmnunluqla xatırlandı. Bu gün dövlət başçıları tərəfindən im-





zalanacaq Birgə Bəyanatda isə hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinin daha bir pillə yüksələcəyi qeyd edildi.

Ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT, Şanxay Əməkdaşlıq Təşkilatı və digər təsisatlar çərçivəsində əməkdaşlıq məsələlərinə və qarşılıqlı dəstəklərinə toxunuldu.

Çin Xalq Respublikasının Sədri Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsinə (AQEM) sədrliyini məmnunluqla vurğulayaraq, bu xüsusda əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirdi.

Görüşdə Azərbaycanın və Çinin daim bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədikləri məmnunluqla vurğulandı. Dövlətimizin başçısı "Vahid Çin" siyasətini həmişə dəstəklədiyini və Tayvanda keçirilmiş seçkiləri birmənalı şəkildə pislədiyini qeyd etdi. Azərbaycan və Çinin terrorizm, ekstremizm və separatizmə qarşı birgə səylərlə mübarizəsi qeyd olundu.

Si Cinpin COP29-un Azərbaycanda uğurla keçirilməsi və Qlobal Cənubun maraqlarının təmsil olunması baxımından Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev buna görə təşəkkürünü bildirərək, COP29 çərçivəsində qlobal iqlim gündəliyi üçün vacib qərarların qəbul edildiyini xatırladı.

Dövlətimizin başçısı öz növbəsində Si Cinpinin müdrik rəhbərliyi ilə Çinin inkişafına toxundu.

Ölkələrimiz arasında bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün böyük imkanların olduğu bildirildi, artıq Azərbaycanın müvafiq qurumları ilə Çin şirkətləri arasında bu sahədə çoxsaylı sənədlərin imzalandığı və praktiki əməkdaşlığın həyata keçirildiyi vurğulandı.

Görüşdə Hökumətlərarası Komissiyanın sonuncu iclasına toxunuldu, humanitar və mədəni sahələrdə əməkdaşlıq məsələləri qeyd olundu.

Ticarət dövriyyəmizin son dövrlərdə 20 faizdən çox artması müsbət qiymətləndirildi.

Çin Xalq Respublikasının Sədri "Bir kəmər, bir yol" layihəsini ilk dəstəkləyən ölkələrdən biri Azərbaycanın olduğunu məmnunluqla xatırladı. Bu çərçivədə ölkələrimiz arasında əməkdaşlıq məsələlərinin perspektivləri müzakirə olundu.

Son dövrlərdə Orta Dəhliz vasitəsilə Çindən Avropaya gedən yüklərin həcmində artım dinamikası məmnunluqla qeyd edildi və bu istiqamətdə əməkdaşlıq üçün yaxşı imkanların olduğu vurğulandı.

Strateji tərəfdaşlığa dair Birgə Bəyanatda qeyd edildiyi kimi, Azərbaycanın Qlobal Təhlükəsizlik, Qlobal İnkişaf və Qlobal Sivilizasiyalar, həmçinin bəşəriyyətin vahid taleyi kimi Çinin təşəbbüslərini dəstəklədiyi bildirildi, bununla bağlı əməkdaşlıq məsələlərinə toxunuldu.

Si Cinpin Prezident İlham Əliyevi Şanxay Əməkdaşlıq Təşkilatının Çində keçiriləcək Zirvə toplantısına və bu çərçivədə təşkil olunacaq bir sıra təntənəli tədbirlərə dəvət etdi.

Dövlətimizin başçısı dəvəti məmnunluqla qəbul etdi.





Aprelin 23-də Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin iştirakı ilə Azərbaycan-Çin sənədlərinin imzalanması mərasimi olub.

Əvvəlcə Prezident İlham Əliyev və Sədr Si Cinpin "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ı imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası











Hökuməti arasında ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"i və "Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi ilə Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyi arasında humanitar minatəmizləmə sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin xarici işlər naziri Van İ imzaladılar.

"Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Müqavilə"ni Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Çinin xarici işlər naziri Van İ imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Çinin İnkişaf üzrə Beynəlxalq Əməkdaşlıq Agentliyinin direktoru Çen Siadon imzaladılar.

"Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Elm və Texnologiya Nazirliyi arasında elm və texnologiya sahələrində əməkdaşlıq haqqında Protokol"u Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin elm və texnologiya naziri Yin Hecun imzaladılar.

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Çin Xalq Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin ədliyyə naziri Xı Ron imzaladılar.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında 2025-2029-cu illər üzrə mədəni əməkdaşlıq haqqında Protokol"u Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin mədəniyyət və turizm naziri Sun Yeli imzaladılar.

"Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi ilə Çin Xalq Respublikasının Milli Əqli Mülkiyyət



Administrasiyası arasında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin Milli Əqli Mülkiyyət Administrasiyasının rəhbəri Şen Çanyu imzaladılar.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Çin Milli Kosmik İdarəsi (CNSA) arasında kosmosda əməkdaşlıq və kosmik fəzadan dinc məqsədlər üçün istifadə haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Çin Milli Kosmik İdarəsinin rəhbəri Şan Conde imzaladılar.

"Azərbaycan Respublikasının Dövlət Neft Fondu ilə Çinin İnvestisiya Korporasiyası arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Dövlət Neft Fondunun İcraçı direktoru İsrafil Məmmədov və Çinin İnvestisiya Korporasiyasının sədri və icraçı direktoru Can Çinson imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında "Bir kəmər, bir yol" təşəbbüsünün birgə təşviqi üzrə Əməkdaşlıq Planı"nı Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Çinin Milli İnkişaf və İslahat Komissiyasının sədri Cen Şancye imzaladılar.

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Çin Xalq Respublikasının Milli İnkişaf və İslahat Komissiyası arasında yaşıl və aşağı karbonlu inkişaf əməkdaşlığına dair Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin Milli İnkişaf və İslahat Komissiyasının sədri Cen Şancye imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Sənaye və İnformasiya Texnologiyaları Nazirliyi arasında sənaye sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Çinin sənaye və informasiya texnologiyaları naziri Li Lıçen imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında beynəlxalq multimodal daşımalar haqqında Saziş"i Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Çinin nəqliyyat naziri Liu Vey imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Kommersiya Nazirliyi arasında maneəsiz ticarət üzrə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsinə dair Anlaşma Memorandumu"nu və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Kommersiya Nazirliyi arasında rəqəmsal iqtisadiyyatda investisiya əməkdaşlığının gücləndirilməsi haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Çinin kommersiya naziri Van Ventao imzaladılar.

"Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə Sinxua İnformasiya Agentliyi arasında xəbər mübadiləsi və əməkdaşlıq haqqında müqavilə"ni Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov və Çinin Sinxua İnformasiya Agentliyinin prezidenti Fu Xua imzaladılar.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Çin Media Qrupu arasında Əməkdaşlıq Sazişi"ni Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov və Çin Media Qrupunun prezidenti Şen Haysion imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Milli Məlumat Administrasiyası arasında rəqəmsal iqtisadiyyat üzrə əməkdaşlığın gücləndirilməsinə dair Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Çinin Milli Məlumat Administrasiyasının rəhbəri Lyu Lyehon imzaladılar.

"Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri ilə Çin Xalq Respublikasının Sincan-Uyğur Muxtar Rayonunun Urumçi şəhəri arasında qardaşlaşmış şəhər münasibətlərinin qurulmasına dair Niyyət Məktubu"nu Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov və Çinin Urumçi şəhərinin meri Yakub Paydulla imzaladılar.

# Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibinin Azərbaycana səfəri







Azərbaycana dövlət səfərinə gələn Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın mayın 7-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.





Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamı və xanımı No Fon Lini qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibinə raport verdi.

Vyetnam Sosialist Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.





Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın qarşısından keçdi.

Sonra rəsmi foto çəkdirildi.

***

Mayın 7-də Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın iştirakı ilə mübadiləsi mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat"ı qəbul etdilər.



"Azərbaycan Respublikasının Energetika Nazirliyi









ilə Vyetnam Sosialist Respublikasının Sənaye və Ticarət Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Vyetnamın sənaye və ticarət nazirinin müavini Nguyen Hoang Long mübadilə etdilər.

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Milli Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın müdafiə naziri Zakir Həsənov və Vyetnamın milli müdafiə naziri Phan Van Giang mübadilə etdilər.



"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Ədliyyə Nazirliyi arasında 2025-2027-ci illər üçün Əməkdaşlıq Proqramı"nı Azərbaycanın ədliyyə naziri Fərid Əhmədov və Vyetnamın ədliyyə naziri Nguyen Hai Ninh mübadilə etdilər.

"Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) ilə Vyetnam Milli Sənaye – Enerji Qrupu ("Petro-Vietnam") arasında Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Petro-Vietnam" Şirkətinin Müşahidə Şurasının sədri Le Mahn Hung mübadilə etdilər.

"SOCAR Trading Singapore PTE LTD" ilə "Binh Son Refining and Petrochemical JSC" arasında Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Binh Son Refining" Şirkətinin Müşahidə Şurasının sədri Bui Ngoc Duong mübadilə etdilər.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Elm və Texnologiya Nazirliyi arasında elm, texnologiya, innovasiya və rəqəmsal inkişaf sahələrində Anlaşma Memorandumu"nu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Vyetnamın elm və texnologiya naziri Nguyen Manh Hung mübadilə etdilər.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Mədəniyyət, İdman və Turizm Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu

Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və Vyetnamın mədəniyyət, idman və turizm naziri Nguyen Van Hung mübadilə etdilər.

Səfər çərçivəsində, həmçinin "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi ilə Vyetnam Dövlət Qeydiyyatı və Arxiv İdarəsi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Dövlət İnformasiya Agentliyi ilə Vyetnam İnformasiya Agentliyi arasında əməkdaşlıq Sazişi" və "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Vyetnam Sosialist Respublikasının Milli Sahibkarlıq Assosiasiyası (VİNEN) arasında Birgə Biznes Şurasının yaradılması haqqında Anlaşma Memorandumu" imzalanıb.

***

Mayın 7-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın və xanımı No Fon Linin şərəfinə dövlət ziyafəti verilib.

Zifayətdə Azərbaycan və Vyetnam musiqilərindən ibarət konsert proqramı təqdim olunub.







# İlham Əliyev Şuşa, Xocalı və Ağdama səfər çərçivəsində bir neçə açılışlarda iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Şuşa rayonunun Daşaltı kənd məscidinin açılışında iştirak ediblər.





Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov və "PMD Projects" şirkətinin direktoru Nəriman Topçibaşev dövlətimizin başçısına və birinci xanıma görülmüş işlər barədə məlumat verdilər.

Daşaltı kənd məscidinin təməli 2021-ci ilin noyabrında Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Məscid kəndin mərkəzində milli memarlıq üslubunda inşa edilib. İkiminarəli məscid ümumi memarlıq kompozisiyası, planlaşdırma və bədii-dekorativ xüsusiyyətlərinə görə Qarabağ memarlıq məktəbinin ənənələrinə uyğun inşa olunub. Hündürlüyü 22,5 metr olan minarələr layihələndirilərkən Yuxarı Gövhər Ağa məscidinin minarələrinin formasından istifadə olunub. İkimərtəbəli məsciddə eyni vaxtda 150-dən çox insan ibadət edə biləcək.

Daşaltı kənd məscidinin inşası Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərimizdə maddi-mədəniyyət abidələrimizin, dini ocaqlarımızın bərpası və yenilərinin tikilməsi ilə bağlı verdiyi tapşırıqlara uyğun həyata keçirilib. İşğal dövründə dağıdılan məscidlərimizin bərpası, yeni dini ocaqların inşası Azərbaycan dövlətinin xalqımızın milli-mənəvi dəyərlərinə, mədəni və tarixi zənginliyinə verdiyi qiymətin göstəricisidir.









Dövlətimizin başçısına və birinci xanıma "Daşaltı kəndinin yenidən qurulması layihəsi" çərçivəsində görüləcək işlər barədə də məlumat verildi. Bu layihə yerli memarlıq irsinə sadiqlik, ekoloji davamlılıq və müasir turizm infrastrukturu ilə kənd həyatını birləşdirir. Ümumi sahəsi 65 hektara yaxın olan Daşaltı kəndində 80 otaqlı 5 mərtəbəli hotel binası, kotteclər, ticarət və ictimai obyektlər, o cümlədən, informasiya mərkəzi, sərgi binası, emalatxana inşa ediləcək. Layihəyə əsasən təbiət və tarixlə vəhdət təşkil edən, geniş turizm imkanları olan kənd məkanının yaradılması nəzərdə tutulur.

Daşaltı kəndinin rekreasiya zonası təbiətə minimal müdaxilə prinsipi ilə layihələndirilib və təbiətsevərlərin ətraf mühitlə daha sıx əlaqə qurmasına imkan yaradacaq. Layihə müxtəlif yaş qrupları və maraqlara uyğun fəaliyyətləri özündə birləşdirir, həmçinin funksionallıq, sakitlik və macəra arasında tarazlıq yaradaraq, nadir istirahət təcrübəsi təqdim edir.

***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin "Xocalı" yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 3200 KVA gücündə "Xocalı" yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi Xocalı rayonu ərazisində inşa edilmiş yeni yaşayış komplekslərinin, kənd təsərrüfatı və turizm obyektlərinin, eləcə də sosial-iqtisadi təyinatlı müxtəlif infrastrukturun dayanıqlı, etibarlı və fasiləsiz elektrik enerjisi təminatını həyata keçirmək məqsədi daşıyır.

Yarımstansiyanın elektrik təchizatı üçün "Xankəndi-1" və "Əsgəran" yarımstansiyalarından müvafiq olaraq elektrik verilişi xətləri çəkilib. Tikintisi aparılan 35 kV-luq elektrik verilişi xətti vasitəsilə bu yarımstansiya "Ağdam-2" yarımstansiyası ilə əlaqələndiriləcək ki, bununla da Ağdam-Əsgəran-Xocalı-Xankəndi şəhərləri arasında dairəvi elektrik təchizatı sxemi yaradılacaq.

Rəqəmsal İdarəetmə Mərkəzi vasitəsilə isə şəbəkələrin cari vəziyyətinə dair bütün məlumatlar mərkəzləşdirilmiş şəkildə toplanılır və emal olunur, avadanlıqlar məsafədən idarə edilir və real vaxtda







monitorinqi rəqəmsal sistemlər vasitəsilə həyata keçirilir. Yarımstansiya bu məqsədlə yeni nəsil rəqəmsal texnologiyalar və idarəetmə avadanlıqları ilə təchiz edilib.

Bu Mərkəz şəbəkənin etibarlı istismarını dəstəkləməklə yanaşı, elektrik enerjisinin ötürülməsi zamanı itkilərin və ümumi istismar xərclərinin azaldılmasına da şərait yaradır. Yarımstansiyadan qidalanan istehlakçılara elektrik enerjisi verilişində yaranan fasilələr barədə Mərkəz vasitəsilə real vaxt rejimində əvvəlcədən məlumat ötürülmə imkanı yaradılıb. Bərpaolunan enerji mənbələrinin elektrik şəbəkələrinə inteqrasiyası prosesi Rəqəmsal İdarəetmə Mərkəzi tərəfindən mərkəzləşdirilmiş şəkildə idarə olunduğundan enerji təchizatında fasilələrin yaranma riski minimuma endirilib. Mərkəz alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiyanın işinin multifunksional rejimdə qurulmasını, cihaz və avadanlıqların bir-biri ilə koordinasiyasını tam təmin edir.

Rəqəmsal İdarəetmə Mərkəzində 52 kVt gücündə Günəş panelləri də quraşdırılıb və istehsal olunan enerjinin şəbəkəyə ötürülməsi təmin edilib, ərazisində elektromobillər üçün sürətli enerjidoldurma cihazları quraşdırılıb.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışında iştirak edib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Rövşən Rüstəmov dövlətimizin başçısına əvvəlcə “Bərdə-Ağdam dəmir yolu xətti” layihəsi, Bərdə-Ağdam-Xankəndi dəmir yolunun tikintisi, Xankəndi dəmir yolu və avtovağzal kompleksi barədə məlumat verdilər.

Qeyd edildi ki, Ağdamın müasir şəhər statusuna uyğun inkişafına xidmət edən strateji infrastruktur layihəsi olan Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin








təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Dəmir yolu vağzalı gündəlik 800-1000 nəfər sərnişinin daşınmasına imkan verəcək. Avtovağzal isə gündəlik 1300-1500 nəfər sərnişinə xidmət edəcək. Kompleks vahid nəqliyyat qovşağı kimi fəaliyyət göstərəcək.

Ərazisi 8 hektara yaxın olan bu infrastruktur obyektində bütün zəruri otaqlar, həmçinin gözləmə zalları, bilet kassaları, kitabxana, mağazalar, əyləncə zonaları, restoran və istirahət guşələri yaradılıb.

Sərnişinlərin həm qatar perronuna, həm də avtobuslar üçün nəzərdə tutulmuş dayanacaqlara rahat keçidi təmin olunub.

Kompleksin ərazisində, həmçinin müxtəlif növ nəqliyyat vasitələrinin servis binaları və sərnişin platforması tikilib. Ərazidə fərdi, orta və iritutumlu nəqliyyat vasitələri üçün yerüstü avtodayanacaqlar, şəhərlərarası və rayondaxili marşrutlar üzrə avtobuslar üçün perronlar, velosiped dayanacaqları, park və elektromobillər üçün elektrik doldurma məntəqəsi də yaradılıb.

Sonra Bərdə-Ağdam dəmir yolu xətti ilə ilk rəmzi sərnişin qatarı yola salındı.

Qeyd edək ki, işğaldan azad olunmuş rayonlarımızda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin tərkib hissəsi kimi bu ərazilərimizdə mühüm yol-nəqliyyat layihələrinin icrasına da xüsusi diqqət yetirilir. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi bölgədə ictimai nəqliyyatın əlçatanlığını artırmaqla yanaşı,






rayonun sosial-iqtisadi dirçəlişinə və regionlararası əlaqələrin genişlənməsinə mühüm töhfə verəcək, öz ata-baba yurdlarına qayıdan soydaşlarımızın digər şəhər və rayonlara rahat şəkildə səfər etməsində böyük rol oynayacaq, ümumilikdə Azərbaycanın nəqliyyat potensialının genişlənməsinə xidmət edəcək. Eyni zamanda, bu cür mühüm infrastruktur layihəsinin həyata keçirilməsi Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşən ölkəmizdə nəqliyyat sahəsində görülən işlərin ardıcıl və yüksək keyfiyyətlə davam etdiyinin bariz nümunəsidir.






# İlham Əliyev Albaniyada keçirilən “Avropa Siyasi Birliyi” 6-cı Zirvə toplantısında iştirak edib

16 may 2025-ci il tarixində Albaniyanın paytaxtı Tirana şəhərində “Avropa Siyasi Birliyi” 6-cı Zirvə toplantısının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Albaniya Respublikasının Baş naziri Edi Rama Azərbaycan Prezidenti İlham Əliyevi, Zirvə toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını qarşıladı.







Toplantı iştirakçıları birgə foto çəkdirdilər.

Builki Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirlər.

Tədbirdə innovasiya, enerji və sənaye davamlılığına keçid yolu ilə rəqabətqabiliyyətli və iqtisadi təhlükəsizlik, miqrasiya, Avropanın yeni dünya kontekstində lider mövqe tutması kimi mövzular müzakirə olunur.

Qeyd edək ki, “Avropa Siyasi Birliyi” təhlükəsizlik, iqtisadi sabitlik və demokratik idarəetmə kimi sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük


















ölkələr arasında siyasi və iqtisadi koordinasiyanı təşviq etməyə yönəlmiş hökumətlərarası platformadır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.

# İlham Əliyevin Macarıstana işgüzar səfəri






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə mayın 20-də Macarıstana işgüzar səfərə gəlib.

Paytaxt Budapeştin Ferents List adına Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Macarıstanın Avropa İttifaqı məsələləri üzrə naziri Yanoş Boka və digər rəsmi şəxslər qarşıladılar.

***



Mayın 20-də Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə geniş tərkibdə görüşü olub.

Viktor Orban həm Macarıstana işgüzar səfər etməsinə və səfər çərçivəsində keçirilən ikitərəfli görüşlərə, həm də Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasında iştiraka dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Baş nazir vurğuladı ki, ölkəsinin Türk Dövlətləri Təşkilatında müşahidəçi dövlət olaraq bu tədbirə ev sahibliyi etməsi Macarıstanın təşkilat çərçivəsində əməkdaşlığa sadiq olduğuna böyük əhəmiyyət verməsinin növbəti göstəricisidir.





İkitərəfli əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etməsindən məmnunluğunu bildirən Viktor Orban Macarıstan iqtisadiyyatının çətin vaxtlarında Azərbaycanın dost ölkə olaraq göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini dedi.

Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin olduğunu vurğulayaraq, mütəmadi qarşılıqlı səfərlərin həyata keçirildiyini qeyd etdi.

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasının keçirilməsini vacib bir addım kimi qiymətləndirdi. Azərbaycanın təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünün Şuşa şəhərində keçirildiyini xatırladan və bunun artıq ənənəyə çevrildiyini deyən dövlətimizin başçısı ikinci bu cür tədbirin müşahidəçi dövlət olaraq Macarıstanda keçirilməsini məmnunluqla vurğuladı.

Söhbət zamanı Azərbaycanla Macarıstan arasında sıx siyasi dialoqun mövcud olduğu, mütəmadi şəkildə məsləhətləşmələrin aparıldığı və beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birini dəstəklədiyi qeyd edildi. Azərbaycanın və Macarıstanın beynəlxalq səviyyədə öz ölkələrinin milli maraqları əsasında müstəqil siyasət aparan dövlətlər olduqları vurğulandı. Cəbrayılın Soltanlı kəndinin, həmçinin məktəb tikintisi layihəsinə görə Macarıstana təşəkkür bildirildi.

Humanitar sahədə uğurlu əməkdaşlığa toxunuldu, azərbaycanlı tələbələrin Macarıstanda təhsil almaları və onlara təhsil təqaüdlərinin ayrıldığı qeyd edildi.

Söhbət zamanı enerji, investisiyalar, əczaçılıq, qida sənayesi və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu.

***



Mayın 21-də Budapeştdə Macarıstanın Baş naziri Viktor Orbanın adından Türk Dövlətləri Təşkilatının dövlət və hökumət başçılarının şərəfinə rəsmi lanç verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.






Mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Bəyannamə imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev tərəfindən imzalanmış Bəyannamə 71 bənddən ibarətdir.

Türk xalqlarının tarix boyu dünya sivilizasiyasına mühüm töhfələrini, o cümlədən Avropa və Asiyanın mədəni və siyasi cəhətdən formalaşmasında davamlı irsini, Türk dövlətlərinin dünyada müasir siyasi, iqtisadi və sosial tərəqqiyə, o cümlədən regional və qlobal sülh və təhlükəsizliyə təsir göstərməkdə mühüm rolunu vurğulayan dövlət başçıları TDT-nin təşkilatın institusional əsasını qoyan tarixi Naxçıvan Sazişinin prinsiplərinə, məqsədlərinə və ruhuna sarsılmaz sadiqliyini bir daha təsdiqləyiblər.

Türk dövlətlərinin regionda və onun hüdudlarından kənarda rolunu artıran siyasi, iqtisadi, ekoloji, sosial və mədəni nailiyyətləri təqdir edən prezidentlər “Türk Dünyası Xartiyası”nı türk xalqlarının ortaq mədəniyyətinin, adət-ənənələrinin, dilinin və tarixinin əsas ifadəsi və onların ortaq türk kimliyinin möhkəmləndirilməsi üçün birləşdirici çərçivə kimi tanıyıblar.

Qırğız Respublikasının sədrliyinin və Macarıstanın TDT-yə üzv dövlətlər arasında çoxşaxəli əməkdaşlığın daha da gücləndirilməsinə olan əzminin yüksək qiymətləndirildiyi Bəyannamədə müşahidəçi ölkə Macarıstan tərəfindən ilk dəfə keçirilən TDT-nin qeyri-rəsmi Zirvə görüşünə verilən böyük dəyər xüsusi vurğulanır.

Tərəflər Türk dövlətləri arasındakı böyük potensialdan və imkanlardan istifadə edərək, bütün sahələrdə həmrəyliyi, əməkdaşlığı və koordinasiyanı daha da gücləndirmək əzmində olduqlarını bildirir, Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyətinin müşahidəçi qismində təşkilatın işinə dəyərli töhfələrini alqışlayırlar. Eyni zamanda, Kipr məsələsinin danışıqlar yolu ilə, qarşılıqlı məqbul və həyat qabiliyyətli həllinə nail olunmasının zəruriliyi qeyd edilir.

Üzv dövlətlərin birliyini və həmrəyliyini pozmağa yönəlmiş hər hansı hərəkət və təhdidlərin qarşısının alınmasının vacibliyi diqqətə çatdırılır.

Təşkilatın üzvləri regionda və onun hüdudlarından kənarda sülh və təhlükəsizliyə təhdid və çağırışlar yaradan terrorizm və transmilli mütəşəkkil cinayətkarlığın bütün formaları, terrorizmin maliyyələşdirilməsi və kibercinayətkarlıqla mübarizədə birgə səyləri davam etdirməyə sadiqliklərini bir daha təsdiqləyirlər. Bu kontekstdə Suriyanın ərazi bütövlüyü və birliyi əsasında təhlükəsizliyin və sabitliyin bərqərar olması, ona qarşı sanksiyaların aradan qaldırılması istiqamətində Türkiyənin konstruktiv rolu yüksək qiymətləndirilir.

Qəzzadakı fəlakətli humanitar vəziyyətdən dərin narahatlıq ifadə olunur, daimi və hərtərəfli atəşkəs, girovların, məhbusların azad edilməsi və Qəzzaya humanitar yardımların maneəsiz çatdırılması istiqamətində danışıqlara dəstək bir daha təsdiqlənir. İsrail-Fələstin münaqişəsinin BMT-nin müvafiq qətnamələrinə uyğun olaraq ikidövlətli həlli variantının zəruriliyi qeyd edilir. Həmçinin Əfqanıstanla bağlı

məsələlər üzrə TDT-nin İşçi Qrupunun yaradılması təqdir olunur.

TDT çərçivəsində müdafiə sənayesi sahəsində məhsuldar çoxtərəfli əməkdaşlığı genişləndirmək niyyəti bir daha bəyan olunur və üzv dövlətlərin müvafiq orqanlarına bu məqsədlə səylərini sürətləndirmək tapşırılır.

İrqçiliyin, ayrı-seçkiliyin, ksenofobiyanın, İslama qarşı nifrətin, nifrət nitqinin və dezinformasiyanın bütün formaları ilə mübarizədə əməkdaşlığın davam etdirilməsi məqsədilə beynəlxalq platformalarda səylərin əlaqələndirilməsi öhdəliyi xatırladılır.

Qlobal miqyasda mədəniyyətlərarası dialoqun təşviqində qabaqcıl təşəbbüs kimi "Bakı Prosesi"nin uğuru yüksək qiymətləndirilir və Azərbaycan bu istiqamətdə davamlı liderliyinə görə təqdir edilir, 2026-cı ildə keçiriləcək VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkilinə dəstək ifadə olunur.

Türk Dövlətləri Təşkilatı Katibliyinin büdcəsinin əhəmiyyətli dərəcədə artırılması təklifi dəstəklənir, TDT-nin ilk birgə maliyyə institutu kimi yaradılmış Türk İnvestisiya Fondunun layihə fəaliyyətinə başlanmasının vacibliyi vurğulanır.

Türk Yaşıl Baxış prinsipləri rəhbər tutularaq, iqlim dəyişikliyinə və ətraf mühitin mühafizəsində davamlı yaşıl inkişafa sadiqlik bir daha təsdiqlənir, yaşıl enerji avadanlığının və texnologiyalarının inkişafının, iqlimədavamlı infrastrukturun, enerji səmərəliliyinin və tullantıların səmərəli idarə olunmasının təşviqinin vacibliyi qeyd edilir.

Azərbaycanın 2024-cü ilin noyabrında BMT-nin İqlim Dəyişikliyi Konfransının 29-cu sessiyasına uğurlu ev sahibliyi, o cümlədən onun əsas nəticəsi olan Bakı İqlim Birliyi Paktı, eləcə də COP29 Sədrliyi çərçivəsində həyata keçirdiyi təşəbbüslər təqdir olunur.

Region boyu yaşıl enerji dəhlizlərinin inkişafının vacibliyi qeyd edilir, yaşıl enerjinin inkişafı və ötürülməsi üzrə layihələrin həyata keçirilməsində irəliləyiş, Təşkilatın üzv dövlətlərinin hökumətləri arasında Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması haqqında Sazişin qüvvəyə minməsi alqışlanır.

Bəyannamədə TDT-nin müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlığının gücləndirilməsini təşviq etməyə, mümkün olduqda bir-birinin namizədliklərini, qətnamələrini, bəyanatlarını və beynəlxalq təşkilatlar çərçivəsində ortaq maraqlara əsaslanan digər təşəbbüsləri daha güclü qarşılıqlı əlaqələndirməyə və dəstəkləməyə çağırış ifadə olunur, o cümlədən Qırğızıstanın 2027-2028-ci illər üçün BMT Təhlükəsizlik Şurasına və ECOSOC-un 2028-2030-cu illər üçün üzvlüyünə namizədliyi dəstəklənir.

Özbəkistanın 2035-2036-cı illər üçün BMT Təhlükəsizlik Şurasının və 2027-2031-ci illər üçün UNESCO-nun İcraiyyə Şurasının qeyri-daimi üzvlüyünə namizədliyi, Qazaxıstanın 2031-2032-ci illər üçün BMT Baş Assambleyasının 86-cı sessiyasının, 2039-2040-cı illər üçün BMT Təhlükəsizlik Şurasının və 2027-2031-ci illər üçün UNESCO-nun İcraiyyə Şurasının sədri vəzifələrinə namizədliyi, Türkiyənin 2037-2038-ci illər üçün BMT Təhlükəsizlik Şurasının, 2025-2029-cu illər üçün UNESCO-nun İcraiyyə Şurasının, 2026-2028-ci illər üçün ECOSOC-un qeyri-daimi üzvlüyünə namizədliyi, Azərbaycanın 2025-2029-cu illər üçün UNESCO-nun Ümumdünya İrs Komitəsinə və həmin illərdə BMT-HABITAT-ın İcraiyyə Şurasının üzvlüyünə namizədliyi alqışlanır.

Dünyaşöhrətli alim, Nobel mükafatı laureatı professor Əziz Sancara Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına "Türk dünyasının birliyinə töhfələrinə görə" beynəlxalq mükafatının verilməsi yüksək qiymətləndirilir.

Üzv dövlətlərin Türk dövlətləri arasında qarşılıqlı anlaşma, həmrəylik və ortaq gələcəyə yardım etmək məqsədi daşıyan mədəni və humanitar əlaqələrin gücləndirilməsinin vacib elementi kimi gənclərlə bağlı məsələlər üzrə əməkdaşlığın daha da genişləndirilməsi və strukturlaşdırılması niyyəti ifadə olunur, TDT çərçivəsində gənclər və idman sahəsində mübadilə proqramlarının qabaqcıl nailiyyətləri, Qazaxıstanın Aktau şəhərinin TÜRKSOY-un təşəbbüsü ilə 2025-ci il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi təqdir olunur. Eyni zamanda, Özbəkistanın Türk Mədəniyyəti və İrsi Fonduna üzv olmaq üçün müraciəti dəstəklənir.

Sənəddə silahlı münaqişələr zamanı mədəni irsin qorunmasının vacibliyi vurğulanır, münaqişədən sonra mədəni irsin bərpasında Türk dövlətlərinin səyləri təqdir edilir.

Mədəniyyətlərarası körpü və ümumbəşəri dəyərlərin rəmzi kimi çıxış edən Novruzun transmədəni mahiyyəti ifadə edilərək, Türk mədəniyyətinin dərin zənginliyini və Türk xalqlarının ortaq dəyərlərini gələcək nəsillərə ötürmək əzmi bir daha vurğulanır, Azərbaycanın və TDT-yə üzv dövlətlərin, həmçinin Türkiyə Prezidentinin təşəbbüsü ilə Novruz bayramının Təşkilat çərçivəsində qeyd olunması barədə Katibliyə tapşırıq verilir.

Azərbaycanın 2025-ci ildə TDT-nin 12-ci Zirvə görüşünə ev sahibliyi etməyə hazır olduğu yüksək qiymətləndirilir.

Həmçinin Əfqanıstan üzrə Birgə Bəyanatın qəbul edilməsinin vacibliyi vurğulanır.

TDT-yə üzv dövlətlərin başçıları Macarıstanın Baş naziri Viktor Orbana Türk dünyasının həmrəyliyinə və rifahına verdiyi töhfələrə, habelə təşkilatın Budapeştdə keçirilən qeyri-rəsmi Zirvə görüşünə, Macarıstan hökumətinin və xalqının səmimi qonaqpərvərliyinə görə təşəkkürünü bildiriblər.

Bəyannamə Azərbaycan, qazax, qırğız, türk və özbək dillərində imzalanıb.

# Dövlətimizin başçısı İsmayıllı və Laçına səfər zamanı sosial-mədəni müəssisələrin açılışında və təməl qoyulmasında iştirak edib, sakinləri ilə görüşüb












Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da "Azerbaijan Coca-Cola Bottlers" MMC-nin İsmayıllıda yeni istehsal müəssisəsinin açılışında iştirak edib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov, Türkiyənin "Anadolu Grubu"nun İdarə Heyətinin fəxri sədri Tuncay Özilhan və "Azerbaijan Coca-Cola Bottlers" MMC-nin baş direktoru Rəna Məmmədova dövlətimizin başçısına müəssisə barədə məlumat verdilər.

İsmayıllı rayonunun Topçu kəndində yerləşən bu müəssisə 15 hektar ərazidə inşa edilib və illik 165 milyon litr istehsal gücünə malikdir. Layihənin investisiya dəyəri 80 milyon manatdır. Beynəlxalq keyfiyyət və təhlükəsizlik standartlarına cavab verən müəssisədə 100-dən çox yerli sakin daimi işlə təmin olunub. Bu, "Coca-Cola Bottlers" MMC-nin ölkəmizdə ikinci istehsal müəssisəsidir. Yeni müəssisə tərəfindən istehsal olunacaq məhsulların əsasən daxili bazarda satışı nəzərdə tutulub. Müəssisə İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilən investisiya təşviqi sənədi çərçivəsində 7 il müddətində mənfəət və gəlir vergisindən 50 faiz güzəşt əldə edib. Bundan əlavə, əmlak və torpaq vergisindən, texnika, texnoloji avadanlıq və qurğuların idxalına görə ƏDV-dən və gömrük rüsumlarından azad olunub. Azərbaycan Biznesinin İnkişafı Fondu




tərəfindən layihənin maliyyələşdirilməsinə 10 milyon manat güzəştli kredit ayrılıb. “Azerbaijan Coca-Cola Bottlers” MMC ətraf mühitin mühafizəsi üzrə öhdəliklərə sadiq qalaraq istehsal zamanı sərf olunan enerjinin bir qismini günəş panelləri vasitəsilə əldə olunan yaşıl enerji ilə təmin etməyi nəzərdə tutur.

İsmayıllı rayonunda belə bir istehsal müəssisəsinin açılması bölgənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, sənaye potensialının reallaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Yeni müəssisənin açılması istehsalın lokallaşdırılmasını, texnologiya transferini və idxalın əvəz edilməsini stimullaşdırır.

Qeyd edək ki, regionların davamlı inkişafı, istehsal və ixrac imkanlarının artırılması, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi dövlətimizin başçısı tərəfindən həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının önəmli istiqamətlərindəndir. Davamlı islahatlarla investorlar üçün yaradılan əlverişli işgüzar şərait, güzəşt və imtiyazlar onları ölkəmizə daha çox sərmayə yatırmağa sövq edir. “Coca-Cola”nın Azərbaycana investisiyalarının artırılması da ölkədə əlverişli biznes mühitinin və cəlbedici investisiya şəraitinin mövcudluğundan irəli gəlir. Paytaxtla yanaşı, regionlarımıza yatırılan sərmayələr sayəsində yeni istehsal müəssisələrinin açılması ölkəmizdə qeyri-neft sektorunun inkişafının göstəricisi olmaqla bərabər, bölgələrimizin iqtisadi potensialının daha da möhkəmləndirilməsində çox böyük rol oynayır. “Azerbaijan Coca-Cola Bottlers” MMC ölkəmizdə istehsala 1996-cı ildə başlayıb. Şirkət indiyədək Azərbaycan iqtisadiyyatına 200 milyon dollar sərmayə yatırıb.















Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Laçın kanat yolunun təməlini qoyub.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Laçının füsunkar təbiəti, turizm imkanları nəzərə alınaraq rayonda turizm infrastrukturunun qurulmasına da xüsusi diqqət yetirilir. Bu məqsədlə yaradılan Laçın kanat yolu şəhərin Bulvar ərazisində yerləşəcək və iki hissədən ibarət olacaq. Kanat yolunun hündürlüyü 300 metr, xəttinin uzunluğu isə 1720 metr olacaq, hərəkət müddəti 6 dəqiqə təşkil edəcək. Ümumilikdə 17 kabinədən ibarət kanat yolu saatda 800 sərnişinə xidmət edə biləcək. Kanat yolunun yerləşdiyi, uzunluğu 2 kilometrə yaxın olan Bulvar ərazisi bu gün həm yerli sakinlərin, həm də turistlərin sevimli məkanlarından biridir.

İşğaldan azad olunduqdan sonra qısa zamanda bərpa edilən Laçında çox mühüm sosial-infrastruktur layihələri həyata keçirilməkdədir. Bu xüsusda Laçında turizm infrastrukturuna xüsusi diqqət yetirilir.

***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Laçında “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin (ASC) “Aşağı Malıbəy” və “Mirik” su elektrik stansiyalarının (SES) açılışında iştirak edib.

“AzərEnerji” ASC-nin sədri Baba Rzayev dövlətimizin başçısına əvvəlcə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında hidro yaşıl enerji layihələri barədə məlumat verdi.

Bildirildi ki, bu günədək istismara verilən 32 və artıq istismara hazır olan 6 stansiyanın işə salınması nəticəsində su elektrik stansiyalarının sayı 38-ə, onların gücü isə 307 MVt-a çatdırılır. Yaradılmış su elektrik stansiyalarında istehsal olunan yaşıl enerji hesabına illik 200 milyon kubmetrədək təbii qaza qənaət edilir və 400 min tonadək karbon qazı emissiyasının atmosferə atılmasının qarşısı alınır.

Dövlətimizin başçısına “Aşağı Malıbəy” və “Mirik” su elektrik stansiyaları haqqında məlumat verildi. Hər iki stansiya Həkəri çayının sağ qolu olan Zabux çayının Laçın rayonunun Malıbəyli və Mirik kəndlərinin

ərazisindən keçən hissəsində inşa edilib. 3,1 MVt gücündə "Aşağı Malıbəy" və 3,5 MVt gücündə "Mirik" su elektrik stansiyalarında ən müasir avadanlıq quraşdırılıb, optik kabel xətləri çəkilib. Bununla da stansiyalar ölkənin enerji sisteminin mərkəzləşmiş SCADA sisteminə inteqrasiya olunub. "Aşağı Malıbəy" və "Mirik" SES-lərdə il ərzində 20 milyon kilovat-saat yaşıl enerjinin istehsalı nəzərdə tutulub ki, bu da öz növbəsində 4,3 milyon kubmetr təbii qaza qənaət etməyə şərait yaradacaq, il ərzində 8 min ton karbon qazının atmosferə atılmasının qarşısını alacaq. Yeni istismara verilən stansiyalarda Laçın rayonunun sakinləri çalışacaqlar.



Prezident İlham Əliyev "Aşağı Malıbəy" və "Mirik" su elektrik stansiyalarını işə saldı.

***

Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın şəhərində sakinlərlə görüşüb və onlarla söhbət edib.













# Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin Laçına səfəri




Mayın 27-də Laçında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə nahar əsnasında geniş tərkibdə görüşü olub.















Mayın 28-də Laçın Beynəlxalq Hava Limanının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər.

Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsiblər.

Laçın Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edilib.

Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış olublar.

Qeyd edək ki, mürəkkəb dağlıq relyefdə yerləşən Laçın Beynəlxalq Hava Limanı işğaldan azad olunmuş ərazilərdə inşa edilən üçüncü beynəlxalq hava limanıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarımızda genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir. Bu layihələrin arasında hava limanlarının inşası xüsusilə mühüm strateji əhəmiyyət daşıyır. İndiyədək bu ərazilərimizdə müasir standartlara cavab verən Füzuli və Zəngilan Beynəlxalq Hava limanları inşa olunub. Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi ilə Azərbaycanın beynəlxalq hava limanlarının sayı doqquza çatıb.

Tikintisinə 2021-ci ilin avqust ayında başlanılmış bu mühüm infrastruktur obyektin inşası ən yüksək texnoloji və mühəndislik standartlarına uyğun həyata keçirilib. Qeyd edək ki, hava limanının təməli 2021-ci ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Ötən müddət ərzində dövlətimizin başçısı və birinci xanım bir neçə dəfə burada tikinti işlərinin gedişi ilə tanış olublar.

Hava limanında istənilən tip hava gəmisinin qəbuluna imkan verən, uzunluğu 3 min, eni isə 60 metr olan uçuş-enmə zolağı inşa edilib. Beş min kvadratmetrlik terminal binası saatda ən azı 200 sərnişinə xidmət göstərmək imkanına malikdir. Terminalda sərnişinlərin rahatlığı üçün VIP zal, qeydiyyat və təhlükəsizlik sistemləri, baqaj konveyerləri, ticarət









obyektləri və iaşə zonaları nəzərdə tutulub. Tam avtomatlaşdırılmış sistemlərlə təchiz olunmuş Hava Hərəkətini İdarəetmə Qülləsi uçuşların beynəlxalq normalara və təhlükəsizlik standartlarına uyğun şəkildə idarə olunmasını təmin edir. Burada yaradılmış infrastruktur ICAO və IATA standartlarına uyğun olaraq uçuşların təhlükəsiz və səmərəli şəkildə həyata keçirilməsinə imkan verir.

Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1700 metr hündürlükdə yerləşən hava limanının ümumi ərazisi 130 hektardan çoxdur. Bu hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportudur. Laçın şəhərindən 30 kilometr, Şuşadan 70 kilometr, Kəlbəcərdən isə 60 kilometr məsafədə yerləşən hava limanı Qarabağ və Şərqi Zəngəzur regionlarının nəqliyyat əlaqələrinin gücləndirilməsində mühüm rol oynayacaq. Bundan başqa, bu mühüm nəqliyyat layihəsinin icrası ümumilikdə bölgənin turizm potensialının inkişafına da geniş imkanlar yaradacaq. Coğrafi mövqeyi və əlçatanlığı ilə bu hava limanı bölgənin iqtisadi, sosial və logistik inteqrasiyasını dəstəkləyən əsas nəqliyyat mərkəzinə çevriləcək.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksi olan "Dost Aqropark"da istehsal edilən məhsullara baxdılar.

Qeyd edildi ki, kompleksdə ağıllı kənd təsərrüfatı texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulub. Aqroparkda hazırda 120 nəfər işlə təmin olunub. Tam işə düşdükdən sonra burada 500 nəfərə iş imkanı yaradılacaq.



















Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mayın 28-də Kəlbəcər-Laçın avtomobil yolunda görülən tikinti işləri ilə tanış olublar.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov Azərbaycan və Türkiyə prezidentlərinə görülən işlər barədə məlumat verib.

Dövlətimizin başçısının tapşırığına əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra edilən mühüm əhəmiyyətə malik yol infrastrukturu layihələrindən biri də uzunluğu 75,8 kilometr olan Kəlbəcər-Laçın avtomobil yoludur.

Başlanğıcını Kəlbəcər rayonunun Qamışlı kəndindən götürməklə Laçın rayonunun ərazisindən keçən və bu iki rayonu birləşdirən yol 2, 3 və 4 hərəkət zolaqlı olacaq.

Yolboyu tikintisi nəzərdə tutulmuş 17 avtomobil tunelindən 16-da tikinti işləri uğurla davam etdirilir, birinin isə layihələndirilməsi aparılır.

Uzunluğu 126 kilometr olan mövcud Kəlbəcər-Laçın avtomobil yolunun yeni layihəyə əsasən tikintisi Kəlbəcər şəhər mərkəzindən Laçın şəhər mərkəzinədək məsafəni 32,2 kilometr qısaldaraq 93,8 kilometr təşkil edəcək.

Laçın şəhər mərkəzindən Laçın Beynəlxalq Hava Limanınadək hazırda mövcud yol üzrə məsafə 65 kilometr təşkil edir. Yeni tikilən yol üzrə isə məsafə 35,8 kilometr olacaq. Yolun 40-cı kilometrliyindən ayrılan və Laçın Beynəlxalq Hava Limanına aparan körpünün tikintisi də layihə çərçivəsində yerinə yetirilir. Ümumilikdə Kəlbəcər-Laçın avtomobil yolunda tikinti işlərinin 44 faizi icra olunub. Yeni yol Kəlbəcər və Laçın rayonlarının bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və Laçın Beynəlxalq Hava Limanına rahat gediş-gəlişi təmin edəcək, ümumilikdə bu bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək.



Mayın 28-də Laçında 28 May - Müstəqillik Gününə həsr olunmuş konsert keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif konsertdə iştirak ediblər.

Əvvəlcə Azərbaycanın, Türkiyənin və Pakistanın Dövlət himnləri səsləndirilib.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

– Hörmətli Türkiyə Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Hörmətli Pakistanın Baş naziri, əziz qardaşım Məhəmməd Şahbaz Şərif.

Hörmətli qonaqlar, əziz laçınlılar.



İlk növbədə, bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm. Bu bayram günündə bizimlə bərabər olan Türkiyə və Pakistan liderlərinə və onlarla bərabər Azərbaycana gəlmiş qonaqlara "Xoş gəlmisiniz!" deyirəm.

Azərbaycan, Türkiyə və Pakistan – üç qardaş ölkə əməkdaşlığı ildən-ilə, gündən-günə gücləndirirlər. Biz yaxşı günlərdə də, ağır günlərdə də hər zaman bir-birimizin yanındayıq, həmrəylik, dəstək göstəririk. Bu gün ikinci üçtərəfli Zirvə görüşündə bir daha bizim strateji əməkdaşlığımız təsdiqləndi. İşğaldan azad edilmiş Laçında, Şərqi Zəngəzurda iki qardaş ölkənin liderlərinin iştirakı ilə keçirilən bugünkü mərasim Azərbaycan-Türkiyə-Pakistan birliyinin, qardaşlığının növbəti təzahürüdür.

Xüsusilə bu bölgədə, 30 il ərzində işğal altında qalan Laçın şəhərində bizim birgə olmağımız böyük rəmzi məna daşıyır. Çünki 44 günlük İkinci Qarabağ müharibəsi zamanı bizi Türkiyə və Pakistan dəstəkləmişdir. Türkiyənin və Pakistanın dəstəyi bizi ruhlandırırdı, bizə əlavə güc verirdi. Bu böyük siyasi və mənəvi dəstəyə görə biz hər zaman qardaş ölkələrin rəhbərlərinə, qardaş xalqlara minnətdarıq.

Bu gün bizim üçtərəfli əməkdaşlığımızın yeni səhifəsi açılır. Əminəm ki, bu gün müzakirə etdiyimiz məsələlər, əldə edilmiş razılaşmalar bizi bir-birimizə daha da yaxın edəcək.

107 il bundan əvvəl müsəlman aləmində ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti yaradılmışdır. Bu, böyük tarixi hadisə idi. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İki il sonra – 1920-ci ilin aprel ayında müstəqilliyimiz əlimizdən alınmışdır. Ondan bir neçə ay sonra – 1920-ci ilin noyabr ayında sovet Rusiyası




tərəfindən Qərbi Zəngəzur bölgəsi Azərbaycandan ayrılıb Ermənistana birləşdirilmişdir. Bu, böyük ədalətsizlik idi və Azərbaycan xalqı buna oxşar ədalətsizliklərlə tarix boyu üz-üzə qalmışdır. Ancaq xalqımızın iradəsi və qardaş xalqların dəstəyi bizə güc verirdi, bizi ruhlandırırdı və iradəmizi gücləndirirdi.

1991-ci ildə Sovet İttifaqı dağılandan sonra Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. Ancaq Ermənistanın işğalçılıq siyasəti Azərbaycana böyük faciələr gətirmişdir. Müstəqillik elan olunandan dörd ay sonra Ermənistan dövləti xalqımıza qarşı soyqırımı törətmişdir. Xocalı soyqırımı nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın, 63 uşaq bir gecə içində vəhşicəsinə öldürülmüşdür. Müstəqillik elan olunandan yeddi ay sonra isə Laçın erməni işğalına məruz qalmışdır. Ondan əvvəl Şuşa şəhəri işğal olunmuşdur. Ermənistanın işğalçılıq siyasəti ondan sonra da davam etdirilmişdir. Xarici ölkələrin dəstəyi hesabına Azərbaycan ərazisinin təxminən 20 faizi erməni işğalına məruz qalmışdır. Qarabağ və Şərqi Zəngəzur bölgəsindən 100 minlərlə azərbaycanlı etnik təmizləməyə məruz qalmışdır, qaçqın-köçkün həyatına başlamışdır.

Azərbaycan dövləti və xalqı bu ədalətsizliklə, bu işğalla heç vaxt barışmayıb. Biz güc toplayırdıq, beynəlxalq müstəvidə daha güclü mövqelərə sahib olurduq. Beynəlxalq təşkilatlar çərçivəsində öz haqq işimizi aparırdıq. Bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanımaqla münaqişənin həlli üçün siyasi və hüquqi zəmin yaratmışdır. Biz, eyni zamanda, güclü iqtisadiyyat qurmuşuq və məhz bunun nəticəsində ordu quruculuğuna lazımi həcmdə vəsait ayırmışıq. Güclü siyasi iradə, güclü iqtisadiyyat və güclü ordu faktorları bizi Qələbəyə aparan amillərdir.

Bununla bərabər, biz vətənpərvərlik ruhunda, xalqa, torpağa bağlı yeni gənc nəsli yetişdirərək Qələbəmizi şərtləndirdik. 44 günlük İkinci Qarabağ müharibəsi zamanı biz hər gün irəli gedirdik. Bir gün belə geri addım atmamışdıq. Döyüş meydanında 300-dən çox şəhər və kəndimizi erməni işğalçılarından azad etmişdik. O cümlədən Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərləri döyüş meydanında işğalçılardan azad edildi. 2020-ci il noyabrın 8-də Şuşa Zəfərimizdən sonra Ermənistan ordusunda təslimçilik meyilləri daha da artdı və ondan bir gün sonra - noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktını, təslim aktını imzalamağa məcbur oldu. Məhz bunun nəticəsində bir güllə atılmadan Laçın, Kəlbəcər və Ağdam işğalçılardan azad edilmişdir. Bu şanlı tariximiz bölgəmizdəki geosiyasi vəziyyəti dəyişdirdi, yeni reallıqlar yaratdı və hər bir ölkə bu reallıqlarla barışmalı oldu. Bizim 2023-cü ildə birgünlük antiterror əməliyyatı isə dövlət suverenliyimizi tam bərpa etdi və Azərbaycanda separatizmin kökü birdəfəlik kəsildi.

İndi isə azad edilmiş bütün torpaqlarda bərpa işləri, quruculuq işləri gedir. Böyük infrastruktur layihələri icra edilir – xəstəxanalar, məktəblər, üç hava limanı tikilib, dəmir yolları, avtomobil yolları salınıb, 70 kilometrə yaxın tunelin inşası sürətlə gedir. Bu gün bizim qonaqlarımız azad edilmiş torpaqlarda gedən işlərin bir hissəsi ilə tanış olmuşlar. Artıq Şərqi Zəngəzur və Qarabağ bölgələrimizdə 43 min insan yaşayır və çalışır. Bu bölgəyə həyat qayıdıb, bu bölgənin sahibləri qayıdıblar. Biz qayıtmalıydıq və qayıtmışıq. Biz Ermənistan ordusunu məğlub etmişik və bununla Azərbaycan xalqı fəxr edir. Artıq dörd ildən çoxdur ki, biz müzəffər xalq və dövlət kimi yaşayırıq və əbədiyyətə qədər yaşayacağıq. Bu gün əziz qardaşlarımın – Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin bizimlə bərabər bu bayram tədbirlərində iştirakı, bizə göstərilən dəstək və həmrəylik artıq tamamilə yeni dünya miqyasında reallıqlar yaradır. Bizim gücümüz birliyimizdədir. Bu gün birliyimizi üçtərəfli formatda bir daha təsdiqlədik. Bu gün bayram konsertində səslənəcək mahnılar bir daha bizim birliyimizi, nə qədər zəngin mədəniyyətə malik olmağımızı göstərəcək. Əminəm ki, azad edilmiş Laçından üç ölkənin bu gün dünyaya verdiyi mesajlar lazımi ünvana çatacaq.

Mən bir daha Türkiyə Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğana, Pakistanın Baş naziri, əziz qardaşım Məhəmməd Şahbaz Şərifə və onlarla bərabər gəlmiş bütün qonaqlara "Xoş gəlmisiniz!" deyirəm. Laçınlıları ürəkdən salamlayıram. Allah səmamızı, yolumuzu həmişə açıq eləsin. Qələbə bizimlədir və bizimlə olacaq.

Yaşasın Azərbaycan-Türkiyə-Pakistan birliyi və qardaşlığı!

***

Sonra Türkiyə Prezidenti çıxış etdi.

## Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı



– Əziz qardaşım, Prezident cənab İlham Əliyev.

Əziz dostum, Pakistanın Baş naziri cənab Şahbaz Şərif.

Hörmətli hökumət üzvləri, dəyərli incəsənət xadimləri, xanımlar və cənablar.

Sizləri ən səmimi duyğularımla, hörmətlə, məhəbbətlə salamlayıram. Buradan Bakıdan Gəncəyə, Şuşadan Naxçıvana olmaqla, Azərbaycanın hər bir guşəsindəki qardaşlarıma sevgilərimi və ehtiramımı göndərirəm.

Əvvəlcə, sizlərə "Can Azərbaycan", "Bir millət, iki dövlət" deyiləndə qəlbində fırtınalar qopan 86 milyonun salamını çatdırmaq istəyirəm. İndi buradakı tabloda üç dövlət, bir millət var.

Can Azərbaycanın 28 May – Müstəqillik Günü münasibətilə ortaq mədəniyyətimizi və qardaşlığımızı vurğuladığımız bu mənalı görüşdə sizinlə birlikdə olmaqdan böyük məmnunluq duyuram. Müstəqilliyin necə qazanıldığını, nə qədər qiymətli olduğunu çox yaxşı bilən bir millətin övladı olaraq Müstəqillik Gününüzü səmimi-qəlbdən təbrik edirəm.

İstiqlal və gələcək uğrunda apardığımız şanlı mübarizələri şəhadətləri ilə taclandıran qəhrəmanlarımızı rəhmət və ehtiramla yad edirəm. Rəbbim əziz şəhidlərimizin ruhlarını şad, məkanlarını cənnət eləsin!

Bu unudulmaz gündə Azərbaycanın dahi şairi Səməd Vurğunun möhtəşəm misralarını bir daha xatırlayırıq:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma Vətənimsən,
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!
Mən bir uşaq, sən bir ana,
Odur ki, bağlıyam sana,
Hankı səmtə, hankı yana
Hey uçsam da, yuvam sənsən,
Elim, günüm, obam sənsən.

Bəli, obamız, yuvamız və göz bəbəyimiz Azərbaycan ilə aramızdakı məhəbbəti, inşallah, gücləndirərək davam etdirəcəyik. Bu xoş gündə olduğu kimi, Allah göstərməsin, çətin günlərində də Azərbaycan xalqının hər zaman yanında olacağıq. Rəbbimdən Azərbaycan-Türkiyə qardaşlığını əbədi və daimi etməsini diləyirəm.

Əziz qardaşlarım, dəyərli qonaqlar, 1918-ci ildə Azərbaycanda qurulan Cümhuriyyət üsul-idarəsi istiqlalın və azad iradənin rəmzinə çevrildiyi kimi, Qarabağdakı azadlıq Zəfəri də bu gün Azərbaycanı daha güclü və firavan edir. O gün alovlanan istiqlal məşəli bu gün daha parlaq və daha güclü şəkildə Azərbaycanın yolunu işıqlandırır. Qarabağın azadlığı ilə bu torpaqlarda yüksələn hər bir musiqi sədası təkcə bir Zəfərin deyil, bir millətin, necə deyərlər, yenidən dirçəlişinin səsinə çevrildi.

Bir azdan dinləyəcəyimiz musiqilərdə Qarabağın azad torpaqlarının səsi var. Bu nəğmələrdə Şuşanın daşlarında əks-səda verən azadlığın, Laçının vadilərində böyüyən ümidin, Gəncədə və Bakıda canlanan milli iradənin təzahürü var. Səslənən hər bir bəstədə qəhrəman şəhidlərimizin canları və mübarək qanları bahasına əldə olunmuş möhtəşəm Zəfərin ruhu var. Məhz bu gün bu konserti əbədi qardaşlığımızı, ortaq yaddaşımızı, rifah və güclü gələcəyimizi salamlayan bənzərsiz bir görüş kimi qiymətləndiririk.

Xatırlayacaqsınız, daha əvvəl Qarabağın dünyaya açılan qapıları – Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarını İlham qardaşımla birlikdə açmışdıq. Çox xoşbəxtik ki, bu gün də Laçın Beynəlxalq Hava Limanını açmaq yenə bizə nəsib oldu.

Enerjidən nəqliyyata, müdafiədən ticarətə, kənd təsərrüfatından təhsilə qədər hər sahədə Azərbaycanla güclü əməkdaşlıqlar qururuq. İlham qardaşımın bənzərsiz töhfələri sayəsində münasibətlərimizi hər gün təkcə bölgəyə deyil, bütün dünyaya nümunə olacaq səviyyəyə çatdırırıq.

Sabitlik abidəsi kimi yüksələn Azərbaycanın uğurları



ilə hamımız qürur duyuruq. Otuz ildən sonra əsarətdən azad olunan Qarabağ üçün artıq uğur, sülh və inkişaf hekayəsi yazmaq zamanıdır.

Bu gün keçmişdə yaşadığımız ağrılardan dərs alaraq davamlı sülhün bərqərar olmasını, etimadın və mehriban qonşuluq münasibətlərinin qurulmasını hədəfləyirik. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sülhün də memarı olaraq adını tarixə yazdıracağına inanırıq.

Bu fikirlərlə Can Azərbaycan xalqına, səmimi qonaqpərvərliyə görə laçınlı qardaşlarıma və buraya təşrif gətirməklə bizi son dərəcə sevindirən Pakistanın Baş naziri, dəyərli dostum cənab Şahbaz Şərifə təşəkkürlərimi ifadə edirəm.

Sizləri bir daha ən səmimi duyğularımla salamlayır, 28 May – Müstəqillik Günü münasibətilə bir daha təbrik edirəm. Allah yolumuzu və bəxtimizi açıq etsin. Yenidən görüşmək, yenidən qucaqlaşmaq diləyi ilə sizləri Allaha əmanət edirəm. Sağ olun, salamat qalın!

***

Daha sonra Pakistanın Baş naziri çıxış etdi.

## Baş nazir Məhəmməd Şahbaz Şərifin çıxışı



– Bismillahir-rəhmanir-rəhim.

Əziz qardaşlarım, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan.

Hörmətli nazirlər, zati-aliləri, əziz qonaqlar, bizim Laçından olan qardaş və bacılarımız.

Xanımlar və cənablar, salam-aleyküm.

Əziz qardaşım İlham Əliyev, nə gözəl haldır ki, bu gün biz Azərbaycanın Müstəqillik Gününü bir yerdə qeyd edirik. Həmçinin bu gün – 1998-ci il mayın 28-də Pakistan nüvə dövlətinə çevrilmişdir. Bu səbəbdən, bu gün bu tədbirdə iştirak etmək mənim üçün çox böyük şərəfdir. Mən səmimi-qəlbdən əziz qardaşım, Prezident İlham Əliyevi və bizim azərbaycanlı bacı və qardaşlarımızı təbrik edirəm. Bu gün burada olmaq mənim üçün çox böyük şərəfdir. Bu gün bu gözəl məkanda, füsunkar dağlıq ərazidə yerləşən Laçın şəhərində olmağımdan çox məmnunam.

Siz böyük liderliyiniz və dinamik baxışınız sayəsində 30 illik işğala son qoymusunuz, bu bölgəni, Qarabağı azad etməyə müvəffəq olmusunuz və bu işdə Sizin Silahlı Qüvvələriniz böyük cəsarət göstərib. Mən buradan şəhidlərin xatirəsini anıram, o şəhidlər ki, bu iş naminə həyatlarından keçiblər. Həyatda olan qaziləri də buradan salamlayıram. Onlar da bu işdə çox böyük şücaət və cəsarət göstəriblər. Bu çox böyük nailiyyət və Silahlı Qüvvələrinizin bu işə verdiyi töhfə münasibətilə bir daha hər birinizi təbrik edirəm. Həmin mübarizəyə qardaşımız Prezident Ərdoğan və Türkiyədən olan bacı-qardaşlarımız çox böyük dəstək oldular, azərbaycanlı bacı və qardaşlarını ruhlandırdılar. Həmin dövrdə Türkiyə Azərbaycana çox böyük dəstək göstərdi. Pakistan da öz növbəsində töhfəsini vermişdir ki, bu mühüm missiya uğurla başa çatsın. Biz bütün siyasi və diplomatik dəstəyimizi verdik ki, azərbaycanlı qardaş və bacılarımız Qələbəyə nail olsunlar. Bu dəstək səmimi-qəlbdən gəlirdi, çünki bu işdə azərbaycanlı qardaş və bacılarımız mütləq dəstəklənməli idi. Xanımlar və cənablar, ona görə də deyə bilərəm ki, bu gün bu ərazilər transformasiyaya uğrayıb və şüar da dəyişib: İki ruh bir qəlbdə idisə, bu gün üç ruh bir qəlbdədir. Bu şüarı artıq biz dəyişmişik.

Xanımlar və cənablar, Pakistan bu yaxınlarda düşmənə qalib gəlməyə müvəffəq oldu. Bir neçə həftə bundan öncə baş vermiş hadisələrdən bəhs edirəm. Həmin düşmən ölkənin əhalisi Pakistan əhalisindən beş dəfə çoxdur. Həmin ölkənin iqtisadi baxımdan da gücü bizdən çoxdur və həmin ölkə onilliklərdir ki, yüzlərlə milyard dollar həcmində vəsait xərcləyərək dünyanın ən müasir silahlarını almışdır, sursat, qırıcı təyyarələr və ən müasir texnologiyanı əldə etmişdir. Aprelin 22-də Pahalqam məntəqəsində, – bu yaşayış məntəqəsi işğal olunmuş Cəmmu-Kəşmirdə yerləşir, – 26 nəfər qətlə yetirildi. Bu, çox kədərli, acınacaqlı bir hadisə idi. Təəssüflər ki, Hindistan tez-tələsik Pakistana qarşı əsassız iddialar irəli sürdü, bizi ittiham etdi və faktları uydurmağa çalışdı. Dünyaya mesaj verməyə çalışdı ki, Pakistan məhz bu Pahalqam insidentinə görə təqsirli bilinməlidir. Biz dərhal təklif etdik ki, şəffaf və tərəfsiz qaydada beynəlxalq təhqiqat aparılsın. Ancaq Hindistan cavabında Pakistana hücum etdi, 33 günahsız pakistanlı qətlə yetirildi. Həmçinin bu hücum nəticəsində 55 pakistanlı yaralanmışdı. Xanımlar və cənablar, biz bunu cavabsız qoya bilməzdik. Biz Pakistanı müdafiə etməli idik və qısa bir zamanda hava qüvvələrimiz Hindistana məxsus 6 təyyarəni vurdu. Fransa istehsalı olan dörd “Rafale” təyyarəsi, “MiQ” tipli təyyarə və dronlar da vuruldu. Biz Hindistana mesaj verdik ki, Pakistan sülhsevər ölkədir. Biz regionda sülhü və firavanlığı təşviq edirik. Amma əgər biz hücuma məruz qalsaq, dərhal var gücümüzlə buna cavab verəcəyik.

Biz 9-cu və 10-cu günlərdə olduqca adekvat şə-

kildə Hindistanın təcavüzünə cavab verdik və səhər saat 04:30-da – fəcr namazından sonra Pakistanın silahlı qüvvələri Səid Əsim Muirin rəhbərliyi ilə düşmənə dərs verməli oldu. Ona qədər isə Hindistan "BrahMos" tipli raketlərdən Pakistanın müxtəlif əyalətlərini, xüsusilə də Ravalpindidə və digər məntəqələrdə olan hava limanlarını atəşə tutdu.

Bizim baş qərargah rəisi, – o, bu gün burada ön sırada əyləşib. Xahiş edirəm, feldmarşal ayağa qalxasınız, hər kəs sizi görsün, – mənə məlumat verdi ki, cənab Baş nazir, Hindistan bizə növbəti dəfə hücum etdi. Onun səsi qətiyyətli idi. O, tamamilə sakit idi. Amma, eyni zamanda da çox qətiyyətli mövqedə idi ki, biz düşmənə həyatlarının ən yaxşı dərsini verməliyik. Beləliklə, biz Hindistanın hərbi infrastrukturuna hücum etdik. Yəni, bizim onlardan fərqimiz budur. Onlar günahsız insanları qətlə yetirirdilər, biz isə onların hərbi infrastrukturunu hədəfə aldıq və onların cavabını verdik. Səhər saat 9-da feldmarşal mənə zəng edərək dedi ki, cənab Baş nazir, Hindistan bizə müraciət edib ki, atəşkəs elan edək, hansı təlimatlarınız olacaq. Mən dedim ki, feldmarşal, Allah bizə qələbə günü nəsib etdi. Gəl indi Hindistanın bu müraciətini müsbət cavablandıraq. Çünki biz inanırıq ki, sülh olmalıdır, atəşkəs olmalıdır və biz bu müharibəyə istənilən üsullarla son qoymalıyıq. Xanımlar və cənablar, bunu bu gün sizinlə bölüşmək istədim.

Azərbaycan vaxtilə Ermənistanın hücumuna məruz qalanda Türkiyə və Pakistan bir qaya kimi Azərbaycanın yanında oldu. Pakistan Hindistan tərəfindən hücuma məruz qaldı və əziz qardaşım Rəcəb Tayyib Ərdoğan, bizim türkiyəli olan qardaş və bacılarımız dərhal Pakistanı dəstəklədilər. Əziz qardaşım İlham Əliyev də, azərbaycanlı bacı və qardaşlarımız da eyni qətiyyəti göstərdilər. Onlar Azərbaycanın və Pakistanın həmrəy olduğunu nümayiş etdirdilər. Bu, dərhal baş verdi. Bu, bizim tariximizin ən gözəl anlarından biri idi ki, üç qardaş ölkə vahid ailə olaraq bir araya gəldilər. Çətin zamanda bir araya gəldilər. Biz bunu heç vaxt unutmayacağıq. İnanın mənə ki, qardaşım, Prezident Ərdoğanın və əlbəttə, əziz qardaşım Prezident İlham Əliyevin verdiyi dəstəyin əvəzini mən heç vaxt çıxa bilmərəm. Allah özü sizi mükafatlandıracaq bu qardaşlığa görə. Bu səmimi dəstəyə görə Sizə təşəkkür edirəm.

Bu gün bizim üçtərəfli formatda ikinci toplantımız oldu. Təfərrüata varmadan deyə bilərəm ki, bu üçtərəfli görüş çox səmərəli idi və bizi çox ruhlandırdı. Biz bir çox məsələləri müzakirə etdik və planlarımızı müəyyənləşdirdik ki, üç qardaş dövlət arasında daha sıx əlaqələndirmə olsun inşallah. Bu gün bu füsunkar məkanda – Laçın şəhərində üç ölkənin bayraqları dalğalanır və bu, onu sübut edir ki, bu bayraqlar bir yerdə, hər zaman yüksəklərdə ucalacaq, dalğalanacaq və inşallah, biz firavan gələcəyə doğru inamla irəliləyəcəyik.

Bununla yanaşı, hər iki qardaşıma təşəkkür edirəm ki, bizə Pakistanın ədalətli Cəmmu-Kəşmir məsələsində dəstək göstərirlər. Təəssüflər ki, o gözəl, füsunkar bölgədə qan tökülüb. Onlar onilliklərdir ki, zülmə qarşı mübarizə aparırlar. Onlar hər zamankı kimi qətiyyətlidirlər. Onlar heç zaman təslim olmayacaqlar, o vaxta qədər mübarizə aparacaqlar ki, onların BMT Nizamnaməsinə uyğun hüquqları təmin edilsin, Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr icra olunsun. Pakistan hər zaman kəşmirlilərin yanında olmuşdur, eyni zamanda, Türkiyə və Azərbaycan da eyni qətiyyəti nümayiş etdiriblər. İnşallah elə bir gün gələcək ki, tezliklə bu, baş verəcəkdir. Kəşmir xalqı da öz hüquqlarını təmin edəcək və mən deyərdim ki, bu quldarlıqdan canlarını qurtaracaqlar.

Xanımlar və cənablar, Qəzzada baş verənlər də o qədər fərqli deyil. 52 min fələstinli, o cümlədən qadınlar və uşaqlar, yaşlılar, mühəndislər, həkimlər şəhid olublar. Bu gün biz burada toplaşdığımız bir vaxtda da Qəzzada qan tökülür. Məncə, müasir tarixdə ona bənzər acınacaqlı mənzərə olmamışdır və sivil dünya nə vaxtadək bu vəhşiliyə göz yumacaqdır. Bu, İsrail tərəfindən törədilən barbarlıqdır və bir daha birlikdə pislənilməlidir. Türkiyə Prezidenti, əziz qardaşım Ərdoğan hər zaman bu çağırışları etmişdir. Təkcə müsəlman dünyasında deyil, bütün beynəlxalq arenada onun səyləri yüksək qiymətləndirilir ki, əziyyət çəkən insanlara dəstək verilsin. Mənim əziz qardaşım İlham Əliyev də eyni mövqedən çıxış edir. Pakistan da həmin mövqedən çıxış edir.

Əziz qardaş və bacılarımız, bu gün burada sizin qarşınızda çıxış edərək demək istəyirəm ki, biz səsimizi ən yüksək səviyyədə ucaltmalıyıq ki, bütün dünya Türkiyənin, Azərbaycanın və Pakistanın səsini eşitsin. Çünki Qəzzada mütləq atəşkəs əldə edilməlidir. Bu, nə qədər tez olsa, o qədər yaxşıdır. Çünki bu, bəşəriyyət naminə olmalıdır. Bizim orada olan qardaş və bacılarımızın qətlə yetirilməsi dərhal dayandırılmalıdır. Bizim fələstinli qardaş və bacılarımız azadlıq və ədalət naminə öz müqəddəratını müəyyən etmək hüququna nail olmalıdırlar. Orada məsələ iki dövlət prinsipi əsasında öz həllini tapmalıdır və bu prinsipi bütün dünya dəstəkləyir.

Xanımlar və cənablar, çıxışımın sonunda deyirəm ki, Türkiyənin, Azərbaycanın və Pakistanın bayraqlarında olan aypara hər zaman bir-birinin yanında ucalsın, işıq saçsın və bu, bizim gücümüzün, birliyimizin, inamımızın, xalqlarımızın və müsəlman dünyasının ümidinin rəmzinə çevrilsin.

Yaşasın Pakistan! Yaşasın Pakistan-Azərbaycan-Türkiyə qardaşlığı!

Allah sizi qorusun!









Çıxışlardan sonra Azərbaycan, Türkiyə və Pakistan mahnılarından ibarət konsert proqramı təqdim olundu.



# Dövlətimizin başçısının Yevlax, Goranboy və Mingəçevirə səfəri






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq "Yevlax" qovşaq yarımstansiyasının, Regional Təlim-Tədris və Laboratoriya Mərkəzinin açılışında iştirak edib.

"AzərEnerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, "Yevlax" qovşaq yarımstansiyası 60 il əvvəl tikildiyindən tələbatı ödəmirdi. Respublikanın Mərkəzi Aran regionunun enerji təchizatının yaxşılaşdırılması, istehlakçıların fasiləsiz keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsi, enerjisistemin dayanıqlılığının və etibarlılığının artırılması məqsədilə bu yarımstansiya tamamilə yenidən qurulub. Yevlaxın tam, Bərdə və Ucar rayonlarının isə müəyyən hissəsi daxil olmaqla 180 mindən artıq əhalinin elektrik təchizatında, o cümlədən "Varvara" Su Elektrik Stansiyasında istehsal edilən yaşıl enerjinin enerjisistemə ötürülməsində xüsusi əhəmiyyətə malik bu yarımstansiyada 110 kilovoltluq yeni açıq paylayıcı qurğu quraşdırılıb, ərazidə yeni Rəqəmsal İdarəetmə Mərkəzi tikilib.

Yarımstansiyanın iş rejiminə real zaman çərçivəsində nəzarət edilir. Enerji obyekti ən son rəqəmsal texnologiyalara əsaslanan kommutasiya avadanlıqları ilə təchiz edilməklə, elektron resursların kibertəhlükəsizliyi tam təmin olunub. Enerjisistem üzrə bu tip innovativ texnologiyaların tətbiqi planlı və qəza təmiri xərclərini 35 faiz, ehtiyat hissələrə tələbatı 29 faiz, təmir işləri üzrə materialların gözlənilmə vaxtını və ehtiyatların normadan artıq olmasını 30 faiz,







normativdən artıq iş saatlarını isə 25 faiz azaltmaqla səmərəliliyi yüksəldir. Burada müasir sayğac-uçot sistemi də quraşdırılıb.

Yarımstansiyanın ərazisində bütün zəruri avadanlıq, qurğu və simulyatorlarla təmin edilən üçmərtəbəli Regional Təlim-Tədris və Laboratoriya Mərkəzi yaradılıb. Mərkəzdə 12 fərqli istiqamət üzrə mühəndis hazırlığı və ixtisasartırma kursları təşkil olunacaq. Bu da bölgədə ixtisaslı kadr hazırlığını təmin etməklə məşğulluğun artırılmasına töhfə verəcək.

Tədris prosesinin əyani keçirilməsi, bilik və bacarıqların daha yaxşı mənimsənilməsi üçün yarımstansiyanın həyətyanı sahəsində transformatorlar, müasir kommutasiya qurğuları, hava və kabel xətlərinin komponentləri ilə tam təchiz edilmiş tədris simulyatoru yaradılıb. Müasir innovasiyalara əsaslanan test-diaqnostika avadanlıqları ilə təchiz olunan Laboratoriya Mərkəzində isə kimya və ekologiya, elektrik avadanlıqlarının sınağı və nəzarət-ölçü cihazlarının kalibrlənməsi laboratoriyaları da fəaliyyət göstərəcək. Laboratoriya Mərkəzi həm də paylayıcı şəbəkə, dəmir yolu infrastrukturu və sahibkarlıq subyektlərinin elektroenergetika avadanlıqlarının test-diaqnostika işlərinin həyata keçirilməsinə dəstək olacaq.

Qeyd edək ki, son beş ildə "AzərEnerji" ASC tərəfindən ümumilikdə 47 yerdə sistem əhəmiyyətli ötürücü yarımstansiya tikilib və ya tam yenidən qurulub, 2.500 kilometr uzunluğunda yüksəkgərginlikli elektrik verilişi xətti çəkilib.

Ölkədə ümumi gücü 3000 meqavatdan artıq elektrik enerjisi istehsal edən 45 stansiya tikilib. Təkcə işğaldan azad edilən ərazilərdə tikilən su elektrik stansiyalarının sayı 38, gücü isə 307 meqavatdır. Ümumilikdə son illərdə görülən işlər nəticəsində hər kilovat-saata görə sərf edilən şərti yanacaq 284 qramdan 252 qrama düşüb, 2,8 milyard kubmetr təbii qaza qənaət edilib, 1 milyon ton karbon qazı emissiyasının atmosferə atılmasının qarşısı alınıb.





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Goranboy rayonunda "Konstralab Industries" QSC-nin tikinti materialları istehsalı müəssisəsinin açılışında iştirak edib.

Goranboy rayonunun Qazanbulaq kəndində yaradılan müəssisə gips-karton, astar və üzlük gips məhsulları istehsal edəcək. Müəssisədə il ərzində 10 milyon kvadratmetr gips-karton lövhə, 150 min ton gips-əsaslı quru qarışıqlar istehsal olunacaq. Müasir avadanlıqla təchiz olunan müəssisədə istehsal edilən məhsulların yerli bazarda satışı ilə yanaşı, bir neçə ölkəyə ixracı da nəzərdə tutulur. Burada 200 nəfər daimi işlə təmin ediləcək. İstehsal zamanı istifadə edilən əsas xammal – yerli gips daşı Azərbaycanın müxtəlif regionlarındakı yataqlardan tədarük olunacaq. Növbəti mərhələdə kalsit və perlit istehsalı xətlərinin qurulması planlaşdırılır ki, bu da məhsulların maya dəyərinin aşağı düşməsinə səbəb olacaq.

Bununla yanaşı, gələcək inkişaf strategiyası çərçivəsində müəssisə fəaliyyətini genişləndirərək metal profil istehsalının təşkilini hədəfləyir. İnvestisiya dəyəri 33 milyon manat olan müəssisənin ümumi sahəsi 5 hektardır. Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən müəssisəyə 3,9 milyon manat güzəştli kredit ayrılıb. İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş investisiya təşviqi sənədi hesabına müəssisə idxal etdiyi avadanlıqlara görə 900 min manat güzəşt əldə edib.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm layihələrin icrası ölkə iqtisadiyyatının şaxələndirilməsinə, yeni iş yerlərinin açılmasına, xüsusilə sənayenin müxtəlif sahələrinin davamlı inkişafına böyük təkan verib. Sənayeləşmə siyasətinə uyğun olaraq, ölkəmizdə müasir sənaye müəssisələri, yeni istehsal sahələri yaradılır, daxili




tələbatın ödənilməsində yerli məhsulların payı artır, ixrac imkanları genişlənir. Belə müəssisələrin bölgələrdə yaradılması isə ümumilikdə regionların sosial-iqtisadi inkişafını təmin etməklə, onların iqtisadi potensialının möhkəmləndirilməsində, məşğulluğun artırılmasında da mühüm rol oynayır.












Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Mingəçevirdə "Azərbaycan" İstilik Elektrik Stansiyasının ərazisində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib.

Sonra dövlətimizin başçısı "8 Noyabr" Elektrik Stansiyasının açılış mərasimində iştirak edən qonaqlarla görüşüb, onlarla söhbət edib. Söhbət zamanı bu stansiya layihəsinin əhəmiyyəti vurğulanıb. İtaliya və Çin şirkətlərinin bu layihədə iştirakının önəminə toxunulub. İşlərin qısa müddət ərzində yekunlaşması məmnunluqla qeyd edilib.

Daha sonra "8 Noyabr" Elektrik Stansiyasının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı

– Əziz dostlar, hörmətli qonaqlar, əziz mingəçevirlilər.



Bu gün ölkəmizin energetika sahəsində əlamətdar bir gündür. "8 Noyabr" Elektrik Stansiyasının açılışı çox gözəl hadisədir. Ümumilikdə ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək bu stansiyanın yaradılması və qısa müddət ərzində bütün işlərin başa çatması ölkəmizin gücünü, potensialını, energetiklərimizin təcrübəsini, peşəkarlığını göstərir. Bu gün "8 Noyabr" Elektrik Stansiyası ölkəmizin ən böyük elektrik stansiyasıdır. 1880 meqavat gücündə bu stansiya bizim enerji potensialımızı təbii olaraq daha da gücləndirəcək, enerji sisteminin səmərəliliyini artıracaq və beləliklə, Mingəçevirin nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın energetika mərkəzi olan statusunu daha da gücləndirəcək. Hazırda bizim elektrik enerjisinin 40 faizindən çoxu Mingəçevirdə istehsal olunur və əlbəttə ki, görülmüş bütün bu işlər bir daha Azərbaycanın doğru yolda olduğunu göstərir.

Mingəçevir 1970-ci illərdə Azərbaycan energetika sektorunun mərkəzi rolunu oynamışdır. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 1974-cü ildə Mingəçevirdə "Azərbaycan" İstilik Elektrik Stansiyasının təməli qoyulmuşdur və Ulu



Bu layihənin qısa müddət ərzində icra edilməsi, – energetiklər bunu yaxşı bilirlər - rekord nəticə sayıla bilər. Çünki təxminən 2 min meqavatlıq elektrik stansiyasının inşa müddəti bir neçə il davam edir – bəlkə də üç il, dörd il, beş il, bəlkə daha da çox. Misal üçün, elə sovet dövründə Mingəçevirdə “Azərbaycan” İstilik Elektrik Stansiyasının inşası 1974-cü ildə başlamışdır və birinci blok 1981-ci ildə istismara verilmişdir. Yəni, yeddi ildən sonra 300 meqavat enerji əldə edilmişdir. Biz isə iki il ərzində təxminən 2 min meqavat enerji əldə etmişik və əlbəttə ki, bunun bir çox səbəbləri var. Təbii ki, buna burada mövcud olan energetika bazamız, təcrübəmiz, Azərbaycan energetiklərinin peşəkarlığı, bilikləri, təcrübələri və əlbəttə ki, bizim beynəlxalq tərəfdaşlarımızın da töhfəsi şərait yaratdı.

Mən xüsusilə bu gün burada iştirak edən İtaliyadan və Çindən olan qonaqları salamlamaq istəyirəm. Bu stansiyanın ərsəyə gəlməsində İtaliya və Çin şirkətlərinin böyük payı var. Azərbaycan energetikləri ilə birlikdə bu gözəl işi biz qısa müddət ərzində görə bildik.

Qeyd etməliyəm ki, həm İtaliya, həm Çin Azərbaycanın strateji tərəfdaşlarıdır. Strateji tərəfdaşlıq haqqında İtaliya ilə iki, Çinlə iki bəyannamə imzalanmışdır və mənim bu ölkələrə çoxsaylı səfərlərim nəticəsində bir sıra istiqamətlər üzrə çox gözəl nəticələr əldə edilmişdir. İtaliya Azərbaycanın birnömrəli ticarət tərəfdaşıdır. Çin də ticarət tərəfdaşlarımız arasında qabaqcıl yerlərdədir. Biz İtaliya ilə xüsusilə energetika sahəsində, xam neft, təbii qaz sahəsində uzunmüddətli və strateji əməkdaşlığa bir neçə il bundan əvvəl başlamışıq. Çinlə isə bu yaxınlarda daha çox bərpaolunan enerji layihələrini birgə icra etməyə başlayırıq. Mənim aprel ayında Çinə dövlət səfərim zamanı lazım olan razılaşmalar əldə edildi. Onu da bildirməliyəm ki, Azərbaycanda bu gün yaradılan yeni Günəş elektrik stansiyalarının təchizatı böyük dərəcədə Çin şirkətləri tərəfindən təmin edilir. Yəni, bu hər iki ölkə bizim üçün həm strateji tərəfdaşdır, həm də önəmli ticarət tərəfdaşımızdır. Qeyd etdiyim kimi, siyasi əlaqələr çox yüksək səviyyədədir və biz burada çox gözəl beynəlxalq əməkdaşlıq nümunəsini görürük.

“8 Noyabr” Stansiyasının istismara verilməsi bir çox məqsədləri təmin edəcək. Qeyd etdiyim kimi, enerji sistemimizin səmərəliliyi artırılacaq, potensial, generasiya gücümüz artacaq, eyni zamanda, şərti yanacaq sərfiyyatı kəskin aşağı düşəcək və beləliklə, bu, bizə təbii qaza qənaət etmək üçün imkan yaradacaq. Çünki hər kəs yaxşı bilir ki, Azərbaycan qazına bu gün dünya bazarlarında böyük tələbat var və nə

Öndərin iştirakı ilə stansiyanın birinci bloku 1981-ci ildə istismara verilmişdir. Ondan sonra digər bloklar da istismara verilərək artıq o zaman hələ sovet dövründə bu stansiya Qafqazın önəmli energetika mərkəzlərindən birinə çevrilmişdir. Təbii olaraq müstəqilliyin ilk illərində bizdə enerji qıtlığı yaranmışdır. Orta və yaşlı nəslin nümayəndələri o illəri yaxşı xatırlayırlar ki, o vaxt hətta axşam saat 12-də televiziya verilişləri də dayandırılırdı. Çünki energetika sistemimiz lazım olan həcmdə elektrik enerjisini istehsal edə bilmirdi. Həm yanacaq nöqteyi-nəzərindən çətinliklər var idi, həm də enerji sistemimiz tam köhnəlmişdi. Yalnız Ulu Öndərin təşəbbüsü ilə yaradılmış Mingəçevir stansiyası hesabına müəyyən dərəcədə fasilələrlə olsa belə, insanlara və müəssisələrə elektrik enerjisi verilirdi. Yəni, Mingəçevirin tarixi energetika mərkəzi kimi zəngindir və burada formalaşmış güclü kadr potensialı, əlbəttə ki, bu gün də bizə əldə edilmiş uğurlara nail olmaq üçün imkan yaradır.

Biz son 20 il ərzində Azərbaycanın energetika sistemini demək olar ki, sıfırdan qurmuşuq. Ölkəmizin müxtəlif yerlərində yeni elektrik stansiyaları qurulmuşdur, eyni zamanda, Mingəçevirdə də yenidənqurma işləri aparılmışdır. Yadınızdadır, burada baş vermiş qəza nəticəsində ölkəmizin böyük hissəsi, demək olar ki, işıqsız qalmışdı. Ondan sonra praktiki tədbirlər görülməyə başlanmış və biz qısa müddət ərzində burada böyük uğurlara nail ola bilmişik.

2018-ci ildə “Azərbaycan” İstilik Elektrik Stansiyasının yenidən qurulmasının təməli qoyuldu və 2020-ci il iyunun 25-də - düz beş il bundan əvvəl burada stansiyaya yeni həyat verilmişdir. Hazırda “Azərbaycan” Elektrik Stansiyasının generasiya gücü 1800 meqavat, “8 Noyabr” Stansiyasının gücü 1880 meqavatdır, Su Elektrik Stansiyasının gücü isə 400 meqavatdan çoxdur. Beləliklə, Azərbaycanın elektrik enerjisinin 40 faizindən çoxu Mingəçevirdə istehsal olunur və qeyd etdiyim kimi, bu, nəinki Azərbaycanın, Cənubi Qafqazın əsas energetika mərkəzidir.




qədər biz daxildə təbii qaza qənaət etsək, ixrac imkanlarımız da bir o qədər artacaq. Beləliklə, burada şərti yanacağın sərfiyyatının az olması bizə əlavə qazanc gətirəcək. Təbii olaraq, biz təbii qazın qənaətini, eyni zamanda, bərpaolunan layihələrdə görürük və görəcəyik. Azərbaycan bu istiqamətdə də qabaqcıl ölkələr sırasındadır. İmzalanmış, icra edilən və icra ediləcək bərpaolunan enerji layihələri 2030-cu ilə qədər bizə 6500 meqavat yaşıl enerji verəcəkdir və əgər bu gün bizim ümumi generasiya gücümüz 9000 meqavatdırsa, bu, nə deməkdir, bunu hər kəs başa düşə bilər. Eyni zamanda, bizə təbii qaza qənaət etmək üçün imkanlar yaradılacaq və belə olan halda təbii qazımızın ixracı daha da artacaq. Yəni, bir neçə məqsəd burada təmin edilir və əlbəttə ki, bütün bu işlərin təməlində bizim düşünülmüş siyasət dayanır. Çünki biz hər istiqamət üzrə düşünülmüş siyasət və proqramlar əsasında çalışırıq.

Energetika hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Bu gün dünyada, xüsusilə Avropa məkanında və digər bölgələrdə enerji xətlərinin təhlükə altında olmasının nə qədər böyük fəsadlara gətirib çıxardığını hər kəs öz gözləri ilə görə bilər. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyini təmin edən ölkələr sırasındadır və təsadüfi deyil ki, Avropa İttifaqı tamamilə haqlı olaraq Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı adlandırır. Çünki bu gün Azərbaycan qazı 12 ölkəyə qaz kəmərləri vasitəsilə ixrac edilir. Onlardan 10-u Avropa ölkəsidir və məhz bu göstəriciyə görə, qaz təchizatımızın coğrafi əhatəsinə görə Azərbaycan bu gün dünya miqyasında qabaqcıl yerlərdədir. Əlbəttə ki, bir çox ölkə Azərbaycan qazından istifadə edib öz enerji təhlükəsizliyini təmin edir. Biz həm təbii qaz, həm xam neft, neft və neft-kimya məhsulları, müəyyən həcmdə elektrik enerjisini ixrac edirik. Ancaq qeyd etdiyim layihələr istismara veriləndən sonra biz müxtəlif elektrik kabelləri vasitəsilə yaşıl enerjini də ixrac edəcəyik. Beləliklə, ölkəmizin iqtisadi gücü, geosiyasi önəmi daha da artacaq, – halbuki bu gün də kifayət qədər yüksək səviyyədədir, – və Azərbaycan bu bölgədə sabitlik, inkişaf, tərəqqi məkanı kimi öz rolunu daha da gücləndirəcəkdir.

Bu gün dünyada gedən prosesləri hər kəs izləyir. Bizim ətrafımızda demək olar ki, münaqişələr səngimir, əksinə, yeni münaqişə zonaları açılır. Böyük fəlakətlərə və insan faciələrinə gətirən toqquşmalar, müharibələr gedir. Biz də müharibə nədir, yaxşı bilirik. Bizim torpaqlarımız uzun illər işğal altında olmuşdur və İkinci Qarabağ müharibəsində Ermənistan nəinki bizim şəhər-kəndlərimizi və yaşayış obyektlərini məqsədyönlü şəkildə atəş altında saxlayırdı, hətta buraya da – Mingəçevirə də öz raketlərini göndərməyi də unutmamışdı – əgər belə demək mümkündürsə. Bunun da məqsədi bizim enerji infrastrukturumuzu iflic vəziyyətinə salmaq idi. Hətta İkinci Qarabağ müharibəsindən əvvəl bizi hədələmək üçün bir neçə üsuldan istifadə edən Ermənistan, o cümlədən Mingəçeviri bombalamaq, burada su bəndini dağıtmaq və Mingəçevir Elektrik Stansiyasını sıradan çıxarmaq kimi təhdidlər də səsləndirirdi. Buraya, bu əraziyə düşən həm mərmilər, həm də ki, uzaqmənzilli raketlər bunun əyani sübutudur. Bu, dinc əhaliyə, mülki infrastruktura yönəlmiş təcavüz idi və hərbi cinayətdir. Ermənistanın hərbi cinayətləri təkcə bununla məhdudlaşmır. Həm Xocalı soyqırımını törədən, həm işğal dövründə bizim yaşayış məntəqələrimizi yerlə-yeksan edən, eyni zamanda, İkinci Qarabağ müharibəsi zamanı Gəncəni, Mingəçeviri, Bərdəni, Tərtəri, Ağdamı və münaqişə zonasından kifayət qədər uzaqda yerləşən bir çox yaşayış məntəqələrini atəşə tutan Ermənistan hərbi cinayətkar dövlətdir.

Yəni, bunu deməklə bir daha qeyd etmək istəyirəm ki, bu bölgənin, bu infrastruktur obyektinin ölkəmiz üçün nə qədər böyük əhəmiyyəti var. İndi isə biz sülh şəraitində yaşayırıq. Beş ildir ki, Azərbaycanda sülh tam təmin edilib və əlbəttə ki, hüdudlarımızın kənarında da nə qədər tez sülh təmin edilərsə, bir o qədər həm o ölkələr üçün, həm təbii olaraq, bizim üçün də yaxşı olacaq. Ancaq reallıq budur ki, bu gün bizim ölkəmiz sabitlik, inkişaf, tərəqqi məkanı kimi dünya miqyasında tanınır və bu adı biz öz əməyimizlə, zəhmətimizlə, düşünülmüş siyasətlə qazanmışıq. Bu gün bu stansiyanın adının seçilməsi də çox vaxt aparmadı. Təklif edilən variantlar arasında "8 Noyabr"ı mən seçdim. Çünki bu, bizim şanlı Zəfərimizin tarixidir. Zəfər xalqımıza, dövlətimizə yaraşır. Əminəm ki, bu stansiyanın ömrü uzun və fəaliyyəti uğurlu olacaq.

Bir daha sizin hər birinizi, hər birimizi bu gözəl hadisə münasibətilə təbrik edirəm. Sağ olun.

***

İtaliya Respublikasının şirkətlər və "Made in Italy" naziri **Adolfo Urso** çıxış edərək dedi:



– Bu gün burada olmağımdan və cənab Prezident İlham Əliyevlə birlikdə belə bir mühüm, elektrik enerjisi istehsal edən bu qurğunun açılışında iştirak etməkdən çox məmnunam.

Mingəçevir şəhərində tədbirdəyik. Yaxşı yadımdadır, iki il öncə şəxsən öz iştirakımla biz "Ansaldo Energia" şirkəti ilə, o cümlədən o şirkətin rəhbəri Fabbri ilə müqavilə imzaladıq və uzun vaxt çəkmədi ki, həmin layihə həyata keçirilməyə başlanıldı. Bu da bizim ölkələrimiz, müəssisələrimiz arasında əməkdaşlığın zirvəsinə çevrildi.

2000 meqavatlıq enerji imkanına malik olan bu qurğu keçmişlə müqayisədə havaya atılmaları 50 faiz azaldacaqdır. Bu, həmçinin ətraf mühitin qorunması deməkdir. Bu, olduqca vacib bir addımdır, çünki bizim energetika sahəsində olan əməkdaşlığımızı daha da gücləndirir və əlbəttə ki, bütün bunlar Azərbaycanın enerji baxımından inkişafına yönəlibdir.

Təbii ki, energetika sahəsində İtaliya ilə Azərbaycan arasında olan bu inkişaf göz qabağındadır. Cənab Prezident Əliyev elə indicə qeyd etdi ki, artıq 10 Avropa ölkəsinə Azərbaycanın təbii qazı çatdırılır. TAP boru kəməri strateji əhəmiyyətə malik boru kəməridir və qaz İtaliya ərazisindən Avropaya daxil olur. Hesab edirəm ki, bu, bizim, ümumiyyətlə, strateji tərəfdaşlığımızın enerji sahəsində olan mühüm bir hissəsidir. Bu gün bu qurğu artıq istismara verilir və bizim enerji sahəsində göstərdiyimiz daha böyük səylərimizin təzahürüdür. Bu, bizim ölkəmizə verdiyimiz töhfədir. Strateji addım atılaraq enerji təhlükəsizliyi gücləndirilir və təbii ki, bunun sayəsində, həmçinin digər sənaye və istehsal sektorlarında da inkişaf olacaqdır. Bizim liderlər - Prezident Əliyev və Baş nazir Ciorcia Meloni arasında başlanılmış strateji tərəfdaşlıq çərçivəsində bu işbirliyimiz baş tutur.

Düşünürük ki, belə bir əməkdaşlıq digər sahələrdə də olsun. Onların arasında metallurgiya, yaşıl texnologiya, xammal kimi sektorlar mövcuddur. Onlar hər iki ölkədə enerji keçidi baxımından çox əhəmiyyətlidir. Necə ki, bizim ölkədə və bütövlükdə Avropada biz buna çox sadiqik və düşünürük ki, biz, həmçinin mədəniyyət və elm sahələrində də əməkdaşlıq aparırıq. Biz bunu Bakıdakı İtaliya-Azərbaycan Universitetinin timsalında görürük. Təbii ki, həmin universitetdə gələcəkdə yeni mühəndislər formalaşacaq və Azərbaycanın inkişafına töhfə verəcəklər. Hesab edirəm ki, bu, ölkələrimiz arasında olan nəinki təhsil və mədəniyyət sahələrində, həmçinin digər sahələrdə, o cümlədən iqtisadi sahədə də əməkdaşlığa imkan yaradır.

Mən Prezident Əliyevə İtaliyaya diqqət yetirdiyinə görə təşəkkür edərək, bugünkü açılışdan çox məmnunluğumu bildirir, Baş nazir Ciorcia Meloninin salamlarını çatdırıram. Düşünürük ki, bundan sonra da hər iki ölkənin rifahı naminə əməkdaşlığımızı davam etdirəcəyik.

Mən Prezident Əliyevə Azərbaycanın bizimlə qurduğu əməkdaşlığa, bizim səfirliklə apardığı işə görə təşəkkürümü bildirirəm və səmimi-qəlbdən sizin hamınızı təbrik edirəm. Həmçinin istəyirik ki, sizin qonşu ölkədə – İranda baş verən münaqişə də səngisin, deeskalasiya olsun. Çünki bu, olduqca vacibdir. Çünki düşünürük ki, münaqişələr nə qədər çox azalarsa, diplomatiya, dialoq daha çox olarsa, bir o qədər əməkdaşlıq üçün də imkanlar yaranar. Bütün bunlar elə məfhumlardır ki, hər bir ölkənin buna ehtiyacı var. Hesab edirik ki, Azərbaycan qonşuları üçün də bir nümunə ola bilər.

Çıxışımın sonunda sizi bir daha təbrik edirəm.

***

İtaliyanın "Ansaldo Energia" şirkətinin baş icraçı direktoru **Fabrizio Fabbri** çıxış edərək dedi:



– Zati-aliləri Prezident İlham Əliyev.

Cənab nazir Adolfo Urso.

Xanımlar və cənablar.

Bu gün Mingəçevirdə belə əlamətdar bir elektrik stansiyasının açılışını qeyd etmək məqsədilə burada olmaq mənim üçün böyük şərəfdir. Bu layihə Azərbaycanın enerji təhlükəsizliyinə, davamlı inkişafa və sənaye tərəqqisinə sarsılmaz sədaqətinin rəmzidir.

"Ansaldo Energia" üçün bu gün Azərbaycanla uzunmüddətli və etibarlı əməkdaşlığımızın mühüm mərhələsidir. Əməkdaşlığımız azad edilmiş ərazilərdə dörd yarımstansiyanın avadanlıqla təmin olunması ilə başladı və o gündən etibarən daha da güclənərək inkişaf edir.





Yeni "8 Noyabr" Elektrik Stansiyası bu gün ölkədə öz növündə ən böyük və ən strateji obyektə çevrilmişdir. Bu stansiya Azərbaycan Respublikasının enerji infrastrukturunu modernləşdirmək, daha təmiz, daha etibarlı və daha səmərəli texnologiyalar tətbiq etmək istiqamətində dinamik və uzaqgörən yanaşmasının bariz nümunəsidir. Stansiyada "Ansaldo Energia" tərəfindən təchiz olunmuş dörd ədəd müasir qaz turbini və generatorlar quraşdırılıb. Bu avadanlıqlar sayəsində karbon qazı emissiyalarında ciddi azalma və təbii qaz istehlakında böyük qənaət əldə olunacaq. Bu isə ətraf mühitin qorunmasına və enerji səmərəliliyinə əlamətdar töhfədir.

Bu mühüm layihə üçün "Ansaldo Energia"nın təmin etdiyi AE94.3A qaz turbinləri yüksək istismar çevikliyi, etibarlılığı və sərfəliliyi ilə fərqlənir. Bundan əlavə, bu turbinlər təbii qazla qarışıq şəkildə 40 faizə qədər hidrogen yandırmaq imkanına malikdir. Bu xüsusiyyət stansiyanı gələcək üçün hazırlıqlı edir. Həmçinin Azərbaycanın milli iqlim hədəflərinə, eləcə də aşağıkarbonlu gələcək qurmaq istiqamətindəki genişmiqyaslı məqsədlərinə töhfə verir. Bu layihə həm texniki, həm də çatdırılma baxımından çox iddialı və çətin bir təşəbbüs olmuşdur. Layihənin cəmi iki il ərzində tam şəkildə həyata keçirilməsi və aşağı dəyəri, aşağı xərci onu oxşar layihələrlə müqayisəolunmaz edir. Qarşıya çıxan bütün çətinliklər daimi əməkdaşlıq, ortaq problemin həlli və qarşılıqlı öhdəlik sayəsində uğurla dəf edildi.

Bu gün stansiya tam fəaliyyət göstərir və avadanlıq yüksək nəticə verir. Bu, ortaq uğurdur və biz bu nailiyyəti "AzərEnerji" ilə birlikdə Azərbaycanda qeyd etməkdən qürur duyuruq.

Bu əməkdaşlıq adi təchizatçı-müştəri münasibətlərindən xeyli genişdir. O, ortaq dəyərlərə və cənab nazir Adolfo Ursonun qeyd etdiyi kimi, uzunmüddətli baxışlara əsaslanır. "Ansaldo Energia" yalnız texnologiya təqdim etmir. Biz həm də qabaqcıl təlim proqramlarına və yerli potensialın gücləndirilməsinə sərmayə qoyuruq ki, bu da Azərbaycanın enerji keçidinə uzunmüddətli dəstək verəcək.

Tərəfdaşlığımızın gücü dövlətlər səviyyəsində də öz təzahürünü tapır. Azərbaycanla İtaliya arasında möhkəmlənən əlaqələr bunun sübutudur. Zati-aliləri Prezident İlham Əliyevlə Baş nazirimiz xanım Ciorcia Meloni arasında keçirilmiş son görüş bu strateji münasibətlərin əhəmiyyətini bir daha təsdiq edir. COP29 İqlim Konfransı çərçivəsində "Ansaldo Energia" və "AzərEnerji" arasında Anlaşma Memorandumu imzalanmışdır. Bu sənəd enerji təhlükəsizliyi, enerji keçidi strategiyaları və təlim sahəsində ortaq öhdəliyimizi rəsmiləşdirmişdir. Bu, əməkdaşlığımızın innovasiya, davamlılıq və birgə gələcək məsuliyyət üzərində qurulan yeni mərhələsinə keçidi simvolizə edir.

Azərbaycan Respublikası öz strateji mövqeyi, təbii ehtiyatları və ardıcıl enerji siyasəti sayəsində Avropanın enerji təhlükəsizliyində həlledici rol oynayır. Təbii qaz təchizatçısı kimi rolu və infrastrukturun modernləşdirilməsi sahəsindəki səyləri Azərbaycanı qlobal enerji əməkdaşlığında əsas oyunçulardan birinə çevirmişdir.

Xanımlar və cənablar, "Ansaldo Energia" Azərbaycan Respublikasının innovasiya yolunun bir parçası olmaqdan qürur duyur. Bu, yalnız qabaqcıl texnologiyalarla deyil, həm də enerjinin gələcəyi ilə bağlı ortaq baxışımızla mümkündür. Biz birlikdə həm təhlükəsiz, həm də davamlı texnologiyaya və insan amilinə əsaslanan enerji əməkdaşlığı modeli qururuq. Bu tərəfdaşlığın yaradacağı yeni imkanları səbirsizliklə gözləyirik. Bu gün bu, bir layihənin sonu deyil. Bu, ortaq yolumuzun yeni bir fəslinin başlanğıcıdır.

Prezident İlham Əliyevə, cənab nazir Adolfo Ursoya, “AzərEnerji”nin rəhbərliyinə və bu möhtəşəm nəticənin əldə olunmasına töhfə verən hər kəsə təşəkkürümü ifadə etmək istəyirəm. Bu sıraya mühəndislərdən sahə işçilərinə, layihə komandalarından ölkənin milli və yerli qurumlarına qədər hamı daxildir. Sizin peşəkarlığınız, əzmkarlığınız və fədakarlığınız bizi bu gün bu uğurun şahidi olmağa gətirib çıxardı.

Hamınıza təşəkkür edirəm.

***

Çinin “Dongfang Electric İnternational Corporation” şirkətinin İdarə Heyətinin sədri **Çen Qianq** çıxış edərək dedi:



– Möhtərəm cənab Prezident İlham Əliyev.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Bu gün biz burada Azərbaycanın energetika tarixində əlamətdar bir mərhələyə – Mingəçevirdə yeni 1880 MVt gücündə elektrik stansiyasının tam istismara verilməsinə şahidlik etmək üçün toplaşmışıq.

Bu münasibətlə “Dongfang Electric İnternational Corporation” adından Azərbaycan Respublikasının Prezidentinə, dövlətinə, “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinə və tikintidə iştirak edən bütün tərəfdaşlara ən səmimi təbriklərimi, dərin hörmət və ehtiramımı bildirirəm.

Mingəçevir su anbarının yaxınlığında yerləşən və Azərbaycanın ən böyük enerji istehsalı mərkəzi olan bu müasir elektrik stansiyası bərpaolunan enerji mənbələrinin inkişafı prosesində “şəbəkə stabilizatoru” kimi mühüm rol oynayacaq. “Dongfang Electric İnternational Corporation” olaraq, “AzərEnerji” ASC tərəfindən əsas avadanlıq təchizatçısı kimi bu mühüm layihənin bizə etibar edilməsindən böyük qürur duyuruq. Bu, bizim texniki imkanlarımıza verilən dəyərin göstəricisi olmaqla yanaşı, üzərimizə düşən böyük bir məsuliyyətdir.

“Dongfang” şirkəti ilə Azərbaycanın enerji sektoru arasında uzunmüddətli və geniş əlaqələr mövcuddur. On beş il əvvəl Mingəçevir Su Elektrik Stansiyası üçün əsas hidrogenerasiya bloklarını biz təmin etmişdik. İki il əvvəl isə Azərbaycanın ən böyük Günəş enerjisi layihəsində “Dongfang” şirkəti mühəndislik, təchizat və tikinti podratçısı olmuş, bu stansiyanın açılış mərasimində hörmətli cənab Prezident şəxsən iştirak etmişdi. Bu gün isə Azərbaycanın ən böyük elektrik stansiyasını inşa edərək Çin və Azərbaycan arasındakı əməkdaşlıqda yeni bir səhifə açırıq.

2022-ci ilin sonunda Bakıda “AzərEnerji” ASC ilə müqavilə imzalayarkən bu layihənin əhəmiyyətini bir daha anladım. Şirkətimiz bu layihəyə xüsusi önəm vermişdir. Sifarişçi komandanın peşəkarlığını, layihə üzrə keyfiyyət tələblərini və icra müddətini nəzərə alaraq, biz də layihələndirmədən istehsala, logistikadan quraşdırmaya və istismar mərhələlərinə qədər bütün işlər üçün ən peşəkar komandamızı səfərbər etdik.

İki il davam edən fasiləsiz əməyin nəticəsi olaraq, layihə planında əksini tapan bütün göstəriciləri birgə səylərlə, nəhayət, reallığa çevirməyə nail olduq. Bu xüsusda “AzərEnerji” komandasına öz təşəkkürümü ifadə etmək istərdim.

Buradan Azərbaycan dövlətinə “Enerji müstəqilliyi” strategiyası çərçivəsində göstərdiyi köməyə, Çin Hökumətinə isə “Kəmər və yol” təşəbbüsü çərçivəsində göstərdiyi dəstəyə görə dərin təşəkkürümü bildirirəm. Məhz bu kömək və dəstək sayəsində transsərhəd layihələr coğrafi məhdudiyyətləri aşaraq həyata keçirilə bilmişdir.

Əminəm ki, bu yeni stansiya regional enerji əməkdaşlığı üçün nümunəvi layihəyə çevriləcək.

Qeyd etmək istərdim ki, “Dongfang” şirkəti Azərbaycan bazarında fəaliyyəti çərçivəsində hidroenerji, Günəş, külək və qaz enerjisi istehsalı daxil olmaqla sənaye zəncirinin bütün mərhələlərində texnologiyalarla ölkənizin enerji keçidinə hərtərəfli dəstək göstərməyə, Çin ilə Azərbaycan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsi istiqamətindəki fəaliyyətlərinə davam edəcək.

Sonda “8 Noyabr” Elektrik Stansiyasının təhlükəsiz və dayanıqlı şəkildə işləməsini arzulayır, eyni zamanda, onun Azərbaycanın inkişafına güclü təkan verəcəyinə inanırıq. Çinlə Azərbaycan arasındakı enerji əməkdaşlığı çərçivəsində daha böyük nailiyyətlər əldə etməyimizi və dostluq münasibətlərimizin daha da dərinləşməsini arzulayırıq.

Təşəkkür edirəm, cənab Prezident Əliyev və hər birinizə minnətdaram.

***

“AzərEnerji” ASC-nin enerjinin istehsalı operatorunun direktoru **Üzeyir Yusifov** çıxış edərək dedi:

– Hörmətli möhtərəm cənab Prezident.

Hörmətli tədbir iştirakçıları.

Əvvəlcə möhtərəm cənab Prezident, icazə verin, bu gün ölkəmizin müstəqillik dövrünün ən böyük elektrik stansiyasının istifadəyə verilməsinin açılış mərasimində şəxsən iştirak etdiyinizə görə Azərbaycan

energetikləri adından Sizə dərin təşəkkürümüzü və əməyimizi yüksək dəyərləndirərək hər zaman olduğu kimi, bizim üçün belə bir əlamətdar gündə də yanımızda olduğunuzdan qürur hiss etdiyimizi bildirim.



Tarix doğrudan da təkrar olunur. Cənubi Qafqazın hələ də ən böyük istilik elektrik stansiyası sayılan “Azərbaycan” İES-in birinci enerji bloku 1981-ci il oktyabrın 20-də məhz xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə işə salınaraq istifadəyə verilmişdir. Fəxr edirəm ki, həmin tədbirdə gənc mühəndis kimi iştirak etmək mənə də qismət olub. Oktyabrın 20-si Azərbaycan energetikasının inkişafında yeni bir mərhələnin əsasını qoydu və sonradan Zati-alinizin Sərəncamı ilə ölkəmizin energetiklərinin peşə bayramı günü kimi təsis edildi.

Keçmiş SSRİ miqyasında ümumxalq tikintisi səviyyəsində inşa edilən “Azərbaycan” İES-in mövcudluğu sovetlər birliyi dağılarkən müstəqil Azərbaycan dövlətinin enerji tələbatının əsas hissəsini qarşılaya bildi, ölkənin enerjisisteminin ən dayanıqlı və etibarlı müəssisəsi oldu.

Möhtərəm cənab Prezident, xoşbəxtik ki, Ulu Öndərin bu möhtəşəm yadigarını Sizin rəhbərliyinizlə biz energetiklər qoruyub saxlaya bildik.

2018-ci ilin iyul hadisələrindən – məlum qəzadan sonra Sizin tapşırığınızla qısa müddətdə hazırlanmış “Reabilitasiya Proqramı” çərçivəsində stansiyada yenidənqurma və əsaslı təmir işləri aparıldı, müəssisəyə ikinci nəfəs verildi. Ölkə əhalisi və iqtisadiyyatı üçün xüsusi əhəmiyyət daşıyan stansiya dayanmaq təhlükəsindən xilas edildi, ömrü ən azı 20 il uzadıldı, etibarlılıq və dayanıqlılığı təmin olundu, 620 MVt itirilmiş generasiya gücü bərpa edildi.

Ölkənin artan güc tələbatının qarşılanması, yaradılan böyük gücdə bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyasının balanslaşdırılması, enerjisistemin dayanıqlılığının təmin olunması məqsədilə tərəfimizdən daha səmərəli layihənin icrası təklifi verilmişdir. Bu məqsədlə “AzərEnerji” ASC-nin mütəxəssisləri tərəfindən faydalı iş əmsalı 35 faiz və 1 kVts elektrik istehsalına şərti yanacaq sərfiyyatı 340 qram olan “Azərbaycan” İES-in buxar turbinlərinə gücü 320 meqavat olan 4 qaz turbini inteqrasiya etməklə əlavə generasiya gücü yaratmaq, faydalı iş əmsalını 55 faizədək, şərti yanacağı isə 225 qram kilovat-saata qədər stansiyanın layihəsi hazırlandı. Zati-alinizin xeyir-duası ilə 2023-cü il fevralın 13-də “Azərbaycan” İES ərazisində əlavə 1280 MVt gücündə yeni elektrik stansiyasının tikintisinə start verildi.

44 ildən sonra Mingəçevir şəhərində ikinci dəfə böyük gücdə yeni elektrik stansiyasının tikintisində və açılış mərasimində iştirak etməkdən həqiqətən böyük qürur duyuram.

Yeni layihənin ümumi gücünün 1880 MVt-a çatdırılması məqsədilə mütəxəssislərimiz tərəfindən yeniliklər tətbiq edilmiş və texnoloji prosesin tam səmərəliliyinin təmin olunması üçün “Azərbaycan” İES-in iş prinsipinə toxunulmadan digər enerji bloklarını işlək vəziyyətdə saxlamaq şərti ilə 7-ci və 8-ci enerji bloklarının buxar turbinlərinin zəmanətli əsaslarla rekonstruksiya və modernləşdirmə işləri tam başa çatdırılmışdır. Avadanlıqlar yeniləri ilə əvəz edilmişdir. Dövretmə soyuducu su xətləri tamamilə yenilənmiş, nasoslar və soyuducu sutəmizləyici qurğular yeniləri ilə əvəz olunmuş, buxar turbininin idarəetmə, nəzarət və ölçü sistemləri tamamilə müasir texnologiyaya uyğun avadanlıqlarla təchiz edilmişdir.

Mövcud qaz turbin qurğularında ilk dəfə olaraq qaz turbinlərinin qaz təchizatında elektrik qaz kompressoru əvəzinə İtaliyanın “Franco Tosi” şirkətinin istehsalı olan iki ədəd turbokompressor qurğusundan istifadə edilir. Enerjisistemin avtomatlaşdırılması, SCADA və digər müasir idarəetmə sistemlərinin inteqrasiyası sayəsində stansiyanın təhlükəsiz, sabit və səmərəli fəaliyyəti təmin olunmuşdur.

İnteqrasiyanın nəticəsi olaraq yeni tikilən elektrik stansiyasının util qazanlarından çıxan buxar “Azərbaycan” İES-in 7 və 8 saylı buxar turbinlərinə verilir, nəticədə yeni stansiyanın şərti yanacaq sərfiyyatı “Azərbaycan” Elektrik Stansiyasının digər blokları ilə müqayisədə 115 qram azalmaqla 225 qram təşkil edir. Bu da istehsal həcmindən asılı olaraq illik 1 milyard kubmetr təbii qaza qənaət, 2 milyon tona yaxın karbon emissiyasının azalması deməkdir.

Qeyd etmək istərdim ki, yeni layihənin sınaq və işəsalma müddətində maksimal yükə çıxmadan artıq 250 milyon kubmetr təbii qaza qənaət edilmiş, istehsal olunan elektrik enerjisinin həcmi 2,8 milyard kilovat-saat təşkil etmişdir.

Layihənin ərsəyə gəlməsində milli podratçı “BCC-GROUP” və “Elektro İndustries”, İtaliyanın “Ansaldo Energia”, “AFRY” və “Franco Tosi”, Çinin “Dongfang” və “TBEA”, İspaniyanın “İDOM”, Rusiyanın “SRMZ”, Türkiyənin bir sıra aparıcı şirkətlərinin, yerli və xarici mütəxəssislərin xüsusi əməyi olmuşdur.

Dünyanın nüfuzlu enerji şirkətləri və müstəqil texniki ekspertlər – “TEPSCO” (Yaponiya), “McKinsey&Company” (ABŞ), “ABB” (İsveç), Azərbaycan Milli Elmlər Akademiyası, Enerjisistemin Texniki Şurası tərəfindən layihənin texniki-iqtisadi səmərəsi barədə müsbət rəylər verilmişdir.

Daha bir yenilik olaraq qeyd etmək istərdim ki, sınaq-sazlama tədbirləri zamanı mütəxəssislərimiz

tərəfindən əlavə 100 ton buxarın yaranması müəyyənləşdirilmişdir. Belə böyük həcmdə buxardan səmərəli istifadə məqsədəuyğun hesab edilmiş və əlavə güc əldə olunması üçün 6-cı buxar turbininə inteqrasiyası tədbirlərinə başlanılmışdır.

Bununla da artıq qalan buxardan istifadə etməklə 1880 MVt-dan əlavə, 90 MVt güc əldə olunacaq və yeni stansiyanın gücü 1970 MVt təşkil edəcəkdir. Eyni zamanda, 6 saylı buxar turbininin inteqrasiyası enerjisistemi və stansiyanı yarana biləcək yük qıtlığından qoruyaraq, istehsal edilən elektrik enerjisinin şərti yanacaq sərfinin 10-15 qram azalmasına, yəni şərti yanacaq sərfinin 210-215 qr/kVt-saata düşməsinə səbəb olacaqdır. “AzərEnerji” ASC olaraq biz bu layihənin uğurla tamamlanmasından qürur duyuruq və əminik ki, bu stansiya uzun illər Azərbaycan xalqına xidmət edəcəkdir.

Möhtərəm cənab Prezident, şəxsən Sizin qüdrətli sərkərdərliyinizlə qazanılan və xalqımızın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılan şanlı Zəfər Günümüz olan 8 Noyabr tarixi adını yeni müəssisəmizə layiq bilməyiniz əməyimizə verdiyiniz ən yüksək qiymətin təzahürüdür və bu möhtəşəm ada hər zaman öz işimizlə layiq olacağımıza Sizi əmin edirik.

Bu əlamətdar hadisə münasibətilə hamını təbrik edir, “8 Noyabr” Elektrik Stansiyasının xalqımıza və dövlətimizə uğur və rifah gətirməsini arzu edirik.

Diqqətinizə görə təşəkkür edirəm.

***

Sonra “8 Noyabr” Elektrik Stansiyasının inşasına həsr edilmiş videoçarx nümayiş olundu.







Daha sonra Prezident İlham Əliyev və İtaliyanın şirkətlər və “Made in Italy” naziri Adolfo Urso stansiyanın açılışını etdilər.

Prezident İlham Əliyev və qonaqlar Vətən müharibəsi zamanı Ermənistan tərəfindən bu stansiyaya atılan raketin düşdüyü əraziyə baxdılar.

Qeyd edək ki, 2020-ci il oktyabrın 4-də stansiyanın ərazisinə böyük dağıdıcı qüvvəyə malik “Smerç” reaktiv yaylım atəşli raket atılıb. Raket 6-cı və 7-ci enerji bloklarının arasındakı sahəyə düşüb. Bundan başqa, 2020-ci il oktyabrın 11-də ikinci dəfə atılan raket isə İdarəetmə Mərkəzinin yaxınlığına düşüb.




Müvafiq müdafiə sistemlərinin qabaqlayıcı tədbirləri nəticəsində atılmış raketlər zərərsizləşdirilib.

Sonra dövlətimizin başçısı və açılışda iştirak edən qonaqlar stansiyanın ərazisini gəziblər.











Qeyd edək ki, Prezident İlham Əliyevin 2022-ci il oktyabrın 25-də imzaladığı Sərəncamla enerji dayanıqlılığının təmin olunması, artan tələbatın qarşılanması, əlavə generasiya güclərinin yaradılması, ixrac imkanlarının artırılması, təbii qaza qənaət edilməsi və ətraf mühitin qorunması məqsədilə Mingəçevir şəhərindəki "Azərbaycan" İstilik Elektrik Stansiyasının (İES) ərazisində müstəqillik dövrünün ən böyük elektrik stansiyasının tikilməsinə qərar verilib. Azərbaycanın peşəkar mühəndislərinin təklifləri əsasında işlənilən layihənin icrasına dünyanın nüfuzlu enerji şirkətləri və müstəqil texniki ekspertləri də cəlb edilib.

Stansiyanın inşası üçün xarici ölkələrdən gəmilərlə 1500-ə yaxın konteyner mal-material gətirilib.

Çinin "Dongfang" şirkətindən alınmış, ümumilikdə 40 min kubmetr həcmində 20 min ton çəkisi olan 4 ədəd Util Qazan Çindən gətirilib.

Sifariş əsasında İtaliyanın "Ansaldo Energia" şirkəti tərəfindən hazırlanan, ümumi çəkisi 3 min tondan çox olan qaz turbinləri və generatorlar, o cümlədən köməkçi avadanlıq ikinci logistika marşrutu ilə İtaliyadan Bakı limanına çatdırılıb. Hər birinin çəkisi 300 və 400 tondan artıq olan yüklərin qabariti böyük olduğundan Mingəçevirə qədər yolboyu körpülərin altı qazılıb və keçid təmin ediləndən sonra yollar bərpa olunub.

"8 Noyabr" Elektrik Stansiyasının tikinti və quraşdırma işlərində 2500-dən çox xarici və yerli mütəxəssis çalışıb.

Stansiyanın dayanıqlı qaz təchizatı üçün 10 kilometr uzunluğunda yeni qaz kəməri inşa edilib, iki yeni qazpaylayıcı və tənzimləyici stansiya tikilib, kompressor qurğuları quraşdırılıb.

"8 Noyabr" Elektrik Stansiyasının enerjisistemə inteqrasiyası üçün "Azərbaycan" İstilik Elektrik Stansiyasının 500 və 330 kV-luq yarımstansiyaları tam yenidən qurulub. Əlavə olaraq 65,6 kilometr uzunluğunda "Mingəçevir-Samux" ötürmə xətti inşa edilib və "Samux" yarımstansiyasında yenidənqurma işləri aparılıb. O cümlədən stansiyada yanğından mühafizə, havalandırma, rəqəmsal idarəetmə, monitorinq və digər zəruri infrastruktur yaradılıb.

Adətən bu cür böyük stansiyaların tikintisi 3-5 ilə icra edildiyi halda, Azərbaycan bunu 2 il ərzində həyata keçirə bildi. Dünyanın bir çox ölkələrindəki bənzər layihələrə xərclənən vəsaitlə müqayisədə bu stansiyanın inşasına kifayət qədər az vəsait sərf olunub.

# AZƏRBAYCAN RESPUBLİKASININ PROKURORLUĞU



## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

### K.B.Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru təyin edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

**Kamran Bayram oğlu Əliyev** Azərbaycan Respublikasının Baş prokuroru təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 may 2025-ci il
№ 579

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

### K.B.Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilməsinə razılıq verilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 11-ci bəndinə və 133-cü maddəsinin III hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Kamran Bayram oğlu Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilməsinə razılıq verilsin.

**2.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Sahibə QAFAROVA,**
**Azərbaycan Respublikası Milli Məclisinin sədri**
Bakı şəhəri, 1 may 2025-ci il
№ 186-VIIQR

# 1 may 2025-ci il tarixində Baş prokuror Kamran Əliyev təyinatla bağlı Milli Məclisdə çıxış etmişdir



Mənim bu mühüm vəzifəyə yenidən təyin olunmağıma dair ali qanunvericilik orqanına təqdimatla müraciət etdiyi üçün Ali Baş Komandan, möhtərəm Prezident İlham Əliyevə öz adımdan və prokurorluq orqanlarının kollektivi adından dərin təşəkkürümü bildirirəm.

Respublikamızın bugünkü uğurlarının əsasını müasir Azərbaycanın qurucusu, hüquq sisteminin əsasını təşkil edən Konstitusiyamızın müəllifi ümummilli lider Heydər Əliyevin ölkəmizin hərtərəfli inkişafı ilə yanaşı suverenliyimizin tam bərpasına hədəflənmiş strategiyası və uzaqgörən siyasəti təşkil etməkdədir. Məhz bu strategiyanın Müzəffər Ali Baş Komandan, möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən dünyada gedən qarışıq siyasi proseslər fonunda uğurla davam etdirilməsinin, habelə balanslaşdırılmış səmərəli xarici siyasətin aparılmasının və ordu quruculuğuna verilən önəmin nəticəsidir ki, "Vətən Müharibəsi" və daha sonra lokal xarakterli anti-terror tədbirləri ilə 30 ildən çox bir müddətdə davam etmiş ərazi bütövlüyümüz və suverenliyimizlə bağlı problemlərə birdəfəlik son qoyulmuş, ölkəmizin suverenliyi və konstitusiya quruluşu bütün ərazilərimizdə tam bərpa olunub. Torpaqlarımız işğaldan azad edildikdən dərhal sonra Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə işğaldan azad olunmuş ərazilərdə uğurlu bərpa-quruculuq işlərinə başlanılıb, artıq Qarabağ və Şərqi Zəngəzura həyat qayıdıb. Prokurorluq əməkdaşlarının sosial müdafiəsi gücləndirilib, prokurorluq orqanlarının maddi-texniki bazası ən müasir tələblər səviyyəsində yenilənib, yeni prokurorluqlar – Kəlbəcər, Qubadlı, Ağdam hərbi və Xankəndi şəhər prokurorluğu təsis edilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan islahatların mütərəqqi nəticəsi kimi onun tərəfindən imzalanmış müvafiq Fərmanlarla yaradılmış "Elektron Prokurorluq" informasiya sistemi artıq 2 ildən çox bir müddətdir ki, tətbiq edilməkdədir. Siyasi iradədən qaynaqlanan hazırda davam etdirilən islahatlar bu yeni dövrdə, xüsusən də "Konstitusiya və Suverenlik ili" çərçivəsində Azərbaycan Prokurorluğu qarşısında yeni və olduqca mühüm vəzifələr qoyur.

Bu vəzifələr sırasına dövlətin təhlükəsizliyinə qəsd edən cinayətlərə qarşı mübarizənin gücləndirilməsi, dövlətçiliyin daxili və xüsusən də xarici təhdidlərdən müdafiəsi, cinayətkarlığın bütün növlərinə qarşı mübarizə və qanunçuluğun qorunmasında digər hüquq-mühafizə orqanları, o cümlədən Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti ilə birgə səylərin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin edilməsi, dövlət və özəl sektorda korrupsiyanın bütün təzahür formalarına, eləcə də vəzifəli şəxslər tərəfindən törədilən cinayətlərə qarşı ciddi mübarizə tədbirlərinin həyata keçirilməsi, eyni zamanda kölgə iqtisadiyyatına qarşı kəsərli mübarizənin aparılması, hazırda ölkəmizdə reallaşdırılan sosial-iqtisadi inkişafa hədəflənən islahatlar kontekstində sahibkarların hüquqlarının qorunması, özəl sektorun inkişafına mane olan hüquqpozmaların qarşısı qətiyyətlə alınmaqla əlverişli biznes mühitinin təmin edilməsi. məhkəmələrdə dövlət ittihamının müdafiə edilməsi işinin təkmilləşdirilməsi, vahid və balanslaşdırılmış cəza siyasətinin təmin olunması istiqamətində tədbirlərin görülməsi, habelə cəza təyini və cəzadan azad edilmə halları zamanı ədalət prinsipinin tam təmin edilməsi, əhalinin hüquqi savadının artırılması məqsədilə maarifləndirmə tədbirlərinin genişləndirilməsi, habelə əhalinin həssas təbəqəsinin, xüsusən uşaq, qadın, yaşlı və digər qrup şəxslərin hüquqlarının ən yüksək səviyyədə qorunmasının təmin edilməsi, dövlətə və dövlətçiliyə sadiq gənc hüquqşünasların yetişdirilməsi, onların prokurorluq orqanlarında şəffaf prosedurlar əsasında işə qəbul edilməsi, müasir dövrün tələbinə uyğun olaraq prokurorluq əməkdaşlarının rəqəmsal savadlılığının artırılması, layiqli kadrların vəzifələrdə irəli çəkilməsinin diqqətdə saxlanılması. "Elektron prokurorluq" informasiya sistemi daim təkmilləşdirilməklə süni intellektin istifadəsinin təmin edilməsi, ölkə üzrə rəqəmsal cinayət prosesinin tətbiqinə nail olunması və ikitərəfli və çoxtərəfli əlaqələri inkişaf etdirməklə beynəlxalq əməkdaşlığın gücləndirilməsi, beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsi və qabaqcıl təcrübənin öyrənilərək tətbiqinin təmin edilməsi daxildir.

AZƏRBAYCAN RESPUBLİKASI
«AZƏRBAYCAN HAVA YOLLARI» QAPALI SƏHMDAR CƏMİYYƏTİNİN
MİLLİ AVİASİYA AKADEMİYASI

AZ-1045, Bakı şəhəri,
Mərdəkan pr., 30

Tel.: +994 (12) 497-28-29, Faks: 497-28-29
Elektron poçtu: mail@naa.edu.az

« 02 » 05 2025 il

№ 235

Azərbaycan Respublikasının Baş prokuroru
cənab Kamran Əliyevə

**Hörmətli Kamran Bayram oğlu,**

Sizi Azərbaycan Respublikası Prezidentinin 01 may 2025-ci il tarixli Sərəncamı ilə yenidən Baş prokuror təyin edilməyiniz münasibətilə təbrik edir, çətin və şərəfli işinizdə uğurlar arzulayırıq.

İnanırıq ki, ötən müddət ərzində olduğu kimi növbəti beşillikdə də öz fəaliyyətinizi Sizə göstərilən ali etimada layiq səviyyədə davam etdirəcək, məsuliyyətli vəzifənizlə dövlətimizə və xalqımıza ləyaqətlə xidmət edəcəksiniz.

Milli Aviasiya Akademiyası ilə Azərbaycan Respublikasının Baş Prokurorluğu arasında birgə əməkdaşlığın bundan sonra daha da yüksək müstəvilərdə davam etdirilməsinə ümid edirik.

**Hörmətlə,**

**Rektor, akademik** **Arif Paşayev**

AZƏRBAYCAN RESPUBLİKASI
KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİ

Poçt indeksi AZ-1005, Bakı şəhəri
Gənclər Meydanı, 1

Tel: (994 12) 492 88 41
http://www.constcourt.gov.az

«01» may 2025 il

№ 1-7/2-01-242/2025

Azərbaycan Respublikasının
Baş prokuroru
I dərəcəli dövlət ədliyyə müşaviri
cənab Kamran Əliyevə

Hörmətli Kamran müəllim,

Sizi Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə yenidən təyin olunmağınız münasibətilə təbrik edirəm.

Prokurorluq orqanlarında məsul vəzifələrdə çoxillik fəaliyyətiniz müddətində dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunması, ədalətin bərqərar olunması naminə görülən işlərdə daim yüksək peşəkarlıq nümayiş etdirmiş, dövlət başçısı tərəfindən Sizə göstərilən etimadı layiqincə doğrultmusunuz.

Əminik ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qüdrətlənməsi, dövlətçiliyimizin möhkəmləndirilməsi, konstitusiyanın aliliyinin və qanunçuluğun təmin edilməsi, ölkəmizdə ədalətin qorunmasına yönəlmiş fəaliyyətinizi bundan sonra da uğurla davam etdirəcək, zəngin təcrübənizi əsirgəməyəcəksiniz.

Bir daha Sizi təbrik edir, möhkəm sağlamlıq və məsul fəaliyyətinizdə yeni nailiyyətlər arzulayıram.

Hörmətlə,

Fərhad Abdullayev

01.05.2025.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Kamran Əliyevə**

**Hörmətli Kamran müəllim!**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 01 may 2025-ci il tarixli Sərəncamla yenidən Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilməyiniz münasibəti ilə səmimi-qəlbdən təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı, dövlətçiliyimizin maraqlarına xidmət edən məsul və şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Sizə yenidən etimad göstərərək bu ali vəzifəyə təyin etdiyinə görə Zati alilərinə dərin minnətdarlığımı və ehtiramımı çatdırmaqla yanaşı, bu böyük etimadı prokurorluq orqanlarının fəaliyyətinə, onun kollektivinin əməyinə verilən yüksək qiymət kimi dəyərləndirirəm.

Danılmaz bir həqiqətdir ki, Azərbaycan Respublikası Prokurorluğu orqanlarının dövlətçiliyimizin maraqlarına, qanunun aliliyi və insan hüquqlarının hərtərəfli müdafiəsi kimi müqəddəs amallara xidmət edən dövlət təsisatı kimi tamamilə yenidən formalaşması xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə sıx bağlıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fəaliyyəti dövründə Prokurorluq orqanları daim dövlət səviyyəsində qayğı ilə əhatə olunmaqla, onun fəaliyyətinin hərtərəfli müasirləşməsi və təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, yeni informasiya texnologiyalarının tətbiqi istiqamətində ardıcıl tədbirlər bu gün də uğurla davam etdirilməkdədir.

Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsində işlədiyiniz ötən dövrdə bilavasitə rəhbərliyinizlə həyata keçirilən tədbirlər cəmiyyətimizdə prokurorluğun rolunun yeni müstəviyə qaldırılması, bütün fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin əhəmiyyətli dərəcədə yüksəldilməsi ilə nəticələnmişdir.

**Hörmətli Kamran müəllim!**

Sizi yenidən Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyinatınız münasibəti ilə bir daha ürəkdən təbrik edir və əminliyimi bildirirəm ki, dövlətçilik ideyalarına və Heydər Əliyev siyasi kursuna sadiqliyi ilə seçilən Prokurorluq orqanları həmişə olduğu kimi bundan sonra da Sizin rəhbərliyinizlə öz fəaliyyətini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək tələbləri səviyyəsində davam etdirməklə dövlət müstəqilliyimizin cinayətkar qəsdlərdən qorunması, dayanıqlı ictimai-siyasi sabitliyin və insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi işinə öz layiqli töhfəsini verəcəkdir.

**Azərbaycan Respublikasının**
**Əməkdar hüquqşünası,**
**I dərəcəli dövlət ədliyyə müşaviri, Zakir Qaralov**

01 may 2025-ci il

YARGITAY CUMHURİYET BAŞSAVCILIĞI

*Sayın Kamran Aliyev*
*Azerbaycan Cumhuriyeti Başsavcısı*

*2 Mayıs 2025*

*Kıymetli Dostum,*
*Değerli Meslektaşım,*
*Sayın Kamran Aliyev,*

*Türkiye Cumhuriyeti Yargıtay Cumhuriyet Başsavcılığı ve şahsım adına zatıâlinize en içten selamlarımı sunarım.*

*Azerbaycan Cumhuriyeti'nin en yüksek yargı makamlarından biri olan Başsavcılık görevine yeniden atanmanız vesilesiyle, zatıâlinizi ve değerli teşkilatınızı yürekten tebrik ederim.*

*Göreve yeniden atanmanız, hem zatıâlinize duyulan yüksek güvenin hem de adaletin tesisi, hukukun üstünlüğü ve kamu hizmetinde tarafsızlık ilkelerine bağlı kararlı tutumunuzun açık bir göstergesidir.*

*Özellikle Azerbaycan Cumhuriyeti Başsavcılığı'nın son dönemde dijitalleşme, şeffaflık ve etkinlik yönünde attığı adımlar; hukuk devleti ilkesine, insan haklarına saygıya ve demokratik değerlere olan bağlılığınızın somut bir yansımasıdır.*

*Zatıâlinizin liderliğinde yürütülen ceza adaleti alanındaki reformların, hem Azerbaycan halkının adalete olan güvenini artıracağına hem de bölgesel ve uluslararası düzeyde örnek uygulamalara öncülük edeceğine olan inancım tamdır.*

*"Bir millet, iki devlet" şiarı temelinde kurumlarımız arasında mevcut dostane ilişkilerimizin ve iş birliğimizin bundan sonra da güçlenerek devam edeceğine yürekten inanıyorum.*

*Bu vesileyle, yeni görevinizde üstün başarılar diliyor; sağlık, huzur ve çalışmalarınızda kolaylıklar temenni ediyorum.*

*En kısa zamanda sizleri ülkemizde ağırlamaktan onur ve mutluluk duyacağım.*

*Saygılarımla,*

***Muhsin Şentürk***
***Türkiye Cumhuriyeti***
***Yargıtay Cumhuriyet Başsavcısı***

Генеральная прокуратура
Российской Федерации

ул. Б. Дмитровка, 15а, строен. 1,
Москва, Россия, ГСП-3, 125993

12.05.2025 № Исорг-83/1-3958-25/

На №

Генеральному прокурору
Азербайджанской Республики

Алиеву К.Б.

Уважаемый Камран Байрам оглу, дорогой друг!

Примите мои поздравления по случаю Вашего назначения на должность Генерального прокурора Азербайджанской Республики на новый срок.

Убежден, что Ваши многолетний опыт и профессионализм будут и впредь способствовать консолидации усилий в борьбе с новыми вызовами транснациональной преступности.

Органы прокуратуры наших государств связывают основанные на взаимопонимании и уважении крепкие отношения.

Со своей стороны выражаю готовность к продолжению активного сотрудничества и реализации совместных мероприятий как в двустороннем, так и в многостороннем форматах.

Желаю Вам крепкого здоровья, успехов, твердости духа и неиссякаемой энергии!

Сувашеевая,

Генеральный прокурор
Российской Федерации — И.В. Краснов

Генеральная прокуратура Российской Федерации * ОГРН 1037739514196

بسم الله الرحمن الرحيم

المملكة العربيّة السعودية
النيـــابة العـــامة
(٢٤٨)

الرقـــم :
التـــاريـــخ:
المشفوعات:

**Your Excellency, Dr. Kamran Aliyev,**

**Prosecutor General of the Republic of Azerbaijan**

I am pleased to extend to Your Excellency my warmest congratulations and sincerest wishes on your reappointment as the Prosecutor General of the Republic of Azerbaijan. I look forward to the continued cooperation between our respective prosecutions, and I wish Your Excellency continued success and prosperity.

**Please accept Your Excellency, the highest appreciation and sincerest respect.**

**Attorney General**
**of the kingdom of Saudi Arabia**

**Saud Abdullah Almuejab**

MINISTERUL PUBLIC

PROSECUTOR'S OFFICE ATTACHED TO THE HIGH COURT
OF CASSATION AND JUSTICE

OFFICE OF THE PROSECUTOR GENERAL

Bucharest, 07 May 2025

**To: Kamran Aliyev,**
**Prosecutor General**
**Prosecutor General's Office of Azerbaijan**

*Dear Mr. Prosecutor General,*

On behalf of the Prosecutor's Office by the High Court of Cassation and Justice of Romania, it is my pleasure to express my warmest congratulations on your recent reappointment as Prosecutor General of Azerbaijan.

I wish you a fruitful term of office, marked by professional accomplishments and the achievement of the goals you have set yourself.

I would like to take profit of this excellent opportunity to give expression to our Memorandum of Understanding that we signed last year and to extend to you an invitation to make an official visit to Bucharest on a date we will mutually agree on, in June 2025.

I express my conviction that this visit will represent an excellent opportunity to strengthen relations between the Prosecutor's General Office of Azerbaijan and the Prosecutor's Office by the High Court of Cassation and Justice in Romania, as well as to discuss in detail our common projects and future prospects.

I take this opportunity to assure you, Mr. Prosecutor General, of my highest consideration.

Your sincerely,

**Alex Florența**
**Prosecutor General**

ROMANIA, Bucharest, 12-14 Libertății Blvd, District 5

**TÜRKMENISTANYŇ BAŞ PROKURATURASY**

744000, Aşgabat şäheri, Seyitnazar Seydi köçesi, 4-nji jaýy
Telefon: (+993 12) 92-34-72; Faks: (+993 12) 92-44-72

**OFFICE OF GENERAL PROSECUTOR OF TURKMENISTAN**

4th building, Seyitnazar Seydi street, Ashgabat city, 744000
Telephone: (+993 12) 92-34-72; Fax: (+993 12) 92-44-72

«05» 05 2025 ý. № 12/01-25

**Генеральному прокурору**
**Азербайджанской Республики**
**Алиеву К.Б.**

**Уважаемый Камран Байрам оглы!**

От имени Генеральной прокуратуры Туркменистана и от себя лично искренне поздравляю Вас с вновь назначением на высокую и ответственную должность Генерального прокурора Азербайджанской Республики.

Ваше повторное назначение является свидетельством доверия со стороны руководства страны, признанием Вашего профессионализма, принципиальности и преданности делу укрепления законности и правопорядка.

Уверен, что под Вашим руководством прокуратура Азербайджанской Республики и впредь будет успешно выполнять возложенные на неё задачи по обеспечению верховенства закона и защиты прав граждан.

Выражаю уверенность в дальнейшем укреплении конструктивного сотрудничества между нашими ведомствами на благо наших государств.

Желаю Вам крепкого здоровья, благополучия и новых успехов в государственной деятельности.

**С уважением и наилучшими пожеланиями,**

**Генеральный прокурор**
**Туркменистана** **Б.Р.Мухамедов**

**КЫРГЫЗ РЕСПУБЛИКАСЫНЫН БАШКЫ ПРОКУРОРУ**

**ГЕНЕРАЛЬНЫЙ ПРОКУРОР КЫРГЫЗСКОЙ РЕСПУБЛИКИ**

**PROSECUTOR GENERAL OF THE KYRGYZ REPUBLIC**

720044, Бишкек ш.
Токтоналиев көч., 139
Тел/факс: +996 (312) 54-24-63

720044, г. Бишкек
ул. Токтоналиева, 139
Тел/факс: +996 (312) 54-24-63

720044, Bishkek
Toktonaliev St, 139
Office/fax: +996 (312) 54-24-63

"__12__" __05__ 2025

Генеральному прокурору
Азербайджанской Республики

**Алиеву К.Б.**

**Уважаемый Кямран Байрам оглы!**

Искренне поздравляю Вас по случаю переназначения на высокий и ответственный пост Генерального прокурора Азербайджанской Республики.

Ваш богатый профессиональный опыт, высокий уровень компетентности и преданность делу служения закону заслуженно нашли отражение в оказанном Вам доверии.

Придаю особое значение дальнейшему укреплению двустороннего сотрудничества между нашими ведомствами, развитию конструктивного взаимодействия в сфере противодействия преступности, в том числе в рамках международных и региональных организаций.

Надеюсь, что совместными усилиями мы продолжим укреплять правовые основы партнерства между Кыргызстаном и Азербайджаном в духе взаимного уважения и доверия.

Желаю Вам крепкого здоровья, семейного благополучия и новых успехов в профессиональной деятельности.

***С уважением,***

**М.К. Асаналиев**

# Baş prokurorun yerlərdə qəbulları

## YEVLAX RAYONU



Aprelin 11-də Baş prokuror Kamran Əliyev Yevlax rayon prokurorluğunun inzibati binasında Yevlax, Ağdam, Goranboy, Naftalan, Tərtər rayon, Mingəçevir şəhər və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.





Qəbulda iştirak edən 41 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.




## QOBUSTAN RAYONU



Mayın 13-də Baş prokuror Kamran Əliyev Qobustan rayon prokurorluğunun inzibati binasında Qobustan, Şamaxı, Ağsu rayon və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 21 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı





və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.




## NİZAMİ RAYONU





Mayın 16-da Baş prokuror Kamran Əliyev Bakı şəhəri Nizami rayon prokurorluğunun inzibati binasında Nizami rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 29 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.



## LƏNKƏRAN RAYONU



İyunun 3-də Baş prokuror Kamran Əliyev Lənkəran rayon prokurorluğunun inzibati binasında Lənkəran, Astara, Lerik rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 18 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və





törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## GƏDƏBƏY RAYONU



İyunun 20-də Baş prokuror Kamran Əliyev Gədəbəy rayon prokurorluğunun inzibati binasında Gədəbəy, Daşkəsən, Şəmkir, Tovuz, Ağstafa, Qazax rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 57 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə





dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## BİNƏQƏDİ RAYONU

İyunun 24-də Baş prokuror Kamran Əliyev Bakı şəhəri Binəqədi rayon prokurorluğunun inzibati binasında Binəqədi rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 23 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.





**Qəbullardan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.**

# Baş prokuror Aleksandr Zuyevlə görüşüb



Aprelin 11-də Baş prokuror Kamran Əliyev BMT-nin qanunun aliliyi və təhlükəsizlik məsələləri üzrə Baş katibinin köməkçisi Aleksandr Zuyev ilə görüş keçirib. Baş prokuror qonağı salamlayaraq, Azərbaycanla BMT arasında formalaşmış səmərəli tərəfdaşlığı yüksək qiymətləndirib.



Kamran Əliyev 2024-cü ilin noyabr ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Bakıda təşkil olunmuş COP29 Konfransının böyük uğurla keçirilməsini və onun mühüm nəticələrini vurğulayıb.

Aleksandr Zuyev COP29-un yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək, konfrans çərçivəsində Azərbaycan Respublikasının Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən birgə təşkil olunmuş hüquq-mühafizə orqanlarının iqlim dəyişikliyi ilə mübarizədə roluna həsr olunmuş yüksək səviyyəli plenar iclasın uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırıb.

Görüşdə həmçinin 2025-ci ildə Braziliyanın Belem şəhərində keçiriləcək COP30 Konfransı ilə bağlı hazırlıq prosesi müzakirə olunmuş, "Troyka" prinsipi əsasında BƏƏ, Azərbaycan və Braziliya arasında əməkdaşlığın davam etdirilməsi və bu çərçivədə hüquq-mühafizə orqanlarının iştirakını təmin edən növbəti yüksək səviyyəli tədbirin təşkili ilə bağlı məsələlərə toxunulub.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər müzakirə olunub, o cümlədən Azərbaycanın prokurorluq əməkdaşlarının BMT-nin müxtəlif institutlarında təlim və ezam olunması imkanları da nəzərdən keçirilib.

# Baş prokuror Kamran Əliyev Xankəndində keçirilən “Heydər Əliyev və Suveren Azərbaycan” mövzusunda konfransda iştirak etmişdir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə əlaqədar ölkəmizdə silsilə tədbirlər həyata keçirilmişdir.

Bu çərçivədə, aprelin 14-də Azərbaycan Respublikasının Baş Prokurorluğu və Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı, Qarabağ Universitetinin tərəfdaşlığı ilə





Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində “Heydər Əliyev və Suveren Azərbaycan” mövzusunda konfrans keçirilib.

Konfransda Baş prokuror Kamran Əliyev, Elm və təhsil naziri Emin Əmrullayev, dövlət rəsmiləri, hüquqşünaslar, ali təhsil müəssisələri, qeyri-hökumət təşkilatları və medianın nümayəndələri, eləcə də gənc tədqiqatçılar iştirak etmişdir.

Konfransdan əvvəl Ulu Öndər Heydər Əliyevin büstü ziyarət edilərək önünə gül dəstələri qoyulub, daha sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Konfransı giriş nitqi ilə açan Qarabağ Universitetinin rektoru Şahin Bayramov çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın suverenliyinin tam bərpasından sonra Xankəndidə fəaliyyətə başlayan Qarabağ Universitetinin qarşısında dayanan prioritetlərdən bəhs edib. Rektor çıxışında qeyd edib ki, Qarabağ Universiteti yalnız ali təhsil müəssisəsi kimi deyil, həm də regionun elmi-intellektual mərkəzi kimi formalaşmaq yolundadır.

Şahin Bayramov xüsusilə vurğulayıb ki, Universitetin fəaliyyətində Heydər Əliyev irsinin, dövlətçilik prinsiplərinin və suverenlik dəyərlərinin təbliği əsas istiqamətlərdəndir.



Elm və təhsil naziri Emin Əmrullayev çıxış edərək Heydər Əliyev irsinin təhsil sistemində milli ideologiyanın və dövlətçilik dəyərlərinin formalaşmasındakı rolunu diqqətə çatdırıb. O, qeyd edib ki, gənc nəslin tərbiyəsi mühüm əhəmiyyət kəsb edir, hər bir gəncimiz tariximizə ehtiramla yanaşıb onu



dərindən mənimsəməli, xüsusən xalqımızın qanı bahasına əldə edilmiş suverenliyimizin təminatını özlərinə ən ümdə məqsəd bilməlidirlər.



Nazir, həmçinin, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində – o cümlədən Qarabağda – təhsil infrastrukturunun yenidən qurulmasının və təhsilin keyfiyyətli şəkildə bərpasının dövlət siyasətinin əsas prioritetlərindən olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu ərazilərdə təhsil sistemi yalnız fiziki olaraq deyil, həm də mənəvi və ideoloji cəhətdən tam suveren Azərbaycan modelinə uyğun şəkildə yenidən formalaşdırılır.



Baş prokuror Kamran Əliyev öz çıxışında Ulu Öndər Heydər Əliyevin suveren Azərbaycanın hüquqi əsaslarının formalaşdırılmasında müstəsna tarixi rolunu, Qarabağ bölgəsinə və ümumilikdə ərazi bütövlüyümüzə dair prinsipial mövqeyini qeyd edərək, bu siyasətin günümüzdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib.

Çıxışında Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsinə geniş yer ayıran Kamran Əliyev vurğulayıb ki, müasir Azərbaycanın hüquqi-siyasi dayaqları məhz onun müəyyənləşdirdiyi strateji xəttin nəticəsidir. O qeyd edib ki, 1995-ci il Konstitusiyası və prokurorluq orqanlarının yenidən qurulması bu siyasətin mühüm elementlərindəndir.

Kamran Əliyev tədbirin məhz bu şəhərdə keçirilməsinin xüsusi önəm daşıdığını bildirib. O qeyd edib ki, bu konfrans suverenliyin tam bərpasının, hüquqi dövlət quruculuğunun və qanunun aliliyinin təcəssümüdür.

Baş prokuror bildirib ki, Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizin hüquqi əsaslarını və suverenliyini təmin edən ali sənəddir. O, 1995-ci ildə qəbul edilmiş Konstitusiyanın Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq ölkənin inkişafında dönüş nöqtəsinə çevrildiyini vurğulayıb.

Həmçinin Baş prokuror qeyd edib ki, hüquq-mühafizə orqanları, xüsusilə də prokurorluq, dövlətin suverenliyinin və hüquqi əsaslarının qorunmasında önəmli missiya daşıyır. O bildirib ki, bu orqanların fəaliyyətinin təkmilləşdirilməsi dövlətin dayanıqlığının və vətəndaşların hüquqlarının təminatıdır.







Kamran Əliyev Qarabağ Universitetində hüquq ixtisasının tədrisinin başlanmasını yüksək qiymətləndirərək qeyd edib ki, bu, regionda hüquqi şüurun formalaşdırılmasına və gələcək hüquqşünas kadrların hazırlanmasına xidmət edəcək. O əlavə edib ki, bu təşəbbüs suverenliyin bərpası ilə paralel həyata keçirilən vacib addımdır.

Baş prokuror qeyd edib ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin ayrılmaz hissəsi olan Birinci vitse-prezident Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti dövlətçiliyimizin möhkəmləndirilməsində, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında, təhsilin, elmin, mədəniyyətin və sosial rifahın inkişafında müstəsna rol oynayır. Onun təşəbbüsləri və həyata keçirdiyi genişmiqyaslı layihələr Azərbaycan xalqının rifahına, eyni zamanda beynəlxalq arenada ölkəmizin müsbət imicinin güclənməsinə mühüm töhfə verir.

Kamran Əliyev, xüsusilə vurğulayıb ki, Heydər Əliyev Fondu regionların sosial-iqtisadi inkişafında, işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin dəstəklənməsində və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində əvəzsiz rol oynayır. Bu fəaliyyət Azərbaycan dövlətinin humanist və inklüziv mahiyyətini bariz şəkildə nümayiş etdirir.

Baş prokuror Azərbaycan Respublikasının Konstitusiyasının qəbulunun müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olması ilə yanaşı, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biri olduğunu vurğulayıb.

Həmçinin çıxışda Ali Baş Komandanın rəhbərliyi altında 2020-ci ildə Azərbaycan Ordusunun Ermənistan Respublikasının Silahlı qüvvələrinə qarşı əks-hücum həmləsi ilə başladılmış "44 günlük Vətən" müharibəsi və 19-20 sentyabr 2023-cü ildə Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən həyata keçirilən lokal anti-terror tədbirləri nəticəsində əldə edilmiş tarixi qələbənin 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad edilməsi və dövlətimizin ərazi bütövlüyünün tam bərpa olunması ilə yanaşı milli qürurumuzun bərpası, həm də dünyaya ədalətin gec ya da tez bərqərar olduğuna dair bir mesaj olduğu bildirilib.

Tarixə nəzər salan Baş prokuror, SSRİ Nazirlər Sovetinin 14 oktyabr 1988-ci il tarixli qərarı ilə Xankəndi Pedaqoji İnstitutunun fəaliyyətinin dayandırılmasından illər sonra, Prezident İlham Əliyevin 2023-cü il noyabrın 28-də "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalamasını və 2024-cü ilin sentyabr ayının 20-də isə Universitetin təmirindən sonra, açılışında şəxsən iştirak edərək, müəllim və tələbə heyəti ilə görüşməsinin növbəti dəfə tarixi ədalətin bərqərar edilməsi kimi qiymətləndirib.



Tədbirdə həmçinin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov çıxış edib. O, çıxışında Qarabağın suveren Azərbaycan dövləti çərçivəsində inteqrasiyası, dövlət idarəçiliyinin bərpası və bu istiqamətdə həyata keçirilən kompleks tədbirlər barədə məlumat verib, Heydər Əliyev irsinin bu prosesdə yolgöstərici rolunu xüsusi qeyd edib.

Konfrans çərçivəsində "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin direktoru Telman Kərimli, Xankəndi şəhər məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü İlkin Abdullayev, Xankəndi şəhər prokuroru Rəşadət Orucov və Qarabağ Universitetinin Humanitar















və sosial elmlər fakültəsinin tarix müəllimi Bilal Dədəyev çıxış edərək Heydər Əliyevin dövlətçilik fəlsəfəsi, hüquqi islahatlara yanaşması və suverenliyin qorunması istiqamətində atdığı addımlardan ətraflı bəhs ediblər.

Məruzəçilər 1995-ci il Konstitusiyasının qəbulu ilə əsaslanan hüquqi bazanın bu gün də ölkənin inkişafına möhkəm zəmin yaratdığını bildiriblər.

Daha sonra Qarabağ Universitetinin “Maarifləndirmə və hüquq mühafizə tədbirləri yolu ilə ətraf mühitin gücləndirilməsi” (ECOLEAD) layihəsinə qoşulmasına dair tərəfdaşlar adından Baş prokurorunun müavini Heydər Məmmədovla həmin təhsil müəssisəsinin rektoru Şahin Bayramov arasında memorandum imzalanıb.

Qeyd edilib ki, ilk olaraq 24 may 2024-cü il tarixdə Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universiteti arasında imzalanmış memoranduma 2024-cü ilin avqust ayının 16-da Naxçıvan Dövlət Universiteti də qoşulmuşdur.

Konfransda Baş Prokurorluq və Azərbaycan Televiziyası QSC ilə birgə ərsəyə gətirilmiş “Azərbaycanın suverenlik yolu” adlı qısametrajlı sənədli film nümayiş etdirilib.

Film ölkəmizin müstəqilliyə gedən yolunu, hüquqi dövlət quruculuğu prosesini və suverenliyin təmin olunmasında hüquq sisteminin rolunu əks etdirir.



# Kamran Əliyev Qarabağ Universitetində tələbələrlə görüşdü



Aprelin 14-də Azərbaycan Respublikasının Baş Prokurorluğu və Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı, Qarabağ Universitetinin tərəfdaşlığı ilə Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində “Heydər Əliyev və Suveren Azərbaycan” mövzusunda konfrans keçirilən konfransda Baş prokuror Kamran Əliyev çıxış edib.

Baş prokuror Qarabağ Universitetinin tələbələrinə dövlətçiliyin əsasları, hüquq sisteminin rolu və gənclərin bu prosesdə iştirakı barədə tövsiyələr verib. O bildirib ki, müasir hüquq sistemində gənclərin rolu artmaqdadır və onların bilikli, vətənpərvər kadrlar kimi yetişməsi prioritet məsələdir.

Kamran Əliyev vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyev gənclərin cəmiyyətin aparıcı qüvvəsi olduğunu hər zaman xüsusi olaraq qeyd edib, onların hərtərəfli inkişafı üçün mühüm dövlət proqramlarının həyata keçirilməsinə rəhbərlik edib. Ulu Öndərin bu strateji xətti bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Baş prokuror çıxışında vurğulayıb ki, ölkəmizin gələcək hüquq sisteminin möhkəm təməllər üzərində qurulması, ilk növbədə, gənc hüquqşünasların vicdanlı, ədalətli və yüksək peşə hazırlığına malik kadrlar kimi yetişdirilməsindən asılıdır. O, tələbələri hüquqi biliklərini daim artırmağa, qanunun aliliyini rəhbər tutmağa, insan hüquq və azadlıqlarının müdafiəsinə sadiq qalmağa səsləyib.









# Baş prokuror Kamran Əliyev Xankəndi şəhərində əməliyyat müşavirəsi keçirib

Cari ilin 14 aprel tarixində Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Xankəndi şəhər prokurorluğunda Baş Prokurorluğun əməkdaşları, Xankəndi şəhər, Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Kəlbəcər, Qubadlı, Laçın, Şuşa, Zəngilan rayon, eləcə də Ağdam, Füzuli, Kəlbəcər, Qubadlı və Tərtər həbi prokurorlarının iştirakı ilə əməliyyat müşavirəsi keçirilib.



Müşavirədə işğaldan azad edilmiş ərazilərdə prokurorluq orqanlarının fəaliyyətinin təşkili, hüquq-mühafizə sisteminin institusional dayanıqlığının






təmin olunması, cinayətkarlığa qarşı mübarizənin vəziyyəti və əhalinin hüquqlarının müdafiəsi məsələləri ətraflı müzakirə olunub.

Baş prokuror çıxışında həmçinin, işğaldan azad edilmiş ərazilərdə qanunun aliliyinin tam şəkildə təmin olunması istiqamətində qarşıda duran vəzifələri diqqətə çatdırıb.

Kamran Əliyev vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərdə hüquq-mühafizə sisteminin fəaliyyəti dövlətin suverenliyinin və hüquqi təsisatlarının real təcəssümüdür.

Müşavirə çərçivəsində xüsusi vurğulanan məsələlərdən biri də yerli əhali ilə qarşılıqlı etimada əsaslanan hüquq münasibətlərinin qurulması və cinayətkarlığa qarşı mübarizə tədbirlərinin gücləndirilməsi olub.





# Baş prokuror Milli Aviasiya Akademiyasında mühazirə oxuyub

Aprelin 18-də Milli Aviasiya Akademiyasında "Rəqəmsal dövr və hüquq. Yeni çağırışlar" mövzusunda mühazirə təşkil olunub.

Tədbirdə Akademiyanın professor-müəllim heyəti, tələbələr, Baş Prokurorluğun əməkdaşları, hüquqşünaslar və media nümayəndələri iştirak ediblər.

Görüşü Milli Aviasiya Akademiyasının birinci prorektoru, professor Ədalət Səmədov açaraq, akademiyanın rektoru, akademik Arif Mircəlal oğlu Paşayevin salamlarını çatdırıb və iştirakçılara uğurlar arzulayıb.







Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev qeyd edib ki, 2021-ci ildən etibarən Baş Prokurorluqla Milli Aviasiya Akademiyası arasında qurulan əməkdaşlıq əlaqələri bu gün uğurla davam edir və yeni məzmunla zənginləşir.

Baş prokuror daha sonra "Rəqəmsal dövr və hüquq. Yeni çağırışlar" mövzusunda mühazirə oxuyaraq, rəqəmsallaşmanın hüquq sahəsində yaratdığı imkanlar və qarşıya çıxan çağırışlar barədə geniş məlumat verib.






Mühazirə zamanı rəqəmsallaşma ilə əlaqədar qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsi məqsədilə Baş Prokurorluq tərəfindən hazırlanaraq müzakirə olunması üçün aidiyyəti üzrə göndərilmiş Qanun layihəsi təqdim edilərək, layihədə Cinayət-Prosessual Məcəlləsinə elektron formada sübutların toplanması, kompüter məlumatlarının sübut kimi qəbul edilməsi və mühafizəsi, kompüter sisteminə baxış, axtarış və götürülməsi, elektron cinayət-prosessual fəaliyyətin həyata keçirilməsi, eləcə də digər əlavə və dəyişikliklərin təklif olunduğu bildirilib.

Vurğulanıb ki, bu təkliflər müasir texnologiyaların hüquq-mühafizə fəaliyyətinə tətbiqinin genişləndirilməsi və effektivliyinin artırılmasını hədəfləyir.

Baş prokuror, həmçinin «Elektron məhkəməyədək icraat» informasiya sisteminin təsis olunması ilə bağlı təkliflə çıxış edərək bildirib ki, bu sistem cinayət-prosessual fəaliyyətin bütün mərhələlərini rəqəmsal mühitdə həyata keçirərək, istintaq və təhqiqat orqanlarının fəaliyyətinin şəffaflığını artıracaq, prosesin sürətini və səmərəliliyini yüksəldəcək, eyni zamanda cinayət prosesinin iştirakçılarına öz hüquq və vəzifələrini operativ şəkildə yerinə yetirmək imkanı yaradacaqdır.

Mühazirə zamanı, həmçinin 2023-cü ilin aprel ayından tətbiq olunan “Elektron Prokurorluq” informasiya sisteminin prokurorluq orqanlarında iş proseslərinin rəqəmsallaşdırılması, idarəetmədə çevikliyin və şəffaflığın təmin olunması, vətəndaş məmnunluğunun artırılması, eləcə də cinayət işlərinin









məhkəmələrə elektron formada operativ və səmərəli şəkildə göndərilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunub.

Qeyd olunanlarla yanaşı mühazirənin gedişində məhkəmədə və cinayət mühakimə icraatının gedişində süni intellektin imkanlarından istifadə olunması, bu sahədə xarici ölkələrin təcrübəsi məsələlərinə də toxunulub.

Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

# Bakı şəhər Pirallahı rayon prokurorluğunun yeni inzibati binasının açılışı olub









Aprelin 18-də Baş prokuror Kamran Əliyevin iştirakı ilə Bakı şəhər Pirallahı rayon prokurorluğunun yeni inzibati binasının açılış mərasimi keçirilib.

Tədbirdə Baş Prokurorluğun rəhbər şəxsləri, Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov, hüquq-mühafizə orqanlarının nümayəndələri və digər rəsmi qonaqlar iştirak ediblər.

Əvvəlcə inzibati binada yerləşən Ulu Öndər Heydər Əliyevin büstünün önünə gül dəstələri qoyulub, Ümummilli Liderin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Sonra iştirakçılar yeni inzibati binada yaradılan müasir iş şəraiti, vətəndaşların qəbulu üçün nəzərdə tutulmuş rahat və funksional infrastrukturla tanış olublar.

Baş prokuror Kamran Əliyev çıxış edərək bildirib ki, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlar çərçivəsində prokurorluq orqanlarına göstərilən yüksək diqqət və qayğı, hüquq-mühafizə sisteminin inkişafı istiqamətində atılan mühüm addımların bariz nümunəsidir. Yeni inzibati binanın istifadəyə verilməsi də məhz dövlətimizin başçısının bu sahəyə olan xüsusi münasibətinin və dəstəyinin nəticəsidir.



Qeyd edilib ki, prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün tələblərinə uyğun qurulması, maddi-texniki bazasının gücləndirilməsi və əməkdaşlar üçün hərtərəfli şəraitin yaradılması dövlətimizin hüquq-mühafizə sisteminə verdiyi önəmin təzahürüdür. Məhz bu yüksək diqqət və qayğı nəticəsində vətəndaşlara göstərilən hüquqi xidmətlərin səviyyəsi yüksəlir, ictimai etimad daha da möhkəmlənir. İstifadəyə verilən yeni inzibati bina isə həm vətəndaş məmnunluğunun artırılmasına, həm də prokurorluq əməkdaşlarının peşəkarlığının yüksəldilməsinə xidmət edəcək.

Sonda Baş prokuror cənab Kamran Əliyev kollektivi yeni inzibati binanın istifadəyə verilməsi münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

# Nəsimi rayon prokurorluğunun yeni inzibati binası istifadəyə verilib









Aprelin 25-də Nəsimi rayon prokurorluğunun yeni inzibati binasının açılış mərasimi keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və digər rəsmi şəxslər iştirak ediblər.

Əvvəlcə mərasim iştirakçıları binanın foyesində yerləşən ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq onun xatirəsini ehtiramla yad ediblər.

Məlumat verilib ki, istifadəyə verilən yeni inzibati bina prokurorluq əməkdaşlarının peşəkar fəaliyyətinin daha səmərəli təşkili, iş proseslərinin effektivliyinin artırılması və vətəndaşlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə müasir standartlara tam cavab verən infrastrukturla təmin olunub.

Binada əməkdaşların rahat və funksional iş şəraiti üçün bütün zəruri texniki avadanlıqlarla təchiz olunmuş xidməti otaqlar, vətəndaşların qəbulu üçün xüsusi hissə, konfrans və iclas zalları yaradılıb. Eyni zamanda, bina enerji səmərəliliyi və təhlükəsizlik baxımından da ən son tələblərə uyğun layihələndirilib.

Əlavə olaraq qeyd olunub ki, yeni binada “Elektron Prokurorluq” informasiya sistemi də tam şəkildə tətbiq olunub. Bu sistem vasitəsilə sənəd dövriyyəsi rəqəmsal müstəvidə həyata keçirilir, işin çevikliyi və şəffaflığı artırılır.

İnzibati bina ilə tanışlıqdan sonra yeni binanın akt zalında iclas keçirilib.

Açılış nitqində Baş prokuror Kamran Əliyev bildirib ki, müasir və çevik prokurorluq sisteminin formalaşdırılması Azərbaycanın hüquqi dövlət quruculuğunun əsas prioritetlərindən biridir. Bu istiqamətdə atılan ardıcıl və məqsədyönlü addımlar ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə əsası qoyulan dövlətçilik strategiyasının mühüm tərkib hissəsini təşkil edib. Məhz həmin yol hazırda Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək, hüquq-mühafizə orqanlarının, o cümlədən prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi, insan resurslarının inkişafı və fəaliyyətin şəffaflığının təmin olunması sahəsində mühüm nailiyyətlər əldə olunub.

Baş prokuror yeni inzibati binanın açılışı münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə prokurorluq əməkdaşları adından dərin təşəkkürünü bildirərək vurğulayıb ki, ölkə başçısının rəhbərliyi, daim göstərdiyi diqqət və qayğı nəticəsində prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün tələblərinə uyğun təşkili, maddi-texniki bazanın gücləndirilməsi, o cümlədən əməkdaşlar üçün yaradılan hərtərəfli iş şəraiti peşəkarlığın, iş potensialı və səmərəliliyin artırılmasına, habelə vətəndaş məmnunluğunun təmin olunmasında mühüm irəliləyişlərə səbəb olacaq.

Baş prokuror yeni inzibati binanın istifadəyə verilməsi münasibətilə prokurorluq əməkdaşlarını təbrik edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. O, çıxışında bildirib ki, yaradılan müasir iş şəraiti prokurorluq əməkdaşlarından daha böyük məsuliyyət, yüksək peşəkarlıq və qanunçuluğa sadiqlik tələb edir.

Kamran Əliyev prokurorluq əməkdaşlarını daim öz üzərində çalışmağa, bilik və bacarıqlarını təkmilləşdirməyə, eləcə də fəaliyyətlərini dövlətçiliyə sədaqət, dürüstlük və obyektivlik prinsipləri əsasında qurmağa çağırıb.

Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

# Prokurorluq əməkdaşları Çin Xalq Respublikasında təlimdə olub




Prokurorluq əməkdaşlarının beynəlxalq təcrübəni öyrənməklə peşə hazırlığının yüksəldilməsi istiqamətində işlər daim diqqət mərkəzində saxlanılır.

Bu məqsədlə prokurorluq əməkdaşlarının təlim kurslarında, o cümlədən beynəlxalq tədbirlərdə iştirakı təmin olunur.

2025-ci ilin 20-28 aprel tarixlərində "Azərbaycan Respublikasının Baş Prokurorluğu və Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğu arasında" imzalanmış Anlaşma Memorandumunun icrası məqsədilə Çin Prokurorluğunun təşkil etdiyi təlimdə iştirak etmək üçün Baş Prokurorluğun nümayəndə heyəti Çin Xalq Respublikasına işgüzar səfər edib.

Səfərdə Azərbaycan Respublikasının Baş Prokurorluğunu Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Rail Bayramlı, Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəis müavini-Kriminalistika şöbəsinin rəisi Orxan Rzayev, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun İstintaq idarəsinin rəis müavini Rüstəm Ələsgərov və digərlərindən ibarət nümayəndə heyəti təmsil edib.

Çinin Tianjin vilayətinin prokuroru Fenq Çau nümayəndə heyətini səmimi salamlayaraq tarixən xalqlarımız arasında münasibətlərin yüksək səviyyədə inkişaf etdiyini vurğulayaraq, ötən ilin sentyabr ayında Bakıya səfəri və iştirakçısı olduğu Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağının möhtəşəm təşkil edildiyini qeyd edib.

Rail Bayramlı yüksək qonaqpərvərliyə və səmimi qəbula görə təşəkkürünü ifadə edərək, Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyevin salamlarını Tianjinin prokuroruna çatdırıb, ölkələrimiz arasındakı sıx münasibətlərin təzahürü olaraq müxtəlif səviyyələrdə intensiv qarşılıqlı səfərlərin baş tutduğunu bildirib.

Görüşdə həmkarlar arasında səmərəli fikir mübadiləsi aparılıb.

Daha sonra əməkdaşlıq proqramı çərçivəsində növbəti günlərdə cinayət işləri üzrə beynəlxalq hüquqi əməkdaşlıq, elektron sübutlar, kibercinayətkarlıq, məhkəmələrdə prokurorun rolu və cinayət prosesinin rəqəmsallaşdırılması mövzularında seminarlar, qarşılıqlı müzakirələr, həmçinin Çin Xalq Respublikasının Baş Prokurorluğu, Pekin, Tianjin və Xepinq prokurorluqlarının inzibati binaları ilə yaxından tanışlıq keçirilib.








Təlim çərçivəsində Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin böyük prokuroru Nigar Əskərova, Mətbuat Xidmətinin prokuroru Suad Qəhrəmanova və Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Murad Bayramlı tərəfindən Baş Prokurorluğun struktur qurumlarına dair təqdimatla çıxışlar edərək, prokurorluğun fəaliyyətinin rəqəmsallaşdırılması və cinayətkarlığın bütün növlərinə qarşı mübarizə sahələrində mövcud müsbət təcrübə və əldə olunmuş nailiyyətlər barədə tədbir iştirakçılarına ətraflı məlumat veriblər.

Tədbirin sonunda təlimi uğurlu şəkildə başa vurmuş prokurorlar müvafiq sertifikatlarla mükafatlandırılıb.

# Baş prokuror Çində səfərdə olmuş nümayəndə heyətini qəbul edib



Aprelin 30-da Baş prokuror Kamran Əliyev 20-28 aprel tarixlərində Çin Xalq Respublikasında tədris səfərində olan nümayəndə heyəti ilə görüşüb.

Baş prokuror bir neçə gün öncə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri nəticəsində iki ölkə arasında bütün sahələri əhatə edən əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayıb. Bu xüsusda, prokurorluq orqanları arasında ikitərəfli münasibətlərin inkişafı və "Azərbaycan Respublikasının Baş Prokurorluğu və Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğu arasında" Anlaşma Memorandumunun icrası məqsədilə prokurorluq əməkdaşlarının tədris səfərinin önəmi qeyd edilib.

Qarşılıqlı müzakirələr formatında keçən görüşdə prokurorluğun müxtəlif struktur qurumlarının əməkdaşları tərəfindən səfər zamanı əldə olunan səmərəli təcrübə ilə bağlı Baş prokurora məruzə edilib.

Məruzələrdə xüsusilə Çin prokurorluq sistemində süni intellekt texnologiyalarının tətbiqi, kriminalistika sahəsində qabaqcıl metodlar, ictimai maraqların müdafiəsi, dövlətin hüquqi maraqlarının təmin olunması məqsədilə prokurorluq tərəfindən mülki iddiaların qaldırılması, eləcə də hüquqi tədris və elmi tədqiqat sahəsindəki yanaşmaların Azərbaycan prokurorluğunun mövcud təcrübəsi ilə müqayisə və müzakirələr aparılıb.

Yekunda Çinlə qarşılıqlı hüquqi əməkdaşlığın genişləndirilməsinin və təcrübə mübadiləsinin aparılmasının hər iki ölkənin prokurorluq orqanlarının fəaliyyətinə müsbət töhfə verəcəyindən əminliyini ifadə edən Baş prokuror hüquqi sahədə beynəlxalq təcrübə mübadiləsinin bundan sonra da diqqət mərkəzində saxlanılacağını qeyd edib.









# Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə tədbir və Bakı Şəhər Prokurorluğunun inzibati binasının yeni korpusunun açılış mərasimi keçirilmişdir



8 may 2025-ci il tarixində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə tədbir və Bakı Şəhər Prokurorluğunun inzibati binasının yeni korpusunun açılış mərasimi keçirilmişdir

"Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi və konstitusiya quruculuğunun banisi kimi rolu əvəzsizdir" – bunu Baş Prokuror Kamran Əliyev Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə tədbir və Bakı Şəhər Prokurorluğunun inzibati binasının yeni korpusunun açılış mərasimində deyib.

Onun sözlərinə görə, dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycan müstəqilliyini qoruyub saxlayaraq hüquqi dövlətin təməlini möhkəmləndirib, Prezident İlham Əliyevin rəhbərliyi altında isə dövlət suverenliyi tam təmin edilərək ərazi bütövlüyü bərpa olunub.

Baş prokuror Kamran Əliyev Heydər Əliyev iyirminci əsrdə Azərbaycanı parçalanmaqdan, yox olmaqdan xilas edərək ölkəni hüquqi, demokratik və müstəqil dövlət kimi yenidən inşa edilməsini qeyd edib.

O bildirib ki, ölkə başçısının 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi Azərbaycan dövlətçiliyinin əsas sütunlarının bir daha təhlil edilməsi və mənimsənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir:























"Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası müstəqil dövlətçiliyimizin hüquqi əsaslarını yaradıb və bu sənədin hazırlanmasında Ulu Öndərin müstəsna xidmətləri olub".

Baş prokuror həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hüquq-mühafizə orqanlarının inkişafı və müasirləşdirilməsi istiqamətində görülən işlərdən bəhs edib. O, istifadəyə verilən yeni korpusun müasir şəraitinin Bakı Şəhər Prokurorluğunun fəaliyyətinin daha da səmərəli və məhsuldar olmasına töhfə verəcəyini vurğulayıb.

Bakı şəhər icra hakimiyyətinin başçısı Eldar Əzizov tədbirdə bildirib ki, ölkədə bütün sahələrdə olan inkişaf prokurorluq orqanlarında da müşahidə olunur: "İşğaldan azad olunan ərazilərdə işlər ildırım sürəti ilə həyata keçirilir. Həmin ərazilərlə yanaşı, paytaxtda və digər regionlarda da inkişaf gedir, islahatlar aparılır. Digər postsovet ölkələrində durğunluq var, lakin bizim ölkəmizdə inkişaf sürətlə gedir.

Azərbaycanda yaşayış səviyyəsi yüksəkdir. Biz bu gün özümüzü Fransa ilə də müqayisə edə bilərik. Lakin biz hazırda postsovet ölkələri ilə müqayisədə xeyli irəlidəyik. Balaca ölkə olsaq da, sözümüz keçir".

Baş prokuror yeni inzibati binanın açılışı münasibətilə dövlət başçısına prokurorluq əməkdaşları adından dərin təşəkkürünü bildirərək Prezident İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi diqqət və qayğının nəticəsində bu cür müasir infrastrukturun təmin olunduğunu qeyd edib. O, yeni şəraitin peşəkarlığın və iş potensialının artırılmasına, habelə vətəndaş məmnunluğunun təmin olunmasında mühüm irəliləyişlərə səbəb olacağını vurğulayıb.

# Prokurorluq əməkdaşları Fəxri Xiyabanı ziyarət edib





10 may 1923-cü il, dahi şəxsiyyət Heydər Əliyevin doğulduğu gündür. Xalqımız dahi şəxsiyyətin doğulduğu günü və anadan olmasının 102-ci ildönümünü sadəcə bir yubiley kimi deyil, Azərbaycanın müasir dövlətçilik salnaməsinin şanlı səhifəsi kimi qeyd edir.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102 illiyi ilə əlaqədar Baş prokuror Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları Fəxri Xiyabanı ziyarət edərək dünya şöhrətli siyasətçinin əziz xatirəsini dərin ehtiramla yad edib.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, həmçinin tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub, məzarları üzərinə gül dəstələri qoyulub.





## Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102 illiyi ilə əlaqədar paytaxtın “ECOLEAD” layihəsi çərçivəsində ağacəkmə aksiyası keçirilib








Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102 illiyi ilə əlaqədar 2025-ci il may ayının 10-da paytaxtın Suraxanı rayonunda “ECOLEAD” layihəsi çərçivəsində ağacəkmə aksiyası keçirilib.

Aksiya zamanı Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları, habelə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Təhlükəsizlik Xidməti, Bakı Şəhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Təsərrüfatı Birliyi, Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyəti və Bakı Dövlət Universitetinin rəhbər heyəti və əməkdaşlarının iştirakı ilə 2 hektar (ha) ərazidə 500 ədəd ağac əkilib.

Məlumat üçün qeyd edək ki, 2024-cü ildə Baş Prokurorluğun təşəbbüsü əsasında icrasına başlanılan “ECOLEAD” layihəsi çərçivəsində hazırkı vaxtadək Bakı şəhərinin Suraxanı, Nəsimi, Binəqədi, Yasamal və Xətai rayonları ərazisində ümumilikdə 10 ha ərazidə 2200-dən çox ağac əkilmişdir.

Hazırda Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bakı Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti və Qarabağ Universiteti tərəfindən birgə həyata keçirilən ECOLEAD layihəsindən irəli gələn məqsədlərin gələcəkdə də icrası nəzərdə tutulur.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

**B.V.Əhmədovun Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru təyin edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin IV hissəsini rəhbər tutaraq **qərara alıram:**

**1. Bəhruz Vidadi oğlu Əhmədov** Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 may 2025-ci il
№ 593

# Baş prokuror Kamran Əliyev Bəhruz Əhmədovu Hərbi Prokurorluğun kollektivinə təqdim edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13 may 2025-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru təyin edilmiş Bəhruz Əhmədov, Baş prokuror Kamran Əliyev tərəfindən Hərbi Prokurorluğun kollektivinə təqdim edilib.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev, prokurorluq orqanlarına göstərilən yüksək etimada, daima olan diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlığını ifadə edərək dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən hüquq islahatlarının mütərəqqi nəticələrini qeyd edib, bu islahatların prokurorluq orqanlarında daha da dərinləşdiyini və prokurorluq fəaliyyətinin təkmilləşdiyini vurğulayıb.

Baş prokuror, həmçinin Hərbi Prokurorluq orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində zəruri tədbirlərin icrasının davam etdirilməsi, vətəndaş məmnunluğunun artırılması məqsədilə zəruri tədbirlərin görülməsi, Konstitusiya və qanunlarla nəzərdə tutulan vəzifələrin daha məsuliyyətlə yerinə yetirilməsi, eləcə də bu sahədə digər dövlət qurumları ilə əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyini qeyd edib.

Bundan sonra çıxış edən Hərbi prokuror Bəhruz Əhmədov göstərilən yüksək etimada görə minnətdarlığını ifadə edərək qanunla Hərbi Prokurorluq orqanlarının üzərinə qoyulmuş vəzifələrin layiqli şəkildə icra ediləcəyinə əminliyini bildirib. Hərbi Prokurorluğun bundan sonra da dövlətimiz və xalqımıza sədaqət və məsuliyyətlə xidmət edəcəyini deyib.



# Azərbaycan Respublikasının Baş Prokurorluğunda prokurorluq orqanlarında görülmüş işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib






Mayın 15-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərliyi ilə Baş Prokurorluğun, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarının məsul şəxslərinin iştirakı ilə əməliyyat müşavirəsi keçirilib.

Müşavirədə çıxış edən Baş prokuror 2025-ci ilin 4 ayı ərzində prokurorluq orqanlarının fəaliyyəti və görülmüş işləri təhlil edərək qarşıda duran vəzifələrə dair bir sıra tapşırıqlar verib.

Qeyd edilib ki, Ümummilli Lider Heydər Əliyevin qurucusu və banisi olduğu müasir Azərbaycanda Prezident cənab İlham Əliyevin çağdaş dövrün çağırışlarına uyğun islahatlar həyata keçirməsi hüquq sahəsində də müasirləşməni təmin edib və bu islahatlar prokurorluq orqanlarının fəaliyyətinə müsbət təsirini göstərib, xidməti fəaliyyətdə keyfiyyət və səmərəlilik nəzərəçarpacaq dərəcədə yüksəlib. Lakin, əldə edilmiş nailiyyətlərə kifayətlənilməməli, mövcud vəziyyət təhlil edilməklə, habelə qabaqcıl beynəlxalq təcrübə öyrənilərək fəaliyyətin daha da səmərəli olması üçün tədbirlərin icrası davam etdirilməlidir.

Çıxış zamanı həmçinin qeyd olunub ki, prokurorluq orqanları tərəfindən dövlətin təhlükəsizliyinə qəsd edən cinayətlərə qarşı mübarizə bundan sonra da gücləndirilməli, cinayətkarlığın bütün növlərinə qarşı mübarizə sahəsində və qanunçuluğun qorunmasında






digər hüquq-mühafizə orqanları ilə koordinasiyalı fəaliyyət davam etdirilməlidir.

Baş prokuror prokurorluğun qanunla müəyyən edilmiş fəaliyyət istiqamətləri üzrə, o cümlədən prosessual rəhbərlik və prosessual nəzarət, ibtidai araşdırmanın keyfiyyətinin və tezliyinin artırılması, qətimkan tədbirlərinin seçilməsi, dövlət ittihamının müdafiəsi, vətəndaşların müraciətlərinə baxılması sahəsində işin səmərəliliyinin artırılması istiqamətində konkret göstərişlər verib.

Bundan başqa Baş prokuror əhalinin hüquqi biliyinin artırılması istiqamətində konkret sahələr üzrə maarifləndirmə tədbirlərinin həyata keçirilməsinin, ali təhsil müəssisələrinin hüquq fakültələri ilə gənc hüquqşünaslarının yetişdirilməsi işində yaxından əməkdaşlıq edilməklə tədris prosesində prokurorluq əməkdaşlarının iştirakının davam etdirilməsinin vacibliyini vurğulayıb.

Çıxış zamanı həmçinin ikitərəfli və çoxtərəfli əlaqələrin inkişaf etdirilməsinin beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsinin zəruriliyi diqqətə çatdırılıb və prokurorluq əməkdaşları tərəfindən xarici ölkələrdə təlim-tanışlıq tədbirlərində iştirak etməklə qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqinin təmin edilməsinin vacibliyi qeyd olunub.

Baş prokuror tərəfindən “Elektron Prokurorluq” informasiya sisteminin bütün prokurorluq orqanlarında tətbiq olunduğu, bu sistemin həmçinin cinayət-prosessual fəaliyyətin rəqəmsal müstəviyə keçməsinə imkan verdiyi bildirilməklə müasir çağırışlara uyğun olaraq sistemin daim təkmilləşdirilməsi və mümkün fəaliyyət istiqamətləri üzrə süni intellektin tətbiq edilməsi imkanlarının nəzərdən keçirilməsi ilə bağlı göstərişlər verilib.

Müşavirə zamanı həmçinin xidməti fəaliyyətin konkret sahələri üzrə yol verilmiş nöqsanlar səsləndirilməklə onların aradan qaldırılması istiqamətində görülməli işlər, qarşıda duran vəzifələr barədə geniş müzakirələr aparılıb.

Yekunda Baş prokuror prokurorluq əməkdaşlarının bundan sonra da Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə üzərlərinə düşən vəzifələri layiqincə icra edəcəklərinə, vətəndaşlarının hüquq və azadlıqlarının müdafiəsi, cinayət təqibi və cinayət təqibindən kənar icraatın həyata keçirilməsində qanunların icrasına nəzarətin ən yüksək səviyyədə həyata keçirəcəklərinə əminliyini ifadə edib.

# Baş prokuror Vyanada işgüzar səfərdə olmuşdur







Mayın 22-də Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti BMT-nin Cinayətin Qarşısının Alınması və Cinayət Mühakiməsi Komissiyasının sessiyası çərçivəsində Vyana şəhərində işgüzar səfərdə olub.

Baş Prokurorluq və BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (BMTNCİ) arasında əldə olunmuş razılığa əsasən ölkəmizin COP29-da sədrliyi çərçivəsində əldə etdiyi nailiyyətlərin beynəlxalq ictimaiyyətə təqdim olunması məqsədilə Azərbaycanın Avstriyadakı Səfirliyinin dəstəyi ilə BMT-nin qərargahında “İqlim fəaliyyətinin təkmilləşdirilməsi üçün ətraf mühit cinayətlərinə qarşı cinayətin qarşısının alınmasının və ədalət mexanizmlərinin gücləndirilməsi” adlı xüsusi sessiya təşkil edilib.

Tədbiri giriş sözü ilə açan BMT Baş katibinin müavini, BMTNCİ-nin İcraçı direktoru və Vyana ofisinin rəhbəri Qada Vali Azərbaycanın COP29-u uğurla keçirdiyini qeyd edərək görülən işləri yüksək qiymətləndirib. O, Azərbaycanın BMTNCİ ilə səmərəli və konstruktiv əməkdaşlığını alqışlayaraq, bu tərəfdaşlığın qlobal səviyyədə ədalət, təhlükəsizlik və ətraf mühitin qorunması sahələrində daha geniş miqyaslı təşəbbüslərə yol açdığına əminliyini ifadə edib.

Baş prokuror Kamran Əliyev çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə COP29-un yüksək səviyyədə və peşəkarlıqla təşkil olunduğunu vurğulayaraq, bu mötəbər tədbirin nəticələrinin qlobal miqyasda əhəmiyyət kəsb etdiyini qeyd edib.

O, həmçinin COP29 çərçivəsində Azərbaycan Respublikası Baş Prokurorluğunun və BMTNCİ-nin birgə təşkilatçılığı, Birləşmiş Ərəb Əmirlikləri Daxili İşlər Nazirliyinin isə həmsədrliyi ilə keçirilmiş “İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması” mövzusunda yüksək səviyyəli tədbiri beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından mühüm platforma kimi dəyərləndirib.

COP29-un ölkəmizdə keçirilməsinə, habelə ətraf mühitin mühafizəsi və Azərbaycanın ekoloji cinayətkarlığa qarşı mübarizə sahəsində həyata keçirdiyi tədbirlər və əldə etdiyi uğurlara həsr olunmuş videoçarx nümayiş olunub.

Daha sonra Madaqaskarın ətraf mühit və davamlı inkişaf naziri Maks Fonteyn tədbirə video müraciət ünvanlayaraq, iqlim dəyişikliyi ilə mübarizə və ekoloji dayanıqlılıq sahəsində ölkəsinin həyata keçirdiyi təşəbbüslər və əldə olunmuş nailiyyətlər barədə məlumat vermişdir.

Baş Prokurorluğunun idarə rəisi Elnur Musayev və BƏƏ-nin Daxili İşlər Nazirliyinin idarə rəisi Əhməd Əl-Zəruni çıxış edərək, ətraf mühitin qorunması sahəsində hüquq-mühafizə orqanlarının rolu, bu istiqamətdə tətbiq olunan effektiv mexanizmlər və həyata keçirilmiş uğurlu tədbirlər barədə ətraflı təqdimatlarla çıxış etmişlər.

Sessiyada Vyanada akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri, beynəlxalq təşkilatların təmsilçiləri, hüquqşünaslar, iqlim və ekoloji hüquq üzrə ekspertlər, eləcə də müxtəlif ölkələrin hüquq-mühafizə orqanlarının nümayəndələri iştirak edib.









# Baş prokuror BMT Baş Katibinin müavini ilə görüşüb



Vyanada işgüzar səfərdə olan Baş prokuror Kamran Əliyev ilə BMT Baş Katibinin müavini, Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (BMTNCİ) İcraçı direktoru Qada Vali arasında ikitərəfli görüş keçirilib.

Görüş zamanı Azərbaycan ilə BMT arasında mövcud olan yüksək səviyyəli münasibətlər və hüquq-mühafizə orqanlarımızla BMTNCİ arasında formalaşmış səmərəli əməkdaşlıq xüsusi məmnunluqla qeyd edilib. Bildirilib ki, son bir ildə Bakıda və Vyanada təşkil olunmuş birgə sessiyalar bu tərəfdaşlığın möhkəmlənməsinə, eyni zamanda cinayətkarlığa qarşı mübarizədə yeni yanaşmalar və əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinə mühüm töhfə verib.

Qada Vali, BMT-nin qlobal antikorrupsiya platforması olan GLOBE şəbəkəsinin 6-cı plenar iclasının Bakıda yüksək səviyyədə təşkili münasibətilə Baş prokuror Kamran Əliyevi təbrik edib, hərtərəfli dəstəyə görə təşəkkürünü bildirib. O, tədbirin korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın dərinləşməsinə, yeni tərəfdaşlıqların qurulmasına və ümumilikdə dayanıqlı inkişaf məqsədlərinin reallaşdırılmasına xidmət etdiyini vurğulayıb.

Baş prokuror öz növbəsində GLOBE şəbəkəsinin Azərbaycan üçün mühüm əhəmiyyət daşıyan beynəlxalq platforma olduğunu qeyd edərək bildirib ki, bu təşəbbüs ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsindəki mövqeyinin gücləndirilməsi baxımından mühüm vasitədir. O əlavə edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin plenar iclasın iştirakçılarına ünvanladığı müraciətdə ifadə olunduğu kimi, bu tədbir hökumət və dövlətimiz üçün xüsusi əhəmiyyət kəsb edir.

Görüşdə, həmçinin qlobal əhəmiyyət kəsb edən mühüm təşəbbüslər, o cümlədən Orta Dəhliz boyunca hüquq-mühafizə əməkdaşlığının gücləndirilməsi və cinayətkarlığa qarşı regional səylərin əlaqələndirilməsi məsələləri müzakirə olunub. Bu kontekstdə Mərkəzi Asiya və Cənubi Qafqaz üzrə Dövlətlərarası Əməkdaşlıq Şəbəkəsi (CASC) çərçivəsində potensial əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər, həmçinin Braziliyanın Belem şəhərində keçiriləcək COP30 Konfransı ərəfəsində ətraf mühitin



mühafizəsi, ekoloji cinayətlərə qarşı mübarizə mexanizmlərinin gücləndirilməsi istiqamətində birgə təşəbbüslərin mümkünlüyünü müzakirə ediblər.

Sonda, qarşılıqlı maraq doğuran sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi və konkret fəaliyyət planlarının hazırlanması istiqamətində razılıq ifadə olunub.

Görüşdə, həmçinin Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri Rövşən Sadıqbəyli də iştirak edib.

# Baş prokuror Keniyada işgüzar səfərdə olmuşdur





8 iyun 2025-ci il tarixində Keniyalı həmkarı Renson İnqonqanın dəvəti ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Nayrobiyə işgüzar səfərə gəlmişdir.

Kamran Əliyev göstərilən yüksək qonaqpərvərliyə və səmimi qəbula görə təşəkkürünü ifadə edərək, Prezident İlham Əliyevin salamlarını Keniya Prezidentinə çatdırıb. Prezident Ruto, öz növbəsində, dövlətimizin başçısının salamlarına görə minnətdarlığını bildirərək, öz salamlarını da Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib. Görüşdə Azərbaycan ilə Keniya arasında müxtəlif sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları arasında dinamik inkişaf edən əlaqələrdən məmnunluq ifadə olunub.







Daha sonra Kamran Əliyev Keniyanın Dövlət Prokurorluğunun direktoru Renson İnqonqa ilə ikitərəfli görüş keçirib. Baş prokuror iki ölkə arasında əlaqələrin dostluq və qarşılıqlı hörmət prinsipləri əsasında, ölkə rəhbərlərinin siyasi iradəsi və səyləri nəticəsində son illərdə uğurla inkişaf etdiyini vurğulayıb.

Görüşdə Renson İnqonqa qurumlararası tərəfdaşlıq münasibətlərinin yüksələn xətt üzrə inkişafından məmnunluğunu ifadə edərək, ötən il ərzində Azərbaycana həyata keçirdiyi üç işgüzar səfəri qeyd edib.

İnqonqa, həmçinin, Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransının, eləcə də COP29 çərçivəsində hüquq-mühafizə orqanlarının iqlim dəyişiklikləri ilə mübarizədə səfərbər olunmasına həsr olunmuş plenar iclasın yüksək səviyyədə təşkil edilməsini xüsusi vurğulayaraq, Azərbaycan dövlətini və prokurorluğunu təbrik edib. Ölkəmizə səfəri çərçivəsində Ağdam rayonuna etdiyi ziyarət zamanı işğal dövründə Ermənistan tərəfindən törədilmiş vəhşiliklərin, eləcə də hazırda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işlərinin onda dərin təəssürat yaratdığını bildirib.

Görüşdə hüquqi sahədə əməkdaşlığın genişləndirilməsi, 2024-cü ildə Bakıda imzalanmış Anlaşma Memorandumunun icrası, süni intellektin tətbiqi, cinayətkarlığa qarşı mübarizə, ekstradisiya və hüquqi yardım haqqında müqavilənin hazırlanması, qarşılıqlı təlim səfərləri kimi məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.









Görüşlərdə ölkəmizin Keniya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Sultan Hacıyev iştirak edib.

Elə həmin gün hər iki ölkənin baş prokurorları Kamran Əliyev və Renson İnqonqa ölkəmizin Keniyada yeni açılmış səfirliyini ziyarət edərək, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə gül dəstələri düzüb, dahi şəxsiyyətin əziz xatirəsini dərin ehtiramla yad ediblər. Daha sonra səfirliyin əməkdaşları ilə görüş keçirilib, fəaliyyətlərində uğurlar arzulanıb.

İyunun 10-da Mombasa şəhərində Millətlər Birliyinə (Commonwealth of Nations) üzv ölkələrin baş prokurorlarının 23-cü Konfransı başlayıb.





Konfransın açılış mərasimində Keniya və Avstraliya dövlət prokurorluqlarının rəhbərləri çıxış edərək Azərbaycan prokurorluğunun nümayəndə heyətinin xüsusi qonaq qismində iştirakını yüksək qiymətləndirib, ölkəmizin beynəlxalq hüquqi əməkdaşlıq sahəsindəki fəal rolunu vurğulayıblar.

Daha sonra Baş prokuror Kamran Əliyev cinayət təqibinə qədər terrorçuluğun qarşısının erkən alınması üzrə milli yanaşmalara həsr olunmuş əsas sessiyaya sədrlik edib. İclasda






radikallaşmanın qarşısının alınması və terrorçuluğun yaranma səbəblərinə erkən müdaxilə mexanizmlərinin tətbiqi məsələləri müzakirə olunub.

Kamran Əliyev Azərbaycanın terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi və transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlığa daim xüsusi önəm verdiyi vurğulayıb, bu istiqamətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən ardıcıl tədbirlər barədə məlumat verib.

Sessiyada Uqandanın Baş prokuroru Ceyn Abodo, Cənubi Avstraliya ştatının Baş prokuroru Martin Kinton və Böyük Britaniya Ali Komissiyasının Nayrobidəki müşaviri Cenifer Ridel çıxış ediblər. Panel müzakirələrində radikallaşma və zorakı ekstremizmin qarşısının alınması sahəsində prokurorluq orqanlarının tətbiq etdiyi preventiv müdaxilə mexanizmləri üzrə milli təcrübələr bölüşülüb.

Konfrans çərçivəsində Baş prokuror Birləşmiş Krallıq, Avstraliya, Uqanda, Tanzaniya, Zimbabve, Seyşel Adaları və digər ölkələrin baş prokurorları ilə ikitərəfli görüşlər keçirərək cinayətkarlıqla mübarizədə təcrübə mübadiləsi, hüquqi əməkdaşlığın və müqavilə-hüquq bazasının genişləndirilməsi imkanları barədə müzakirələr aparıb. Kamran Əliyev Keniyanın yerli media nümayəndələrinə müsahibə verib.











# Baş prokuror Türkiyənin Baş Ombudsmanı ilə görüşüb









İyunun 17-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev ilə ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Respublikasının Baş Ombudsmanı Mehmet Akarca arasında görüş keçirilib.

Qonağı salamlayan Baş prokuror Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "bir millət, iki dövlət" prinsipinə əsaslanan iki qardaş ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulamış, Azərbaycan və Türkiyə prezidentləri – cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın qarşılıqlı etimada əsaslanan siyasi iradəsi nəticəsində bu əlaqələrin dünyada bənzəri olmayan səviyyəyə yüksəldiyini bildirib.

Baş prokuror ölkəmizdə insan hüquq və azadlıqlarının təmin olunması dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən olunduğunu qeyd edərək, bu istiqamətdə qəbul olunmuş dövlət proqramları və strateji sənədlərin sistemli fəaliyyətin əsasını təşkil etdiyini bildirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Mehmet Akarca müxtəlif illərdə Ankarada, İstanbulda, Bakıda və Naxçıvanda keçirilmiş çoxsaylı görüşlər, o cümlədən beynəlxalq tədbirlər çərçivəsində qurulan səmərəli dialoq ikitərəfli əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfə verdiyini qeyd edib.

Kamran Əliyev ölkələrimiz arasında hüquqi əməkdaşlığın möhkəmləndirilməsi və insan hüquqlarının qorunması sahəsindəki xidmətlərinə görə Mehmet Akarcanı Azərbaycan Prokurorluğunun 100 illiyi yubiley medalı ilə təltif edib.

# Baş Prokurorluqda dövlət qulluqçularının peşə bayramı qeyd olunub









23 iyun 2025-ci il tarixində Azərbaycan Respublikasında Dövlət Qulluqçularının Peşə Bayramı Günü münasibətilə Azərbaycan Respublikasının Baş Prokurorluğunda tədbir keçirilib.

Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə keçirilən tədbirdə prokurorluq orqanlarında çalışan dövlət qulluqçuları və veteran dövlət qulluqçuları iştirak ediblər.

Baş prokuror Kamran Əliyev çıxışında dövlət idarəçiliyində və dövlət qulluğu sahəsində həyata keçirilən islahatların əhəmiyyətini vurğulayıb. O bildirib ki, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 23 iyunun BMT-nin Dövlət Qulluğu Günü elan olunması nəzərə alınaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 may 2006-cı il tarixli Sərəncamı ilə bu tarix ölkəmizdə də Dövlət Qulluqçularının Peşə Bayramı Günü kimi təsis edilib.

Çıxış zamanı qeyd olunub ki, hazırda ölkədə 27 minə yaxın dövlət qulluqçusu fəaliyyət göstərir və onların 30,3 faizini qadınlar təşkil edir, prokurorluq orqanlarında 650 nəfər dövlət qulluqçusu çalışır, onların 32,6 faizi qadınlardır.

Tədbirdə dövlət qulluğunun hüquqi bazasının təkmilləşdirilməsi, peşəkar və şəffaf idarəçilik sisteminin formalaşdırılması, dövlət qulluqçularının sosial təminatının gücləndirilməsi istiqamətində həyata keçirilən mühüm tədbirlərdən bəhs olunub.

Sonda Baş prokurorun əmri ilə peşə bayramı münasibətilə fərqlənən bir qrup dövlət qulluqçusu və veteran əməkdaşlar təltif olunub və onlara hədiyyələr təqdim edilib.

Tədbir iştirakçıları dövlət qulluğunun inkişafına, dövlət qulluqçularının fəaliyyətinə göstərilən davamlı diqqət və yüksək qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin təşəkkürlərini və səmimi minnətdarlıqlarını ifadə ediblər.

# Baş prokuror Türkiyənin səfiri ilə görüşüb






İyunun 25-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Türkiyə Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Birol Akgün ilə görüşüb.

Qonağı salamlayan Baş prokuror tarixən xalqlarımız arasında milli köklərə əsaslanan münasibətlərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin “bir millət, iki dövlət” və Türk xalqının dahi şəxsiyyəti Mustafa Kamal Atatürkün “Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir” kəlamları ilə ifadə olunduğunu bildirib. Baş prokuror iki ölkənin prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın uzaqgörən xarici siyasətləri nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə yüksəldiyini, dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi qeyd edib.

Kamran Əliyev ikitərəfli əməkdaşlığın inkişafında ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında keçirilmiş çoxsaylı görüşlərin və beynəlxalq tədbirlər çərçivəsində qurulan səmərəli dialoqun mühüm rol oynadığını vurğulayıb. O, ötən il Bakıda təşkil olunmuş BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP29) çərçivəsində keçirilmiş yüksək səviyyəli sessiya və Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransında Türkiyə prokurorluğunun nümayəndə heyətinin iştirakını xüsusilə qeyd edib.

Səfir Birol Akgün görüşdə səmimi qəbula görə təşəkkürünü bildirərək, ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin dövlət başçılarının apardıqları uğurlu siyasət nəticəsində ən yüksək səviyyəyə çatdığını və əlaqələrin daha da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.



Görüşdə həmçinin hüquqi yardım, ekstradisiya, məhkumların verilməsi və digər hüquqi əməkdaşlıq məsələləri barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonda Baş prokuror Kamran Əliyev səfirə yeni fəaliyyətində uğurlar arzulayaraq, qarşılıqlı əməkdaşlığın bundan sonra daha da inkişaf edəcəyinə əminliyini ifadə edib.


United Nations
Office on Drugs and Crime

GLOBE Network

BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan Hüquq Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE Network) Altıncı Plenar İclası və İdarəetmə Komitəsinin Onuncu Görüşü

Bakı şəhəri
2025-ci il 19–23 may

# Bakıda "GlobE Network" çərçivəsində 6-cı plenar iclasın açılış mərasimi keçirilmişdir

Tədbirdə müxtəlif ölkələrin hüquq mühafizə orqanlarını təmsil edən 50-yə yaxın rəhbər vəzifəli şəxslər iştirak edib.

Əsas mövzusu "Korrupsiyaya qarşı mübarizədə yeni texnologiyalar və süni intellektin tətbiqi imkanları" olan Plenar İclasda korrupsiya nəticəsində əldə edilmiş vəsaitlərin müsadirəsi, əldə edilmiş aktivlərin birbaşa bərpası, maliyyə əməliyyatlarında şübhəli əməliyyatların dayandırılması, cinayət prosesində bank hesablarının sürətli dondurulması üzrə beynəlxalq əməkdaşlıq, korrupsiyaya qarşı mübarizədə ictimai maarifləndirmə və digər alt mövzular üzrə panel, sessiya və paralel tədbirlərdə 100-dən artıq çıxış nəzərdə tutulmuşdur.





Eyni zamanda, Plenar İclas çərçivəsində Azərbaycan Respublikası Prokurorluğunun təşəbbüsü ilə "Konstitusiya və Suverenlik ili" ilə əlaqədar, habelə ölkəmizin COP29 sədrliyi ilə bağlı ekoloji hüquqpozmalara qarşı mübarizə ilə bağlı xüsusi sessiya və paralel tədbirlər də keçirilmişdir.

Bundan başqa, tədbirdə çoxsaylı ikitərəfli görüşlərin keçirilməsi və qarşılıqlı əməkdaşlığa dair memorandumların imzalanması planlaşdırılmışdır.

Tədbirdə ilk çıxış edən Baş prokuror Kamran Əliyev bildirib ki, Azərbaycan son illər qlobal təşəbbüslərə ev sahibliyi edən mühüm beynəlxalq mərkəzə çevrilib. Təkcə ötən il ölkəmiz BMT-nin COP29 İqlim Konfransına və Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik toplantısına ev sahibliyi etmiş, hüquq-mühafizə orqanlarının ətraf mühit cinayətlərinə qarşı mübarizəsinə dair yüksək səviyyəli sessiya da daxil olmaqla, bir sıra vacib tədbirlər uğurla təşkil olunub.

Onun sözlərinə görə, Azərbaycan son illər qlobal təşəbbüslərə ev sahibliyi edən mühüm beynəlxalq mərkəzə çevrilmişdir. Təkcə ötən il ölkəmiz BMT-nin COP29 İqlim Konfransına və Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik toplantısına ev sahibliyi etmiş, hüquq-mühafizə orqanlarının ətraf mühit cinayətlərinə qarşı mübarizəsinə dair yüksək səviyyəli sessiya da daxil olmaqla, bir sıra vacib tədbirlər uğurla təşkil olunub:

"Azərbaycan GLOBE Şəbəkəsinin fəal üzvü olaraq bu platformanı yüksək qiymətləndirir. Bu şəbəkə beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə, dürüstlüyün təşviqinə və transmilli korrupsiyaya qarşı birgə mübarizəyə töhfə verir. Bu təşəbbüsün yaranması və inkişafında Səudiyyə Ərəbistanı Krallığının və xüsusilə onun korrupsiyaya qarşı mübarizə orqanı olan "Nazaha" təşkilatının əvəzsiz rolu olub. Biz bu mühüm qlobal təşəbbüsə verdikləri töhfəni və göstərdikləri liderliyi yüksək dəyərləndiririk".

Daha sonra BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) Korrupsiya və İqtisadi Cinayətlər Şöbəsinin rəhbəri Bricit Strobel-Şou deyib ki, bu gün korrupsiyaya qarşı mübarizəyə sadiqliyimizi buradan vurğulayırıq. Korrupsiya sərhəd tanımır, qanunvericilik boşluqlarında gizlənir.

Onun sözlərinə görə, əməkdaşlıq ən güclü şəbəkədir: "Bu səbəblə korrupsiyanın qarşısını almaq üçün hər bir şeyi etməliyik. Bizim bu sessiyalar zamanı bilikləri bölüşmək imkanımız yaranacaq. Burada həmçinin qanunvericilik prioritetlərini müəyyən edə bilərik. Bu platforma müvafiq orqanlar arasında əlaqələrin qurulması üçün vacibdir".

# Prezident İlham Əliyev "GlobE Network"un altıncı plenar iclasının iştirakçılarına müraciət edib



Prezident İlham Əliyev Bakıda keçirilən BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsinin – "GlobE Network"un altıncı plenar iclasının iştirakçılarına müraciət ünvanlayıb.

Müraciəti Azərbaycanın Baş prokuroru Kamran Əliyev səsləndirib.

"Hörmətli tədbir iştirakçıları,

Sizi BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Korrupsiyaya qarşı Mübarizə üzrə Hüquq-mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin Bakı şəhərində keçirilən 6-cı Plenar iclasında səmimi-qəlbdən salamlayıram.

Bu mühüm tədbirin məhz ölkəmizdə keçirilməsi Azərbaycana göstərilən yüksək etimadın və beynəlxalq aləmdə artan nüfuzumuzun bariz nümunəsidir. Dünyanın müxtəlif hüquq sistemlərini təmsil edən çoxsaylı peşəkarları bir araya gətirən bu toplantı korrupsiyaya qarşı mübarizədə ortaq iradənin və beynəlxalq həmrəyliyin təcəssümüdür.

Azərbaycan Respublikası korrupsiyaya qarşı mübarizəni hər zaman həm milli, həm də beynəlxalq prioritet kimi qəbul etmişdir. Bu istiqamətdə hüquqi və institusional çərçivəmiz Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi əsasında formalaşmışdır. Bu qurumlar rəqəmsal transformasiya, açıq hökumət prinsipləri və beynəlxalq əməkdaşlıq vasitəsilə şəffaflıq və hesabatlılığın möhkəmləndirilməsində mühüm rol oynayır.

Azərbaycan uzun illər ərzində Ermənistanın hərbi təcavüzünə və işğalına məruz qalmışdır. İşğal dövründə xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmış, çoxsaylı müharibə və insanlığa qarşı cinayətlər törədilmişdir. Bu faktlar beynəlxalq hüququn fundamental prinsiplərinə və insan haqlarına qarşı açıq hörmətsizlik nümunəsi idi.

İşğal olunmuş ərazilərdə illər ərzində resurslarımızın qanunsuz istismarı, genişmiqyaslı korrupsiya və infrastrukturun məqsədli şəkildə dağıdılması hökm sürmüşdür. Nəhayət 2020-ci ildə Vətən müharibəsi və 2023-cü ildə lokal antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam şəkildə bərpa olunmuşdur. İşğala son qoyulması suverenliyin və ədalətin bərpası ilə yanaşı həmin ərazilərə həyatın qayıdışı ilə müşayiət olunan yeni bir mərhələnin başlanğıcı olmuşdur. Azad edilmiş torpaqların tərəqqi və sülhün hökm sürdüyü məkana çevrilməsi dövlət siyasətimizin əsas sütunlarından biridir. Azərbaycan bu gün də regionda davamlı sülh və sabitliyə nail olmaq üçün öz konstruktiv səylərini qətiyyətlə davam etdirir.

Hörmətli qonaqlar,

Biz BMT-nin və onun təsisatları ilə əməkdaşlığımızı yüksək qiymətləndiririk. Azərbaycan ötən ilin noyabrında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etmişdir. Bu mötəbər tədbir dünya liderlərini, siyasətçiləri, beynəlxalq təşkilatların nümayəndələrini və müvafiq sahələrin peşəkarlarını bir araya gətirməklə qlobal çağırışlara qarşı həmrəylik nümayiş etdirmiş, ölkəmizin çoxtərəfli diplomatiyaya sadiqliyini bir daha təsdiqləmişdir.

Biz, həmçinin BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Korrupsiyaya qarşı Mübarizə üzrə Qlobal Əməliyyat Şəbəkəsi ilə əməkdaşlığımıza xüsusi önəm veririk. Nisbətən gənc platforma olmasına baxmayaraq, GLOBE Şəbəkəsi qısa müddətdə müxtəlif ölkələrdən anti-korrupsiya sahəsində çalışan peşəkarları birləşdirən səmərəli və inklüziv beynəlxalq mexanizmə çevrilmişdir. Bu platformanın artan əhəmiyyəti korrupsiyaya qarşı beynəlxalq əməkdaşlığın və hüquqi yardımın nə qədər vacib olduğunu bir daha nümayiş etdirir.

Azərbaycanda prokurorluq orqanlarında geniş və mütərəqqi islahatlar həyat keçirilmiş, qanunun aliliyi, insan hüquq və azadlıqlarının qorunması təmin olunmuşdur. Hüquq-mühafizə orqanlarımız korrupsiya, transmilli cinayətkarlıq, terrorçuluq, separatçılıq, insan alveri, çirkli pulların yuyulması, narkotiklərin qanunsuz dövriyyəsi, kibercinayətkarlıq, qeyri-qanuni miqrasiya və digər təhdidlərə qarşı beynəlxalq səviyyədə fəal iştirak edir və bu sahələrdə əməkdaşlığa töhfə verir.

Bunun bariz nümunəsidir ki, ötən ilin payızında beynəlxalq əməkdaşlıq sahəsində mühüm məsələlərinin müzakirə edildiyi Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik Konfransı və Ümumi Yığıncağı dünyanın müxtəlif yerlərindən gəlmiş hüquqşünasların iştirakı ilə ölkəmizdə keçirilmişdir.

Eyni zamanda, süni intellekt, rəqəmsal maliyyə sistemləri və kiber mühitlə bağlı texnoloji inkişaf korrupsiya və digər cinayətlərin yeni formalarının yaranmasına səbəb olmuşdur. Bu mürəkkəb və sürətlə dəyişən çağırışlar hüquq-mühafizə orqanları üçün qlobal miqyasda yeni və çoxşaxəli vəzifələr müəyyən edir. Azərbaycan bu təhlükələrin qarşısını almaq üçün beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq çərçivəsində öz imkanlarını gücləndirməyə sadiqdir.

Əminəm ki, bu üçgünlük plenar iclas ortaq məqsədlərimizin reallaşmasına əhəmiyyətli töhfə verəcək və korrupsiyaya qarşı beynəlxalq əməkdaşlığın genişlənməsi üçün yeni imkanlar açacaqdır.

Mən sizləri bir daha Azərbaycanda salamlayır, ən xoş arzularımı yetirir, tədbirin işinə isə uğurlar diləyirəm".

# Bakıda BMT-nin Korrupsiyaya Qarşı Mübarizə üzrə Şəbəkəsinin (GlobE Network) İdarəetmə Komitəsinin Onuncu Görüşü keçirilib






Baş prokuror Kamran Əliyev Səudiyyə Ərəbistanı ilə korrupsiyaya qarşı mübarizədə yeni əməkdaşlıq perspektivlərini müzakirə edib

Mayın 19-da Azərbaycan Respublikası Prokurorluğu və BMT-nin Korrupsiyaya Qarşı Mübarizə üzrə Hüquq Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE Network) birgə təşkilatçılığı ilə Bakı şəhərində GlobE Şəbəkəsinin İdarəetmə Komitəsinin Onuncu Görüşü keçirilib.

Tədbirin açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilən mühüm nailiyyətlərə toxunub.

Baş prokuror, bu sahədə riskləri minimallaşdırmaqla vətəndaşlara dövlət xidmətlərinin göstərilməsində innovativ yanaşmaları özündə cəmləyən Asan xidmət modelini, Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyanı və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsini ətraflı təqdim edib, habelə, xarici nümayəndələrə Azərbaycanın digər institusional, hüquqi və praktiki yanaşmalarını izah edib.

Baş prokuror Kamran Əliyev, ötən il Çin Xalq Respublikasının Pekin şəhərində keçirilmiş GlobE Şəbəkəsinin növbəti Plenar İclasında, Bakı şəhərində bu görüşün keçirilməsi barədə qəbul edilən qərara və Azərbaycan Respublikasının İdarəetmə Komitəsinə üzv seçilməsinə görə bütün Üzv Dövlətlərin nümayəndələrinə minnətdarlığını bildirib.

GlobE Şəbəkəsinin fəaliyyətinə də toxunan Kamran Əliyev, hazırda 126 ölkədən 235 hüquq mühafizə orqanının fəaliyyətini əlaqələndirən bu beynəlxalq təşkilatın korrupsiya cinayətlərinin qarşısının alınması və araşdırılmasında çevik, işlək və praktiki həllər təqdim etdiyini qeyd edərək, Azərbaycan Respubli-

kasının bu qlobal təsisatın inkişafına verdiyi dəstəyi vurğulayıb.

Açılış mərasimində çıxış edən BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) Korrupsiya və İqtisadi Cinayətlər Şöbəsinin rəhbəri Brigitte Strobel-Şav, GlobE Şəbəkəsinin İdarəetmə Komitəsinin Sədri Nasser Abaalkail və Sədr müavini Boni de Moraes Soares, tədbirin peşəkar şəraitdə təşkilinə görə təşəkkür edib və Şəbəkənin ötən dövr ərzində həyata keçirdiyi işlərdən, həmçinin İdarəetmə Komitəsinin cari görüşündə müzakirə olunan məsələlərdən bəhs ediblər. Görüşdə yeni üzvlərin qəbul edilməsi, kommunikasiya xidmətlərinin genişləndirilməsi və digər aktual məsələlər müzakirə olunub.

Daha sonra tədbirin gündəliyinə uyğun olaraq, İdarəetmə Komitəsinin seçilmə mexanizminin təkmilləşdirilməsi, korrupsiya cinayətlərinin araşdırılmasında ölkələrarası məlumat mübadiləsinin modeli və Şəbəkənin Üzv Ölkələrinin yerli təcrübələrinin müsbət formalaşdırılması kimi məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Komitə üzvləri müvafiq sənəd layihələrinin məzmununu təkmilləşdirib və gələcək fəaliyyətin istiqamətlərini müəyyənləşdirmək üçün qərarlar qəbul ediblər.

Baş prokuror Kamran Əliyev, həmçinin Səudiyyə Ərəbistanı Krallığının Nəzarət və Korrupsiyaya qarşı Mübarizə Qurumunun (NAZAHA) Prezidenti Mazin Bin İbrahım Əl-Kahmus ilə ikitərəfli görüş keçirib.

Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında mövcud olan güclü tarixi siyasi əlaqələr və hüquq-mühafizə sahəsində əməkdaşlığın inkişafı müzakirə olunub. Kamran Əliyev, korrupsiyaya qarşı mübarizədə təcrübə mübadiləsinin və qarşılıqlı əlaqələrin vacibliyini vurğulayıb.

Mazin Bin İbrahım Əl-Kahmus isə, Səudiyyə Ərəbistanının korrupsiyaya qarşı mübarizədə həyata keçirdiyi ardıcıl tədbirlər və hüquqi mexanizmlərin gücləndirilməsinə önəm verdiyini qeyd edib. O, beynəlxalq əməkdaşlıq, xüsusilə GLOBE Şəbəkəsi çərçivəsində təcrübə və məlumat mübadiləsinə açıq olduqlarını və bu istiqamətdə Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını bildirib.

Görüşün ardından, qonaqlar Baş Prokurorluğun Tarix Muzeyində Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunmuş guşə ilə tanış olub və Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yolunu əks etdirən eksponatları izləyiblər.

Görüşdə, həmçinin Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteyli də iştirak edib.





# Vyetnam Sosialist Respublikasının Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizdə səfərdə olmuşdur





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, Azərbaycan Prokurorluğu beynəlxalq tərəfdaşlarla səmərəli əməkdaşlıq edir və bir sıra qlobal və regional təşəbbüslərdə fəal iştirak göstərir. Bununla yanaşı, beynəlxalq hüquqi münasibətlərin möhkəmləndirilməsi məqsədilə tərəfdaş qurumlarla birgə kompleks tədbirlər həyata keçirilir.

Bu çərçivədə, Azərbaycan Prokurorluğu və BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan Hüquq Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE Network) birgə təşkilatçılığı ilə 19–23 may tarixlərində Bakı şəhərində sözügedən beynəlxalq təşkilatın Altıncı Plenar İclası və İdarəetmə Komitəsinin Onuncu Görüşü keçirilmişdir.

Vyetnam Sosialist Respublikasının Baş prokurorunun müavini Nquyen Quanq Dunqun rəhbərlik etdiyi nümayəndə heyəti həmin beynəlxalq tədbirlərdə iştirak məqsədilə ölkəmizə səfərə gəlmişdir.

Səfər çərçivəsində nümayəndə heyəti Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini ehtiramla yad edərək məzarı önünə gül dəstələri qoyub.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Mayın 19-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Vyetnam nümayəndə heyəti ilə görüş keçirib.

Görüşdə Baş prokuror Kamran Əliyev Azərbaycan ilə Vyetnam arasında mövcud olan güclü siyasi





əlaqələri və əməkdaşlığı qeyd edərək, iki ölkənin müxtəlif sahələrdə, xüsusilə hüquq-mühafizə orqanları arasında tərəfdaşlığın dərinləşdirilməsinin strateji əhəmiyyət daşıdığını vurğulayıb. Bildirilib ki, Azərbaycan ilə Vyetnam arasında uzun illərə söykənən dostluq və qarşılıqlı hörmət münasibətləri hüquqi sahədə də etimada əsaslanan fəal əməkdaşlıq üçün əlverişli zəmin yaradır.



Baş prokuror korrupsiyaya qarşı mübarizə, şəffaflıq və hüquqi islahatlar sahəsində ölkəmizdə həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verərək, təcrübə və informasiya mübadiləsinin genişləndirilməsinin qarşılıqlı maraqlara xidmət etdiyini diqqətə çatdırıb.

Vyetnam Sosialist Respublikasının Baş Prokurorunun müavini Nquyen Quanq Dunq isə Azərbaycan ilə hüquqi əməkdaşlığın gücləndirilməsini iki dost və strateji tərəfdaş ölkə arasında münasibətlərin təbii inkişaf mərhələsi kimi qiymətləndirib. Qonaq hüquq-mühafizə orqanları arasında bilik və qabaqcıl təcrübə paylaşımının gələcəkdə də davam etdirilməsinin vacibliyini vurğulayıb.

Görüşdən sonra nümayəndə heyəti Baş Prokurorluğun Tarix Muzeyində Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş guşə ilə tanış olub, Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf mərhələlərini əks etdirən eksponatlarla maraqlanıblar.



# Baş prokuror korrupsiyaya qarşı beynəlxalq əməkdaşlıq çərçivəsində üç ölkənin nümayəndə heyəti ilə görüş keçirib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hüquqi islahatlar, xüsusilə şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə istiqamətində atılan məqsədyönlü addımlar beynəlxalq səviyyədə maraq və rəğbətlə qarşılanır. Bu kontekstdə Azərbaycan Prokurorluğu beynəlxalq əməkdaşlığın gücləndirilməsi və qabaqcıl təcrübə mübadiləsinin təşviqinə xüsusi önəm verir.



19–23 may tarixlərində Bakı şəhərində keçirilmiş BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan Hüquq Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE Network) Altıncı Plenar İclası və İdarəetmə Komitəsinin Onuncu Görüşü bu məqsədlərə xidmət edən mühüm beynəlxalq platformalardan biri kimi çıxış etmişdir.

Tədbir çərçivəsində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev, mayın 19-da, Tanzaniya Birləşmiş Respublikasının Korrupsiyanın Qarşısının Alınması və Mübarizə Bürosunun direktoru Krispin Şalamilanın, Madaqaskar Respublikasının Müstəqil Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin Baş direktoru Qabi Nestor Razakamanantsoanın və Əlcəzair Xalq Demokratik Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Mərkəzi İdarəsinin Baş direktoru Moxtar Laxdarinin rəhbərlik etdiyi nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirib.

Görüşlər zamanı Baş prokuror Kamran Əliyev ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən institusional islahatlar, prokurorluq orqanlarında tətbiq olunan müasir idarəçilik mexanizmləri və beynəlxalq əməkdaşlıq təşəbbüsləri barədə ətraflı məlumat verib. O, transmilli korrupsiya ilə mübarizədə qlobal həmrəyliyin vacibliyini qeyd edərək, GlobE Şəbəkəsinin bu istiqamətdə əhəmiyyətli platforma olduğunu vurğulayıb.

Tanzaniya, Madaqaskar və Əlcəzair nümayəndələri ilə aparılan müzakirələrdə korrupsiyaya qarşı fəaliyyətin həm regional, həm də qlobal səviyyədə koordinasiyası, institusional potensialın gücləndirilməsi və şəffaflığın təmin olunması məsələləri diqqət mərkəzində olub. Tərəflər hüquq-mühafizə orqanları arasında birbaşa əlaqələrin genişləndirilməsi, habelə təcrübə və informasiya mübadiləsinin əhəmiyyətini xüsusi olaraq vurğulayıblar.

Qarşılıqlı etimada əsaslanan bu dialoqlar çərçivəsində qonaqlar Azərbaycanın elektron idarəçilik, etik davranış prinsiplərinin təşviqi, şəffaflıq və hesabatlılıq sahəsində əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirib, bu təcrübədən faydalanmaqda maraqlı olduqlarını ifadə ediblər.

Görüşlərin sonunda nümayəndə heyətləri Baş Prokurorluğun Tarix Muzeyində Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş guşə ilə tanış olub və Azərbaycan Prokurorluğunun tarixi inkişaf mərhələlərini əks etdirən eksponatlarla maraqlanıblar.





# Qətər Dövlətinin İnzibati Nəzarət və Şəffaflıq Qurumunun rəhbəri ölkəmizdə səfərdə olmuşdur









2026-cı ildə Bakıda İƏT-ə üzv ölkələrin antikorrupsiya qurum rəhbərlərinin üçüncü toplantısı keçiriləcək.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, Azərbaycan Prokurorluğu beynəlxalq tərəfdaşlarla səmərəli əməkdaşlıq edir və bir çox qlobal və regional təşəbbüslərdə fəal iştirak edir. Eyni zamanda, beynəlxalq münasibətlərin möhkəmləndirilməsi məqsədilə tərəfdaş qurumlarla birgə kompleks tədbirlər həyata keçirilir.

Bu çərçivədə, Azərbaycan Prokurorluğu və BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan Hüquq Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE Network) birgə təşkilatçılığı ilə 19–23 may tarixlərində Bakı şəhərində sözügedən beynəlxalq təşkilatın Altıncı Plenar İclas və İdarəetmə Komitəsinin Onuncu Görüşü baş tutub.

Tədbir çərçivəsində, beynəlxalq təşkilatlar və xarici dövlətlərin nümayəndə heyətləri ilə bir sıra görüşlər təşkil olunub.

Mayın 19-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev, Qətər Dövlətinin İnzibati Nəzarət və Şəffaflıq Qurumunun rəhbəri Həməd bin Naserv Al-Misnəd ilə görüşüb.

Baş prokuror Kamran Əliyev, Azərbaycan ilə Qətər arasında mövcud olan güclü siyasi əlaqələri və əməkdaşlığı qeyd edərək, iki ölkənin müxtəlif sahələrdə əlaqələrinin əhəmiyyətini vurğulayıb.

Kamran Əliyev, iki ölkə arasında mövcud dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirərək, 2026-cı ildə Bakıda İƏT-ə üzv ölkələrin antikorrupsiya qurumları rəhbərlərinin 3-cü toplantısının keçirilməsinə xüsusi əhəmiyyət verildiyini vurğulayıb, GlobE şəbəkəsi və digər beynəlxalq platformalar çərçivəsində birgə əməkdaşlığın genişləndirilməsinin önəmini qeyd edib.

Həməd bin Naserv Al-Misnəd isə, Azərbaycanın korrupsiyaya qarşı mübarizə sahəsində əldə etdiyi nəticələri və beynəlxalq əməkdaşlığa verdiyi töhfəni yüksək dəyərləndirib. O, Azərbaycan Prokurorluğunun beynəlxalq platformaların təcrübə mübadiləsi və qarşılıqlı əməkdaşlığın inkişafına  verdiyi töhfələrin əhəmiyyətini vurğulayıb.

Görüşdən sonra qonaqlar Baş Prokurorluğun Tarix muzeyində Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunmuş guşə ilə tanış olub və Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yolunu əks etdirən eksponatları izləyiblər.

# Baş prokuror Kamran Əliyev 3 ölkənin nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirib













Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən hüquqi və institusional islahatlar, xüsusilə şəffaflıq, hesabatlılıq və korrupsiyaya qarşı mübarizə sahəsində atılan məqsədyönlü addımlar beynəlxalq ictimaiyyət tərəfindən yüksək dəyərləndirilir. Bu kontekstdə Azərbaycan Prokurorluğu beynəlxalq əməkdaşlığın genişləndirilməsi və qabaqcıl təcrübə mübadiləsinin təşviqi istiqamətində fəal siyasət həyata keçirir.

19–23 may tarixlərində Bakı şəhərində keçirilən BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan Hüquq Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE Network) Altıncı Plenar İclası və İdarəetmə Komitəsinin Onuncu Görüşü çərçivəsində, mayın 20-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev bir sıra ölkələrin hüquq-mühafizə orqanlarını təmsil edən nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirib.

Görüşlərdə Çex Respublikasının Təhlükəsizlik Qüvvələri Baş Müfəttişliyinin direktoru Vit Hendrix, Nepal Federativ Demokratik Respublikasının Səlahiyyətlərin Sui-istifadəsinin Araşdırılması üzrə Komissiyasının komissarı Hari Paudel və Liviya Dövlətinin İnzibati Nəzarət Orqanının sədri Abdulla Qadirbohun iştirak ediblər.

Baş prokuror Kamran Əliyev keçirilən görüşlərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan islahatların mahiyyəti barədə ətraflı məlumat verib, xüsusilə korrupsiyaya qarşı mübarizə sahəsində prokurorluq orqanlarının institusional fəaliyyəti, tətbiq edilən innovativ idarəetmə mexanizmləri və beynəlxalq tərəfdaşlıq təşəbbüsləri barədə danışıb. O, həmçinin GlobE Şəbəkəsinin transmilli korrupsiya ilə mübarizədə mühüm beynəlxalq platforma olduğunu vurğulayaraq, Azərbaycanın bu əməkdaşlıq çərçivəsində daha fəal iştiraka maraqlı olduğunu bildirib.

Qonaqlar, Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək, xüsusilə hüquqi islahatların ardıcıllığı və prokurorluq orqanlarının fəaliyyətində müşahidə edilən inkişaf dinamikasını müsbət nümunə kimi dəyərləndiriblər.

Görüşlər zamanı qarşılıqlı təcrübə və informasiya mübadiləsinin gücləndirilməsi, hüquq-mühafizə orqanları arasında birbaşa əlaqələrin inkişafı və gələcək əməkdaşlığın dərinləşdirilməsi imkanları ətrafında geniş fikir mübadiləsi aparılıb.

İkitərəfli danışıqlar, həmçinin regional və beynəlxalq səviyyədə birgə təşəbbüslərin həyata keçirilməsi, o cümlədən qlobal antikorrupsiya səylərində birgə iştirakla bağlı məsələlərin müzakirəsi ilə müşayiət olunub. Nümayəndə heyətləri Azərbaycan Prokurorluğunun şəffaflıq, etik davranış və hesabatlılıq prinsiplərinin təşviqi sahəsində qazandığı nailiyyətlərə xüsusi maraq göstərərək, bu təcrübədən faydalanmaqda maraqlı olduqlarını ifadə ediblər.

# BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Korrupsiya və iqtisadi cinayətlər şöbəsinin rəhbəri Azərbaycanda işgüzar səfərdə olmuşdur






Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, Azərbaycan Prokurorluğu beynəlxalq tərəfdaşlarla səmərəli əməkdaşlıq edir və bir çox qlobal və regional təşəbbüslərdə fəal iştirak edir. Eyni zamanda, beynəlxalq münasibətlərin möhkəmləndirilməsi məqsədilə tərəfdaş qurumlarla birgə kompleks tədbirlər həyata keçirilir.

Bu çərçivədə, Azərbaycan Prokurorluğu və BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan Hüquq Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE Network) birgə təşkilatçılığı ilə 19–23 may tarixlərində Bakı şəhərində sözügedən beynəlxalq təşkilatın Altıncı Plenar İclas və İdarəetmə Komitəsinin Onuncu Görüşü baş tutmuşdur.

Tədbir çərçivəsində, beynəlxalq təşkilatlar və xarici dövlətlərin nümayəndə heyətləri ilə bir sıra görüşlər təşkil olunub.

Bu gün, Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) Korrupsiya və İqtisadi Cinayətlər Şöbəsinin rəhbəri xanım Bricit Strobel-Şou ilə görüşüb.

Görüşdə, ölkələr arasında əməkdaşlığın inkişafı və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məsələləri müzakirə olunub.

Baş prokuror Azərbaycanın 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra 1992-ci ilin 2 mart tarixində BMT-nin üzvü olduğunu qeyd edib. O, həmçinin, Ulu Öndər Heydər Əliyevin 1994-cü ildə BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirakı ilə Azərbaycan ilə BMT arasında möhkəm tərəfdaşlığın əsası qoyulduğunu vurğulayıb.

Kamran Əliyev, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Korrupsiya və İqtisadi Cinayətlər Şöbəsinin qanunun aliliyi və korrupsiyaya qarşı mübarizə sahəsindəki təşəbbüslərini yüksək qiymətləndirib. O, Azərbaycanın bu sahədəki müsbət təcrübəsini və BMT ilə əməkdaşlıqda əldə edilən uğurları diqqətə çatdırıb.

Bundan əlavə, Baş prokuror Kamran Əliyev, 2024-cü ilin noyabr ayında Azərbaycanda keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının, ölkəmizin beynəlxalq müstəvidə mədəniyyətlərarası dialoq və iqlim dəyişikliklərinə dair fəal iştirakını və sadiqliyini nümayiş etdirdiyini qeyd edib.



BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Korrupsiya və İqtisadi Cinayətlər Şöbəsinin rəhbəri xanım Bricit Strobel-Şou, Azərbaycan ilə qurduqları əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayaraq, Azərbaycanın beynəlxalq hüquqi əməkdaşlıq sahəsindəki töhfələrini yüksək qiymətləndirib.

# Avropa Dövlət Prokurorluğunun Baş prokurorunun müavini Petr Klementin Azərbaycanda səfərdə olmuşdur




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, Azərbaycan Prokurorluğu beynəlxalq tərəfdaşlarla səmərəli əməkdaşlıq edir və bir çox qlobal və regional təşəbbüslərdə fəal iştirak edir. Eyni zamanda, beynəlxalq münasibətlərin möhkəmləndirilməsi məqsədilə tərəfdaş qurumlarla birgə kompleks tədbirlər həyata keçirilir.

Bu çərçivədə, Azərbaycan Prokurorluğu və BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan Hüquq Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE Network) birgə təşkilatçılığı ilə 19–23 may tarixlərində Bakı şəhərində sözügedən beynəlxalq təşkilatın Altıncı Plenar İclas və İdarəetmə Komitəsinin Onuncu Görüşü baş tutmuşdur.

Tədbir çərçivəsində, beynəlxalq təşkilatlar və xarici dövlətlərin nümayəndə heyətləri ilə bir sıra görüşlər təşkil olunub.

Bu gün, Baş prokuror Kamran Əliyev, Avropa Dövlət Prokurorluğunun Baş Prokurorunun müavini Petr Klementinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş prokuror görüş zamanı qanunun aliliyi və ədalətin təmin edilməsində Avropa İttifaqı ilə Azərbaycan arasında mövcud əməkdaşlığın əhəmiyyətini vurğulayıb. O, həmçinin Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Avropa Prokurorluğu arasında əlaqə mexanizminin yaradılması və gücləndirilməsinin vacibliyini qeyd edib.

Petr Klementin isə, görüşdə Azərbaycanda həyata keçirilən hüquqi islahatların və bu islahatların beynəlxalq hüquq və ədalət prinsipləri ilə uyğunluğunu müsbət qiymətləndirib. O, həmçinin, Azərbaycanın hüquqi sisteminin inkişafı istiqamətində atdığı addımları alqışlayıb və Avropa Prokurorluğunun bu islahatları dəstəkləməyə davam edəcəyini bildirib.

Görüşdə, bütün dünyada antikorrupsiya hüquq-mühafizə orqanları arasında birbaşa əməkdaşlığın gücləndirilməsi məsələsi də müzakirə edilib. Kamran Əliyev, GLOBE Şəbəkəsinin bu sahədəki əhəmiyyətini vurğulayıb və Azərbaycanın bu şəbəkə ilə əməkdaşlığını daha da inkişaf etdirməyə maraqlı olduğunu bildirib.

Bundan əlavə, hüquqi əməkdaşlığın genişləndirilməsi, cinayətkarlıqla mübarizə sahəsində bilik və təcrübə mübadiləsi, habelə beynəlxalq hüquq normalarına uyğun fəaliyyətin gücləndirilməsi istiqamətində müzakirələr aparılıb.

Görüş, Azərbaycan ilə Avropa İttifaqı arasında hüquqi əlaqələrin daha da möhkəmləndirilməsi və qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi baxımından mühüm addım olub.

# Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq genişləndirilir







Cari ilin 19–23 may tarixlərində Azərbaycan Prokurorluğu və BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan Hüquq Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE Network) birgə təşkilatçılığı ilə Bakı şəhərində GlobE Şəbəkəsinin Altıncı Plenar İclası və İdarəetmə Komitəsinin Onuncu Görüşü keçirilib.

Tədbir çərçivəsində Azərbaycan Respublikasının Baş prokurorunun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov ölkəmizdə səfərdə olan bir sıra xarici nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirib.

Cibuti Respublikasının korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşdırılmış qurumu olan Dövlət Baş Müfəttişliyinin nümayəndəsi, həmçinin Küveyt Dövlətinin Korrupsiyaya qarşı Mübarizə İdarəsinin (Nazaha) Vitse-Prezidenti Navaf AlMahamelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirilmiş görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər və gələcək əməkdaşlıq imkanları ətraflı müzakirə edilib.

Görüşlər zamanı ölkə rəhbərlərinin siyasi iradəsi sayəsində formalaşan qarşılıqlı münasibətlərin inkişafı, xüsusilə BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın yüksək qiymətləndirildiyi, münasibətlərin mövcud səviyyəsinin hüquqi əməkdaşlığın genişləndirilməsi üçün möhkəm zəmin yaratdığı qeyd olunub.

Bununla yanaşı, Baş prokurorun müavini Malayziyanın Maliyyə Cinayətlərinə qarşı Mübarizə Mərkəzi və Malayziya Antikorrupsiya Komissiyasının (MACC) rəhbər şəxsləri ilə keçirilmiş görüşlərdə Komissiyanın baş qərargahında 2016-cı ildə imzalanmış "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə Malayziyanın Antikorrupsiya Komissiyası arasında əməkdaşlığa dair Anlaşma Memorandumu" xatırlanıb.

Tərəflər həmin memorandumun qurumlar arasında antikorrupsiya sahəsində qarşılıqlı əlaqələrin dərinləşdirilməsi, təcrübə və informasiya mübadiləsinin aparılması, eləcə də peşəkar kadrların hazırlanması istiqamətində əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyinə əminliklərini ifadə ediblər.

# Bakı şəhərində "GlobE Network"-un Altıncı Plenar İclası keçirilmişdir




2025-ci il 19–23 may tarixlərində Bakı şəhəri Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi – GlobE Network – çərçivəsində Altıncı Plenar İclasa ev sahibliyi edib.

Bu mötəbər tədbirdə 92 ölkəni təmsil edən 120-dən artıq dövlət qurumunun nümayəndələri, o cümlədən prokurorluqlar, müstəqil antikorrupsiya təşkilatları və beynəlxalq institutlar iştirak edib.

Ümumilikdə 300-dən çox nümayəndə tədbirə fiziki olaraq qatılıb, 60-dan artıq iştirakçı isə onlayn formatda tədbiri izləyib.

Tədbirin açılış mərasimindən sonra isə GlobE şəbəkəsinin Katibliyi tərəfindən qurumun fəaliyyəti ilə bağlı geniş hesabat təqdim olunub.

Hesabatda yeni üzv qurumlarla bağlı məlumat, şəbəkənin işçi qruplarının fəaliyyəti, regional ofislərin rolu, qarşılıqlı hüquqi yardım alətləri və texnoloji kommunikasiya mexanizmlərinin istifadəsi ətraflı şəkildə iclas iştirakçılarının diqqətinə çatdırılıb.

Həmçinin, GlobE şəbəkəsinin İcraçı Katibi Neil Walsh-ın iştirakçılara ünvanladığı videomüraciət nümayiş etdirilib.

Daha sonra Çin Xalq Respublikasının Milli Nəzarət Komissiyasının təşəbbüsü ilə “Korrupsiyaya qarşı hüquq mühafizə orqanlarının əməkdaşlığı” mövzusunda sessiya baş tutub. Sessiya Pekin Konsensusunun icrasına həsr olunub və burada Azərbaycanla yanaşı Çin, Malayziya, Rusiya və İndoneziyanın müvafiq qurumlarının nümayəndələri çıxış edərək öz ölkələrinin təcrübələrini bölüşüblər. Azərbaycanı bu sessiyada təmsil edən Natiq Eyvazov cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahəsində əldə olunmuş təcrübə və qarşıya çıxan çətinliklər barədə danışıb.

Tədbirin davamında “Korrupsiya cinayətlərinin istintaqında texnoloji alətlərin praktiki tətbiqi” mövzusunda sessiya keçirilib. Burada çıxış edən nümayəndəmiz Elşən Orucov süni intellekt və rəqəmsal texnologiyaların istintaq prosesində istifadəsinin üstün və zəif cəhətləri barədə fikirlərini bölüşüb. Sessiyada Qətər, Çili, Sinqapur, Rusiya və Birləşmiş Ərəb Əmirliklərinin nümayəndələri də öz ölkələrinin təcrübələri ilə çıxış ediblər.

GlobE Network-un Bakı Plenar İclası beynəlxalq əməkdaşlığın gücləndirilməsi, qabaqcıl təcrübə mübadiləsi və korrupsiyaya qarşı mübarizədə effektiv yanaşmaların formalaşdırılması baxımından əhəmiyyətli platforma kimi dəyərləndirilir.



# GlobE Şəbəkəsinin 6-cı Plenar İclasında vəzifəli şəxslər tərəfindən törədilən ekoloji hüquqpozmalar müzakirə edilib

2025-ci il 19–23 may tarixlərində Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi – GlobE Network – çərçivəsində Bakıda keçirilən mötəbər tədbirdə 92 ölkəni təmsil edən 120-dən artıq dövlət qurumunun nümayəndələri, o cümlədən prokurorluqlar, müstəqil antikorrupsiya təşkilatları və beynəlxalq institutlar iştirak edib.






Ümumilikdə 300-dən çox nümayəndə tədbirə fiziki olaraq qatılıb, 60-dan artıq iştirakçı isə onlayn formatda tədbiri izləyir. İclas çərçivəsində yüzdən artıq çıxışın təqdim olunub.

Azərbaycan Respublikası Baş Prokurorluğunun təşəbbüsü ilə Plenar İclas çərçivəsində "Hüquqi şəxslərin xeyrinə vəzifəli şəxslər tərəfindən törədilmiş ekoloji cinayətlərin qarşısının alınması və istintaqı" mövzusunda tədbir keçirilib.

Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayevin sədrliyi ilə keçirilən həmin tədbirdə BMT-nin təşkilatçıları, xarici ölkələrin korrupsiyaya qarşı mübarizə sahəsində mütəxəssisləri, Azərbaycanın hüquq-mühafizə orqanlarının nümayəndələri, eləcə də elmi-tədqiqat institutlarının əməkdaşları da daxil olmaqla ümumilikdə 50-yə yaxın iştirakçı olub.



Sədrlik edən Elnur Musayev tərəfindən iclasın açılış nitqində 2020-2025-ci illər ərzində Azərbaycan Respublikası Prokurorluğu tərəfindən ölkənin digər hüquq-mühafizə orqanları ilə birlikdə görülmüş işlərin nəticələri səsləndirilib, o cümlədən ekoloji sahədə ixtisaslaşdırılmış qurum olaraq Cinayət təqibindən kənar icraatlar idarəsi tərəfindən 602 cinayət işinin başlandığı, 16 milyon manata yaxın vurulmuş ziyanın ödənildiyi, 229 inzibati xəta haqqında iş üzrə icraat başlanıldığı, qanun pozuntularını doğuran səbəb və şəraitin aradan qaldırılması məqsədilə 160 təqdimat verildiyi, qanun pozuntularından çəkindirmək məqsədilə 55 rəsmi xəbərdarlıq verildiyi bildirilib.

Qeyd olunub ki, ətraf mühitin mühafizəsi sahəsində ildən ilə qanunvericiliyin təkmilləşməsi, vətəndaşların sayıqlığının artması, hüquq-mühafizə orqanlarının və bu sahədə ixtisaslaşmış qurumların əlaqələndirilmiş fəaliyyəti nəticəsində effektiv mübarizə gedir, ictimaiyyət daim məlumatlandırılır.

Bununla belə, bu qəbildən olan hüquqpozmaların qarşısının alınması sahəsində məsul qurumların, o cümlədən qanunla nəzarət və monitorinqin həyata keçirilməsinə cavabdeh olan vəzifəli şəxslərin fəaliyyətində qüsurlar mövcuddur. Bu da baş verən ətraf mühit əleyhinə olan cinayətlərin korrupsiya xarakterli olmasına işarə edir.

Sessiya çərçivəsində aparılan müzakirələrin gəldiyi əsas nəticələr ondan ibarət olmuşdur ki, insanların və canlıların həyat və sağlamlığı üçün əhəmiyyətli dərəcədə təhlükə törədən bu cinayətlər beynəlxalq miqyasda korrupsiya və transmilli cinayətlər kimi əhəmiyyətinə görə önə çəkilməli, bu sahədə əməkdaşlıq gücləndirilməlidir. Qabaqcıl ölkələrin təcrübəsinə əsasən hər bir ölkə miqyasında ekoloji pozuntulara və cinayətlərə qarşı mübarizə vahid strategiya şəklində həyata keçirilməli, iştirakçılar müəyyən edilərək effektiv əməkdaşlıq mexanizmləri formalaşdırılmalıdır.

Bununla yanaşı qabaqlayıcı qurumlar, təhqiqat, istintaq və maliyyə kəşfiyyatı qurumlarının daimi fəaliyyət göstərən əlaqələndirmə qurumları qabaqcıl ölkələrin ən yaxşı nəticələrini göstərən nümunələrdir və bunlar beynəlxalq miqyasda öyrənilməlidir.

Tədbirdə ən əsası ətraf mühitin qorunmasının sosial cavabdehliyin təməlində durması vurğulanaraq, əhalinin və vətəndaş cəmiyyətinin bu sahədə biliklərinin artırılmasının vacibliyi xüsusi qeyd edildi.

# Konstitusiya və İnsan Hüquqları: GlobE Şəbəkəsinin 6-cı Plenar İclasında müzakirə edilən mövzular






Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi – GlobE Network – çərçivəsində Altıncı Plenar İclasın növbəti sessiyası Azərbaycan Respublikası Prokurorluğunun təşəbbüsü ilə ölkəmizdə 2025-ci ilin “Konstitusiya və Suverenlik” ili elan olunması fonunda “Konstitusion və insan hüquqlarını qorumaqla korrupsiyaya qarşı hüquq mühafizə fəaliyyətində texnoloji imkanların səmərəli istifadəsi” mövzusuna həsr olunmuşdur.

ADA Universiteti hüquq fakültəsinin dekanı Rəşad İbadovun rəhbərliyi ilə keçirilən sessiyada Baş Prokurorluğun nümayəndəsi Tuqay Rəhimli "Konstitusiya və insan hüquqlarının pozulma risklərinin qarşısını almaqda texnoloji vasitələrin rolu" mövzusunda çıxış edib.

Bununla yanaşı, Milli Aviasiya Akademiyasının eksperti Murad Orucov, eləcə də Papua Yeni Qvineya və Uqandanın nümayəndələri də mövzü üzrə öz baxışlarını təqdim ediblər.

Sessiya çərçivəsində hüquq-mühafizə orqanlarının fəaliyyətində texnoloji yeniliklərin, o cümlədən süni intellektla bağlı olan texnologiyaların tətbiqi müzakirə edilərək bildirilib ki, bu texnologiyaların tətbiqi ilə çoxsaylı üstünlüklər əldə etmək mümkün olsa da, onlarla insan hüquqlarının pozulması riski də yüksəkdir. Bu səbəbdən sessiyada vurğulanıb ki, Konstitusiyalar insan hüquqlarının əsas təminatçısı olmaqla korrupsiyaya qarşı mübarizə sahəsində texnologiyaların tətbiqi ilə insan hüquqlarının qorunmasını balanslaşdırmağa imkan yaradır.

Bundan başqa, tədbirdə süni intellekt və data analizi da daxil olmaqla qabaqcıl texnologiyaların hüquq-mühafizə orqanlarının fəaliyyətində tətbiqinin artan önəmi qeyd edilib. Vurğulanıb ki, korrupsiya cinayətləri törədən şəxslərin istifadə etdiyi sxem və mexanizmlər təkmilləşdikcə onlarla mübarizəni effektiv aparmaq üçün bu texnologiyalardan istifadə olunmalıdır. Əks halda, korrupsiyaya qarşı mübarizəni aparan dövlət orqanları korrupsiya cinayətləri törədənlərə münasibətdə hazırlıqsız olacaqlar.

Qeyd olunanlarla yanaşı sessiyada Konstitusiyanın ali hüquqi sənəd olmaqla qanunun aliliyini təmin etməsi vurğulanmaqla bu sənəddə təsbit edilmiş şəxsi həyatın toxunulmazlığı və ədalətli məhkəmə araşdırması hüquqları, ifadə azadlığı və ayrı-seçkiliyin qadağan olunması müddəalarının insan hüquqlarına olan istənilən müdaxilələr üçün meyarlar müəyyən etməklə sui-istifadələrin qarşısını alması və insanlara texnoloji yeniliklərdən istifadə edilməklə tətbiq edilən müdaxilələrə qarşı öz hüquqlarını müdafiə etmək və müdaxilələri məhkəmə qaydasında mübahisələndirmək imkanı yaratması qeyd olunub.

# Prokurorluq orqanlarının korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığı genişlənir





Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi – GlobE Network – çərçivəsində Altıncı Plenar İclasın 2025-ci il 19–23 may tarixlərində Bakı şəhərində təşkil olunan tədbir çərçivəsində keçirilən ikitərəfli görüşlərdə Azərbaycan Respublikası Baş prokurorunun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov bir sıra ölkələrin nümayəndə heyətləri ilə görüşlər keçirib.

Çin Xalq Respublikasının Honq Konq Xüsusi İnzibati Bölgəsinin Korrupsiyaya qarşı Mübarizə üzrə Müstəqil Komissiyasının Beynəlxalq əməkdaşlıq üzrə direktor köməkçisi Çin Kit Çang ilə keçirilən görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi əsasında ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən institusional və hüquqi islahatlar, eləcə də bu sahədə əldə olunan müsbət nəticələr barədə ətraflı məlumat verilib.





Bundan əlavə, Kosta-Rika Respublikasının Baş prokurorunun müavini Xuan Karlos Miranda ,Fici Respublikası Korrupsiyaya qarşı Müstəqil Komissiyasının sədri xanım Barbara Malimalinin rəhbərlik etdiyi nümayəndə heyəti və Tonqa Krallığının Korrupsiyaya qarşı Mübarizə Komisarı Kris Lahatte ilə də işgüzar görüşlər keçirilmişdir. Görüşlər zamanı ölkəmizin korrupsiya cinayətlərinin qarşısının alınması və onların istintaqı sahələrində əldə edilmiş müsbət təcrübə barədə geniş məlumat verilmişdir.

Tərəflər, belə görüşlərin hüquq-mühafizə orqanları və antikorrupsiya qurumları arasında işgüzar əlaqələrin gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıdığını qeyd etmişlər.

Qonaqlar tədbirin yüksək səviyyədə təşkil olunduğunu məmnuniyyətlə qeyd edərək, bu cür platformaların korrupsiyaya qarşı mübarizədə beynəlxalq tərəfdaşlıq və təcrübə mübadiləsi baxımından əhəmiyyətini xüsusi vurğulayıblar.

# Bakıda GlobE Şəbəkəsinin Plenar İclasında əsas müzakirələr mərhələsi














Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi – GlobE Network – çərçivəsində Altıncı Plenar İclas proqramına uyğun olaraq, mayın 21-də GlobE Şəbəkəsinin 2024-cü il üzrə fəaliyyət hesabatı və 2025-ci il üzrə iş planı Plenara təqdim olunub və müzakirələrdən sonra təsdiq edilib.

Bununla yanaşı, Avropa İttifaqının Cinayət Ədliyyəsi Əməkdaşlıq Agentliyi (EUROJUST) və Afrika Baş Dövlət Müfəttişlikləri və Oxşar Qurumların Forumunun (FIGE) müşahidəçi statusu ilə GlobE Şəbəkəsinə qoşulması məsələsinə baxılıb və müvafiq qərar qəbul olunub.

Plenar iclasda bir sıra beynəlxalq təşkilatların nümayəndələri – Avropa Prokurorluğu Təşkilatının (EPPO) rəhbərinin müavini Petr Klement, IAACA-nın Baş Katibi Chin Kit Cheung, IACA-nın nümayəndəsi Samuel De Jaegere, IAP-ın Baş Müşaviri Şenaz Muzaffer və INTERPOL-un İcraçı Direktoru Darrin Cons təmsil etdikləri qurumların korrupsiyaya qarşı fəaliyyəti barədə təqdimatlar ediblər.

GlobE Şəbəkəsinin üzvləri arasında birbaşa məlumat mübadiləsinə dair Rəhbər Prinsiplər və tətbiq olunan formalar müzakirə olunub, UNODC eksperti Draqo Kos məlumat mübadiləsinə dair Nümunəvi Saziş layihəsindəki yeniliklər barədə məlumat verib.

Korrupsiyaya qarşı əməliyyat-axtarış tədbirlərinin texniki və taktiki aspektlərinə dair Hindistan, Çin və Uqanda nümayəndələri praktiki təcrübələrini bölüşüblər.

Daha sonra "korrupsiya cinayətləri törətmiş şəxslərə digər ölkələrdə sığınacaq verilməsinin yolverilməzliyi" mövzusunda beynəlxalq hüquqi müddəalar və dövlətlərin təcrübələri üzrə təqdimatlar dinlənilib. Sessiyaya UNODC-nin Regional Müşaviri Vladimir Kozi moderatorluq edib.

"Şübhəli maliyyə hesablarından ödənişlərin dayandırılması: Cinayət işlərində şübhəli bank hesablarının sürətli dondurulması" mövzusunda keçirilmiş sessiyada isə Koreya, Qazaxıstan və digər beynəlxalq təşkilatların nümayəndələri çıxış ediblər.

Bundan əlavə, vergi korrupsiyası, əmlakın bərpası və digər aktual mövzulara dair paralel tədbirlər, vorkşoplar və ikitərəfli görüşlər təşkil olunub.

# "GlobE Şəbəkəsi, korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın vacib platformasıdır"





"GlobE Şəbəkəsi, korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın vacib platformasıdır". Bu fikri 2025-ci il mayın 22-də Bakı şəhərində Birləşmiş Millətlər Təşkilatının (BMT) Korrupsiyaya qarşı Mübarizə üzrə Qlobal Əməliyyatlar Şəbəkəsinin (GlobE Network) uğurla başa çatan Altıncı Plenar İclasında Azərbaycan Respublikası Baş prokurorunun müavini, Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov çıxışı zamanı deyib.

O, GlobE Şəbəkəsinin korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün əhəmiyyətli bir platforma olduğunu vurğulayıb.

Nazim Rəcəbov bildirib: "GlobE Şəbəkəsi, korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlıq baxımından vacibdir. Bu tədbirlər dövlətlər arasında təcrübə mübadiləsini və etimadın gücləndirilməsini təmin edir."

İclasda 100-dən çox çıxış və 20-dən çox panel müzakirə olunub, 92 ölkədən 120-dən çox dövlət qurumunun nümayəndələri iştirak edib. Tədbirin yüksək səviyyədə təşkilinə görə UNODC Katibliyinə və yerli təşkilat komitəsinə təşəkkür edən Nazim Rəcəbov, Azərbaycanın korrupsiyaya qarşı qlobal mübarizəyə töhfəsini davam etdirəcəyini bildirib.

# Heydər Məmmədov: Bakı, 2026-cı ildə İƏT-ə üzv dövlətlərin anti-korrupsiya qurumlarının yüksək səviyyəli görüşünə ev sahibliyi edəcək









2025-ci il mayın 22-də, Bakı şəhərində keçirilən Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi (GlobE Network) çərçivəsindəki Altıncı Plenar İclasının bağlanış mərasimi olub.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini Heydər Məmmədov, ölkənin korrupsiyaya qarşı mübarizə sahəsindəki səylərini və beynəlxalq əməkdaşlıqda göstərilən irəliləyişləri vurğulayıb.

Baş prokurorun müavini, Azərbaycan hökumətinin korrupsiya ilə mübarizənin qarşısında qoyduğu güclü iradəni və bu sahədəki hüquqi təşəbbüsləri qeyd edərək, ölkənin anti-korrupsiya tədbirlərinin qlobal səviyyədə dəstək tapdığını bildirib.

O, həmçinin tədbirin uğurlu təşkilində və müzakirələrin geniş spektrini əhatə etməsində göstərilən əməkdaşlıq üçün GlobE Şəbəkəsi və digər tərəfdaşlara təşəkkür edib.

Bundan əlavə, Baş prokurorun müavini qeyd edib ki, ötən ilin 26-27 noyabr tarixlərində Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin iştirak etdiyi İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının ikinci yüksək səviyyəli görüşündə, Azərbaycan İƏT-ə üzv dövlətlərin antikorrupsiya qurum rəhbərlərinin Bürosunun sədr müavini seçilib.

Həmçinin, 2026-cı ildə keçiriləcək növbəti sessiya və yüksək səviyyəli görüşə ev sahibliyi etmə hüququ Azərbaycana həvalə olunub.

Qeyd edilib ki, Bakıda keçirilən üç gün ərzində, dünyanın 90-dan çox ölkəsindən gələn 300-dən çox nümayəndə yeni texnologiyaların hüquq mühafizə orqanlarına təsiri, ekoloji cinayətlərin qarşısının alınması və oğurlanmış aktivlərin bərpası kimi aktual mövzular üzərində müzakirələr aparıb.

# GlobE Şəbəkəsinin Altıncı Plenar İclası Bakı şəhərində uğurla başa çatıb



2025-ci il mayın 22-si – Birləşmiş Millətlər Təşkilatının (BMT) Korrupsiyaya qarşı Mübarizə üzrə Qlobal Əməliyyatlar Şəbəkəsinin (GlobE Network) Altıncı Plenar İclasının peşəkar seqmenti Bakı şəhərində uğurlu nəticələrlə başa çatıb.

Tədbir korrupsiyaya qarşı beynəlxalq əməkdaşlığın gücləndirilməsi və yeni yanaşmaların tətbiqi məsələlərinə həsr olunub.

Ümumilikdə İclasa 92 ölkədən 120-dən çox dövlət qurumunun nümayəndələri qatılıb və 100-dən çox çıxış ilə 20-dən çox panel müzakirə olunub.

Tədbir çərçivəsində, həmçinin Azərbaycan da daxil olmaqla müxtəlif ölkələrin nümayəndələri arasında 100-dən artıq ikitərəfli görüş baş tutub. Müxtəlif sahələrdə əməkdaşlıq, təcrübə mübadiləsi və inkişafın təşviqi məqsədilə təşkil olunan görüşlərdə iştirakçı ölkələrin təklif və perspektivləri müzakirə edilib.

Tədbirin 22 may tarixi proqramına uyğun olaraq İclasda GlobE Şəbəkəsinin Regional Ofislərinin təsis edilməsi prosedurları ilə bağlı UNODC nümayəndələri tərəfindən görülmüş işlər barədə təqdimatlar verilib. Eyni zamanda, korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi mövzusunda panel müzakirəsi aparılıb. Paneldə Küveyt Dövləti və UNODC nümayəndələri çıxış edərək, beynəlxalq əməkdaşlığın əhəmiyyətini və şəbəkənin potensialını vurğulayıblar.

Sonrakı müzakirələrdə korrupsiya cinayətlərinin araşdırılmasında cinayət təqibindən kənar hallərin innovativ tətbiqi məsələsi gündəmə gəlib. Cənubi Afrika, Braziliya, Tayland və Vyetnam nümayəndələri bu mövzu ətrafında çıxış edərək, qeyri-cinayət həll yollarının tətbiqinin vacibliyini qeyd ediblər.

Bununla yanaşı, digər bir panel ictimaiyyətin məlumatlandırılması və korrupsiyaya qarşı qabaqlayıcı tədbirlərin gücləndirilməsi mövzusuna həsr olunub. Rusiya, Çin (Honq Konq Xüsusi Administrativ Bölgəsi), Haiti, Pakistan və Nepal (onlayn) nümayəndələri korrupsiyaya qarşı mübarizədə ictimaiyyətin inamını artırmağın və dəstəyi səfərbər etmənin yolları barədə geniş məlumatlar təqdim ediblər.

Aktivlərin bərpası və beynəlxalq təcrübələrin mübadiləsi mövzusu da müzakirə olunan mövzular arasında yer aldı. Braziliya, Madaqaskar, Papua Yeni Qvineya, Tayland və Uqanda nümayəndələri, həmçinin Eqmont Qrupunun Azərbaycandan olan təmsilçisi Fuad Əliyev bu sahədəki mühüm addımları və müsbət təcrübələri təqdim ediblər.

Tədbirin bağlanış mərasimində Azərbaycan Respublikasının Baş Prokurorunun müavini Nazim Rəcəbov çıxış edərək GlobE Şəbəkəsinin korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün çox vacib bir platforma olduğunu bildirib. O, belə tədbirlərin dövlətlər arasında təcrübə mübadiləsini və etimadın gücləndirilməsini təmin etdiyini qeyd edərək, Azərbaycan dövlətinin bu platformada fəal iştirakını davam etdirəcəyini və qlobal mübarizənin gücləndirilməsinə öz töhfəsini verəcəyini vurğulayıb.

Eyni zamanda, Azərbaycan Respublikasının Baş prokurorunun müavini Heydər Məmmədov tədbirdə çıxış edərək ölkənin korrupsiyaya qarşı mübarizədəki iradəsini və qlobal əməkdaşlıqda əldə olunan irəliləyişləri qeyd edib. O, həmçinin 2026-cı ildə Bakı şəhərinin İslam Əməkdaşlıq Təşkilatına (İƏT) Üzv Dövlətlərin Korrupsiyaya qarşı Mübarizə aparan Hüquq-mühafizə Orqanlarının Yüksək Səviyyəli Görüşünə ev sahibliyi edəcəyini bildirib.

Tədbirdə çıxış edən GlobE Şəbəkəsinin İdarəetmə Komitəsinin sədri Nasser Abaalkhail (Səudiyyə Ərəbistanı), sədr müavini Boni de Moraes Soares (Braziliya) və GlobE Şəbəkəsinin Koordinatoru Rozitsa Zaharieva da iştirakçılara təşəkkür edərək, korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsi üçün əməkdaşlığın davam etdiriləcəyini bildirdilər.

# ADA Universitetinin tələbələri ilə “Gələcəyin hüquqşünasları ilə görüş” adlı tədbir keçirilib







Gənc hüquqşünasların prokurorluq orqanlarının fəaliyyətinə göstərdiyi maraq nəzərə alınaraq, aprelin 12-də Baş Prokurorluğun inzibati binalar kompleksində ADA Universitetinin hüquq ixtisası üzrə təhsil alan tələbələri üçün “Gələcəyin hüquqşünasları ilə görüş” adlı tədbir təşkil olunub.





Tədbirdə prokurorluq əməkdaşları ilə yanaşı, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin sektor müdiri, Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvü Vüsal İsayev də iştirak edib.

Görüş zamanı tələbələrə prokurorluq orqanlarının tarixi, qurumun inkişafında Ümummilli Lider Heydər Əliyevin əvəzsiz rolu və töhfələri barədə ətraflı məlumat verilib. Həmçinin, müasir Azərbaycan Prokurorluğunun formalaşması və inkişafı istiqamətində Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlardan, prokurorluğun fəaliyyət istiqamətləri və struktur qurumlarından danışılıb.

Tədbir çərçivəsində tələbələr Ümummilli Liderin guşəsini və Vətən Müharibəsinə həsr olunmuş qalereyanı ziyarət edib, prokurorluq əməkdaşlarının iş şəraiti, istifadə olunan informasiya texnologiyaları, istintaq otaqları, arxiv, tədris auditoriyaları, kitabxanalar, konfrans zalı, kriminalistik avadanlıq və avtomobillərlə yaxından tanış olublar.

Görüşün sonunda tələbələrdən bir çoxu gələcəkdə prokurorluq orqanlarında xidmət göstərmək istədiklərini bildiriblər.






# Baş prokurorun müavini və Qarabağ Universitetinin rektoru mühüm tərəfdaşlıq sənədi imzalayıb

Aprelin 14-də Azərbaycan Respublikasının Baş Prokurorluğu və Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı, Qarabağ Universitetinin tərəfdaşlığı ilə Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində "Heydər Əliyev və Suveren Azərbaycan" mövzusunda konfrans keçirilib.

Konfransdan sonra Qarabağ Universiteti ilə ECOLEAD layihəsinə tərəfdaş olaraq qoşulmaq üçün memoranduma əlavə imzalanıb.

Sənədi Baş prokurorunun müavini Heydər Məmmədov və Qarabağ Universitetinin rektoru Şahin Bayramov imzalayıb.










Qeyd edək ki, memoranduma əlavə ətraf mühitin mühafizəsi əleyhinə törədilmiş qeyri-qanuni əməllərin araşdırılması, bu sahədə yol verilmiş qanun pozuntularının qarşısının alınması, toplanmış bilik və məlumatların paylaşılması, öz səlahiyyətləri daxilində funksiyalarını daha operativ və səmərəli icra etmək üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə imzalanıb.

Qarabağ Universitetinin tərəfdaşlığı ilə həyata keçiriləcək ECOLEAD layihəsi, Azərbaycanın təhsil və hüquq sahəsindəki inkişafını dəstəkləyən, elmi araşdırmalar və bilik mübadiləsini təşviq edən mühüm bir addım olaraq qiymətləndirilir.

Universitetin bu layihəyə qoşulması Azərbaycanın ətraf mühitin qorunması sahəsində beynəlxalq təcrübə ilə birgə fəaliyyətlərini genişləndirməsinə imkan verəcək.

Xatırladaq ki, indiyə kimi bu layihəyə Qarabağ Universiteti ilə yanaşı, Bakı Dövlət və Naxçıvan Dövlət universitetləri qoşulub.

# Baş Prokurorluqda kibercinayətlərin istintaq metodikası üzrə təlim keçirilib





Azərbaycan Respublikasının Prezidentinin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiya"sına uyğun olaraq, ölkəmizdə kibertəhlükəsizlik sahəsində mübarizə potensialının və cinayət təqibinin effektivliyinin artırılması məqsədilə kompleks tədbirlər həyata keçirilir.

Tədbirlərin davamı olaraq, Baş Prokurorluğun Elm-Tədris Mərkəzində cari ilin 16–18 aprel tarixlərində prokurorluq əməkdaşları üçün "Kibercinayətlərin aşkar edilməsi və istintaq metodikası" mövzusunda təlim təşkil olunub.

Təlimdə Baş Prokurorluğun, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, Dövlət Təhlükəsizlik Xidmətinin və Ədliyyə Nazirliyinin mütəxəssisləri təlimçi qismində çıxış edib. Tədbirə iştirakçılar həm əyani, həm də distant formatda qatılıblar.

Tədris proqramı çərçivəsində kibercinayətlərin istintaq metodikası, kibercinayətlər üzrə əməllərin tövsif xüsusiyyətləri, rəqəmsal sübutların toplanması, təhlili və qorunması, kibərməkanda baş verən dələduzluq cinayətlərinin ibtidai istintaqı üzrə prosessual nəzarət mexanizmləri, kibercinayətkarlıqla mübarizədə süni intellekt və maşın öyrənmə alətlərindən istifadə, eləcə də müasir kriminalistik üsulların tətbiqi kimi mühüm mövzular əhatə olunub.

Təlimin sonunda dinləyiciləri maraqlandıran suallar cavablandırılıb və iştirakçılar arasında qarşılıqlı təcrübə mübadiləsi aparılıb.

# Prokurorluq əməkdaşları Mir Cəlal Paşayevin yaşadığı ev-muzeyi ziyarət edib








Aprelin 25-də Azərbaycan Respublikası Prokurorluğunun gənc əməkdaşları görkəmli yazıçı, pedaqoq, filologiya elmləri doktoru, Əməkdar elm xadimi, professor Mir Cəlal Paşayevin anadan olmasının 117-ci ildönümü münasibətilə İçərişəhərdə yerləşən və yazıçının uzun illər yaşadığı evdə – "Ədibin Evi" mədəniyyət ocağında olublar.

Ziyarət çərçivəsində iştirakçılara XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Mir Cəlal Paşayevin həyat və yaradıcılığı barədə geniş məlumat verilib.

Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehrəliyeva bildirib ki, yazıçının 1929–1941-ci illərdə yaşadığı bu ev 2017-ci ildən etibarən "Ədibin Evi" adı ilə fəaliyyət göstərərək mədəniyyət məkanı kimi ictimaiyyətin istifadəsinə verilib.

Həmin illərdə müəllifin bir çox fundamental əsərləri məhz bu evdə qələmə alınıb.

Ekskursiya zamanı prokurorluq əməkdaşları Mir Cəlal Paşayevin ədəbi irsinin nadir nümunələri, həmçinin onun zəngin yaradıcılıq dünyasını əks etdirən eksponatlarla tanış olublar. Yazıçının şəxsi əşyaları, arxiv materialları, eləcə də onun haqqında nəşr olunmuş tədqiqat əsərləri nümayiş etdirilib.

Sonda xatirə şəkli çəkilib.

# Prokurorluq əməkdaşları növbəti ağacəkmə kampaniyası keçirib








Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü, həmçinin ölkə başçısının ekoloji mühitin, xüsusilə yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələri ilə əlaqədar aprelin 26-da Baş Prokurorluq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Hərbi Prokurorluq, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstəyi ilə növbəti ağacəkmə kampaniyası keçirib.



Tədbir çərçivəsində ümumilikdə 2 hektar ərazidə 1250-dən çox ağac əkilib.

Kampaniyadan sonra Baş prokuror Kamran Əliyev prokurorluğun veteranları ilə görüşərək onlarla səmimi söhbət edib.

# Ədliyyə işçiləri üçün "Korrupsiya hüquqpozmalarına qarşı cinayət-hüquqi mübarizənin xüsusiyyətləri" mövzusunda birgə təlimlər keçirilib





2025-ci ilin 17 və 28 aprel tarixlərində Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının və Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə ədliyyə işçiləri üçün "Korrupsiya hüquqpozmalarına qarşı cinayət-hüquqi mübarizənin xüsusiyyətləri" mövzusunda Akademiyada təlimlər keçirilib.

Təlimlərə Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin, Məhkəmə Ekspertizası Mərkəzinin, Tibb baş idarəsinin və qeydiyyat şöbələrinin əməkdaşları, icra və probasiya məmurları, eləcə də İstintaq idarəsinin müstəntiqləri, ümumilikdə 96 dinləyici cəlb olunub.



Tədbir çərçivəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin prokurorları Kamil Kamilli, Nicat Nağıyev və Fərid Qarakişiyev ədliyyə sahəsində baş verən korrupsiya hüquqpozmalarının xarakterik xüsusiyyətləri, maraqların toqquşmasının qarşısının alınması və etik davranış qaydaları, korrupsiyaya qarşı mübarizə sahəsində preventiv tədbirlərin əhəmiyyəti və bu sahədə beynəlxalq təcrübə barədə məlumatları dinləyicilərin diqqətinə çatdırıblar.

Həmçinin, təlimlər zamanı Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022 – 2026-cı illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan prioritet istiqamətlər, korrupsiya barədə daxil olan müraciətlərə baxılması qaydası, habelə korrupsiya barəsində məlumat verən şəxslərin müdafiəsi məsələləri müzakirə olunub.

# Baş Prokurorluqda həbs qətimkan tədbirinin seçilməsinin əsasları və hüdudlarına dair seminar keçirilib

2025-ci ilin 28 və 29 aprel tarixlərində Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən tədqiqat materiallarından istifadə edilməklə prokurorluğun 83 müstəntiqi üçün "Həbs qətimkan tədbirinin seçilməsinin real əsasları və hüdudları" mövzusunda Zoom proqramı vasitəsi ilə onlayn rejimdə seminar keçirilib.

Mühazirə, təqdimat və dəyirmi masa formatında təşkil edilmiş seminarda dinləyicilərə həbs və ev dustaqlığı qətimkan tədbirlərinin tətbiqi standartları və prinsipləri, təqsirsizlik prezumpsiyası, həbsdə saxlanılma müddətinin uzadılması standartları, həbs edilmiş şəxs barəsində istintaq hərəkətlərinin xüsusatları, eləcə də digər əlaqəli məsələlər tədris edilib.

Seminar zamanı dinləyiciləri maraqlandırılan suallar Mərkəzin, habelə Baş Prokurorluğun İstintaq və Dövlət ittihamının müdafiəsi üzrə idarələrinin təcrübəli işçiləri tərəfindən ətraflı cavablandırılıb.

Tədbir çərçivəsində həmçinin Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 dekabr tarixli 432 nömrəli Sərəncamı ilə cari ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı maarifləndirici çıxışlar edilib.







# Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Baş Prokurorluq birgə respublika elmi-praktiki konfrans keçirib

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 dekabr tarixli 432 nömrəli Sərəncamı ilə Azərbaycanda “Konstitusiya və Suverenlik İli”nin elan edilməsi ilə əlaqədar prokurorluq orqanlarında silsilə tədbirlər həyata keçirilir.

Bu tədbirlərin davamı olaraq aprel ayının 29-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Baş Prokurorluğun, Vəkillər Kollegiyasının, eləcə də Hüquq və İnsan Haqları İnstitutunun birgə təşkilatçılığı ilə “Konstitusiya milli iradənin və suverenliyin təzahürü kontekstində: yeni reallıqlar və strateji hədəflər” mövzusunda respublika elmi-praktiki konfrans keçirilib.









Tədbiri açıq elan edən Akademiyanın rektoru, hörmətli akademik Urxan Ələkbərov qonaqları salamlayıb, ölkəmizdə aparılan geniş miqyaslı işlər barədə bəhs edib.

Konfransda salamlama nitqi ilə çıxış edən Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Talıb Cəfərov tədbir iştirakçılarını təmsil etdiyi qurum tərəfindən qanunların Konstitusiyaya uyğunlaşdırılması sahəsində görülmüş işlər haqqında, eləcə də Akademiya və Mərkəz arasında formalaşmış əlaqələr barədə geniş məlumat verib, Mərkəzin şöbə prokuroru Ruslan Ağayev isə mövzu ətrafında məruzə ilə çıxış edib.

# Azərbaycan Dövlət İqtisad Universiteti və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb





Azərbaycan Respublikasının Baş Prokurorluğu ali təhsil və ixtisaslaşmış tədris müəssisələri ilə əməkdaşlıq əlaqələrinin qurulmasına, tələbələrin peşəkar işçi kimi formalaşmasına xüsusi diqqət yetirir. Bu cür əlaqələr tədris prosesində tələbələrin ilkin peşə biliklərinin mənimsənilməsinə təkan verməklə, prokurorluq işçilərinin elmi yaradıcılıqla məşğul olmasına imkan yaradır.

Sözügedən sahədə həyata keçirilən ardıcıl tədbirlərin davamı olaraq, Azərbaycan Respublikası Baş prokurorunun razılığı ilə cari il aprelin 30-da Azərbaycan Dövlət İqtisad Universiteti və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu Universitetin rektoru, professor Ədalət Muradov və Mərkəzin rəisi Talıb Cəfərov tərəfindən imzalanıb.

Memorandum yeni ixtisaslaşmalar üzrə mütəxəssislərin hazırlanmasında prokurorluq işçilərinin iştirakını, tərəflərin rəqəmsal ekspertiza, kiber təhlükəsizlik və digər maddi-texniki imkanlarından istifadə olunmasını, birgə elmi-praktiki araşdırmaların aparılmasını, metodik materiallara və elmi əsərlərə rəy və tövsiyələrin verilməsini, birgə nəşrlərin hazırlanmasını, innovativ tədris metodikası üzrə təcrübə mübadiləsini və sair məsələlərin həllində tərəflərin qarşılıqlı fəaliyyətini nəzərdə tutur.

İmzalanma mərasimi çərçivəsində tərəflər arasında pedaqoji fəaliyyət sahəsində təcrübə mübadiləsi aparılıb.

Qeyd edək ki, 1930-cu ildə əsası qoyulmuş Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) Cənubi Qafqaz ölkələrinin ən iri ali təhsil ocaqlarından biridir. UNEC-də 13 fakültə fəaliyyət göstərir, 25 bakalavr proqramı, 94 magistr proqramı, 14 doktorantura proqramı ixtisası üzrə 21 mindən çox təhsil alan var, onlardan 450-dən çoxu əcnəbidir. UNEC-in tədris prosesini 738 nəfərdən ibarət professor-müəllim heyəti həyata keçirir.





## Prokurorluq əməkdaşları "Bakı Marafonu 2025"-də iştirak edib




May ayının 4-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən “Bakı Marafonu 2025”-də prokurorluq əməkdaşları da iştirak edib.

“Küləyə qalib gəl” şüarı altında keçirilən marafon, idman mədəniyyətinin inkişafına dəstək olmaq, sağlam həyat tərzini təbliğ etmək və cəmiyyətdə idmanın əhəmiyyətini vurğulamaq məqsədi daşıyır.

Marşrutu ümumilikdə 21 km-lik məsafəni əhatə edən marafonda peşəkar idmançılardan tutmuş həvəskar iştirakçılara qədər bir çox şəxs bu möhtəşəm yarışda iştirak edib.

Prokurorluq əməkdaşları da tədbirdə aktiv şəkildə iştirak edərək, idmanın və sağlam həyat tərzinin təbliği istiqamətində öz dəstəyini göstərib.

## İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Baş Prokurorluqda media subyektləri və gənclərin iştirakı ilə tədbir keçirilib




İnformasiya texnologiyalarının sürətli inkişafı insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində cinayət təqibi orqanlarının, media subyektlərinin və vətəndaş cəmiyyəti institutlarının qarşılıqlı əlaqələrin qurulmasını və birgə layihələrin həyata keçirilməsini labüd edir.

Bu səbəbdən media subyektləri və vətəndaş cəmiyyəti institutları ilə Baş Prokurorluq müntəzəm əlaqədədir, müasir çağırışlara cavab verən tədbirlər keçirilir.

Növbəti layihə cari ilin mayın 6-da Baş Prokurorluğun Mətbuat xidməti və Elm-Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsində cinayət təqibi ilə media subyektlərinin qarşılıqlı əlaqələri” mövzusunda baş tutub.

Sözügedən tədbirdə televiziya kanallarının, informasiya agentlikləri və xəbər saytlarının, eləcə də müxtəlif qəzetlərin jurnalist və nümayəndələri, eləcə də hüquq fakültəsində təhsil alan tələbələr iştirak edib.








Treninq müxtəlif formatlarda – brifinq, dəyirmi masa və təqdimat şəklində təşkil olunaraq media və prokurorluq orqanları arasında qarşılıqlı əlaqənin müxtəlif aspektlərini əhatə edib.

Təqsirsizlik prezumpsiyasının media materiallarında qorunmasının əhəmiyyəti, bu prinsipin pozulmasının hüquqi və sosial fəsadları, eləcə də ictimaiyyətin obyektiv məlumatlandırılmasının vacibliyi vurğulanıb.

Prokurorluq əməkdaşları və media nümayəndələri arasında effektiv informasiya mübadiləsinin hüquqi əsasları və etik çərçivəsi geniş şəkildə müzakirə olunub.




Tədbir çərçivəsində Baş Prokurorluq tərəfindən hazırlanmış “Jurnalistlər üçün hüquqi terminlər lüğəti” adlı nəşrin təqdimatı keçirilib.

Kitab jurnalistlərin hüquqi mövzularda daha dəqiq və anlaşılan məlumat verməsinə kömək məqsədi daşıyır.



Sosial media və media savadlılığı mövzusunda keçirilən sessiyalarda rəsmi məlumatların hazırlanması, yayım standartları və ictimai maraq doğuran məsələlərin dəqiqliklə çatdırılması ilə bağlı praktiki tövsiyələr verilib.

Tədbirin sonunda iştirakçılar Baş Prokurorluğun inzibati binalar kompleksi ilə tanış olub və xatirə şəkli çəkdiriblər.

Qeyd edilən treninq prokurorluq orqanlarında şəffaflığın və ictimaiyyətlə açıq ünsiyyətin gücləndirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlərin tərkib hissəsi kimi təşkil olunub.

# Baş Prokurorluğun dəstəyi ilə Bakı Dövlət Universitetinin Hüquq fakültəsi tərəfindən Respublika Hüquq Olimpiadası keçirilib





Mayın 6-da Baş Prokurorluğun dəstəyi və Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş Respublika Hüquq Olimpiadası keçirilib.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində təşkil edilmiş Olimpiadanın əsas məqsədi hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin nəzəri biliklərinin təkmilləşdirilməsi, onların hüquqi təfəkkürünün inkişaf etdirilməsi və gənclər arasında sağlam rəqabət mühitinin təşviq olunması olub.

Olimpiadada ölkənin 8 ali təhsil və ixtisaslaşmış müəssisəsinin – Bakı Dövlət Universiteti, ADA Universiteti, Naxçıvan Dövlət Universiteti, Qarabağ Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Milli Aviasiya Akademiyası, Daxili İşlər Nazirliyinin Polis Akademiyası və Dövlət Gömrük Komitəsinin Akademiyasının komandaları iştirak ediblər.

Yarış iştirakçılarının beynəlxalq, cinayət, mülki və konstitusiya hüququ sahələrindəki bilik və bacarıqları sınanılıb. Olimpiada açıq tipli suallar və kazus üzərində iş mərhələlərindən ibarət olub.

Yarışın yekununda komandaların topladığı ümumi nəticələr əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının komandası qalib olub, Dövlət Gömrük Komitəsinin Akademiyasının komandası 2-ci yeri, Daxili İşlər Nazirliyinin Polis Akademiyasının komandası isə 3-cü yeri tutaraq, komanda üzvləri diplom və qiymətli hədiyyələrlə təltif olunublar.

Bu cür yarış və müsabiqələr hüquq sahəsində peşəkar kadr potensialının formalaşdırılmasına töhfə verməklə yanaşı, tələbələrdə vətənpərvərlik, hüquq və ədalətə hörmət kimi dəyərlərin aşılanması baxımından mühüm əhəmiyyət kəsb edir.





# Baş Prokurorluğun idarə rəisi Qarabağ Universitetində tələbələrlə görüşüb





Mayın 16-da Azərbaycan Respublikasının Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev Qarabağ Universitetində "Hüquqşünaslıq" ixtisası üzrə təhsil alan tələbələrlə görüşərək "Cinayət məsuliyyətindən və cəzadan azad etmə" mövzusunda mühazirə (ustad dərsi) deyib.

Praktiki bilik və bacarıqların artırılması məqsədi daşıyan mühazirə tələbələr tərəfindən böyük maraqla qarşılanıb.

Mühazirə Qarabağ Universiteti və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi arasında 18 dekabr 2024-cü il tarixində imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində həyata keçirilib.

Müvafiq mövzularda mühazirələrin davamlı olaraq həyata keçirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, Qarabağ Universiteti eyni zamanda Baş Prokurorluğun təşəbbüsü ilə reallaşdırılan "ECOLEAD" layihəsinin tərəfdaşlarından biridir.









# Baş Prokurorluqda gənc hüquqşünaslarla görüş keçirilib







Gənc hüquqşünasların prokurorluq orqanlarının fəaliyyətinə göstərdiyi maraq nəzərə alınaraq, mayın 24-də Baş Prokurorluğun inzibati binalar kompleksində ADA Universitetinin hüquq ixtisası üzrə təhsil alan tələbələri ilə görüş keçirilib.

Görüş zamanı tələbələrə prokurorluq orqanlarının tarixi, qurumun inkişafında Ümummilli Lider Heydər Əliyevin əvəzsiz rolu və töhfələri barədə ətraflı məlumat verilib. Həmçinin, müasir Azərbaycan Prokurorluğunun formalaşması və inkişafı istiqamətində Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlardan, prokurorluğun fəaliyyət istiqamətləri və struktur qurumlarından danışılıb.

Görüş çərçivəsində tələbələr Ümummilli Liderin guşəsini və Vətən Müharibəsinə həsr olunmuş qalereyanı ziyarət edib, prokurorluq əməkdaşlarının iş şəraiti, istifadə olunan informasiya texnologiyaları, istintaq otaqları, arxiv, tədris auditoriyaları, kitabxanalar, konfrans zalı, kriminalistik avadanlıq və avtomobillərlə yaxından tanış olublar.



# Baş Prokurorluğun idarə rəisi Qarabağ Universitetinin tələbələri üçün mühazirə deyib









Baş Prokurorluğun Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi Mahir Abbasov 2025-ci il iyunun 5-də Qarabağ Universitetinin Humanitar və sosial elmlər fakültəsinin hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri üçün "Cinayət mühakimə icraatında prokurorun rolu" mövzusunda mühazirə deyib.

Mühazirədə Mahir Abbasov cinayət prosesində prokurorun funksiyaları, ibtidai istintaqa prosessual rəhbərlik, sübutların toplanması və qiymətləndirilməsi, həmçinin məhkəmədə dövlət ittihamının müdafiəsi sahəsindəki səlahiyyətləri haqqında ətraflı məlumat verib. M.Abbasov prokurorluq orqanlarının fəaliyyətində şəffaflıq, obyektivlik və qanunçuluq prinsiplərinə toxunaraq bu prinsiplərin hüquqi dövlət quruculuğunda əhəmiyyətini vurğulayıb.

Sonda tələbələrin sualları cavablandırılıb, onlar praktiki məsələlərlə bağlı geniş məlumat alıblar və hüquq mühafizə orqanlarında işləmək perspektivləri barədə fikir mübadiləsi aparılıb.

# “Dövlət qulluğunda etik davranış qaydaları və prinsipləri” mövzusunda təlim keçirilib










Prokurorluq orqanlarında etik davranış qaydalarına və nümunəvi dövlət qulluqçusu kimi peşəkar davranış tələblərinə riayət olunmasına böyük önəm verilir.

Bu məqsədlə, Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Kadrlar idarəsinin birgə təşkilatçılığı ilə 2025-ci ilin may ayı ərzində prokurorluq orqanlarında xüsusi rütbəsi olmayan vəzifələrdə çalışan dövlət qulluqçuları üçün “Dövlət qulluğunda etik davranış qaydaları və prinsipləri” mövzusunda distant təlimlər keçirilib.

Təlimlərdə 400-dən artıq dövlət qulluqçusu dinləyici kimi iştirak edib, Baş Prokurorluğun etik davranış qaydaları sahəsində nəzəri və praktiki biliklərə malik əməkdaşları isə təlimçi qismində cəlb olunub.

Mühazirə və təqdimat formatında keçirilmiş təlimlərdə “Konstitusiya və Suverenlik İli” münasibətilə dövlətçilik tarixində yeni mərhələ, etik davranış qaydalarının mahiyyəti, dövlət qulluqçularından gözlənilən davranış modeli və tələblər, sosial mediada dövlət qulluqçularının davranışının etik xüsusiyyətləri, həmçinin kollektiv daxili ünsiyyət qaydaları mövzuları geniş şəkildə müzakirə olunub.

# Baş Prokurorluqda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi əməkdaşları üçün antikorrupsiya təlimi keçirilib





Azərbaycan Respublikasının 2022–2026-cı illəri əhatə edən Korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət Planının icrası çərçivəsində 2025-ci il mayın 26-da Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan qurumların əməkdaşları üçün “Antikorrupsiya davranış modelinin formalaşdırılması” mövzusunda təlim keçirilib.



Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin təlimçi qismində iştirak etdiyi təlimin məqsədi korrupsiyanın qarşısının alınması istiqamətində maarifləndirici tədbirlərin gücləndirilməsi, dövlət qurumları arasında əməkdaşlığın artırılması və preventiv mexanizmlərin tətbiqinin təşviq olunması olub.

Tədbirdə korrupsiya anlayışı, onun ictimai təsirləri, hüquqi məsuliyyət və qabaqlayıcı tədbirlər haqqında ətraflı məlumat verilib, iştirakçıların sualları cavablandırılıb.



Təlim çərçivəsində, həmçinin Nazirliyin nümayəndələri ilə təcrübə mübadiləsi aparılıb və qonaqlar Baş Prokurorluğun inzibati binasında yaradılmış şərait, tarixi-memorial qalereya, kitabxana, istintaq otaqları və kriminalistika texnikası ilə tanış olublar.



## Baş Prokurorluq və Milli Aviasiya Akademiyası arasında formalaşmış əməkdaşlıq əlaqələri uğurla davam etdirilir

2025-ci il may ayının 27-də Akademiyanın tələbələri üçün Baş Prokurorluğun inzibati binalar kompleksində "Gələcəyin hüquqşünasları ilə görüş" adlı tədbir keçirilib.

Akademiyanın İqtisadiyyat və hüquq fakültəsinin tələbələrinə Baş Prokurorluğun müxtəlif struktur qurumlarının təcrübəli əməkdaşları tərəfindən prokurorluq orqanlarının fəaliyyəti barədə geniş məlumat verilib.







Görüş çərçivəsində tələbələr prokurorluq işçilərinin vəzifə funksiyaları, iş şəraiti, gündəlik fəaliyyətlərində tətbiq etdikləri müasir texnoloji və kriminalistik vasitələrlə, habelə Vətən Müharibəsi qalereyası ilə yaxından tanış olublar.



# Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən təhsil müəssisələrində korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi ilə bağlı maarifləndirici tədbir keçirilib






Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən müxtəlif dövlət qurumlarında korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi ilə bağlı maarifləndirici tədbirlər keçirilir.

Belə ki, cari ilin 29 may tarixində Azərbaycan Memarlıq və İnşaat Universiteti nəzdində İnşaat Kollecində həmin təhsil müəssisəsinin müəllim və tələbə heyəti üçün "Təhsil sahəsində baş verən korrupsiya hüquqpozmalarının xarakterik xüsusiyyətləri" mövzusunda təlim keçirilmişdir.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Kamil Kamillinin təlimçi qismində iştirak etdiyi tədbirdə dinləyicilərə korrupsiyanın mahiyyəti və onun cəmiyyətə təsiri, korrupsiyaya qarşı mübarizə sahəsində preventiv tədbirlərin əhəmiyyəti, bu sahədə qabaqcıl beynəlxalq təcrübə, təhsil sahəsində korrupsiyaya qarşı mübarizə və digər aktual məsələlər tədris edilmişdir.

Qarşılıqlı müzakirələr formatında baş tutmuş təlimin sonunda dinləyicilər tərəfindən verilmiş suallar təlimçi tərəfindən ətraflı şəkildə cavablandırılmışdır.

# Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizənin səmərəliliyinin artırılması məqsədilə təlimlər keçirilib







Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023–2025-ci illər üzrə Milli Fəaliyyət Planı" çərçivəsində müvafiq sahədə səmərəli mübarizənin təmin olunması və iştirakçı qurumlar arasında əməkdaşlığın gücləndirilməsi məqsədilə ixtisaslaşdırılmış təlimlər təşkil olunur.

Bunun davamı kimi, 3–5 iyun tarixlərində Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin birgə təşkilatçılığı ilə prokurorluq, vergi və polis orqanlarında istintaq sahəsində çalışan 125 əməkdaş üçün "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi əməllərinin sübut olunmasının spesifik xüsusiyyətləri" mövzusunda təlim keçirilib.

Əyani və distant formada keçirilmiş təlimlərdə təlimçi qismində Baş Prokurorluğun və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları, Bakı Apellyasiya Məhkəməsinin hakimi və Maliyyə Monitorinqi Xidmətinin nümayəndəsi iştirak ediblər.

Təlim çərçivəsində iştirakçılara Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 193-1-ci maddəsi üzrə nəzərdə tutulan əməllərin hüquqi tərkibi və ictimai təhlükəlilik dərəcəsi, cinayət yolu ilə əldə edilmiş əmlakın və terrorçuluğun maliyyələşdirilməsində istifadə olunan vəsaitlərin aşkara çıxarılması və izlənilməsi metodları, maliyyə istintaqının aparılması və predikativ cinayətlər üzrə paralel araşdırmaların xüsusiyyətləri, bu əməllərin vergi və mənimsəmə cinayətləri ilə əlaqələndirilməsi, həmçinin mövcud məhkəmə təcrübəsi barədə geniş məlumat verilib.

Təlimin yekununda iştirakçılar üçün 44 günlük Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereyaya ekskursiya təşkil olunub.





# Baş Prokurorluqda üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi ilə bağlı müzakirələr aparılıb




Cari il iyunun 17 və 18-də Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi və Elm-Tədris Mərkəzi tərəfindən ümumilikdə 98 nəfər prokurorluq əməkdaşına "Üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi" mövzusunda internet üzərindən interaktiv diskussiya təşkil edilib.

Diskussiya çərçivəsində sözügedən sahə üzrə xüsusi biliyə malik peşəkar prokurorlar dinləyicilərlə ictimai maraqların qorunmasında prokurorluğun rolu, cinayət işləri üzrə üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi ilə bağlı qanunvericiliyin tələbləri, cinayət təqibi zamanı üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi sahəsində dövlət qurumlarının qarşılıqlı əlaqəsi və sair əlaqəli mövzular üzrə müzakirələr aparılıb.







## Gömrük əməkdaşları üçün antikorrupsiya davranış modeli üzrə təlim keçirilib

19–20 iyun tarixlərində Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin təşkilatçılığı ilə gömrük orqanlarının əməkdaşları üçün “Antikorrupsiya davranış modelinin formalaşdırılması” mövzusunda təlim keçirilib.



Təlim prosesində Baş Prokurorluğun təcrübəli əməkdaşları və Dövlət Gömrük Komitəsi Akademiyasının nümayəndəsi təlimçi qismində iştirak ediblər.

Dinləyici qismində təlimdə Dövlət Gömrük Komitəsinin müxtəlif idarə və şöbələrinin əməkdaşları iştirak ediblər.



Təlim zamanı iştirakçılara prokurorluğun ictimai maraqların qorunmasında rolu, korrupsiyanın yaratdığı təhdidlər və ona qarşı mübarizənin əhəmiyyəti, etik davranış qaydalarının korrupsiya risklərinə təsiri, eləcə də gömrük sahəsində preventiv tədbirlərin zəruriliyi barədə ətraflı məlumat verilib. Tədris prosesi müasir texnologiyaların tətbiqi ilə həyata keçirilib.



Təlimin sonunda iştirakçılar Baş Prokurorluğun inzibati binası ilə tanış olub, Vətən Müharibəsinə həsr olunmuş tarixi-memorial muzeyə ekskursiya ediblər.



# Baş Prokurorluqda Müdafiə Nazirliyinin işçiləri üçün təlim təşkil edilib









Baş Prokurorluğun Elm-Tədris Mərkəzində cari ilin 23-25 iyun tarixlərində Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Daxili Təhlükəsizlik və Təhqiqat Baş İdarəsinin 52 işçisi üçün "Məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqatın və inzibati xətalara dair işlər üzrə icraatın xüsusiyyətləri" mövzusunda əyani formatda təlim keçirilib.

Baş Prokurorluğun və Respublika Hərbi Prokurorluğunun təcrübəli əməkdaşlarının, habelə tabe rayon (şəhər) prokurorlarının təlimçi qismində iştirak etdiyi tədbir çərçivəsində dinləyicilərə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqatın və inzibati xətalara dair icraatın aparılması ilə bağlı və digər aktual mövzular tədris edilib.




Təlim zamanı dinləyicilər tədris edilmiş mövzulara maraq göstərib, onları maraqlandırılan suallar təlimçilər tərəfindən ətraflı cavablandırılıb.

# Hərbi prokurorun hərbi qulluqçularla görüşü keçirilib





Azərbaycan Respublikası Baş prokurorunun müavini - hərbi prokuror ədliyyə polkovniki Bəhruz Əhmədov müdafiə nazirinin müavini-Quru Qoşunların komandanı general-polkovnik Hikmət Mirzəyevlə birlikdə dövlət sərhədlərində qulluq edən hərbi qulluqçularla görüşüb. Görüşlərdə Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksəkrütbəli hərbi qulluqçuları iştirak ediblər.

Müxtəlif hərbi hissələrdə birgə keçirilən tədbirlərdən öncə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirlərdə Dövlət Himni səsləndirilib, Baş Prokurorluğun rəhbərliyinin təbriki şəxsi heyətə çatdırılıb.

Çıxış edənlər dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi və xalqın əzmkarlığı ilə əldə olunan uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrin formalaşdırılmasından bəhs ediblər.

Daha sonra hərbi qulluqçuların qarşısında hüquqi maarifləndirici məzmunda çıxışlar olub, onları maraqlandıran suallar cavablandırılıb. Hərbçilərin məişət və xidmət şəraiti ilə bağlı məsələləri, həmçinin qayğı və problemləri dinlənilib.

Sonda xidmətdə fərqlənən hərbi qulluqçulara hədiyyələr təqdim edilib.

## Hərbi prokuror bayram günləri sərhədlərdə





26 iyun 2025-ci il tarixində Baş prokurorun müavini - hərbi prokuror ədliyyə polkovniki Bəhruz Əhmədov və müdafiə nazirinin müavini - Quru Qoşunların komandanı general-polkovnik Hikmət Mirzəyevlə birlikdə Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxslərinin və Müdafiə Nazirliyinin yüksəkrütbəli hərbi qulluqçularının iştirakı ilə dövlət sərhədlərində qulluq edən hərbi qulluqçularla görüşüblər.

Müxtəlif hərbi hissələrdə birgə keçirilən tədbirlərdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb. Dövlət Himni səsləndirilib, Baş Prokurorluğun rəhbərliyinin təbriki şəxsi heyətə çatdırılıb.

Çıxış edənlər Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrin formalaşdırılmasından danışıblar.

Hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici çıxışlar edilib, onları maraqlandıran suallar cavablandırılıb. Eləcə də, hərbçilərin məişət və xidmət şəraiti, həmçinin qayğı və problemləri ilə bağlı fikirləri dinlənilib.

## Dövlət Sərhəd Xidməti Hərbi Prokurorluqla birgə narkomaniyaya qarşı maarifləndirmə tədbirləri keçirib





15.05.2025-ci il tarixində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunları Komandanlığının "Qazax" əlahiddə sərhəd diviziyasında və 25.05.2025-ci il tarixində "Şəmkir" sərhəd dəstəsində Respublika Hərbi Prokurorluğunun əməkdaşları ilə birgə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair Dövlət Proqramı"nın icrası çərçivəsində tədbirlər keçirilib.

Əvvəlcə Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi-Hərbi Prokurorluğun Mətbuat Xidmətinin rəhbəri Firad Əliyev Baş prokuror cənab Kamran Əliyevin və Hərbi prokuror cənab Bəhruz Əhmədovun tapşırıq və tövsiyələrini hərbi qulluqçulara çatdırdı. Bundan sonra çıxış edənlər şəxsi heyətə narkomaniyanın fəsadlarından, narkotik vasitələrin insan sağlamlığına vurduğu zərərlərdən, xüsusilə mərkəzi sinir sisteminə, psixi sağlamlığa və ümumi həyat keyfiyyətinə mənfi təsirlərindən danışıb, onun sosial-mədəni problemlərə yol açdığını, ailə münasibətlərinin pozulması, iş qabiliyyətinin azalması, eləcə də kriminal hadisələrin artması kimi ciddi nəticələrə səbəb olduğunu qeyd ediblər.

Bildirilib ki, belə görüşlərin keçirilməsində əsas məqsəd hərbi qulluqçular arasında sağlam həyat tərzinin təşviqi, hüquqi biliklərin artırılması və narkotik vasitələrə qarşı ictimai həssaslığın gücləndirilməsidir. Tədbirin sonunda şəxsi heyətin sualları cavablandırılıb, fikirləri dinlənilib və narkomaniyaya qarşı mübarizədə fərdi məsuliyyətin əhəmiyyəti vurğulanıb.

Xidmətdə fərqlənən hərbi qulluqçulara hədiyyələr təqdim olunub.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə "Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan hüquqpozmalar və onların profilaktikası" mövzusunda maarifləndirmə tədbirləri keçirilib





Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Dövlət Universiteti ilə birlikdə 15.04.2025-ci il tarixdə Culfa rayon, 23.04.2025-ci il tarixdə isə Naxçıvan Şəhər İcra Hakimiyyətlərində yerli icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndələrin, bələdiyyə sədrlərinin, yerli dini icma rəhbərlərinin və yerlərdə fəaliyyət göstərən ictimai iaşə obyektlərinin (Şadlıq evlərinin) inzibatçılarının iştirakı ilə yetkinlik yaşına çatmayan şəxslərin hüquqlarının müdafiəsi və onlar barəsində ailə münasibətləri əleyhinə olan cinayət və inzibati xətaların vaxtında qarşısının alması məqsədi ilə "Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan hüquqpozmalar və onların profilaktikası" mövzusunda müvafiq maarifləndirmə tədbirləri keçirilib.

Tədbirlərdə Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi baş ədliyyə müşaviri Faiq Səfərov, Daxili İşlər Nazirliyinin İctimai təhlükəsizlik idarəsinin baş inspektoru polis mayoru Samiq Məmmədov, Səhiyyə Nazilriyinin əməkdaşı, həkim-terapevt Nigar Səfərova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı Firuzə Hüseynova və Naxçıvan Dövlət Universitetinin əməkdaşı, müəllim-psixoloq Nuranə Səlimova mövzu ilə bağlı çıxış edərək sualları cavablandırmışlar.

## Naxçıvan Muxtar Respublikasının tabe rayon və şəhər prokurorluqlarında seminarlar keçirilib





Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin təşkilatçılığı ilə aprelin-3-də Şərur, Kəngərli və Sədərək, aprelin 17-də Culfa və Ordubad, aprelin 29-da isə Naxçıvan şəhər, Şahbuz və Babək rayon prokurorluqlarında rayon (şəhər) polis idarə və şöbələrinin müvafiq əməkdaşlarının iştirakı ilə şəxsin tutulması, həbs edilməsi zamanı insan hüquqlarının pozulması, işgəncə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar, vəzifədən sui-istifadə və digər bu kimi hallarla bağlı beynəlxalq hüquqi sənədlərin və qanunvericiliyin tələblərinin öyrənilməsi ilə bağlı seminarlar keçirilib.

Seminarlarda şöbə rəisi baş ədliyyə müşaviri Faiq Səfərov qeyd etdi ki, "İşgəncələrin və qeyri -insani, yaxud insan ləyaqətini alçaldan rəftarın və ya cəzaların qarşısının alınması haqqında Avropa Konvensiyasının tətbiqinə dair" Azərbaycan Respublikası Baş Prokurorluğunun Daxili İşlər Nazirliyi ilə 14.10.2023-cü il tarixli 09-40/3-13/Ə598/2023 №-li birgə əmri imzalanmışdır.

Həmin əmrlə ibtidai araşdırma zamanı işgəncə vermə, döyülmə, yaxud digər formada qeyri-insani rəftar və ya fiziki və psixi zor göstərilməklə müşayiət olunan təzyiqlər tətbiq edilməsi barədə məlumat daxil olarsa, hər fakt üzrə ayrıca icraat açılmaqla dərhal məhkəmə-tibb ekspertizası təyin edilərək məlumatın yoxlanması, məhkəmə-tibb ekspertizası zamanı şəxsin müayinəsində müdafiəçinin iştirakı təmin edilməklə tam, hərtərəfli və obyektiv araşdırmanın aparılması təmin edilməsi, məlumat təsdiq olunarsa, həmin fakt üzrə cinayət işi başlanıb istintaq aparılması, belə hərəkətlərə yol vermiş vəzifəli şəxs barəsində qanunla nəzərdə tutulmuş tədbirlərin görülməsinin təmin edilməsi tələb edilmişdir.

Sonda seminar iştirakçılarını maraqlandıran suallar cavablandırıldı.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən orta ümumtəhsil məktəblərində “Ekoloji hüquqi məsuliyyət” mövzusunda açıq dərslər keçirilib





2025-ci ilin aprel-may aylarında Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarının əməkdaşları tərəfindən muxtar respublikanın orta ümumtəhsil məktəblərində şagirdlər üçün “Ekoloji hüquqi məsuliyyət” mövzusunda açıq dərslər keçirilib.

Prokurorluq əməkdaşları tərəfindən ətraf mühitin mühafizəsi, ekoloji təhlükəsizlik, bu sahədəki hüquq pozuntuları və hüquqi məsuliyyət barədə şagirdlərə ətraflı məlumat verilib, suallar cavablandırılıb.



## Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilakçılığı ilə “Ətraf mühitin mühafizəsinin hüquqi əsasları” mövzusunda maarifləndirici tədbirlər keçirilib









Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən 18.04.2025-ci il tarixdə Naxçıvan Müəllimlər İnstitutunda, 30.04.2025-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin nəzdində





Naxçıvan Tibb Kollecində, 08.05.2025-ci il tarixdə Naxçıvan Musiqi Kollecində, 20.05.2025-ci il tarixdə Naxçıvan Dövlət Universitetində, 26.05.2025-ci il tarixdə isə Naxçıvan Texniki Kollecində müvafiq maarifləndirici tədbirlər keçirilib.

Tədbirlərdə Prokurorluğun əməkdaşları: baş ədliyyə müşaviri Faiq Səfərov və baş ədliyyə müşaviri İsfəndiyar Qasımov mövzu ilə bağlı çıxışlar edib, videoçarx izlənilib.



## Naxçıvan Muxtar Respublikası Prokurluğunun əməkdaşları Ümummilli Lider Heydər Əliyev Müzeyini ziyarət ediblər





8 may 2025-ci il tarixində Naxçıvan Muxtar Respublikası Prokurluğunun əməkdaşları ölkəmizdə elan edilmiş “Konstitusiya və Suverenlik İli” çərçivəsində Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Muzeyini ziyarət ediblər.

İlk olaraq Ümummilli Lider Heydər Əliyevin həyat və yaradıcılığından bəhs edən "Heydər Əliyev və Naxçıvan" adlı qısametrajlı film nümayiş olunub.

Sonra isə muzeydə Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini, zəngin dövlətçilik irsini özündə təcəssüm etdirən materiallarla yanaşı, Ümummilli Liderə məxsus şəxsi əşyalar və digər mühüm eksponatlarla tanış olublar.

Sonda xatirə fotoşəkili çəkdirilib.

## Naxçıvan Muxtar Respublikasının tabe rayon və şəhər prokurorluqlarında seminarlar keçirilib



Naxçıvan Muxtar Respublikasının Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin təşkilatçılığı ilə may ayının 6-da Şərur, Kəngərli və Sədərək, 12-də Culfa və Ordubad, 29-da isə Naxçıvan şəhər, Şahbuz və Babək rayon prokurorluqlarında "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının 5-ci maddəsində təsbit olunmuş azadlıq və toxunulmazlıq hüququ" mövzusunda seminar keçirilib. Seminarda şöbə rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov mövzu ilə bağlı çıxış edərək iştirakçıları maraqlandıran sualları cavablandırmışdır.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunda "Açıq Qapı" günü keçirilib









May ayının 27-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda "Konstitusiya və Suverenlik ili" çərçicəsində Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinin tələbələri üçün "Açıq qapı" günü keçirilib.

Görüş zamanı prokurorluğun əməkdaşları Faiq Səfərov, Turqay Həşimli, İbrahim Mənsimov və Elvin Hüseynov tələbələrə prokurorluq orqanlarının tarixi, prokurorluğun inkişafında Ümummilli Lider Heydər Əliyevin əvəzsiz rolu və töhfələri barədə ətraflı məlumat verilmişdir.

Həmçinin, müasir prokurorluğun formalaşması və inkişafı istiqamətində Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlardan, prokurorluğun fəaliyyət istiqamətləri, struktur qurumları və eləcə də Elektron Prokurorluq İnformasiya Sistemi barədə ətraflı məlumat verib, tələbələri maraqlandıran çoxsaylı sualları cavablandırıblar.

Sonra isə şərti hadisə yerinə baxış zamanı hadisə yerinin müayinə üsulları, hadisə yerində olan dəlillərin rəsmiləşdirilməsi, üzərində aşkar olunan əl-barmaq və digər izlərinin fiksasiya edilməsi, götürülməsi və rəsmiləşdirilməsi qaydası, həmçinin canlı şəxsin və meyitin əl-barmaq izlərinin götürülməsi əyani olaraq tələbələrə izah olunub.

Prokurorluğun inzibati binası ilə tanışlıqdan sonra iştirakçılarla xatirə fotoşəkili çəkilib.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən Muxtar Respublikanın yerli icra hakimiyyəti orqanlarında "Ümummilli Lider Heydər Əliyev Müstəqil Azərbaycan Konstitusiyasının Müəllifidir" mövzusunda tədbirlər keçirilmişdir





2025-ci ilin may-iyun aylarında Azərbaycan Respublikası Konstitusiyasının hüquqi və tarixi əhəmiyyəti və dövlət suverenliyimizin mahiyyətinin izah olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Naxçıvan Dövlət Universiteti ilə birlikdə Naxçıvan Muxtar Respublikasının yerli icra hakimiyyəti orqanlarında, ali və orta-ixtisas təhsili müəssisələrində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda müvafiq maarifləndirmə tədbirləri keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstəsi qoymuşlar. Sonra isə tədbir rayonların mədəniyyət evlərində keçirilib. Əvvəlcə Ulu Öndərin və şəhidlərin xatirəsi yad edilib, sonra isə Dövlət himni səslənib. Rayon (şəhər) icra hakimiyyətləri başçılarının müavinləri, Yeni Azərbaycan Partiyası rayon (şəhər) təşkilatlarının sədrləri, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Təsisatının əməkdaşları çıxış etmişlər. Şagirdlərin bədii qiraətindən sonra Naxçıvan televiziyasının hazırladığı film nümayiş etdirilmiş və tədbir bədii hissə ilə davam etmişdir.

Çıxışlarda əminliklə ifadə olunmuşdur ki, vətəndaşı olduğumuz Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır və dönməzdir! "Konstitusiya və suverenlik İli" ölkəmizin tərəqqisi naminə daha geniş üfüqlər açacaqdır. Azərbaycannın müstəqilliyi və suverenliyi əbədi olacaqdır!











# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə kiberhücumlara qarşı mübarizə və təhlükəsizlik tədbirləri ilə bağlı toplantılar keçirilib




Kibercinayətkarlıq hallarının artması məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı, Naxçıvan MR Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan MR İdarəsinin və Naxçıvan Dövlət Universitetinin aidiyyəti əməkdaşlarının iştirakı ilə 08.04.2025-ci il tarixdə Naxçıvan MR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində, 14.05.2025-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin Tibb Kollecində, 16.05.2025-ci il tarixdə Naxçıvan MR Ekologiya və Təbii Sərvətlər Nazirliyində, 22.05.2025-ci il tarixdə Naxçıvan MR Kənd Təsərrüfatı Nazirliyində, 04.06.2025-ci il tarixdə Naxçıvan MR İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində, 10.06.2025-ci il tarixdə Naxçıvan MR Fövqəladə Hallar Nazirliyində, 21.06.2025-ci il tarixdə isə Naxçıvan MR İqtisadiyyat Nazirliyində müvafiq maarifləndirmə tədbirləri keçirilib. Toplantılarda nazirliklərin və tabe qurumlarının əməkdaşları iştirak edib.

















Tədbirlərdə Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov, Daxili İşlər Nazirliyinin Cinayət-axtarışı idarəsinin Kibercinayətkarlıqla Mübarizə bölməsinin baş əməliyyat müvəkkili, polis kapitanı Əli Qasımlı, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin Maliyyə bazarı iştirakçılarının hüquqlarının müdafiəsi bölməsinin rəhbəri Mərhəmət Bayramov və Naxçıvan Dövlət Universitetinin İnformasiya texnologiyaları şöbəsinin müdiri Hüseyn Əsgərli mövzu ilə bağlı iştirakçılara müvafiq məlumat verərək sualları cavablandırıblar. Sonra isə mövzu ilə bağlı slaydlar nümayiş etdirilib.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 23 iyun – Dövlət Qulluqçularının Peşə Bayramı Günü münasibəti ilə tədbir keçirilib



23 iyun – Azərbaycan Respublikasında Dövlət Qulluqçularının Peşə Bayramı Günü münasibəti ilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru III dərəcəli dövlət ədliyyə müşaviri Sənan Paşayev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 may 2006-cı il tarixli Sərəncamı ilə 23 iyun tarixinin ölkəmizdə Dövlət qulluqçularının peşə bayramı günü kimi təsis edildiyini, hüquqi və dünyəvi dövlət qurulması prosesində dövlət qulluğunun mühim rolu olduğunu diqqətə çatdırıb və dövlət qulluqçularını peşə bayramı münasibətilə təbrik edərək, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirdə muxtar respublikası prokuroru tərəfindən peşə bayramı ilə əlaqədar müvafiq əmrlə təltif edilmiş bir qrup dövlət qulluqçusuna qiymətli hədiyyələr təqdim edilib.

# Qarabağ Universitetinin tələbələri və media Nəsimi rayon prokurorluğunda olub












Mayın 23-də Qarabağ Universitetinin Humanitar və Sosial Elmlər fakültəsinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri və media nümayəndələrinin iştirakı ilə Nəsimi rayon prokurorluğunda “Açıq qapı” günü keçirilib.

Tədbirin məqsədi hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin prokurorluq orqanlarının fəaliyyəti ilə daha yaxından tanış olmalarını təmin etmək, onların nəzəri biliklərini praktiki müstəvidə genişləndirmək və cəmiyyətdə prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı maarifləndirməni artırmaqdır.

Tədbirin açılışında çıxış edən Nəsimi rayon prokuroru Həsən Hənifəyev qonaqları salamlayaraq, belə təşəbbüslərin hüquqşünas gənclərin peşəkar formalaşmasında mühüm rol oynadığını vurğulayıb. O, eyni zamanda rayon prokurorluğunun fəaliyyəti, səlahiyyətləri və gündəlik iş prinsipləri ilə bağlı geniş məlumat verib, iştirakçıların suallarını cavablandırıb.

Daha sonra çıxış edən Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov prokurorluq orqanlarının strukturu, funksiyaları və cinayət təqibi fəaliyyəti barədə geniş təqdimatla çıxış edib. O, həmçinin vurğulayıb ki, prokurorluq orqanlarında aparılan islahatların mərkəzində şəffaflıq, aşkarlıq və vətəndaş məmnunluğunun təmin olunması dayanır.



Tədbirdə həmçinin peşəkar prokurorluq əməkdaşları da çıxış edərək, öz sahələrində təcrübə və biliklərini iştirakçılarla bölüşüblər.

İştirakçılar kriminalistik avadanlıqlarla tanış olub, onların istintaq prosesində tətbiqi barədə ətraflı məlumat əldə ediblər.

Sonda iştirakçılar prokurorluğun inzibati binası ilə tanış olub, onlara iş şəraiti və praktiki fəaliyyət barədə əyani məlumat təqdim edilib. Tədbirin sonunda xatirə fotoşəkli çəkilib.











# Nəsimi rayon prokurorluğunda “Hüquq və Suverenlik: Prokurorluğun Yeni Çağırışları” mövzusunda seminar keçirilib






Mayın 23-də Nəsimi rayon rokurorluğunda “Hüquq və Suverenlik: Prokurorluğun Yeni Çağırışları” mövzusunda seminar keçirilib.

Tədbirdə Qarabağ Universitetinin Humanitar və Sosial Elmlər fakültəsinin Hüquqşünaslıq ixtisasında təhsil alan tələbələr və media nümayəndələri iştirak ediblər.

Seminarı giriş sözü ilə açan Nəsimi rayon prokuroru Həsən Hənifəyev Azərbaycan Respublikasının müasir hüquqi sisteminin formalaşmasında, xüsusilə dövlət suverenliyinin qorunması və Konstitusiyanın qəbul olunması prosesində Ümummilli Lider Heydər Əliyevin əvəzsiz rolunu qeyd edib. O, bu istiqamətdə gənclərin hüquqi düşüncəsinin və vətənpərvərlik ruhunun gücləndirilməsinin vacibliyini vurğulayıb.

Daha sonra çıxış edən Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Nigar Qələndərli, Nəsimi rayon prokurorunun müavini Fərid Dadaşov və Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov hüquqi maarifləndirmənin, prokurorluq orqanlarının müasir dövrdə qarşılaşdığı çağırışların və cəmiyyətlə əlaqələrin əhəmiyyətindən danışıblar.



Çıxışlarda həmçinin vurğulanıb ki, 1995-ci ildə qəbul olunan Konstitusiya hüquqi dövlətin əsasını qoymaqla bərabər, xalqın suveren iradəsini əks etdirib və bu proses birbaşa Heydər Əliyevin liderliyi ilə həyata keçirilib.

Seminarın sonunda iştirakçılara Ümummilli Lider Heydər Əliyevin dövlət quruculuğundakı misilsiz xidmətlərini əks etdirən sənədli film nümayiş etdirilib.

Tədbir interaktiv formada davam edib, tələbələr çıxışçılara hüquqi sahədə maraqlandıran suallar ünvanlayaraq cavablar əldə edib.




# “Konstitusiya və Suverenlik İli” çərçivəsində Baş Prokurorluq tərəfindən Qəbələdə regional konfrans keçirilib





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin ölkədə “Konstitusiya və Suverenlik İli” elan olunması ilə əlaqədar, prokurorluq orqanları tərəfindən geniş-miqyaslı tədbirlər həyata keçirilir.

Bu tədbirlərin davamı olaraq, mayın 27-də Qəbələ şəhərində Baş Prokurorluğun təşkilatçılığı ilə “Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun rolu” mövzusunda regional konfrans keçirilib.

Tədbirdə 12 regionun prokurorluq orqanlarının media ilə işləməyə məsul əməkdaşları, dövlət və qeyri-hökumət təşkilatları, media qurumları, təhsil müəssisələri və hüquq-mühafizə orqanlarının nümayəndələri iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, onun əziz xatirəsini ehtiramla yad ediblər. Daha sonra Ulu Öndər Heydər Əliyev və Azərbaycanın suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.





Açılış nitqi zamanı Baş Prokurorluğun Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq və əməliyyat-axtarış fəaliyyətində qanunlara nəzarət idarəsinin rəisi Mahir Abbasov milli suverenliyin hüquqi əsasları və təminat mexanizmləri barədə geniş məlumat verib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə milli suverenliyin möhkəmləndirilməsi və hüquqi təminatların gücləndirilməsi istiqamətində əldə olunan böyük nailiyyətləri və bu sahədə dövlət siyasətinin davamlı inkişafını xüsusi vurğulayıb.



Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova rayon səviyyəsində hüquqi maarifləndirmə işlərinin əhəmiyyətini qeyd edib. O, regional təşəbbüslərin vətəndaşların hüquqi biliklərinin artırılmasında mühüm rol oynadığını bildirərək, ümummilli lider Heydər Əliyevin Azərbaycanın konstitusiya quruculuğundakı əvəzsiz rolunu xüsusi vurğulayıb.



Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi Elşad Hacıyev çıxışında milli suverenliyin hüquqi əsaslarının möhkəmləndirilməsində hüquq-mühafizə orqanlarının funksional roluna diqqət çəkib. O bildirib ki, ictimai asayişin təmin olunması, cinayətkarlıqla mübarizə və vətəndaşların təhlükəsizliyinin qorunması dövlətin suveren hüquqlarının həyata keçirilməsi üçün əsas şərtlərdir.



Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr idarəsinin rəisi – Mətbuat katibi Anar Eyvazov Azərbaycanın dövlət suverenliyinin qorunmasında xalqımızın fədakarlıqlarını vurğulayıb. O, Azərbaycan Ordusunun formalaşması və müasir silahlı qüvvələrin yaradılmasının milli maraqların təminatında həlledici rol oynadığını qeyd edib. Müdafiə Nazirliyinin Kommunikasiya Strategiyasının dövrün tələblərinə uyğun inkişaf etdirildiyini, dövlət-ordu-xalq birliyinin gücləndirilməsinin vacibliyini bildirib. Həmçinin, dezinformasiyalara qarşı mübarizədə effektiv kommunikasiyanın və rəsmi məlumatların ictimailəşdirilməsinin önəmini vurğulayıb.



Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxışında cəmiyyətdə hüquqi şüurun formalaşdırılması, dövlət orqanlarının fəaliyyətinə inamın gücləndirilməsi və milli suverenliyin dayanıqlı şəkildə qorunması üçün hüquqi informasiyanın düzgün və vaxtında çatdırılmasının vacibliyini vurğulayıb. O bildirib ki, bu istiqamətdə prokurorluğun media ilə əlaqələrinin möhkəmləndirilməsi prioritetdir.

Mətbuat Şurasının icraçı katibinin müavini Fəridə Ağazadə medianın hüquqi maarifləndirmədə və ictimai nəzarətin formalaşmasında mühüm rol oynadığını bildirib, jurnalistlərin hüquqi biliklərinin artırılması və onların fəaliyyətinin hüquqi müstəvidə qorunmasının vacibliyini qeyd edib.



Qəbələ Rayon Ağsaqqallar Şurasının üzvü Telman Abdulxalıqov isə milli-mənəvi dəyərlərin qorunması və gənc nəslin hüquqi və vətənpərvərlik ruhunda tərbiyə olunması ilə bağlı maarifləndirmə tədbirlərinin genişləndirilməsinin vacibliyini vurğulayıb.

Tədbir çərçivəsində dövlət qurumları ilə ictimai təşkilatlar arasında əməkdaşlıq, ictimai nəzarət mexanizmlərinin tətbiqi və hüquqi maarifləndirmə strategiyalarının təkmilləşdirilməsi mövzusunda geniş fikir mübadiləsi aparılıb, konkret təkliflər səsləndirilib.

Konfransın sonunda “Suverenlik və hüquqi təminatlar” mövzusunda sənədli film nümayiş olunub və iştirakçılarla xatirə fotoşəkili çəkilib.



# Qəbələ rayon prokurorluğunda "Açıq Qapı" günü keçirilib







Mayın 27-də Qəbələ rayon prokurorluğunda "Açıq Qapı" günü keçirilib. Tədbirdə media nümayəndələri, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və ictimai fəallar iştirak ediblər.

Tədbirin əsas məqsədi, vətəndaşların prokurorluq orqanlarının fəaliyyəti ilə daha yaxından tanış olmalarını təmin etmək, hüquqi məsələlərdə maarifləndirməni artırmaq və prokurorluğun şəffaf fəaliyyətini nümayiş etdirmək olub.

Tədbirin açılışında çıxış edən Qəbələ rayon prokuroru Nazim Babayev, belə təşəbbüslərin cəmiyyətin hüquqi biliklərinin artırılmasında mühüm rol oynadığını vurğulayıb. O, həmçinin, prokurorluğun fəaliyyətində şəffaflığın artırılması və vətəndaşların hüquqlarının qorunmasının prioritet olduğunu qeyd edib. Nazim Babayev, rayon prokurorluğunun səlahiyyətləri və iş prinsipləri barədə iştirakçılara ətraflı məlumat verib və onların suallarını cavablandırıb.

Baş Prokurorluğun Mətbuat Xidmətinin böyük prokuroru Kənan Zeynalov, prokurorluq orqanlarının strukturu, funksiyaları və iş prinsipləri barədə təqdimat edib. O, prokurorluqda aparılan islahatların əsas məqsədinin şəffaflıq, vətəndaş məmnunluğu və hüquqi təminatların gücləndirilməsi olduğunu vurğulayıb. Kənan Zeynalov, həmçinin ictimaiyyətlə əlaqələrin daha da gücləndirilməsi üçün prokurorluğun gördüyü işlər barədə məlumat verib.

Tədbirdə, rayon prokurorluğunun digər əməkdaşları da çıxış edərək, öz sahələrindəki təcrübə və biliklərini iştirakçılarla bölüşüblər. İştirakçılar, prokurorluğun iş prosesləri və hüquqi təminatlarla bağlı praktiki biliklər əldə ediblər.

Sonda, tədbir interaktiv formatda davam edib və iştirakçılara müxtəlif hüquqi məsələlər üzrə suallar ünvanlanıb. Onlar, prokurorluğun fəaliyyətini və hüquqi prosedurları daha yaxından öyrənərək ətraflı cavablar alıblar.

Prokurorluğun inzibati binası ilə tanışlıq turu təşkil edilib və sonda iştirakçılara xatirə fotoşəkli çəkilib.










# Qəbələ rayon prokurorluğunda “Hüquq və Suverenlik: Prokurorluğun Yeni Çağırışları” mövzusunda seminar keçirilib

Mayın 27-də Qəbələ rayon prokurorluğunda “Hüquq və Suverenlik: Prokurorluğun Yeni Çağırışları” mövzusunda seminar təşkil olunub. Tədbirdə prokurorluq əməkdaşları, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və media nümayəndələri iştirak ediblər.

Seminara giriş sözü ilə başlayan Qəbələ rayon prokuroru Nazim Babayev, Azərbaycan Respublikasının hüquqi sisteminin inkişafında, xüsusilə dövlətin suverenliyinin qorunması və qanunvericiliyin təkmilləşdirilməsi sahəsində prokurorluğun rolunu vurğulayıb. O, həmçinin, pro-












kurorluğun müasir dövrdə qarşılaşdığı yeni çağırışlar və problemlər barədə ətraflı məlumat verərək, prokurorluğun bu sahədəki mövqeyini açıqlayıb. Nazim Babayev, hüquqi təhsil və ictimaiyyətin hüquqi maarifləndirilməsinin əhəmiyyətini qeyd edərək, gənclərin hüquq sahəsindəki biliklərinin artırılmasının vacib olduğunu bildirilib.

Baş Prokurorluğun Mətbuat Xidmətinin böyük prokuroru Kənan Zeynalov, çıxışında prokurorluq orqanlarının fəaliyyətində şəffaflığın və ictimaiyyətlə əlaqələrin gücləndirilməsinin vacibliyini önə çəkib. O, prokurorluğun müasir dövrdəki çağırışlarla necə mübarizə apardığını və bu prosesdə cəmiyyətin dəstəyinin əhəmiyyətini diqqətə çatdırıb. Kənan Zeynalov, prokurorluğun strukturu və funksiyalarını izah edərək, hüquqi islahatların gücləndirilməsi və dövlətin hüquqi təminatlarının daha da təkmilləşdirilməsinə yönəldildiyini bildirib.

Seminarda müzakirə olunan mövzularda hüquqi dövlətin möhkəmləndirilməsi və vətəndaşların hüquqlarının müdafiəsi ilə bağlı aktual məsələlərə toxunulub. Çıxışçılar, həmçinin, müasir dövrün tələblərinə uyğun olaraq, prokurorluğun qarşısında duran vəzifələrə dair məlumatlar veriblər.

Tədbir interaktiv formatda davam edib. İştirakçılar çıxışçılara müxtəlif hüquqi məsələlər üzrə suallar ünvanlayaraq, ətraflı məlumat əldə ediblər.

# Kürdəmir rayon prokurorluğunda “Açıq Qapı” günü keçirilib

İyunun 13-də Kürdəmir rayon prokurorluğunda “Açıq Qapı” günü keçirilib. Tədbirdə media nümayəndələri, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və ictimai fəallar iştirak ediblər.

Tədbirin məqsədi vətəndaşların prokurorluq orqanlarının fəaliyyəti ilə daha yaxından tanış olması, hüquqi maarifləndirmənin artırılması və şəffaflığın təşviqi olub.

Tədbirin açılışında çıxış edən Kürdəmir rayon prokuroru Tural İbrahimov prokurorluğun fəaliyyəti və islahatlar barədə iştirakçılara məlumat verib. Tural İbrahimov bu cür tədbirlərin hüquqi biliklərin artırılmasında mühüm rol oynadığını bildirib və şəffaflıqla yanaşı, vətəndaş hüquqlarının müdafiəsinin də prokurorluğun əsas prioritetlərindən olduğunu vurğulayıb. O, rayon prokurorluğunun gündəlik işi, səlahiyyətləri və vətəndaşlarla ünsiyyət prinsipləri barədə məlumat verib.

Baş Prokurorluğun Mətbuat Xidmətinin böyük prokuroru Kənan Zeynalov prokurorluq sistemində aparılan islahatlardan danışaraq, bu dəyişikliklərin şəffaflığı artırmaq, hüquqi təminatları gücləndirmək və vətəndaş məmnunluğunu təmin etmək məqsədi daşıdığını qeyd edib. O, həmçinin, ictimaiyyətlə əlaqələrin genişləndirilməsi istiqamətində görülən işlərə toxunub.

Tədbir çərçivəsində digər prokurorluq əməkdaşları da çıxış edərək öz sahələri üzrə təcrübə və biliklərini iştirakçılarla bölüşüblər. Qonaqlar prokurorluğun iş prosesi, hüquqi prosedurlar və vətəndaş müraciətlərinə baxılması qaydaları ilə bağlı məlumatlandırılıblar.

Daha sonra iştirakçılara prokurorluq əməkdaşlarının gündəlik fəaliyyətindən bəhs edən “Valideynimin peşəsi” adlı qısa metrajlı film nümayiş etdirilib.





Tədbirin interaktiv hissəsində iştirakçılar hüquqi suallar ünvanlayıb və ətraflı cavablar alıblar. Ardınca prokurorluğun yeni inzibati binası ilə tanışlıq turu təşkil olunub. Qonaqlara əməkdaşlar üçün yaradılmış müasir iş şəraiti, “Elektron prokurorluq” informasiya sistemi, kriminalistik avtomobil və texniki avadanlıqlar təqdim olunub. Eyni zamanda, istintaq proseslərində müasir texnologiyaların tətbiqi barədə ətraflı məlumat verilib.

Sonda iştirakçılarla xatirə fotoşəkli çəkilib.










# Kürdəmir rayon prokurorluğunda “Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun Rolu” mövzusunda seminar keçirilib














2025-ci il iyunun 13-də Kürdəmir şəhərində “Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun Rolu” mövzusunda seminar təşkil olunub. Tədbirdə 12 regiondan prokurorluq əməkdaşları, qeyri-hökumət təşkilatlarının nümayəndələri və media təmsilçiləri iştirak ediblər.

Kürdəmir rayon prokuroru Tural İbrahimov giriş nitqində bildirib ki, Azərbaycan Respublikasının Konstitusiyası dövlət suverenliyinin möhkəmləndirilməsi və hüquq sisteminin inkişafı üçün əsas hüquqi sənəddir. O vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev bu sənədin hazırlanması və qəbulunda böyük rol oynayıb. Prezident İlham Əliyevin rəhbərliyi altında hüquqi islahatların uğurla davam etdirildiyini qeyd edən Tural İbrahimov, dövlət suverenliyinin qorunması və qanunvericiliyin təkmilləşdirilməsi sahəsində prokurorluğun vacib rolunu xüsusi vurğulayıb.

Baş Prokurorluğun Mətbuat Xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxışında bildirib ki, Konstitusiyada təsbit olunmuş suverenlik prinsipləri prokurorluğun fəaliyyətinin əsasını təşkil edir. O, dövlət başçısı İlham Əliyev və Birinci Vitse-Prezident Mehriban Əliyevanın davamlı diqqət və qayğısı nəticəsində suveren ölkəmizin bütün bölgələrində, xüsusilə işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı abadlıq və quruculuq işlərinin həyata keçirildiyini, eləcə də Böyük Qayıdış strategiyasının uğurla icra olunduğunu vurğulayıb.

Seminar zamanı milli suverenliyin və hüquqi təminatların qorunmasında prokurorluğun rolu geniş müzakirə olunub. İştirakçılar prokurorluğun bu sahədə üzərinə düşən vəzifələri və həyata keçirilən tədbirləri ətraflı təhlil ediblər.

Tədbirdə hüquqi dövlətin möhkəmləndirilməsi və vətəndaş hüquqlarının müdafiəsi ilə bağlı aktual məsələlər müzakirə olunub, çıxışçılar prokurorluğun qarşısında duran əsas vəzifələr barədə fikirlərini bölüşüblər.

Seminar interaktiv formatda davam edib, iştirakçılar hüquqi məsələlərə dair suallar verərək geniş cavablar alıblar.

# İnsan hüquqları aylığı ilə əlaqədar dəyirmi masa keçirildi





18 iyun 2025-ci il tarixdə Qubadlı rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə, rayon icra Hakimiyyətinin inzibati binasında "Konstitusiya və Suverenlik ili" çərçivəsində "18 may–18 iyun insan hüquqları aylığı" ilə əlaqədar dəyirmi masa keçirildi.

Tədbirdə Qubadlı RİH-in məsul işçiləri, prokurorluq və diqər hüquq-mühafizə orqanlarının əməkdaşları, RİH-in inzibati ərazi dairəsi üzrə nümayəndələri iştirak edirdilər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və dövlətimizin azadlığı, müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. 18 iyun "Hüquqlarımızı müdafiə edək" mövzusunda video çarx nümayiş olundu.

Tədbiri giriş sözü ilə açan Qubadlı rayon İcra Hakimiyyəti başçısı aparatında Hüquq şöbəsinin müdiri Azər Qarayev bildirdi ki, Müstəqil Azərbaycanda insan hüquq və azadlıqlarının təmin istiqamətində baş verən bütün köklü müsbət dəyişikliklər məhz Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş genişmiqyaslı islahatlar nəticəsində mümkün olmuşdur.




Ümummilli Lider Heydər Əliyev tərəfindən 1998-ci il iyunun 18-də ölkəmizdə ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuş və bununla da insan hüquq və azadlıqları siyasətinin əsas istiqaməti uğurlu bir şəkildə müəyyən edilmişdir.

Bu əhəmiyyətli addımın bir nəticəsi olaraq da inkişaf edən ölkə Prezidenti cənab İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamı ilə iyunun 18-i Azərbaycan Respublikasında İnsan Hüquqları Günü kimi təsis edilmiş və artıq 18 ildir ki, hər il qeyd olunur.

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideyalarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

# Baş Prokurorluğun əməkdaşı BMT tərəfindən təşkil olunan tədbirdə iştirak edib






Vyana şəhərində 2025-ci ilin 1-5 aprel tarixlərində BMT Baş Assambleyasının qəbul etdiyi "Bərpa və reinteqrasiya yolu ilə cinayətin təkrar törədilməsi hallarının azaldılması" adlı 77/232 və 79/187 saylı qətnamələrinə uyğun olaraq, qeyd olunan sahədə model strategiyaların hazırlanması məqsədilə hökumətlərarası ekspertlər qrupunun ikinci görüşü keçirilib.

Model strategiyalar məhkum edilmiş şəxslərin yenidən cinayət törətmələrinin qarşısının alınması məqsədilə cəza təyin edərkən və cəzanın çəkildiyi müddətdə fərdi yanaşmanın tətbiqi, mümkün olduğu halda azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəza təyin edilməsi, reinteqrasiya prosesində cəzaçəkmə müəssisələrinin rolu, cinayət əməlinin törədilməsinə səbəb olmuş halların aradan qaldırılması və digər məsələləri özündə əks etdirir.

Hökumətlərarası ekspertlər qrupunun iclasında Baş Prokurorluğu Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Fuad Hüseynov təmsil edib.

İclasın sonunda cinayətlərin təkrar törədilməsi hallarının azaldılması ilə bağlı model strategiyalar təsdiq olunub.

# Baş Prokurorluğun nümayəndə heyəti Argentinada işgüzar səfərdə olub





Azərbaycan Respublikasının Baş prokurorunun müavini Heydər Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti 2025-ci ilin 7-9 aprel tarixlərində BPA-nın İcraiyyə Komitəsinin 59-cu iclasında iştirak məqsədilə Argentinanın Buenos-Ayres şəhərinə işgüzar səfərdə olub.

İclas çərçivəsində təşkilatin fəaliyyətinin əsas istiqamətlərini əhatə edən məsələlərə baxılıb, BPA-nın İcraiyyə Komitəsinə hazırda fəaliyyət göstərən və vakant olan regionlar üzrə yeni üzvlərin namizədlikləri nəzərdən keçirilib, habelə təşkilatın Nizamnaməsində rəhbər orqanlara seçkilərin keçirilməsi prosedurlarına təklif olunan dəyişikliklər müzakirə edilib. Bununla yanaşı, Assosiasiyanın növbəti illik iclas və regional konfranslarının təşkili ilə bağlı aparılacaq təşkilati işlər ətrafında müzakirələr aparılıb.

Habelə, İcraiyyə Komitəsinin iclasında BPA-nın rəhbər vəzifələrinə keçirilmiş səsvermə nəticəsində Assosiyasiyanın vitse-prezidenti Baş prokuror Kamran Əliyevin yenidən həmin vəzifəyə 2 il müddətinə, yəni 2027-ci ilədək seçilməsi tövsiyə edilmişdir.

İcraiyyə Komitəsinin iclasında çıxış edən Baş prokurorunun müavini Heydər Məmmədov tədbir iştirakçılarına Azərbaycan Respublikasının Baş prokuroru, Assosiasiyanın vitse-prezidenti cənab Kamran Əliyevin salamlarını çatdıraraq ötən ilin 30 sentyabr - 2 oktyabr tarixlərində Bakıda keçirilmiş BPA-nın 29-cu İllik Konfrans və Ümumi Yığıncağının nəticələrinə dair geniş hesabat təqdim edib.

Heydər Məmmədov çıxışında Bakı Konfransının uzun müddət planlaşdırılan bir təşəbbüs olduğunu və bu tədbirin reallaşmasında cənab Prezident İlham Əliyevin siyasi dəstəyinin mühüm rol oynadığını vurğulayıb, konfransın uğurlu təşkilində prokurorluq orqanları əməkdaşları ilə yanaşı bir sıra dövlət qurumları və könüllülərin də fəal iştirak etdiyini bildirib.

Səfər çərçivəsində Baş prokurorun müavini Heydər Məmmədov BPA-nın Prezidenti ilə, həmçinin, Argentina, Braziliya, Birləşmiş Krallıq, Çili, Keniya, Birləşmiş Ərəb Əmirlikləri və Səudiyyə Ərəbistanından olan həmkarları ilə ikitərəfli görüşlər keçirib.

Görüşlərdə hüquqi əməkdaşlıq və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# Baş Prokurorluğun əməkdaşı beynəlxalq təlimdə iştirak edib



2025-ci ilin 7-11 aprel tarixlərində Rumıniyanın Buxarest şəhərində CyberEast+, CyberSEE, CyberSouth+ və GLACY-e layihələrini əhatə edən ölkələrin informasiya infrastrukturunun mühafizəsindən məsul olan hüquq-mühafizə orqanlarının əməkdaşları, ixtisaslaşmış prokurorlar, CSIRT-lər (Kompüter Təhlükəsizliyi İnsidentlərinə Cavab Qrupları) və kiber təhlükəsizlik ekspertlərinin iştirakı ilə tədbir keçirilmişdir.

Tədbir iştirakçılarına kibercinayətkarlıq/kiber təhlükəsizlik insidentlərinin idarə edilməsi üzrə bilik və bacarıqlarının artırılması, kibercinayətkarlıq təhqiqatçıları, rəqəmsal kriminalistika mütəxəssisləri və kiber təhlükəsizlik ekspertləri arasında daha sıx peşəkar əlaqələrin qurulması, kibercinayətkarlıq təhqiqatlarının və elektron sübutların toplanmasının asanlaşdırılması sahəsində təlim keçirilmişdir.

Təlimdə Baş Prokurorluğu Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Elvar Həsənov təmsil edib.



# Baş Prokurorluğun nümayəndəsi Moldovanın Kişinyov şəhərində kibercinayətkarlıqla mübarizəyə həsr edilmiş regional seminarda iştirak edib









Prokurorluq əməkdaşlarının peşə hazırlığının yüksəldilməsi, onların beynəlxalq təcrübəni öyrənməsi və əldə olunan biliklərin praktiki fəaliyyətə tətbiqi daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə prokurorluq əməkdaşlarının müxtəlif yerli və beynəlxalq təlim kurslarında, treninqlərdə, o cümlədən regional və beynəlxalq tədbirlərdə iştirakı təmin olunur.

Tədbirlərin davamı kimi, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin rəisi Əmir Ocaqverdiyev 2025-ci ilin 24-25 aprel tarixlərində Moldovanın Kişinyov şəhərində keçirilmiş "Kibercinayətkarlıq və elektron sübutlar üzrə hüquq-mühafizə və məhkəmə təlimi strategiyaları və təcrübələri" mövzusunda regional seminarda iştirak edib.

Tədbir Avropa İttifaqı və Avropa Şurasının birgə həyata keçirdiyi "CyberEast+" layihəsi çərçivəsində təşkil olunub. Seminarda Azərbaycanla yanaşı, digər Şərq Tərəfdaşlığı ölkələrinin hüquq-mühafizə və məhkəmə təlim institutlarının nümayəndələri, həmçinin kibercinayətkarlıq sahəsində ixtisaslaşmış təlimçilər iştirak edib.

Tədbir zamanı iştirakçılar kibercinayətkarlıq və elektron sübutlar üzrə təlim ehtiyaclarının qiymətləndirilməsi, təlim strategiyalarının hazırlanması və həyata keçirilməsi metodologiyası, Avropa Şurasının təqdim etdiyi təlim materialları və standartları, eləcə də təlimçi heyətinin formalaşdırılması və uzunmüddətli təlimin davamlılığının təmin olunması məsələləri üzrə geniş fikir mübadiləsi aparıblar.

Seminar çərçivəsində interaktiv sessiyalar keçirilib, iştirakçılar qrup şəklində praktiki tapşırıqlar yerinə yetirib, region ölkələri arasında təlim sahəsində əməkdaşlığın inkişafı üçün razılaşdırılmış prinsiplər müəyyən edilib.

Əldə olunan bilik və təcrübələrin gələcəkdə prokurorluq əməkdaşlarının peşə hazırlığında və kibercinayətkarlıqla mübarizə sahəsində tətbiqi nəzərdə tutulur.

# Prokurorluq əməkdaşları seminarda iştirak edib






Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Tacikistanın Dövlət Maliyyə Nəzarəti və Korrupsiyaya qarşı Mübarizə Agentliyi arasında 2023-cü il noyabrın 23-də Bakı şəhərində imzalanmış "2024-2025-ci illər üçün Əməkdaşlıq Proqramı"nın icrası çərçivəsində 2025-ci ilin 22 aprel tarixində virtual formatda "Korrupsiya cinayətlərinin əməliyyat-axtarış və istintaq təcrübəsi" mövzusunda seminar təşkil edilib.

Tədbirdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Ziya Hacıyev, İstintaq idarəsinin mühüm işlər üzrə böyük müstəntiqi Emin Vəliyev, Əməliyyat idarəsinin mühüm işlər üzrə əməliyyatçısı Pərviz Həsənli və Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Ruhlan Nəsirovdan ibarət heyət iştirak edib.

Tədbir zamanı Baş idarədə korrupsiya cinayətləri ilə mübarizə sahəsində yaradılan əməliyyat-istintaq qruplarının fəaliyyəti, o cümlədən cinayətkarların müəyyən edilməsi üçün əməliyyat-axtarış tədbirlərinin təşkili və bu sahədə əldə edilmiş müsbət nailiyyətlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Tacikistanın Dövlət Maliyyə Nəzarəti və Korrupsiyaya qarşı Mübarizə Agentliyinin nümayəndələri çıxış edərək, ölkəmizin korrupsiya ilə mübarizə sahəsində formalaşmış müsbət təcrübəsindən danışaraq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "161 - Qaynar xətt" əlaqə mərkəzinin analoqunun yaradıldığını qeyd ediblər.

Daha sonra əməkdaşlar mövzu ətrafında təqdimatlarla çıxış edərək, faydalı fikir mübadiləsi aparıblar.

# Azərbaycan Respublikası Prokurorluğunun nümayəndə heyəti beynəlxalq tədbirdə iştirak edib





2025-ci ilin 6-7 may tarixlərində Səudiyyə Ərəbistanı Krallığı və Maldiv Respublikasının birgə təşkilatçılığı ilə Maldiv Respublikasında "Turizm sektorunda korrupsiyaya qarşı mübarizə və şəffaflığın gücləndirilməsi" mövzusunda beynəlxalq tədbir keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikası Baş prokurorunun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizi təmsil etmişdir.

Forumda BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin (UNODC) İcraçı direktoru, İslam Əməkdaşlıq Təşkilatının Baş Katibi, 40-dan artıq ölkənin və 10-dan çox beynəlxalq təşkilatın rəhbər şəxsləri də daxil olmaqla 170-dən çox nümayəndə iştirak etmişdir.




İclas çərçivəsində müxtəlif ölkələrdə turizm sektorunda rast gəlinən korrupsiya halları, bu sahədə risklərin erkən müəyyən olunması və qarşısının alınması yolları müzakirə edilmiş, aidiyyəti qurumların ekspertləri bu sahədəki çətinliklər və uğurlu təcrübələri bölüşmüşlər. Sessiyalarda etik davranışın təmin olunması üçün institusional çərçivələrin möhkəmləndirilməsi və səmərəli mexanizmlərin tətbiqi zərurəti vurğulanmış, turizm sektorunun transmilli xarakterini nəzərə alaraq beynəlxalq əməkdaşlığın əhəmiyyəti önə çəkilmişdir.

Həmçinin, korrupsiyaya qarşı mübarizədə mövcud alət və mexanizmlər təqdim olunmuş, BMT tərəfindən "Korrupsiyanın Ölçülməsi üzrə Qlobal Təşəbbüs" layihəsi çərçivəsində ölkələrin bu sahədəki irəliləyişlərinin qiymətləndirilməsi və siyasət tövsiyələrinin hazırlanmasına yönəlmiş yanaşmalar iştirakçılara təqdim edilmişdir.

Tədbirdə çıxış edən nümayəndə heyətinin rəhbəri Nazim Rəcəbov ölkəmizdə turizm sahəsində son illərdə həyata keçirilmiş islahatlar, beynəlxalq əməkdaşlıq tədbirləri, müşahidə olunan korrupsiya hüquqpozmaları və bu hallarla bağlı Baş İdarədə aparılmış ibtidai araşdırmaların xüsusiyyətləri barədə məlumat vermişdir.

O, həmçinin korrupsiya risklərinin müəyyənləşdirilməsi və idarə edilməsi mexanizmləri, eləcə də 2022–2026-cı illəri əhatə edən "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair Milli Fəaliyyət Planı" çərçivəsində görülmüş preventiv tədbirlər haqqında geniş təqdimatla çıxış etmişdir.

Tədbir çərçivəsində Nazim Rəcəbov Səudiyyə Ərəbistanının Korrupsiyaya qarşı Nəzarət və Antikorrupsiya Qurumu, Malayziya Antikorrupsiya Komissiyası, Maldiv Respublikasının Korrupsiyaya qarşı Mübarizə Komissiyası və Çin Xalq Respublikasının Honkonq Xüsusi İnzibati Bölgəsinin Korrupsiyaya qarşı Müstəqil Komissiyasından olan həmkarları ilə ikitərəfli görüşlər keçirmişdir.



Görüşlərdə hüquqi əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı maraq doğuran məsələlər və gələcək əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılmışdır.

# Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi ilə Qazaxıstan Respublikası Ali Məhkəmə Şurası yanında Ədalət Akademiyası arasında memorandum imzalanıb

29 may 2025-ci il tarixdə Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi ilə Qazaxıstan Respublikası Ali Məhkəmə Şurası yanında Ədalət Akademiyası arasında tədris və elmi-tədqiqat sahəsində əməkdaşlığı nəzərdə tutan memorandum imzalanıb.

Sözügedən memorandum 2024-cü ildə Bakıda keçirilmiş Türk Ədliyyə Təlim Şəbəkəsinin konfranslarında yaranmış işgüzar əlaqələrin davamı olaraq, Türk Dövlətləri Birliyinə üzv ölkələrin ədliyyə və prokurorluq sahəsində əməkdaşlığının genişlənməsinə xidmət edir.

Azərbaycan nümayəndə heyəti – Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Talıb Cəfərov və şöbə rəisi Əmir Ocaqverdiyev – Qazaxıstanın paytaxtı Astana şəhərində Ali Məhkəmə Şurasının fəaliyyəti ilə tanış olub, Şuranın və Ədalət Akademiyasının rəhbərliyi ilə görüş keçiriblər.

Tədbirdə çıxış edən Talıb Cəfərov bildirib ki, Azərbaycan və Qazaxıstanı təkcə mehriban qonşuluq və dostluq deyil, həm də ortaq tarixi və qan qohumluğu birləşdirir. O, bu münasibətlərin qorunması və möhkəmləndirilməsində hər iki ölkənin ali rəhbərliyinin böyük rolunu vurğulayıb. Həmçinin, 2009-cu il oktyabrın 3-də Naxçıvanda yaradılmış Türk Dövlətləri Təşkilatının türkdilli dövlətlərin birliyini gücləndirmək məqsədi daşıdığını qeyd edib.

Görüş zamanı Azərbaycan Prokurorluğunda aparılan islahatlar, tətbiq edilən innovativ yanaşmalar və onların nəticələri barədə ətraflı məlumat verilib. Xüsusilə, Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə həyata keçirilən dəyişikliklərin müsbət təsirləri diqqətə çatdırılıb.

Tədbirin sonunda tərəflər tədris sahəsində təcrübə mübadiləsi aparmaq barədə razılığa gəlib və gələcək əməkdaşlıq istiqamətləri müəyyənləşdirilib.









# Baş Prokurorluğun nümayəndə heyəti MDB-nin tədbirində iştirak edib



2025-ci il iyunun 4-də Moskva şəhərində Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv dövlətlərin Baş prokurorlarının Əlaqələndirmə Şurasının (Şura) yaradılmasının 30-cu ildönümünə həsr olunmuş tədbir və Şuranın 35-ci iclasına hazırlıqla bağlı iclas keçirilib.



Görüşdə Azərbaycan Prokurorluğunu Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Erkin Əlixanovun rəhbərlik etdiyi və tərkibinə həmin idarənin prokuroru Aynur Əfəndiyevadan ibarət nümayəndə heyəti təmsil edib.

Tədbirdə Şuranın fəaliyyətinin əsas istiqamətləri, əldə olunmuş nəticələr və gələcək inkişaf perspektivləri müzakirə olunub, həmçinin MDB məkanında hüquqi əməkdaşlığın gücləndirilməsi yolları ətrafında fikir mübadiləsi aparılıb.



Eyni zamanda, qarşılıqlı razılaşmaya əsasən, cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya sahələrində əməkdaşlıq məsələlərinin müzakirəsi məqsədi ilə Azərbaycan və Rusiya baş prokurorluqlarının beynəlxalq struktur qurum rəhbərlərinin görüşü keçirilərək tərəfləri maraqlandıran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.

# Strasburq şəhərində kibercinayətkarlıq üzrə beynəlxalq konfrans keçirilmişdir




2025-ci il 4-6 iyun tarixlərində Fransa Respublikasının Strasburq şəhərində Avropa Şurasının təşkilatçılığı ilə "Octopus 2025" kibercinayətkarlıq üzrə beynəlxalq konfrans keçirilmişdir.

Tədbirdə Budapeşt Konvensiyası və onun İkinci Protokolunun icrası, kibercinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlıq, elektron sübutlar, süni intellektin təsiri və kriptovalyutalarla bağlı dələduzluq sxemləri kimi aktual mövzular müzakirə olunmuşdur.

Konfransda Azərbaycan Respublikasının Baş Prokurorluğunu Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Mələk Əliyeva təmsil etmişdir.

Sözügedən iclasda BMT, Avropa Komissiyası, İnterpol, nüfuzlu beynəlxalq təşkilatlar, özəl sektor nümayəndələri, habelə 100-dən çox ölkənin prokurorluq və hüquq-mühafizə orqanlarının nümayəndələri iştirak etmişdir.

Görüş çərçivəsində iştirakçılar arasında fikir və təcrübə mübadiləsi aparılmış, kibercinayətkarlıqla mübarizədə beynəlxalq hüquqi əməkdaşlığın gücləndirilməsi yolları müzakirə edilmiş və gələcək üçün fəaliyyət prioritetləri müəyyən edilmişdir.

# Beynəlxalq Konfransda Azərbaycan Respublikası Prokurorluğunun sosial media ilə iş sahəsində müsbət təcrübələri təqdim olundu



Azərbaycan Respublikasının Baş prokurorunun müavini Heydər Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti 2025-ci ilin 4-5 iyun tarixlərində Monqolustanın Ulan-Bator şəhərində keçirilmiş Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 10-cu Regional Konfransında iştirak edib.

Mərkəzi Asiya və Avropa ölkələrinin prokuroluqlarını bir araya gətirən mötəbər tədbirin rəsmi açılış mərasimində Monqolustan Prezidenti cənab Uxnaaqiyn Xurelsux konfrans iştirakçılarını salamlamış, tədbirin işinə uğurlar arzulamış və beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulamışdır.

Konfrans çərçivəsində beynəlxalq əməkdaşlığın inkişafı, sosial medianın müasir çağırışlar fonunda hüquqi aspektləri və kibercinayətkarlıqla mübarizə sahəsinə təsiri kimi aktual məsələlər müzakirə olunub.

Baş prokurorun müavini Heydər Məmmədov konfransda təqdimatla çıxış edərək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün sahələrdə dinamik inkişaf yolunda irəlilədiyini, tərəqqi yönümlü islahatların informasiya-kommunikasiya texnologiyaları, suni intelekt və rəqəmsal media sferalarını da əhatə etdiyini vurğulamışdır.

Bu kontekstdə sosial mediadan daha səmərəli istifadə məsələlərinə də toxunan Heydər Məmmədov təhlükəsiz sosial media mühitinə xidmət edən hüquqi tənzimləmə mexanizmlərinin tətbiqi imkanlarını tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Daha sonra Heydər Məmmədov medianın və sosial şəbəkələrin cinayətlərin aşkar olunması, onların qarşısının alınmasında effektiv istifadə edilməsi, Azərbaycanda sosial media sahəsində normativ hüquqi bazanın gücləndirilməsi və bu kontekstdə beynəlxalq tələblərə cavab verən standartların tətbiqi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat vermişdir.

Həmçinin Bakıda uğurla keçirilmiş BPA-nın 29-cu İllik Konfrans və Ümumi Yığıncağının beynəlxalq hüquq əməkdaşlığına verdiyi töhfə xüsusi vurğulanmışdır.

Tədbirin gedişində Azərbaycan Respublikasının Baş prokurorunun müavini Heydər Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Monqolustanın Baş prokuroru cənab Jarqalsaikxan Banzraqınla, habelə Çin, Nepal, Avstriya, Zimbabve, Tajikistan və Qazaxıstan kimi ölkələrin prokurorluq nümayəndələri ilə görüşlər keçirərək hüquqi əməkdaşlıq və qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparmışdır.







# Bakıda kibercinayətkarlıqla mübarizə üzrə beynəlxalq təlim keçirilib



2025-ci il 18–19 iyun tarixlərində Bakı şəhərində Avropa Şurasının CyberEast+ layihəsi çərçivəsində “Budapeşt Konvensiyası və onun İkinci Əlavə Protokolu çərçivəsində kibercinayətkarlıq üzrə əməkdaşlıq mexanizminin tətbiqi” mövzusunda beynəlxalq təlim keçirilmişdir.

Tədbir Azərbaycan Respublikasının layihə üzrə ölkə qrupu ilə əməkdaşlıq çərçivəsində təşkil olunmuş və kibercinayətkarlıqla mübarizə, həmçinin elektron sübutların toplanması sahəsində beynəlxalq hüquqi əməkdaşlığın gücləndirilməsini hədəfləmişdir.

İclasda Azərbaycan Respublikasının Baş Prokurorluğunu Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuror-metodisti Qədir Məmmədov, Kriminalistika və İnformasiya texnologiyaları idarəsinin Kriminalistika şöbəsinin böyük prokuror-metodisti Ayaz Qayıbov və həmin şöbənin prokuroru Akif Məmmədyarov, Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Azad Əliyev, Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Mələk Əliyeva və Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin prokuroru Tural Mürsəlov təmsil etmişlər.

İki günlük təlim zamanı iştirakçılara Budapeşt Konvensiyası və onun İkinci Əlavə Protokolunun beynəlxalq əməkdaşlıq alətləri, qarşılıqlı hüquqi yardım prosedurları, 24/7 əlaqə şəbəkəsi və dövlətlərarası, eləcə də özəl sektorla əməkdaşlıq imkanları barədə ətraflı məlumat təqdim edilmişdir.

Tədbirdə Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarının kibercinayətkarlıq və beynəlxalq hüquqi əməkdaşlıq sahəsində ixtisaslaşmış əməkdaşları, habelə Avropa Şurasının ekspertləri iştirak etmişlər.

Seminarda əldə edilən nəticələr Budapeşt Konvensiyasının İkinci Əlavə Protokolunun ratifikasiyası və tətbiqi, eləcə də kibercinayətkarlığa qarşı mübarizədə effektiv qanunvericilik çərçivəsinin yaradılması üçün əsas rol oynayacaqdır.

# Baş Prokurorluğun idarə rəisi GRECO nümayəndə heyətinin tərkibində Türkiyədə görüşlər keçirib



Avropa Şurasının Korrupsiyaya Qarşı Dövlətlər Qrupu (GRECO) yüksək səviyyəli nümayəndə heyətinin tərkibində Azərbaycanın nümayəndə heyətinin rəhbəri, Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev 20 iyun 2025-ci il tarixində Ankarada səfərdə olub.



GRECO prezidentinin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyənin ədliyyə naziri Yılmaz Tunç, Böyük Millət Məclisinin vitse-spikeri Bəkir Bozdağ, Hakimlər və Prokurorlar Şurasının sədr əvəzi Turan Kuloğlu və digər yüksək vəzifəli şəxslərlə görüşlər keçirib.



Səfər zamanı nümayəndə heyəti Türkiyə hökumətini parlament üzvləri, hakimlər və prokurorlar arasında korrupsiyanın qarşısının alınması və dürüstlüyün gücləndirilməsi sahəsində GRECO-nun tövsiyələrinin tam şəkildə icrasını təmin etməyə çağırıb.

İdarə rəisi Elnur Musayev görüşlər zamanı müvafiq tövsiyələrin icrasının əhəmiyyətini vurğulayaraq, Türkiyədə hakim və prokurorların cəmiyyətdəki nüfuzunun qədim adət-ənənələrə əsaslandığını, etik prinsiplərin isə əsrlər boyu formalaşmış təcrübə və dəyərlərdən qaynaqlandığını bildirib. O, bu sahədə uğurlu nəticələrin yaxın gələcəkdə əldə olunacağına ümid etdiyini ifadə edib.

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Belarusda keçirilən beynəlxalq elmi-praktiki konfransda iştirak edib




Prokurorluq orqanlarında digər ölkələrin ali və ixtisaslaşmış təhsil müəssisələri ilə, həmçinin hüquq-mühafizə orqanları ilə işgüzar əlaqələr qurulur və inkişaf etdirilir. Tədris sahəsində isə yeni model və metodların tətbiqinə xüsusi diqqət yetirilir.



Belə tədbirlərdən biri olaraq, Belarus Respublikası İstintaq Komitəsinin dəvəti ilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin rəisi Nigar Qələndərli 2025-ci il iyunun 20-də Minskdə keçirilmiş “İstintaq fəaliyyəti: elm, təhsil, təcrübə” mövzusunda V Beynəlxalq elmi-praktiki konfransda iştirak edib.

Konfrans Belarus Respublikası İstintaq Komitəsinin İxtisasartırma və Yenidən Hazırlıq İnstitutunda baş tutub. Tədbirdə yerli dövlət, məhkəmə və hüquq-mühafizə orqanlarının, ali təhsil və hüquq sahəsində ixtisaslaşmış müəssisələrin, eləcə də Belarus və Rusiya hüquq-mühafizə orqanlarının nümayəndələri iştirak edib.

Konfransı Belarus Respublikası İstintaq Komitəsinin sədri Dmitriy Qora açıq elan edib. Sonra Rusiya Federasiyasının İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkin, Belarus Təhlükəsizlik Şurasının Dövlət katibinin müavini Aleksandr Raxmanov və digər yüksək vəzifəli şəxslər açılış nitqləri ilə çıxış edib.

Konfransda Nigar Qələndərli “Cinayət törətmiş şəxsin tutulması zamanı onun sağlamlığına zərər vurulmasının qanuniliyi” mövzusunda geniş məruzə ilə çıxış edib. Məruzəsi konfrans materiallarında dərc olunub, həmçinin Mərkəzin fəaliyyəti barədə video təqdimat iştirakçılara nümayiş etdirilib.

Tədbirin sonunda iştirakçılar səsləndirilən fikirlər ətrafında müzakirələr aparıblar və ümumi nəticələr qiymətləndirilib. Səfərin yekununda qarşılıqlı fəaliyyətin davam etdirilməsi və birgə tədris tədbirlərinin təşkili qərara alınıb.

## Mətbuat xidmətinin məlumatları

**#hüquqimaarifləndirmə – Əmək hüququ**
**04.04.2025**




Əmək fərdi və ictimai rifahın əsasıdır.

Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.

Heç kəs zorla işlədilə bilməz.

Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz.

Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir.

Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır.

İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır.

Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir.

**#hüquqimaarifləndirmə – Prokurorluğun fəaliyyət istiqamətləri**
**07.04.2025**




Prokurorluq qanunla nəzərdə tutulmuş hallarda və qaydada:

- ✓ cinayət işi başlayır və ibtidai istintaq aparır, habelə korrupsiya ilə bağlı cinayətlər üzrə cinayət işinin başlanmasını və ya istintaqın aparılmasını təmin etmək məqsədilə əməliyyat-axtarış fəaliyyətini həyata keçirir;
- ✓ cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik edir və qanunlara riayət edilməsini təmin edir;
- ✓ təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət edir;
- ✓ məhkəmədə iddia qaldırır (ərizə verir), mülki və kommersiya mübahisələrinə dair işlərə baxılmasında iddiaçı kimi iştirak edir;
- ✓ məhkəmədə cinayət işlərinə baxılmasında tərəf kimi iştirak edir, dövlət ittihamını müdafiə edir;
- ✓ məhkəmə qərarlarından və səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərarlarından və ya qərardadlarından protest verir;
- ✓ Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati xəta haqqında iş üzrə icraata başlama haqqında qərar qəbul edir;
- ✓ məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirak edir.

Prokurorluğun üzərinə Azərbaycan Respublikasının Konstitusiyasında, "Prokurorluq haqqında" qanunda və prosessual qanunvericilikdə nəzərdə tutulmamış vəzifələrin qoyulması yolverilməzdir.




**Polşanın hüquq mühafizə orqanları ilə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq uğurla davam etdirilir**
**11.04.2025**

"Ekstradisiya haqqında" 13 dekabr 1957-ci il tarixli Avropa Konvensiyasının tələblərinə uyğun olaraq Gürcüstan vətəndaşı Ağacanov Ülpət Fizuli oğlunun ekstradisiyası haqqında Baş Prokurorluğun vəsatəti Polşa Respublikasının Lodz rayon məhkəməsi tərəfindən təmin edilib.

Ülpət Ağacanovun qabaqcadan əlbir olan bir qrup şəxs halında qəsdən adam öldürmə cinayət əməlini törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən,

barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilməklə istintaqdan qaçıb gizləndiyinə görə beynəlxalq axtarışa verilib. Şəxs 2024-cü ilin oktyabr ayında Polşanın Kutno şəhərində müəyyən edilərək həbsə alınıb.

03 aprel 2025-ci il tarixdə Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə Ü.Ağacanov Polşa Respublikasından ölkəmizə gətirilib.

**Kənd təsərrüfatı və digər məhsullarının ixracından əldə olunan pul vəsaitlərinin ölkəyə qaytarılması istiqamətində prokurorluq orqanları tərəfindən kompleks tədbirlər davam etdirilir**
**11.04.2025**




Xarici ölkələrə müxtəlif növ məhsulları ixrac edən bəzi sahibkarlıq subyektlərinin müvafiq valyutada olan pul vəsaitlərini Azərbaycan Respublikasına qaytarmamaları ilə bağlı Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlar əsasında prokurorluq orqanlarında cinayət işləri başlanaraq ibtidai istintaq aparılır.

Belə ki, Bakı şəhəri Nərimanov rayon prokurorluğunda istintaq edilən cinayət işi üzrə fiziki şəxs "My Vegetables" MMC tərəfindən kənd təsərrüfatı mallarının konsiqnasiya yolu ilə xarici ölkəyə ixracından əldə edilən ümumilikdə 14 milyon ABŞ dollarından artıq pul vəsaitinin (müvafiq dövrün məzənnəsi ilə 23 milyon manatdan artıq) Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarılmamasına əsaslı şübhələr müəyyən edildiyindən həmin hüquqi şəxsə faktiki rəhbərlik edən Hüseynov Gündüz İsmayıl oğlu iş üzrə Cinayət Məcəlləsinin 208.2.1, 208.2.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda xarici valyuta vəsaitini xaricdən qaytarmama) və 32.3, 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadədə təşkilatçı) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub, barəsində digər cinayət işi üzrə həbs qətimkan tədbirinin seçilməsi nəzərə alınıb.

Belə ki, Bakı şəhəri Nərimanov rayon prokurorluğunda istintaq edilən cinayət işi üzrə fiziki şəxs "Metal Trades", "Aksan İthalat İhrasat və Turizm Limited Şirkəti" MMC-lər tərəfindən əlvan metalların konsiqnasiya yolu ilə xarici ölkəyə ixracından əldə edilən ümumilikdə 2 milyon ABŞ dollarından artıq pul vəsaitinin (müvafiq dövrün məzənnəsi ilə 3 milyon manatdan artıq) Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarılmamasına əsaslı şübhələr müəyyən edildiyindən həmin hüquqi şəxsə faktiki rəhbərlik edən qeyd olunan hüquqi şəxslərin rəhbəri, Hindistan Respublikasının vətəndaşı Bijay Kumar Takir iş üzrə Cinayət Məcəlləsinin 208.2.1, 208.2.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda xarici valyuta vəsaitini xaricdən qaytarmama) və 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub və barəsində dövlətlərarası beynəlxalq axtarış elan edilib.

Bakı şəhəri Sabunçu rayon prokurorluğunda istintaq edilən cinayət işi üzrə fiziki şəxs "Aroma Service" MMC tərəfindən əlvan metalların konsiqnasiya yolu ilə xarici ölkəyə ixracından əldə edilən ümumilikdə 4 milyon ABŞ dollarından artıq pul vəsaitinin (müvafiq dövrün məzənnəsi ilə 6,8 milyon manatdan artıq) Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarılmamasına əsaslı şübhələr müəyyən edildiyindən həmin hüquqi şəxsə faktiki rəhbərlik edən həmin hüquqi şəxsə faktiki rəhbərliyi həyata keçirən Xələfov Ramil Rafiq oğlu iş üzrə Cinayət Məcəlləsinin 208.2.1, 208.2.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda xarici valyuta vəsaitini xaricdən qaytarmama) və 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub və barəsində dövlətlərarası beynəlxalq axtarış elan edilib.

Bakı şəhəri Binəqədi rayon prokurorluğunda istintaq edilən cinayət işi üzrə fiziki şəxs "Metal Trader" MMC tərəfindən müxtəlif metalların konsiqnasiya yolu ilə xarici ölkəyə ixracından əldə edilən ümumilikdə 15 milyon ABŞ dollarından artıq pul vəsaitinin (müvafiq dövrün məzənnəsi ilə 25 milyon manatdan artıq) Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarılmamasına əsaslı şübhələr müəyyən edildiyindən həmin hüquqi şəxsə faktiki rəhbərlik edən həmin hüquqi şəxsin rəhbəri Müslüm Gassanov iş üzrə Cinayət Məcəlləsinin 208.2.1, 208.2.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda xarici valyuta vəsaitini xaricdən qaytarmama) və 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub və barəsində dövlətlərarası beynəlxalq axtarış elan edilib.

Bundan başqa, hazırkı vaxtadək Zaqatala, Balakən, Qəbələ, Xocavənd, İmişli, Hacıqabul, Samux, Lənkəran, Ağcabədi və Yevlax rayon prokurorluqları tərəfindən həyata keçirilən tədbirlər nəticəsində bəzi sahibkarlıq subyektlərinin xarici ölkələrə ixrac edilmiş kənd təsərrüfatı məhsullarının alqı-satqısından əldə etdikləri pul vəsaitlərinin 24 milyon ABŞ dollarından artıq (müvafiq dövrün məzənnəsi ilə 40 milyon manatdan artıq) hissəsinin ölkəmizdə müvəkkil edilmiş bank hesabına qaytarılması təmin edilib.

Prokurorluq orqanları tərəfindən bu kateqoriya araşdırmalara dair, yəni müxtəlif şəxslər tərəfindən mal və məhsulların ixracı nəticəsində əldə edilən pul vəsaitlərinin ölkəmizdə müvəkkil bank hesablarına qaytarılması istiqamətində zəruri prosessual tədbirlərin icrası davam etdirilir.

**Ekoloji hüquqpozmalara qarşı mübarizə davam etdirilir**
**15.04.2025**




Paytaxt ərazisində ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizlik qaydalarının pozulması faktları ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyindən daxil olmuş məlumatlar əsasında Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində araşdırma aparılıb.

Araşdırmalar zamanı Bakı şəhərinin Xətai rayonunda "Venera Project" MMC, Yasamal rayonunda "Esila Trading" MMC, "Payitaht Restaurant" MMC, Binəqədi rayonunun Biləcəri qəsəbəsində mebel fabrikinin fəaliyyəti zamanı "Crystal Mebel İnteryer" MMC tərəfindən, həmçinin Yasamal rayonunun A.M.Şərifzadə küçəsində tullantıların qanunsuz qalaqlanması zamanı müxtəlif ekoloji pozuntuların törədilməsi müəyyən edilib.

Qeyd olunan faktlarla bağlı İnzibati Xətalar Məcəlləsinin 233.1 (ətraf mühitə atılan zərərli maddələrin miqdarının yol verilə bilən normativlərdən artıq olması), 237.1 (yol verilə bilən son hədlərin normativləri səviyyəsində zərərli maddələrin və tullantıların zərərsizləşdirilməsi və istifadə edilməsi üzrə təmizləyici qurğularla və avadanlıqla təmin edilməyən obyektlərin istismara verilməsi), 266.2 (tullantıların emalı yerlərinin müəyyənləşdirilməsi, layihələşdirilməsi, tikintisi, istifadəsi və ya ləğv edilməsi normalarının və qaydalarının pozulması), 271 (tullantıların qalaqlanması qaydalarının pozulmasına, göstərilən tullantıları yandırarkən ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) və 275.2-ci (ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənməsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi normalarının pozulması) maddələri ilə İnzibati xəta haqqında iş uzrə icraatlar başlanaraq, baxılması üçün aidiyyəti üzrə məhkəməyə göndərilib.

**#SORĞUYACAVAB – Qəsdən adam öldürmə faktı ilə bağlı cinayət işi başlanıb**
**25.04.2025**




Baş Prokurorluğun Mətbuat xidmətinə daxil olmuş sorğulara cavab olaraq bildirilir ki, aprelin 25-də saat 08 radələrində Xəzər rayonu, Binə qəsəbəsi ərazisində 1973-cü il təvəllüdlü Səlim Əliyevin öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

İlkin araşdırmalarla 1978-ci il təvəllüdlü Maksim Əhmədovun aralarında yaranmış mübahisə zamanı bıçaqla xəsarətlər yetirərək Səlim Əliyevi qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin üzrə 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Maksim Əhmədov iş üzrə şübhəli şəxs qismində tutulub.

Hazırda istintaq davam edir.

**Xocalı rayonunda hərbi sursatın partlaması hadisəsi baş verib**
**02.05.2025**




Azərbaycan Respublikasının Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi və Minatəmizləmə Agentliyinin (ANAMA) Mətbuat Xidmətləri məlumat verir ki, işğaldan azad edilmiş Xocalı rayonunun Xanyurd kəndi ərazisində 2025-ci il 2 may tarixində hərbi sursatın partlaması hadisəsi baş verib.

Tovuz rayonu Cəlilli kənd sakini 2008-ci il təvəllüdlü Məmmədov Aqşin Arif oğlu əlində əl qumbarasının partladıcı mexanizminin partlaması nəticəsində sağ əlindən xəsarət alıb. Hadisə nəticəsində zərərçəkənin 3 barmağı amputasiya olunub.

Faktla bağlı Xocalı rayon prokurorluğunda araşdırma aparılır.

Baş Prokurorluq, DİN və ANAMA bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, təhlükəli əşyalara toxunmamağa, onlara müdaxilə etməməyə, mina təhlükəsi işarələrinin göstəricilərinə diqqətlə yanaşmağa və bələd olmadıqları ərazilərə daxil olmamağa çağırır!

**#Hüquqimaarifləndirmə #Cinayətprosessualhüququ #İnsanHüquqlarıAylığı #HumanRightsMonth - İstintaq eksperimenti**
**07.05.2025**




Cinayət təqibi üçün əhəmiyyətli olan, təcrübə və digər tədqiqat hərəkətlərinin aparılması şərti ilə araşdırıla biləcək məlumatların yoxlanılması və dəqiqləşdirilməsi məqsədi ilə müstəntiq istintaq eksperimenti apara bilər.

Təqsirləndirilən və ya şübhəli şəxsin iştirakı ilə aparılan istintaq eksperimentində, həmçinin onun müdafiəçisi iştirak etmək hüququna malikdir. Bu istintaq hərəkətinin aparılması barədə müstəntiq tərəfindən əvvəlcədən xəbərdar edilmiş müdafiəçi istintaq eksperimentinin aparılmasında iştirak etmək arzusunu bildirdikdə, müstəntiq onun bu hüququnu təmin etməlidir.

Müstəntiqin dəvəti ilə istintaq eksperimentinin aparılmasında, həmçinin şahid, mütəxəssis, müəllim, həkim və digər şəxslər iştirak edirlər.

Müstəntiqin göstərişi və ya icazəsi ilə istintaq eksperimentinin aparılmasında foto, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilə bilər.

İstintaq eksperimentinin aparılmasına insanların həyatı və sağlamlığı üçün təhlükə yaranmadıqda, şərəf və ləyaqətləri alçaldılmadıqda, onlara maddi zərər vurulmadıqda yol verilir.

**Elgün İbrahimovun ölümü ilə bağlı istintaq davam etdirilir**
**29.05.2025**

Mayın 13-də 2007-ci il təvəllüdlü Elgün İbrahimovun Gəncə şəhərində müalicə aldığı xəstəxanada ölməsi faktı ilə bağlı Gəncə şəhər prokurorluğunda istintaq edilən cinayət işi üzrə intensiv istintaq və əməliyyat axtarış tədbirləri həyata keçirilir.

Cinayət işi üzrə bütün fərziyyələr, o cümlədən mərhumun intihar etməsi, ehtiyatsızlıqdan yıxılması və ya ona ağır bədən xəsarəti yetirilməsi nəticəsində ölümün baş verməsi kimi hallar yoxlanılmışdır.




İstintaqın hazırkı mərhələsində əldə edilmiş sübutlarla yəni, şahid ifadələri, hadisə yerinə, müşahidə kameralarına baxış, meyitin xarici və daxili müayinə edilməsi, telefon məlumatları, məhkəmə-genetik, məhkəmə-tibbi və digər ekspertizaların rəyləri və başqa dəlillərlə müəyyən edilmişdir ki, Elgün İbrahimova hər hansı kənar şəxs və ya şəxslər tərəfindən xəsarət yetirilməmiş, ona qarşı heç bir zorakı hərəkətlərə yol verilməmiş, o, hündürlükdən yıxılmaq nəticəsində aldığı çoxsaylı xəsarətlərdən ölmüşdür.

Həmçinin müəyyən edilmişdir ki, Elgün İbrahimov may ayının 12-də saat 16 radələrində hazırlıq kursundan çıxdıqdan sonra mobil telefonunu sataraq ayrı-ayrı şəxslərə olan pul borcunu qaytarmışdır.

Bundan sonra E.İbrahimov Gəncə şəhərində yerləşən “Naxış” çay evində tanışları ilə görüşüb birlikdə spirtli içki qəbul etmiş, saat 19:40-da həmin yeri onlarla birgə tərk edib Abbas Səhhət adına 1 saylı şəhər xəstəxanasının qarşısına qədər gələrək orada tanışlarından ayrılmış, həmin vaxt E.İbrahimovun üzərində hər hansı xəsarət izləri müşahidə edilməmişdir.

Daha sonra E.İbrahimov saat 20:17-də marketdən 2 qutu siqaret alıb əvvəllər də mütəmadi olaraq vaxt keçirdiyi Gəncə şəhəri, M.Xələfov 115 ünvanında yerləşən Texnologiya Universitetinin istifadəsiz yataqxanasına tək halda getmiş, qeyd olunan yataqxananın 5-ci mərtəbəsində məhəccərsiz eyvana çıxaraq, orada bir neçə siqaret çəkmiş və eyvandan torpaqla örtülmüş sərt səthi olan həyətə yıxılaraq çoxsaylı xəsarətlər almış, saat 22:52-də ərazidə olan gözətçi tərəfindən yerdə yaralı vəziyyətdə aşkar edilərək təcili tibbi yardım avtomaşını vasitəsilə xəstəxanaya təxliyə edilmiş, may ayının 13-də almış olduğu xəsarətlərdən xəstəxanada ölmüşdür.

Bir daha xatırladılır ki, istintaq aparılan dövrdə cinayət işləri üzrə məlumatların yayılması yalnız rəsmi dövlət qurumlarının təsdiqlədiyi informasiyalar əsasında həyata keçirilməli, xüsusilə cəmiyyətin həssaslıqla yanaşdığı məsələlərdə məsuliyyətli və qanunauyğun davranılmalıdır.

Mediadan, sosial şəbəkə istifadəçilərindən və ictimai fəallardan bu məsələdə yüksək həssaslıq göstərmələri, istintaqın gedişinə mane ola biləcək və cəmiyyətdə çaşqınlıq yarada biləcək informasiyaları yaymamaları xahiş olunur.

İbtidai istintaqın gedişatı və nəticəsi barədə ictimaiyyətə əlavə məlumat veriləcəkdir.

**Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin birgə Məlumatı –**
**İtkin düşmüş şəxsin qəsdən öldürülməsi müəyyən olunub**
**05.06.2025**




Lerik rayon prokurorluğu və rayon polis şöbəsi əməkdaşlarının birgə fəaliyyəti nəticəsində mayın 31-də itkin düşmüş Lerik şəhər sakini, 1990-cı il təvəllüdlü Şahin Şərifovun qəsdən öldürülməsi müəyyən edilib.

Birgə həyata keçirilmiş istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində 1991-ci il təvəllüdlü Elşən Ağayevin mayın 31-də Lənkəran-Lerik avtomobil yolunun 51-ci kilometrliyində özünə məxsus avtomobildə şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı "Makarov" tipli tapança ilə atəş açaraq Şahin Şərifovu qəsdən öldürdükdən sonra avtomobilini Lerik-Göydərə avtomobil yolunun Nisli kəndindən keçən hissəsinə sürərək meyiti yoldan aşağı istiqamətdə dağın ətəyinə yuvarlamasına əsaslı şübhələr müəyyən edilib.

Elşən Ağayevin yaşadığı evə keçirilən baxış zamanı evin həyətində yerləşən qarajın içərisindən “Makarov” tipli tapança, ona məxsus daraq və 159 ədəd patron, həmçinin avtomobilinə baxış keçirilərkən isə kiçik saxlanc yerindən 1 ədəd patron aşkar edilərək maddi sübut kimi götürülüb.

İş üzrə müvafiq prosessual hərəkətlər icra, eləcə də zəruri ekspertizalar təyin olunmaqla istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Faktla bağlı Lerik rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsilə cinayət işi başlanıb, Elşən Ağayev polis əməkdaşları tərəfindən saxlanılaraq istintaqa təhvil verilib və prokurorluq tərəfindən şübhəli şəxs qismində tutulub.

Bağlı qalmış cinayət işləri, o cümlədən itkin düşmüş şəxslərin axtarışları daim diqqət mərkəzində saxlanılmaqla onların tapılması, cinayət əməlini törədən şəxslərin ifşa olunaraq məsuliyyətə cəlb olunması istiqamətində aidiyyəti dövlət qurumları tərəfindən mütəmadi olaraq birgə tədbirlər davam etdirilir.

**Əmək hüquqlarının pozulması hallarına qarşı mübarizə davam etdirilir**
**11.06.2025**




"R+C-TRANS" MMC tərəfindən işçinin əmək hüquqlarının pozulması faktı ilə bağlı Masallı rayon prokurorluğunda araşdırma aparılıb.

Araşdırma zamanı qeyd olunan hüquqi şəxs tərəfindən əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi hüquqi qüvvəyə minmədən (bağlanmadan) şəxsin Masallı rayonu ərazisində müvafiq işlərin yerinə yetirilməsinə cəlb edilməsi müəyyən edilib.

Faktla bağlı Masallı rayon prokurorluğunda Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 192.1-ci (əmək müqaviləsi (konktraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi) maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanaraq baxılması üçün aidiyyəti üzrə hüquqi şəxsin ünvanına, Sumqayıt Şəhər Məhkəməsinə göndərilib və məhkəmənin qərarı ilə hüquqi şəxs 20 min manat məbləğində inzibati cərimə edilib.

Eyni zamanda Cəmiyyətin direktoru Məmmədov Rzaxan Şiraslan oğlu barəsində həmin Məcəllənin eyni maddəsilə inzibati xəta haqqında iş üzrə icraat başlanaraq baxılması üçün aidiyyəti üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin Lənkəran-Astara Regional şöbəsinə göndərilmiş və vəzifəli şəxs müvafiq qərarla 3 min manat məbləğində cərimə edilib.

**Paytaxtda yer səthinin çökməsi nəticəsində bir nəfərin ölməsi faktı ilə bağlı cinayət işi başlanıb**
**30.06.2025**




2025-ci il iyunun 26-da saat 20:30-da 1997-ci il təvəllüdlü Cümşüd Cümşüdlü Nərimanov rayonu, Ələsgər Qayıbov küçəsi 20/90 ünvanının qarşısında yer səthinin çökməsi nəticəsində kanalizasiya sularının axdığı kanala düşüb.

Aparılmış axtarışlar nəticəsində mərhumun meyiti iyunun 28-də saat 15:35-də Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsində yerləşən kanalizasiya sularının təmizləmə anbarında tapılıb.

Prokurorluq əməkdaşları tərəfindən hadisə yeri və meyitə baxış keçirilib, hadisəni əks etdirən müşahidə kameralarının görüntüləri əldə olunub və digər zəruri prosessual hərəkətlər icra olunub.

Araşdırmalar zamanı müəyyən olunub ki, hadisənin baş verdiyi kanal Azərbaycan Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" Publik hüquqi şəxsinin Bakı Su Kanal İdarəsinin balansındadır və həmin idarə tərəfindən istismar olunur.

Faktla əlaqədar Nərimanov rayon prokurorluğunda Cinayət Məcəlləsinin 314.2-ci maddəsi ilə (ehtiyatsızlıqdan ölümə səbəb olan səhlənkarlıq) cinayət işi başlanıb.

Hazırda ibtidai istintaq davam etdirilir.

# Azərbaycanın qlobal dialoqa növbəti töhfəsi: BMT-nin antikorrupsiya təşəbbüsləri Bakının ev sahibliyində

**Heydər Məmmədov**
**Azərbaycan Respublikası Baş prokurorunun müavini**
**II dərəcəli dövlət ədliyyə müşaviri**




***Beynəlxalq əməkdaşlıqda Azərbaycan təşəbbüskarlığı***

Məlumdur ki, uzun illərdən bəri dünya ölkələri arasında əlaqələr inkişaf etdikcə qəbul edilmiş konvensiya və digər sənədlərlə hüququn universal prinsiplərinin tətbiqi qlobal sabitliyə xidmət etməklə yanaşı ümumbəşəri humanist dəyərləri əhəmiyyətli dərəcədə qoruma altına almışdır.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt, Müharibə qurbanlarının müdafiəsi haqqında konvensiyalar və digər bu kimi sazişlər yalnız beynəlxalq əlaqələr sistemini nizama salmamış, müxtəlif ölkələr tərəfindən tətbiq edilən hüquq üçün vahid mümkünlük meyarları formalaşdırmışdır.

Dünya birliyinin bu mütərəqqi təşəbbüslərinə daim xüsusi etina ilə yanaşan Azərbaycan Respublikası beynəlxalq hüququn etibarlı subyekti kimi üzərinə götürdüyü öhdəliklərin yüksək səviyyəli icrasını təmin etmiş, milli qanunvericilik çərçivəsini bu standartlarla ahəngdar məzmunda müəyyənləşdirmişdir.

Ümummilli Lider Heydər Əliyevin diqqət yetirdiyi ən ümdə məsələlərdən biri kimi əsası qoyulmuş beynəlxalq aləmə inteqrasiya prosesində təşəbbüskarlıq və intensivlik meylləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərlik etdiyi hazırki dövrdə daha da artmışdır.

Hələ 2011-ci ildə müxtəlif ölkələrin 110-dan artıq ictimai xadiminin üzvü olduğu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təsis edilməsi və həmin təşkilat tərəfindən mütəmadi keçirilən Qlobal Bakı Forumunun səmərəli fəaliyyəti, cari ildə sosial bərabərsizlik və iqlim dəyişmələri kimi problemlərə qarşı 100-dən artıq ölkənin nüfuzlu qeyri-hökumət təşkilatının, vətəndaş cəmiyyəti təmsilçilərinin iştirakı ilə Qlobal Cənub QHT Platformasının təsis edilməsi və digər bu kimi aparıcı təşəbbüslərlə ölkəmiz bu sahədə mühüm plasdarm kimi tanınmaqdadır.

Çağdaş Azərbaycan tarixi boyunca əldə edilən çoxsaylı nailiyyətlərin davamı olaraq təkcə ötən 2024-cü il ərzində Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyasının 3-cü komitəsi tərəfindən 15 noyabr 2024-cü il tarixli "İtkin düşmüş şəxslər" adlı qətnamənin qəbul edilməsi, dənizaşırı ərazilərdə müstəmləkəçilik fəaliyyətinə qarşı mübarizə və fundamental insan haqları sırasına daxil olan qayıdış hüququnun təşviqi üzrə beynəlxalq təsisatlarla işin uğurla davam etdirilməsi kimi təşəbbüskarlıq nümunələri ölkəmizin hamılıqla tanınan ali dəyərlərə sadiqliyi ilə yanaşı bu prinsiplərin fəal təəssübkeşi olmasının aydın təzahürüdür.

Bu sistemli fəaliyyətin məntiqi nəticəsi kimi 2024-cü ildə daha bir mötəbər tədbir - BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası Tərəf Dövlətlərin yekdil qərarı ilə (COP29) məhz ölkəmizdə keçirilmiş, paytaxt Bakı iqlim dəyişmələri üzrə qlobal problemlərin müzakirəsi üçün inklüziv mühit rolunu oynamaqla yanaşı, bəşəriyyətin işıqlı gələcəyi naminə rasional həllərin təqdim edildiyi tarixi anlara şahidlik etmişdir.

Qayəsində tərəqqi yönümlü məqsədlər duran bu beynəlxalq kursun arealı Dövlət Başçısının xüsusi diqqəti və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ardıcıl təşəbbüslərindən qaynaqlanan müntəzəm fəaliyyət sayəsində yalnız ictimai-siyasi sahəni deyil, sosial, iqtisadi, mədəni və digər mühüm istiqamətləri də əhatə etmişdir.

Beynəlxalq sferada mühüm əməkdaşlıq istiqamətlərindən biri də cinayətkarlığın transmilli təzahürlərinin artmaqda olduğu müasir dövrdə məhz bu sahədə xarici tərəfdaşlarla effektiv və səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasından ibarətdir.

### *Transmilli cinayətkarlığa qarşı mübarizədə Azərbaycan Respublikası Prokurorluğunun beynəlxalq təşəbbüsləri*

Qeyd edilən mütərəqqi dövlət kursunun məntiqi davamı kimi Azərbaycan Respublikasının Prokurorluğu da cinayətkarlığın ölkə hüdudlarından kənar təhdidlərinə qarşı qanunvericilik çərçivəsində effektiv strategiya formalaşdırmışdır ki, beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi onun ən önəmli komponentlərindəndir.

Belə ki, qanunla müəyyən edilmiş hallarda cinayət işinin başlanması və ibtidai istintaqın aparılmasından başlayaraq, ibtidai istintaq prosessual rəhbərlik, əməliyyat-axtarış və təhqiqat fəaliyyətinin qanuniliyinə nəzarət, məhkəmələrdə mülki və kommersiya iddialarının qaldırılması, dövlət ittihamının müdafiəsi, məhkəmə qərarlarından protestlərin verilməsi, eləcə də məhkəmə cəzalarının icrasında iştirak edilməsinədək bir sıra funksiyalar prokurorluğun fəaliyyət istiqamətləri sırasındadır.

Transmilli xarakterə malik cinayətkarlığa qarşı mübarizə bu funksiyaların işləkliyi məhz beynəlxalq əməkdaşlığın effektivliyindən asılıdır. Təsadüfi deyildir ki, prokurorluq orqanlarının xarici ölkələrin hüquq-mühafizə orqanları və beynəlxalq təşkilatlarla yaratmış olduğu səmərəli əməkdaşlıq əlaqələri qarşılıqlı hüquqi yardım və ekstradisiya məsələlərinin müsbət həllinə də öz töhfəsini verməkdədir.

Hazırda qurum tərəfindən 30-dan artıq ölkə, habelə bir çox beynəlxalq və regional təşkilatlarla imzalanmış ikitərəfli və çoxtərəfli saziş, əməkdaşlıq proqramı və anlaşma memorandumlarının icrası çərçivəsində cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım və ekstradisiya sorğularının daha operativ həllinə nail olunmuş, eləcə də xarici tərəfdaşlarla birgə keçirilmiş çoxsaylı təlim və seminarlarla müsbət təcrübə mübadiləsi həyata keçirilmişdir.

Formalaşmış səmərəli əməkdaşlıq əlaqələrinin məntiqi nəticəsi kimi göstərmək olar ki, təkcə ötən 2024-cü ildə xarici dövlətlərə hüquqi yardım haqqında göndərilmiş 100-dən artıq sorğu, 50-yə yaxın ekstradisiya sorğusu icra edilmişdir.

Ümumilikdə ötən illər ərzində görülmüş işlərin nəticəsi kimi Avropa Şurasının Pulların Leqallaşdırılmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə qarşı Mübarizə Tədbirlərinin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi (MONEYVAL) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Anti-korrupsiya Şəbəkəsi də daxil olmaqla bir sıra beynəlxalq təşkilatların hesabatlarında ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlər müsbət dəyərləndirilmişdir.

Aparılan müdrik siyasətin verdiyi töhfələrdən biri kimi Azərbaycan bir çox siyasi və iqtisadi xarakterli tədbirlərlə yanaşı, cinayətkarlığa qarşı mübarizə sahəsində də qlobal səyləri birləşdirməklə beynəlxalq hüquq ictimaiyyətinin bir araya gəldiyi konsensus məkanı olaraq qalmaqda davam etmişdir.

Bu xüsusda ötən ilin 15 noyabr tarixində Azərbaycan Respublikası Baş Prokurorluğu və BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) həmsədrliyi ilə COP29 Sədrliyinin təşəbbüslərindən biri olan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda 200-dən artıq xarici və ölkədaxili qonaqların iştirakı ilə keçirilmiş yüksək səviyyəli Sessiyada korrupsiya təzahürləri də daxil olmaqla ekoloji cinayətlərə qarşı mübarizənin müxtəlif aspektləri müzakirə edilmişdir.

Bundan başqa, ötən ilin 27 sentyabr - 2 oktyabr tarixlərində Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) İcraiyyə Komitəsinin 58-ci iclası, 29-cu İllik Konfransı və Ümumi Yığıncağı paytaxt Bakıda yüksək peşəkarlıqla keçirilmişdir.

Bu mötəbər tədbirdə 41-i ayrı-ayrı ölkələrin baş prokurorları olmaqla ümumilikdə 500-dən artıq şəxsin iştirakı ilə kibercinayətkarlıq, rəqəmsal dövrdə qanunun aliliyinin təmin edilməsi, cinayət prosesində şahidlərin müdafiəsi və digər məsələlər üzrə ümumi problemlər və yeni yanaşmalar müzakirə edilmişdir.



*Baş prokuror Kamran Əliyevin COP29 çərçivəsində "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli Sessiyadakı çıxışından*

Müxtəlif plenar sessiyalar, xüsusi maraq sessiyaları, işçi qrup və şəbəkə iclasları, ikitərəfli və çoxtərəfli görüşlər, habelə cinayətkarlığa qarşı mübarizəyə dair əməkdaşlıq sazişlərinin imzalandığı bu konfrans iştirakçılar tərəfindən təşkilatın tarixində ən mötəbər və səmərəli tədbirlərdən biri kimi qiymətləndirilmişdir.



*BPA-nın Bakı şəhərində keçirilmiş İcraiyyə Komitəsinin 58-ci iclasından*

Bundan əlavə, beynəlxalq fəaliyyətimizin əsas istiqamətlərindən olan və ölkəmizin D8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzvl olması ilə daha yüksək müstəviyə qədəm qoymuş ortaq mədəni-mənəvi dəyərləri paylaşdığımız islam ölkələrinin aidiyyəti qurumları ilə də əməkdaşlıq əlaqələri yüksələn templə davam etdirilmişdir.

Belə ki, ötən ilin 26-27 noyabr tarixlərində Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin iştirak etdiyi İƏT-ə üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının ikinci yüksək səviyyəli görüşündə ölkəmiz İƏT-ə Üzv Dövlətlərin antikorrupsiya qurum rəhbərlərinin Bürosunun sədr müavini seçilmiş, 2026-cı ildə keçiriləcək növbəti sessiya və yüksək səviyyəli görüşə evsahibliyi Azərbaycana həvalə edilmişdir.

***Korrupsiyaya qarşı mübarizədə yeni qlobal platforma: Hüquq Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsi (GlobE)***

Son onilliklərdə korrupsiyanın transmilli xarakter alması, bu cinayət növünün yalnız bir ölkənin milli hüquq mühafizə orqanlarının imkanları çərçivəsində effektiv araşdırılmasını getdikcə çətinləşdirmişdir. Məhz bu kontekstdə, dövlətlərarası əməkdaşlığın möhkəmləndirilməsi və hüquq-mühafizə orqanları arasında real vaxtda informasiya və təcrübə mübadiləsi zərurəti yaranmışdır.

Bu ehtiyaclara cavab olaraq 3 iyun 2021-ci ildə BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi (GlobE Network) yaradılmışdır.

GlobE Şəbəkəsi BMT-nin Korrupsiya əleyhinə Konvensiyası çərçivəsində üzv dövlətlərin öhdəliklərini icra etmələrinə və effektiv beynəlxalq əməkdaşlıq mexanizmlərinin qurulmasına xidmət edən praktik vasitə rolunu oynamaqdadır. Şəbəkə korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış milli qurumların birbaşa ünsiyyət və əməkdaşlıq mühitində fəaliyyət göstərmələrini təmin edir.

GlobE Şəbəkəsinin əsas məqsədi müxtəlif dövlətlərin müvafiq orqanları arasında əlaqələri sürətləndirmək, informasiya və sübutların mübadiləsini asanlaşdırmaq, çətin keçən hüquqi yardım prosedurlarına alternativlər təqdim etmək və transsərhəd cinayətlərin effektiv istintaqını dəstəkləməkdir.

Qısa müddətdə 126 ölkənin korrupsiyaya qarsı mübarizə üzrə ixtisaslaşmış 235 hüquq-mühafizə qurumunu və müşahidəçi statusa malik 16 beynəlxalq təsisatı bir araya gətirən GlobE öz missiyasını yalnız hüquqi mexanizmlərlə məhdudlaşdırmır. Şəbəkə eyni zamanda müsbət təcrübə mübadiləsi, təlim proqramları və regional əməkdaşlıq təşəbbüslərinin gücləndirilməsi vasitəsilə Üzv Dövlətlərin institusional dayanıqlığını da artırır.

Şəbəkənin mənzil-qərargahı BMT-nin Avstriya Respublikasının Vyana şəhərində yerləşən regional ofisində yerləşir.

GlobE-nin ümumi prinsiplərini, hüquq və vəzifələrini müəyyən edən Əsasnaməsi bu təşkilatın 2021-ci ilin 15-17 noyabr tarixlərində Vyana şəhərində keçirilmiş birinci iclasında qəbul edilmişdir.

Şəbəkəsinin təşkilati strukturu üç qurum və regional bölmələrdən ibarətdir:

a) Plenar; b) İdarəetmə Komitəsi; c) Daimi Katiblik

Hazırda GlobE Şəbəkəsinin İdarəetmə Komitəsinin üzvləri olan ölkələr sırasına Azərbaycanla yanaşı Səudiyyə Ərəbistanı, Braziliya, Çin, Efiopiya, Qrenada, Hindistan, İtaliya, Nigeriya, Koreya, Rumıniya, Rusiya, Cənubi Afrika, İspaniya və Birləşmiş Ərəb Əmirlikləri daxildir.

Şəbəkəyə Üzv Dövlətlərin hüquq mühafizə orqanları 2021-ci ildən bəri hər il plenarlarda toplaşaraq təşkilatın fəaliyyətini istiqamətləndirən qərarlar qəbul edirlər.

Belə ki, Şəbəkənin 15-17 noyabr 2021-ci il tarixlərində Avstriya Respublikasının Vyana şəhərində keçirilmiş ilk Plenar İclasında GlobE-nin idarəetmə strukturu yaradılmış, nizamnaməsi qəbul edilmişdir.

28-30 iyun 2022-ci il tarixlərində həmin ölkədə keçirilmiş İkinci Plenar İclasda təhlükəsiz informasiya mübadiləsi üçün həllər müəyyən edilmiş, şəbəkənin iş planı təsdiqlənmiş, habelə bir sıra beynəlxalq təsisatlar GlobE-yə müşahidəçi qismində qəbul olunmuşdur.

Eyni ildə 15-17 noyabr tarixlərində İspaniya Krallığının Madrid şəhərində  təşkil edilmiş Üçüncü Plenar İclasda antikorrupsiya orqanları arasında məlumat mübadiləsi üzrə qaydalar təsdiqlənmiş, transmilli korrupsiya ilə mübarizədə digər dövlət orqanlarının prosesə cəlb olunması mexanizmi və Qərbi Balkan regionu üzrə GlobE Şəbəkəsinin regional komponentinin yaradılması məsələsi müzakirə olunmaqla qəbul edilmişdir.

Növbəti ilin 11-13 iyul 2023-cü il tarixlərində Avstriya Respublikasının Vyana şəhərində keçirilmiş Dördüncü Plenar İclasda Şəbəkənin institusional inkişafı üçün İdarəetmə Komitəsinə üzvlərin, sədr və sədr müavininin seçimi üzrə qaydalar qəbul edilmiş, yeni beynəlxalq təşkilatların müşahidəçi statusu təsdiq edilmişdir.

Ötən ilin 24-27 sentyabr tarixlərində isə Çin Xalq Respublikasının Pekin şəhərində Beşinci Plenar İclas keçirilmişdir. Həmin tədbirdə 2025-2027-ci illər üçün Strateji Plan müzakirə olunaraq qəbul edilmiş, İdarəetmə  Komitəsinə yeni üzvlər seçilmişdir. Sözügedən Plenarda korrupsiyaya qarşı beynəlxalq əməkdaşlığı gücləndirmək məqsədilə "Pekin Konsensusu" qəbul olunmuşdur ki, həmin sənədin məqsədi korrupsiya cinayətləri törətmiş şəxslərə digər ölkələrdə siyasi sığınacaq verilməsinin qarşısının alınmasına və transmilli cinayətkarlıqla mübarizədə ölkələrarası əməkdaşlığın artırılmasına yönəlmişdir.



*24-27 sentyabr 2024-cü il tarixdə Çin Xalq Respublikasının Pekin şəhərində keçirilmiş Beşinci Plenar İclasdan*

Bundan başqa, Şəbəkə korrupsiya cinayətlərinin araşdırılmasında effektivliyin təmin edilməsi və qarşılıqlı məlumat mübadiləsinin operativ şəkildə həyata keçirə bilməsi üçün Üzv Dövlətlərin hüquq mühafizə orqanları arasında işi aşağıdakı alət və mexanizmlər vasitəsi ilə qurur:

***Təhlükəsiz Əlaqə Platforması (SCP)***

Platforma  üzvlərə transsərhəd korrupsiya hallarına dair məlumat mübadiləsini təhlükəsiz və sürətli şəkildə həyata keçirməyə imkan verir. Bu mexanizm məlumatların məxfiliyini və bütövlüyünü təmin edən şifrələmə texnologiyası ilə təchiz olunmuşdur.

***Açıq Mənbəli Reyestrlər Kataloqu***

Bu alət müstəntiq və prokurorlara müxtəlif ölkələrin açıq mənbəli qeydiyyat məlumatlarına bir mərkəzdən çıxış imkanı verir. Beləliklə, qarşılıqlı hüquqi yardım tələblərinə ehtiyac olmadan, ictimai məlumatlara əlavə vaxt itirmədən sürətli və effektiv şəkildə çatmaq mümkün olmuş olur.

### *İşçi Qrupları*

GlobE Şəbəkəsinin fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı tematik işçi qrupları fəaliyyət göstərməkdədir:

- ✓ Əməliyyat İşçi Qrupu: Transsərhəd korrupsiya hallarında əməliyyat əməkdaşlığını gücləndirmək üçün strategiyalar hazırlayır.
- ✓ "Bir Pəncərə" Mərkəzi İşçi Qrupu: Üzvlərə lazım olan resurslara və dəstəyə asan çıxış təmin etmək üçün vahid platforma üzərində işləyir.
- ✓ Bilik və Potensialın Artırılması İşçi Qrupu: Üzvlərin bilik və bacarıqlarını artırmaq üçün təlim proqramları və resurslar hazırlayır.

### *Azərbaycan Respublikası ilə GlobE şəbəkəsi arasında əməkdaşlıq*

Ölkəmiz təsis edildiyi dövrdən etibarən GlobE Şəbəkəsi ilə sıx əməkdaşlıq etməklə, təşkilatın iclaslarında təmsil olunmuşdur.

Belə ki, Şəbəkənin 15-17 noyabr 2021-ci il, 28-30 iyun 2022-ci il, 15-17 noyabr 2022-ci il və 11-13 iyul 2023-cü il tarixlərində baş tutmuş Plenar İclaslarında ölkəmiz prokurorluq əməkdaşları tərəfindən fiziki və onlayn formatda təmsil olunmuşdur.

Habelə, prokurorluq əməkdaşları Şəbəkənin İşçi Qruplarına üzv olmaqla sahəvi fəaliyyətlərə töhfə verir, habelə təşkilat tərəfindən təşkil edilən təlim və sessiyalarda yaxından iştirak edirlər.



*Baş prokuror Kamran Əliyevlə UNODC-un İcraçı direktoru və Vyana ofisinin rəhbəri Qada Vali arasında keçirilmiş 17 oktyabr 2024-cü il tarixli görüşdən*

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin beynəlxalq əməkdaşlığın genişləndirilməsinə dair vermiş olduğu tapşırıq və tövsiyələrə uyğun olaraq Baş prokuror Kamran Əliyev tərəfindən BMT-nin yüksək vəzifəli şəxsləri ilə keçirilmiş görüş və digər təmaslarda Şəbəkənin 2025-ci ildə keçiriləcək Plenar İclasının Bakı şəhərində keçirilməsi təklif edilmiş, bunun üçün ölkəmizin bütün zəruri imkanlara malik olduğu ifadə edilmişdir

Ötən ilin sentyabr ayında BMT-nin GlobE Şəbəkəsinin Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilmiş Beşinci Plenar İclasında növbəti analoji tədbirin 2025-ci ildə Bakıda keçirilməsi barədə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin təşəbbüsü yekdilliklə dəstəklənərək qəbul edilmiş, habelə ölkəmiz 3 il müddətinə İdarəetmə Komitəsində təmsil olunacaq 15 ölkədən biri olaraq seçilmişdir.

### *Şəbəkənin cari ilin 19-23 may 2025-ci il tarixlərində Bakıda keçirilmiş Altıncı Plenar İclası və İdarəetmə Komitəsinin Onuncu Görüşü*

GlobE Şəbəkəsinin cari ilin 19-23 may 2025-ci il tarixlərində Bakıda keçirilmiş Altıncı Plenar İclası və İdarəetmə Komitəsinin Onuncu Görüşünə hazırlıq çərçivəsində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev tərəfindən prokurorluğun rəhbər vəzifəli şəxslərindən ibarət Yerli Təşkilat Komitəsi yaradılmışdır.

Ötən il Bakıda 200-dən çox xarici nümayəndənin qatıldığı COP29 çərçivəsində "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda olan yüksək səviyyəli Sessiyanın, habelə 500-dən artıq şəxsin iştirakı ilə Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 58-ci İclasının, 29-cu İllik Konfransının və Ümumi Yığıncağının Azərbaycan Respublikası Prokurorluğunun Yerli Təşkilat Komitəsi tərəfindən xüsusi peşəkarlıqla təşkil edilməsi nəzərə alınaraq qeyd edilən müsbət




*11-12 fevral 2025-ci ildə Avstriya Respublikasının Vyana şəhərində keçirilmiş İdarəetmə Komitəsinin Doqquzuncu Görüşündən*

təcrübələr hazırki tədbirin təşkilində də uğurla tətbiq olunmaqdadır.

Belə ki, Baş prokurorun müəyyən etdiyi istiqamətlər üzrə Yerli Təşkilat Komitəsi tərəfindən görülmüş hazırlıq tədbirləri nəticəsində Bakı tədbiri beynəlxalq arealda geniş şəkildə təbliğ edilmiş, Plenar İclasın peşəkar proqramına bir sıra aktual mövzular və çıxışçılar təklif edilməklə töhfələr verilmiş, habelə ikitərəfli və çoxtərəfli görüşlər və paralel tədbirlərin proqramı hazırlanmışdır. Həmçinin, xarici qonaqların ölkəmiz haqqında daha çox məlumat əldə edə bilməsi məqsədi ilə Azərbaycan Respublikasının hüquq sistemi, korrupsiyaya qarşı mübarizə strategiyası, rəqəmsallaşma təşəbbüsləri və digər maraq kəsb edən mövzular üzrə informativ materiallar hazırlanmışdır. Qeyd edilənlərlə yanaşı görülən hazırlıq işləri sırasına milli tarix və mədəniyyətimizin təbliğinə həsr edilmiş geniş sosial proqram da artıq formalaşdırılmışdır.

Bundan başqa, Yerli Təşkilat Komitəsi tədbir öncəsi Azərbaycana səfər edən GlobE Şəbəkəsinin nümayəndələri ilə hazırlıq prosesinin ayrı-ayrı detallarını müzakirə etmiş, onları Plenar İclasın və İdarəetmə Komitəsinin Görüşünün keçirildiyi Bakı Konqres Mərkəzi, dövlətimiz adından rəsmi qəbulun keçirildiyi Gülüstan sarayı və digər resurslarla yerində tanış etmişlər. Beynəlxalq təşkilatın nümayəndələri səfərlə bağlı yüksək təəssüratlarını bölüşərək tədbirlə bağlı Azərbaycan Prokurorluğu tərəfindən görülmüş təşkilati və hazırlıq işlərinə görə minnətdarlığını ifadə etmişlər.

Təşkilat Komitəsi tərəfindən tədbirin müfəssəl iş planına uyğun olaraq GlobE şəbəkəsinin Katibliyi və digər aidiyyəti dövlət qurumları ilə səmərəli əməkdaşlıq şəraitində nəqliyyat, kommunikasiya, təhlükəsizlik, qeydiyyat və digər hazırlıq işləri intensiv şəkildə həyata keçirilmişdir.

Bakıda keçirilən Altıncı Plenar İclas və İdarəetmə Komitəsinin Onuncu Görüşünün rəsmi internet səhifəsi ilə aşağıdakı link vasitəsi ilə tanış olmaq mümkündür:

**https://globenetwork.unodc.org/globenetwork/en/network/sixth-plenary-meeting-of-the-globe-network-may-2025.html**

Qeyd edək ki, Bakıda keçirilən tədbirdə 92 ölkədən 120-dən artıq dövlət qurumu (21 prokurorluq, 53 müstəqil antikorrupsiya qurumları və digər orqanlar) və 16 beynəlxalq təşkilatdan ümumilikdə 300 nəfərdən artıq nümayəndə fiziki, 60-dan artıq xarici nümayəndə isə onlayn qaydada iştirak etmişdir.

Tədbirdə müxtəlif ölkələrin hüquq mühafizə orqanlarını təmsil edən 50-yə yaxın rəhbər vəzifəli şəxs iştirak etmişdir.

Əsas mövzusu “Korrupsiyaya qarşı mübarizədə yeni texnologiyalar və süni intellektin tətbiqi imkanları” olan Plenar İclasda korrupsiya nəticəsində əldə edilmiş vəsaitlərin müsadirəsi, əldə edilmiş aktivlərin birbaşa bərpası, maliyyə əməliyyatlarında şübhəli əməliyyatların dayandırılması, cinayət prosesində bank hesablarının sürətli dondurulması üzrə beynəlxalq əməkdaşlıq, korrupsiyaya qarşı mübarizədə ictimai maarifləndirmə və digər alt mövzular üzrə panel, sessiya və paralel tədbirlərdə 100-dən artıq çıxış olmuşdur.

Eyni zamanda, Plenar İclas çərçivəsində Azərbaycan Respublikası Prokurorluğunun təşəbbüsü ilə “Konstitusiya və Suverenlik ili” ilə əlaqədar, habelə ölkəmizin COP29 sədrliyi ilə bağlı ekoloji hüquqpozmalarına qarşı mübarizə ilə bağlı xüsusi sessiya və paralel tədbirlər də keçirilmişdir.

Bundan başqa, tədbirdə çoxsaylı ikitərəfli görüşlər keçirilmiş və qarşılıqlı əməkdaşlığa dair memorandumlar imzalanmışdır.

Əminliklə qeyd etmək olar ki, belə bir mötəbər qlobal antikorrupsiya təşəbbüsünə ev sahibliyi edən ölkəmiz bu məramı ilə həm cinayətkarlıqla mübarizədə yeni əməkdaşlıq imkanlarına öz dəstəyini çatdmış, həm də beynəlxalq hüquq ailəsinin sadiq üzvü olmasını bir daha təsdiqləmişdir.

# Dahinin dühasından doğan müasir Azərbaycan

*"...Xalq mənim gücüm, inamım, arxamdır, ömrümün sonuna qədər xalqıma, millətimə, doğma vətənim Azərbaycana sədaqətlə xidmət edəcəyəm...."*

**Heydər Əliyev**
**Azərbaycan xalqının Ümummilli Lideri**

*"...Məhz 1993-2003-cü illərdə qoyulmuş möhkəm təməl, başlanmış islahatlar, irəli sürülmüş təşəbbüslər bugünkü reallığı mümkün edibdir..."*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Müzəffər Ali Baş Komandan**




Hər il olduğu kimi, bu il də Fəxri xiyabanda izdiham müşahidə olunur, prokurorluq, o cümlədən hərbi prokurorluq əməkdaşları da Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Fəxri xiyabanı ziyarət edib, nəhəng tarixi şəxsiyyətin ruhuna ehtiramlarını ifadə etdilər. Bu, əsl xalq sevgisidir və bu sevgi Ümummilli Liderin milləti və dövləti qarşısındakı misilsiz xidmətlərindən yaranmışdır. Müasir Azərbaycan məhz dahi Heydər Əliyevin dühasından doğmuşdur. Belə ki, müstəqilliyimizin ilk illərində siyasi çəkişmələr ölkə həyatını iflic edir, müharibə şəraitində olan, işğala məruz qalan dövlətdə vahid komandanlığa tabe olan ordu olmadığından silahlı qüvvələr ayrı-ayrı şəxslərin əlində alətə çevrilir, iqtisadiyyat tənəzzülə uğrayır, respublikada vətəndaş həmrəyliyi pozulur, hətta ölkədə "qardaş qanı" axıdılır və vəziyyət Azərbaycan Xalq Cümhuriyyətinin acı taleyinin təkrarlanması, ikinci dəfə qazanılan müstəqilliyin də itirilməsi təhlükəsi həddinə çatır. Belə bir olduqca acınacaqlı vəziyyətdə dövlətçilik ənənələrinə böyük önəm verən və nicatın onda olmasına əmin olan xalq, doğru seçim edərək özünün sınanmış rəhbərini – Ümummilli Lider Heydər Əliyevi israrlı tələblə müstəqil Azərbaycanın rəhbərliyinə dəvət edir.

Azərbaycanı və xalqını özündən çox sevən Ulu Öndər bütün təhlükələri gözaltına almaqla, heç birinə məhəl qoymadan xalqın çağırışını qəbul edərək, 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəlir və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilir. Bir müddət sonra Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayan dünyaşöhrətli siyasətçi Heydər Əliyev, 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilir. Hər bir Azərbaycanlı bilir ki, ölkəmizin müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən həmin anda dünyaşöhrətli siyasətçi, böyük tarixi şəxsiyyət hakimiyyətə gəlməsəydi, nəinki bugünkü qüdrətli Azərbaycan olmazdı, ümumiyyətlə onun mövcudluğu sual altında ola bilərdi.

Dahi Lider ölkəni böhran vəziyyətindən, müstəqilliyini itirmək təhlükəsindən xilas etmək üçün müdrik siyasəti ilə qısa müddət ərzində vətəndaş qarşıdurmasının və müharibənin dayandırılmasına nail olmaqla, Azərbaycanda sabitliyin bərpasını təmin edir ki, bu da genişmiqyaslı islahatların başlanmasına rəvac verir. Beləliklə də, ölkəsini olduqca ağır vəziyyətdən yüksək məharətlə çıxarmış Heydər Əliyevin təşəbbüsü və



rəhbərliyi ilə ölkədə bütün sahələrdə hərtərəfli islahatlar həyata keçirilməyə başlanılır. Məlum olduğu kimi, Ulu Öndərin ikinci dəfə respublikamıza rəhbərliyinin ilk illərində ölkəmiz vətəndaş müharibəsindən yenicə qurtulmuş, atəşkəs rejimini təzəcə əldə etmiş ölkə olduğundan, həmin dövrdə investorları Azərbaycana sərmayə qoymaq üçün həvəsləndirmək, onların etimadını qazanmaq həddindən artıq çətin, demək olar ki, mümkünsüz bir məsələ idi. Bununla belə, peşəkar siyasətçi 1994-cü ilin sentyabrında ölkəmizin qüdrətlənməsində mühüm əhəmiyyəti olan, Azərbaycanın Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının istifadə edilməsi barədə “Əsrin müqaviləsi” kimi möhtəşəm bir müqavilənin bağlanılmasına müvəffəq oldu. Sözsüz ki, Azərbaycan neftinin dünya bazarlarına çıxmasında müstəsna rolu olan Bakı-Tibilisi-Ceyhan neft kəmərinin təməlinin qoyulması, Azərbaycanı dünyada böyük qaz potensialına malik olan bir dövlət kimi tanıdan “Şahdəniz” layihəsinin, həmçinin “İpək Yolu” layihəsinin reallaşması da bu dahi şəxsiyyətin xidmətləri idi. Xüsusi vurğulamaq lazımdır ki, türk dünyasının bir-biri ilə, eləcə də bütün dünya ilə birləşdirilməsinə xidmət edən, eyni zamanda, məqsədi Orta Asiya və Qafqaz ölkələrinin dünya iqtisadiyyatına fəal qoşulmasını təmin etməkdən ibarət olan tarixi “İpək Yolu” layihəsinin reallaşdırılmasında Bakı-Tbilisi-Ceyhan boru xəttinin mühüm əhəmiyyətini nəzərə alan aqil Lider, bu səbəbdən əvvəlcə bütün qüvvəsini həmin xətt layihəsinə yönəldib. Tarix onun növbəti uzaqgörənliyini təsdiq etdi və göstərdi ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru xəttinin, Şərq-Qərb nəqliyyat dəhlizinin, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası və qədim “İpək Yolu”nun bərpası Ulu Öndər Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının qüdrətlənməsinə yönələn müdrik siyasəti olmaqla bərabər, həm də türk dünyasının birləşdirilməsinə hesablanıb.

Xalqı və dövləti qarşısında misilsiz xidmətləri olan, müstəqilliyimizin müəllifi və müasir dövlətimizin memarı Ulu Öndər Heydər Əliyevin milləti qarşısındakı ən böyük xidmətlərindən biri də, Azərbaycanın gələcək taleyində müstəsna rolu olan, Vətənin və vətəndaşların maraqlarını hər şeydən uca tutan cənab İlham Əliyev kimi bütün ali insani keyfiyyətlərə malik böyük tarixi şəxsiyyət və müdrik rəhbər hazırlaması olub. Bu ondan irəli gəlirdi ki, Azərbaycanı canından çox sevən uzaqgörən insanı ölkəsinin təkcə özünün rəhbərlik etdiyi dövr üçün deyil, ondan sonrakı taleyi də düşündürürdü. 2003-cü ildə səhhətində ciddi problemlər yaranan vaxtlarda belə öz sağlamlığını deyil, xalqının və Vətəninin firavan gələcəyini fikirləşən böyük qəlbli şəxsiyyət Heydər Əliyev ictimai rəyə və ümumxalq mövqeyinə əsaslanmaqla Azərbaycan xalqına müraciət edərkən cənab İlham Əliyevi ondan sonra Respublikaya rəhbərlik etməyə qadir lider kimi gördüyünü bildirib. Ölkəmizin taleyinin həlledici məqamlarında hər zaman olduğu kimi, yenə də Ulu Öndər Heydər Əliyevin müdrik məsləhətinin intizarında olan xalq məhz sonsuz inam bəslədiyi rəhbərin millətinin və dövlətinin gələcəyini düşünməklə verdiyi çox dəyərli tövsiyəsindən bəhrələnərək düzgün seçim etməklə, bu gün bənzərsiz fəaliyyəti digər dövlət başçılarına örnək olan cənab İlham Əliyevi özünə Prezident seçir. Bundan sonra Ulu Öndərin sürətli iqtisadi inkişaf konsepsiyasını uğurla davam etdirən Prezidentin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilir, həmçinin iqtisadiyyatımızın daha da güclənməsinə xidmət edən digər əhəmiyyətli işlər görülür, tərəqqinin davamlılığı təmin olunur. Belə ki, 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəməri istifadəyə verilib. Bundan başqa, 2018-ci ildə Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində mühüm rol oynayan Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin Bakıda rəsmi açılış mərasimləri keçirilib. Bundan əlavə, 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in müddəti 2017-ci ilin sentyabrın 14-də yeni, ölkəmiz üçün daha əlverişli şərtlərlə 2050-ci ilə qədər uzadılıb, bu isə Azərbaycanda bundan sonra da

uzun illər neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına zəmin yaradıb.

Xüsusi vurğulamaq lazımdır ki, praqmatik Lider İlham Əliyevin yürütdüyü son dərəcə təmkinli və balanslaşdırılmış siyasət sayəsində 12 avqust 2018-ci il tarixdə Qazaxıstanda 5 Xəzəryanı dövlət başçılarının iştirakı ilə imzalanan tarixi Aktau Konvensiyası ilə 1996-cı ildən davam edən Xəzərin hüquqi statusu ilə bağlı 22 illik danışıqlar milli maraqlarımızı qane edən sonluqla bitib və Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi birdəfəlik öz həllini tapıb. 2018-ci il oktyabrın 19-da Azərbaycan-Türkiyə qardaşlığının növbəti təzahürü olaraq birgə səylərlə reallaşdırılan, hər iki dövlətin iqtisadi inkişafına, bütövlükdə regionun tərəqqisinə böyük töhfə olan “Star” neft emalı zavodunun açılışı da neft strategiyasının uğurlarından olub. Azərbaycandan Avropa bazarlarına təbii qazı ixrac etmək üçün ən qısa və birbaşa yol kimi seçilib, Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP layihəsi də yekunlaşdırılıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində də müstəsna əhəmiyyətli işlər görülüb. Belə ki, təməli 2007-ci ildə qoyulmuş Bakı–Tbilisi–Qars dəmir yolunun 2017-ci il oktyabrın 30-da Bakıda rəsmi açılışı olub. 2018-ci il sentyabrın 18-də isə yeni Ələt-Astara-İran İslam Respublikası magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan ərazisində “Şimal-Cənub” nəqliyyat dəhlizi layihəsinin reallaşması üçün işlər başa çatdırılıb. Təbii ki, bu uğurlar iqtisadi islahatların siyasi islahatlarla eyni vaxtda və yüksək peşəkarlıqla aparılması nəticəsində qazanılıb.

Sevindirici və qürurvericidir ki, bütün dünyada baş verən neqativ proseslərə, o cümlədən postpandemiya dövrü olmasına, müharibədən yeni çıxmış dövlət olmağımıza rəğmən, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanın sürətli inkişaf strategiyasını dövrün tələbləri ilə uzlaşdıraraq yüksək məharətlə reallaşdıran Prezident İlham Əliyevin müdrik siyasəti və sarsılmaz Prezident-Xalq birliyinin sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik hökm sürür, mütəmadi həyata keçirilən çoxşaxəli və ardıcıl islahatlar davam etdirilir, regionların tarazlı tərəqqisi təmin olunur, həmçinin qeyri-neft sektorunun inkişafı istiqamətində kompleks stimullaşdırıcı tədbirlər həyata keçirilir və sair böyük işlər görülür. Bir sözlə hər bir istiqamət üzrə ardıcıl uğurlar əldə edilir ki, nəticədə dövlətimiz daha da qüdrətlənir və doğma Azərbaycanımız intibah dövrünü yaşayır. Dövlətimizin hərtərəfli qüdrətlənməsində və əldə olunan ardıcıl uğurlarda, eləcə də beynəlxalq əlaqələrimizin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin bütün dünyaya tanıdılmasında zəngin biliklərə, dərin düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik, hər bir məqamda dövlət başçısının yanında olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Bu gün Respublikamızın digər bölgələrinin sürətli tərəqqisi ilə yanaşı, vaxtilə ermənilər tərəfindən viran qoyulmuş kənd və şəhərlərimizdə sürətli abadlıq-quruculuq işləri aparılır. Həyata keçirdiyi siyasətin prioritet istiqamətlərindən olan bu proses dövlətimizin başçısının şəxsi nəzarəti ilə reallaşdırılır ki, bunun da nəticəsində Vətənin hər bir guşəsi gülüstana çevrilir. Hazırda geniş tikinti-quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzurda dövlətimizin başçısının tapşırıqları və tövsiyələri əsasında “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının reallaşdırılması, bütün infrastrukturların yenidən qurulması, avtomobil və dəmir yollarının, elektrik, su və qaz xətlərinin çəkilməsi, hava limanlarının, tunellərin, körpülərin, müasir yaşayış komplekslərinin, məktəblərin, xəstəxanaların, su-elektrik stansiyalarının tikilməsi prosesi müvəffəqiyyətlə həyata keçirilir ki, bu da dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Respublikamızın qüdrətini və iqtisadi gücünü sübut edən növbəti bariz nümunədir. Son dövrlər yüzlərlə azərbaycanlı ailəsinin öz dədə-baba yurdlarına qayıtmasının şahidi oluruq ki, bütün bunlar təbii olaraq hər birimizi iftixarlandırır.

Azərbaycanın taleyinə Günəş kimi bərq vuran vətənpərvər fenomen Heydər Əliyevin uzaqgörənliyi bu gün də millətimizə və dövlətimizə fayda verməkdədir. Hələ sağlığında canlı əfsanəyə çevrilmiş böyük dövlət xadimi Heydər Əliyevin mütərəqqi ideyaları onları hər zaman fəaliyyətində rəhbər tutan Prezident İlham Əliyevin yürütdüyü mükəmməl siyasətdə yaşayır və dövrün tələblərinə uyğun uğurla həyata keçirilir ki, bu da dövlətimizin daha da qüdrətlənməsini və xalqın rifahının hərtərəfli yaxşılaşmasını şərtləndirir.

Bütün bunlar isə qəti əminliklə onu deməyə əsas verir ki, nə qədər Azərbaycan dövləti və milləti var dünya miqyaslı böyük tarixi şəxsiyyət Heydər Əliyevin parlaq siması qədirbilən insanların qəlbində hər zaman yaşayacaq, onun əziz və unudulmaz xatirəsi həmişə yüksək ehtiramla yad ediləcək.

**Firad Əliyev**
**Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi –**
**Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mətbuat xidmətinin rəhbəri,**
**baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi, hüquq üzrə magistr**

# Уголовно-правовая борьба с правонарушениями в области трансплантации органов

**Аннотация:** Статья посвящена изучению уголовно-правовых механизмов противодействия борьбы с преступлениями в области трансплантации органов в Азербайджане и других государствах СНГ. Рассмотрены различные формы подобных правонарушений, а также соответствующие механизмы борьбы с ними, включая коррупционный элемент в преступлениях, связанных с трансплантацией органов.

**Ключевые слова:** *коррупция, трансплантация органов, уголовное право, Азербайджан, СНГ, судебная практика.*

Тема борьбы с преступлениями, связанными с трансплантацией органов, имеет не только правовое, но и важное общественное значение. Незаконное изъятие органов и коррупционные схемы в этой сфере подрывают доверие к системе здравоохранения, создают угрозу жизни и здоровью как доноров, так и реципиентов, а также нарушают базовые права человека. Общественная чувствительность к данной теме обусловлена этическими, моральными и гуманитарными аспектами, особенно в странах с ограниченными ресурсами и неразвитым контролем. Поэтому выявление и пресечение таких преступлений требует системного и междисциплинарного подхода.

Более того востребованность данной области медицины и её относительная новизна для стран СНГ создаёт условия для различных правонарушений, в том числе коррупционного характера, и ещё больше обсулавливает внимание законодателя к данному вопросу. Так, коррупция в области трансплантации органов представляет собой острую проблему в государствах СНГ, включая Азербайджан. Она характеризуется высоким уровнем латентности, сложностью выявления и транснациональным характером преступной деятельности (Смирнов, 2020). Эффективное противодействие требует специализированных уголовно-правовых механизмов с учетом международного опыта (Куликов, 2019) .

В Азербайджане одной из ключевых статей, применимых к преступлениям в данной сфере, является статья 137 УК АР — «Незаконная купля-продажа, донорство и трансплантация органов или тканей человека». Данная статья была принята в новой редакции в 2022-ом году и можно сказать, что круг деяний, подпадающих под действие этой статьи, был значительно расширен, что свидетельствует об актуальности борьбы с такими правонарушениями. Так, в данную статью было также включено проведение трансплантации органов в неквалифицированных медицинских учреждениях (то есть учреждениях, которые не были утверждены со стороны уполномоченного государственного органа), а также изъятие органов у лиц, которые не могут являться субъектами изъятия согласно действующему законодательству. Кроме того также была предусмотрена ответственность за убийство по неосторожности в результате совершения деяний, предусмотренных статьей 137 УК АР.

Помимо этого, в УК АР также есть  статья 144-1 — «Торговля людьми» — которая применяется в случаях, когда донор был привлечён к сдаче органов с использованием обмана, насилия или других форм принуждения. Если лицо завербовано, перевезено или укрыто с целью изъятия органов — такие действия подпадают под квалификацию этой статьи. Она также включает ситуации, когда жертва не осознавала последствий согласия на медицинские манипуляции.

Стоит также отметить, что с субъектом преступления по статье 137 УК АР может быть как медицинское лицо (врач, хирург, специалист по трансплантации), так и любое иное лицо, участвующее в организации, содействии или выполнении незаконной трансплантации. Это означает, что субъектом может быть не только практикующий медик, но также администратор клиники, посредник, спонсор или лицо, предоставившее помещение, оборудование либо финансовую поддержку. Статья не требует специального субъекта, а потому применяется к любому физическому лицу, достигшему шестнадцатилетнего возраста и обладающему вменяемостью. В то же время статья 144-1 УК АР («Торговля людьми») содержит специальный признак субъекта – это лицо, действующее умышленно с целью эксплуатации другого человека. Субъект преступления может быть как организатором, так и исполнителем, посредником или пособником. Как правило, к числу таких субъектов относятся лица, занимающиеся вербовкой, перевозкой, укрытием, передачей жертв – в том числе с целью изъятия органов. Особенно часто в данной категории фигурируют участники преступных группировок, действующих в транснациональном масштабе, а также представители медперсонала, если они осознанно включены в цепочку эксплуатации жертвы.

Отдельного внимания заслуживает анализ коррупционной составляющей подобных деяний, поскольку, как отмечено выше, зачастую такие сопровождаются различного рода коррупционными правонарушениями. Основные формы коррупции включают незаконную торговлю органами, принуждение к донорству и нелегальные коммерческие операции с участием медицинского персонала и госслужащих. Часто речь идет о выдаче фиктивных

медицинских заключений, подделке согласия доноров, обходе процедур отбора и распределения органов, а также предоставлении незаконных преимуществ при операциях. Распространены случаи, когда органы пересаживаются пациентам вне очереди за вознаграждение. Такие практики подрывают принципы справедливости, равенства и законности в сфере здравоохранения.

В контексте УК АР можно отметить, что борьба с коррупционным элементом подобных преступлений осуществляется посредством целого ряда статей. Так, статья 308 УК АР — «Злоупотребление должностными полномочиями» — применяется к лицам, использующим своё служебное положение в целях получения незаконной выгоды либо причинения вреда государственным или общественным интересам. Например, это может касаться сотрудников органов здравоохранения, выдавших разрешение на трансплантацию без соблюдения установленных процедур или вопреки заключению комиссии. Коррупционные элементы часто охватываются статьями 311 («Получение взятки») и 312 («Дача взятки»). Эти нормы действуют в случае, если одна сторона (например, пациент или его родственники) предлагает незаконное вознаграждение, а вторая (врач, чиновник) его принимает за ускорение, упрощение или фальсификацию процедуры. Также значимыми являются статьи 314 («Халатность») — при игнорировании медработниками нарушений, повлекших вред жизни или здоровью, и статья 320 («Подделка, изготовление или сбыт поддельных документов»), если в процессе трансплантации использованы поддельные справки, заключения, согласия. В контексте борьбы с подобными преступлениями особо примечательным представляется то, что законодатель устанавливает особые требования к субъекту преступления. Например, для квалификации по статьям 308, 311 и 314 УК АР субъектом может быть только должностное лицо — лицо, наделённое административно-распорядительными или организационно-хозяйственными функциями. Напротив, по статьям 312 и 320 субъектом может выступать любое физическое лицо. Такой подход позволяет учитывать различную степень вовлечённости лиц в процесс совершения преступления.

Стоит также отметить, что правоприменительной практике в Азербайджане знакомы дела, связанные с правонарушениями в области трансплантации органов. Так,  в результате выявленных правонарушений были возбуждены дела по признакам торговли людьми, злоупотребления полномочиями и незаконной медицинской деятельности.

Российское законодательство предусматривает уголовную ответственность за незаконную трансплантацию органов по статье 120 УК РФ, а также содержит широкий блок антикоррупционных норм (статьи 285, 290, 291), аналогичных статьям 308, 311 и 312 УК АР. Для квалификации коррупционных преступлений требуются признаки должностного положения, аналогично подходу, применяемому в Азербайджане. Вместе с тем в РФ детально урегулирована подследственность и предусмотрена жесткая санкционная политика в отношении организованных групп.

В Казахстане применяются статьи 116, 361, 366 и 367 УК РК. Подобно Азербайджану, казахстанское законодательство выделяет субъектов, обладающих специальным статусом (должностное лицо), и наказывает за коррупционные действия в рамках медицинских процедур. Однако практика привлечения к ответственности в Казахстане демонстрирует активное использование институтов международного сотрудничества в сфере борьбы с торговлей органами.

В России уголовное законодательство также содержит специальные нормы по незаконной трансплантации (ст. 120 УК РФ), а также положения о взяточничестве и злоупотреблении должностными полномочиями (ст. 290-291 УК РФ). Однако в Азербайджане отличительной чертой является более широкий круг субъектов коррупционных преступлений, определяемых через функциональный подход должностного лица, что позволяет привлекать к ответственности более широкий круг причастных лиц.

**Использованная литература и нормативные источники**


1. Уголовный кодекс Азербайджанской Республики. URL: https://e-qanun.az/framework/46947
2. Уголовный кодекс Российской Федерации. URL: http://www.consultant.ru/document/cons_doc_LAW_10699/
3. Уголовный кодекс Республики Казахстан. URL: https://adilet.zan.kz/rus/docs/K1400000226
4. Смирнов А.В. Коррупция в здравоохранении: уголовно-правовые аспекты. // Журнал российского права. – 2020. – № 7.
5. Куликов В.Н. Международные стандарты противодействия торговле органами. // Право и безопасность. – 2019. – № 2.



**Рауф Абдуллаев**
**Прокурор Отдела оценки деятельности работников прокуратуры  и организации профессиональной подготовки Научно-учебного центра  Генеральной прокуратуры Азербайджанской Республики**

# Konstitusiya və Suverenlik İli: Azərbaycanın gələcəyinə doğru addımlar

Belə bir məsəl var ki, bu dünyada insan üçün azadlıqdan, dövlət üçün isə müstəqillikdən dəyərli heç nə yoxdur. Müstəqil dövlətin azad vətəndaşı olmaq isə heç də bütün insanlara qismət olmayan ən böyük xoşbəxtlikdir. Xalqımıza bəxş olunan bu xoşbəxtliyin müəllifi isə tariximizin Ümummilli lideri Heydər Əliyevdir.

Azərbaycan xalqının tarixində dövlət müstəqilliyi və suverenlik daim yüksək prioritetə sahib olmuş və bu ideallar uğrunda əsrlər boyu mübarizə aparılmışdır. Xalqımız tarixin keşməkeşli dövrlərində müxtəlif çətinliklərlə, xarici müdaxilələrlə qarşılaşmış, ancaq heç vaxt milli kimliyini və mübarizə ruhunu itirməmişdir. Əksinə, bu çətinliklər xalqımızın daha da güclənməsinə, milli ideallarına sadiq qalmasına səbəb olmuşdur. Hələ sovetlər zamanı milli kimliyimizin qorunmasında, "vahid sovet xalqı" adlı ideologiyada Azərbaycan xalqını assimlasiya olmaqdan qoruyan dahi şəxsiyyət Heydər Əliyev bu mənada milli özünüdərkimizin ali istinad zirvəsidir. XX əsrin sonunda müstəqilliyimizin bərpası ilə Azərbaycan xalqı öz tarixi arzularını reallaşdırmağa nail olmuş, yeni bir dövrün əsası qoyulmuşdur. Bu dövrün ən mühüm hadisələrindən biri isə 1991-ci il oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı olmuşdur.

### Müstəqilliyin bərpası və Azərbaycan Konstitusiyasının əhəmiyyəti

1991-ci ildə Azərbaycan Sovet İttifaqından ayrılaraq özünü müstəqil dövlət elan etdikdən sonra qarşıya bir sıra çətin və mürəkkəb məsələlər çıxmışdır. Bu məsələlərdən ən önəmlisi isə yeni bir Konstitusiyanın qəbul edilməsi idi. İlk mərhələdə müstəqilliyin təmin edilməsi üçün müvafiq hüquqi və siyasi tədbirlər görülmüş, lakin 1991–1993-cü illərdəki siyasi və idarəetmə böhranı ölkənin daxili vəziyyətini çətinləşdirmişdir. Bu dövr həm də ölkə daxilindəki təlatümlərin və idarəetmə sistemindəki boşluqların ciddi problemlərə yol açmasına səbəb olmuşdur. Bu halda dövlətin gələcəyinə dair böyük suallar yaranmış, hakimiyyətin zəifliyi səbəbindən vətəndaşların hüquqlarının qorunması və ölkənin təhlükəsizliyi ciddi təhdid altında qalmışdır.

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin qorunması və sabitliyin təmin edilməsi istiqamətində mühüm addımlar atmışdır. Ulu Öndər müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasını Xalq Cümhuriyyətinin nakam taleyini yaşamağa imkan verməmiş, özünün müdrik siyasəti və dəmir iradəsi ilə bu müstəqilliyi qoruyub saxlamışdır. Ümummilli Liderin böyük inamla söylədiyi bu fikirlər ölkəmizin gələcək inkişafına hər kəsin qəlbində böyük ***ümidlər yaratmışdır: "Ona da əmin ola bilərsiniz ki, Azərbaycan dövlətinin, Prezidentinin apardığı siyasət və həyata keçirdiyi tədbirlər Azərbaycanın dövlət müstəqilliyini günü-gündən möhkəmləndirir və yüksəklərə qaldırır. Azərbaycanın dövlət başçısı kimi mən deyirəm, bilin, – bundan sonra Azərbaycan heç kəsdən asılı, heç kəsin vassalı olmayacaqdır. Ancaq özü öz taleyini hər gün həll edəcək və öz gələcəyini müəyyənləşdirəcəkdir. Azərbaycan müstəqil, sərbəst qalacaqdır."***

Ulu Öndərin təşəbbüsü ilə 12 may 1994-cü il tarixdə Birinci Qarabağ müharibəsi zamanı imzalanan atəşkəs sazişi – Bişkek protokolu Milli Ordu quruculuğuna, eyni zamanda müstəqilliyimizin inkişafına geniş imkanlar açmışdır.

Qeyd edək ki, XX əsrin son onilliyində Azərbaycan xalqı ikinci dəfə öz müstəqilliyini "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" 18 oktyabr 1991-ci il tarixli Konstitusiya Aktı ilə bərpa etməyə nail olmuşdur. Amma Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsinə baxmayaraq, Konstitusiya Aktında Azərbaycan Respublikası vətəndaşlarının real hüquq və vəzifələri, dövlətimizin məram və məqsədləri tam əks olunmamışdı. Belə bir vəziyyətdə ölkədə Konstitusiya boşluğu açıq-aydın görünürdü. Bu tarixi zərurət nəzərə alınaraq Azərbaycan Respublikası Milli Məclisinin 2 may 1995-ci il tarixli qərarı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət Konstitusiya komissiyası yaradıldı. Konstitusiya komissiyasının sədri, Ümummilli liderimiz Heydər Əliyev yeni, milli Konstitusiyanı son dərəcə mükəmməl bir sənəd kimi hazırlamağı tövsiyə edərək deyirdi: ***"Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun."*** Beləliklə, Ümummilli liderin rəhbərliyi altında 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının ilk milli Konstitusiyası ölkəmizin hüquqi quruluşunun əsasını qoymuş, yeni dövlətin gələcək inkişafına təkan vermişdir. Bu Konstitusiya yalnız müstəqilliyi və suverenliyi təmin etməklə qalmamış, həm də ölkənin hüquqi, siyasi və sosial strukturlarını möhkəmləndirən mühüm bir qanunverici sənəd olmuşdur. Müstəqilliyimizin əsas atributu olan Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi Azərbaycanın dövlət və hüquq tarixində xüsusi yer tutan mühüm hadisələrdən biridir. Ümumxalq səsverməsi yolu ilə ilk milli Konstitusiyasının qəbul

edilməsi ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi olaraq təsbit edirdi.

Ümummilli Liderimiz qeyd edirdi ki, ***“Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır – hər bir vətəndaşın Konstitusiyasıdır. Bizim Konstitusiyamız Azərbaycanın gələcək perspektivlərini müyyən edibdir və biz o perspektivlər yolu ilə gedirik, bundan sonra da gedəcəyik”.*** Konstitusiyamızda Azərbaycan dövlətinin əsasları, vətəndaşıarın əsas hüquq və azdlıqları ilə yanaşı, vətəndaşların əsas vəzifələri də, yəni konstitusion vəzifələrimiz də öz əksini tapmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək: ***"Bu gün qarşımızda duran əsas vəzifələrdən biri Konstitusiyamızın təbliği, onun əsas prinsip və müddəalarının dərindən öyrənilməsi və hər bir vətəndaşın yaşayış normasına çevrilməsidir".***

Həyat daima inkişafdadır, lakin milli Konstitusiyamızın təməl prinsipləri dəyişməzdir. Ulu Öndər Heydər Əliyevin ***“Konstitusiyanı öyrənmək lazımdır, Konstitusiyanı dərk etmək lazımdır, Konstitusiyanın maddələrini, xüsusən vətəndaşların vəzifələrinə, vətəndaşların hüquqlarına aid olan maddələrini vətəndaş bilməlidir və ona riayət etməlidir”*** sözləri hər birimizin başlıca fəaliyyət istiqaməti olmalıdır.

**Ermənistanın işğalçı siyasəti və Azərbaycanın ərazi bütövlüyü**

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qarşılaşdığımız ən böyük çətinliklərdən biri də Ermənistanın işğalçı siyasəti olmuşdur. Ermənistanın Azərbaycana qarşı başladığı təcavüz nəticəsində ölkə ərazilərinin 20 faizi, o cümlədən Qarabağ bölgəsi 30 il müddətində işğal altında qalmışdır. Bu vəziyyət Azərbaycan dövlətinin suverenliyinin bu ərazilərdə tətbiqinə imkan verməmiş, xalqımızın ərazi bütövlüyü ideyasını qorumaq və bu torpaqları geri qaytarmaq istiqamətindəki mübarizəsini daha da gücləndirmişdir. İşğal altındakı torpaqların geri alınması yalnız hərbi müstəvidə deyil, həm də diplomatik, hüquqi və sosial sahələrdə Azərbaycanın əsas hədəfi olmuşdur. Bu, həm də ölkəmizin xarici siyasətinin əsasını təşkil etmiş, Azərbaycanın beynəlxalq müstəvidə hüquqlarını müdafiə etməsi üçün vacib addımların atılmasına səbəb olmuşdur.

**Vətən müharibəsi və ərazi bütövlüyünün bərpası**

Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün bərpası yolundakı ən mühüm mərhələ 2020-ci ilin sentyabr ayında Vətən müharibəsi ilə başlandı. Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycan Silahlı Qüvvələri ərazilərini azad etmək və torpaqlarını geri qaytarmaq üçün hərbi əməliyyatlara başladı. Bu müharibə yalnız Azərbaycan xalqının torpaq uğrunda apardığı mübarizə deyil, həm də Azərbaycanın dövlət müstəqilliyi və suverenliyinin qorunması uğrunda böyük bir mübarizə idi. Müharibə nəticəsində Azərbaycanın işğal altındakı torpaqları düşmən tapdağından azad olundu. Beləliklə, həm də Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsinin bütün ərazilərdə bərqərar olmasını təmin etdi. 2023-cü ildə həyata keçirilən uğurlu antiterror əməliyyatı ilə Azərbaycanın suverenliyi bu ərazilərdə tam şəkildə bərpa edildi. Xankəndi şəhərində Azərbaycan bayrağının ucaldılması ilə dövlət suverenliyimiz tam bərqərar oldu.

Ölkə başçısı cənab İlham Əliyevin ötən il sentyabrın 19-da “Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında” Sərəncamı da tarix boyu öz xüsusi əhəmiyyəti ilə seçiləcək. Azərbaycan dövlətinin, xalqımızın tarixində ən parlaq səhifələrdən biri olan sentyabrın 20-si Sərəncama əsasən hər il ölkəmizdə Dövlət Suverenliyi Günü kimi qeyd edilir.

**2025-ci il: “Konstitusiya və Suverenlik ili”**

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilib. Bu sərəncam Azərbaycan xalqının dövlət müstəqilliyi və suverenliyi uğrunda apardığı mübarizənin əhəmiyyətini vurğulayan mühüm bir addım oldu. 2025-ci il həm də Azərbaycanın Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümünü, həmçinin Vətən müharibəsindəki qələbənin 5-ci ildönümünü qeyd etmək üçün əlamətdar bir il olacaq. Ölkə başçısı bu əlamətdar ili qeyd etmək və ölkənin müstəqilliyinin qorunması istiqamətində atılacaq yeni addımları planlaşdırmaq məqsədilə müvafiq tədbirlər planının hazırlanması üçün tapşırıqlar vermişdir. Bu tədbirlər Azərbaycanın suverenliyi və ərazi bütövlüyü məsələlərinin daha da güclənməsinə və ölkəmizin gələcək inkişafına yönəlik mühüm bir yol xəritəsi olacaqdır.

“Konstitusiya və Suverenlik İli” Azərbaycanın dövlətçilik tarixində yeni bir mərhələnin başlanğıcı olacaq, həmçinin Azərbaycanın beynəlxalq arenada daha güclü mövqeyə sahib olduğunu və öz suveren hüquqlarını qorumaq istiqamətində prinsipial mövqe tutacağını bir daha nümayiş etdirəcəkdir. Atılacaq məqsədyönlü addımlar nəticəsində Azərbaycan yeni hədəflərinə də çatacaq. Eyni zamanda ölkəmiz müstəqil və suveren dövlət olaraq dünya ölkələri ilə qarşılıqlı əməkdaşlıq və dialoq şəraitində bir çox strateji hədəflərə doğru inamla irəliləyəcəkdir. Azərbaycan xalqının güclü iradəsi və dövlət rəhbərinin düzgün və qətiyyətli siyasəti bunu inamla söyləməyə əsas verir.

**Faiq SƏFƏROV**
**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri, Prokurorluğun fəxri işçisi**

# 5 aprel – Beynəlxalq Etika günüdür

Etika qədim yunan sözü olub "əxlaq", "ənənə" mənasını verir, yəni etika insan davranışını əxlaqi motivlər əsasında öyrənən fəlsəfi bir elmdir. Eradan əvvəl etikanı fəlsəfi mənəviyyat da adlandırmışlar. Görkəmli yunan filosofu Aristotelə görə etikanın məqsədi ruhun Xeyrə yönəlməsində təcəssüm etməlidir. Bunun üçün insan, ruhunun əqli səviyyəsini fiziki və nəfsani səviyyələrini üstələyəcək dərəcədə tərbiyə etməlidir ki, bu, zaman keçdikdə onda vərdiş halını alsın və xarakterik xüsusiyyətə çevrilsin. Təbii ki, bu, ideal və utopik bir yanaşmadı, çünki bütünlüklə belə insanlardan ibarət cəmiyyət hələ heç yerdə formalaşmayıb. Etika sahəsində Aristotelin geniş araşdırmalardan biri də insan məziyyətləridir. Aristotelin baxış bucağında etikanın bir elementi aşırılıqdan uzaqlaşmaqdır. Məsələn, Aristotelə görə, israfçılıq və xəsislik aşırılıqlardırsa, qənaətçilik məq- sədəuyğun etik nümunədir. Amma burada bir nüans var ki, aşırılılıqdan xoşbəxt olan insanlar var və Aristotelin də digər bir etik baxış bucağı insanların xoşbəxt ola bilməsidir, demək ki, ortaq məxrəc istənilən nümunədə haqsız ziyan verməmək və ya ziyan faizinin çox aşağı olmasındadır. Hüquqi dillə ifadə etsək öz hüquqlarını qorumaqla yanaşı, digərlərin hüquqlarını pozmamağı bacara bilməkdədir.

Platona görə etika nədir? – Platon etikası bir tərəfdən Aristotelə yaxındır, digər tərəfdən fərqlilikləri var. Platon etikanı mənəviyyat haqqında təlim hesab edirdi. Platon etikası fərdi deyil, sosialdır və ədalətə əsaslanır, əgər mükəmməl cəmiyyət varsa, ayrı-ayrı şəxslərin xoşbəxtliyi özü-özlüyündən təmin olunur və heç nə insanların xoşbəxtliyini pozmur. Ümumilikdə Platon etikası mükəmməl cəmiyyətin olması ilə şərtlənir.

Platon insanları hansı ruhun onlarda üstünlük təşkil etməsindən asılı olaraq üç tipə bölür: əqli, affektiv (emosional) və ehtiraslı (hissi). Əqli cəhətin üstünlük təşkil etdiyi adamlarda həqiqi biliyin, ideyaların təzahür etdiyi müdriklik mövcud olur. Belə adamlar düzlüyə, ədalətliliyə meylli olurlar. Ruhun affektiv hissəsinin üstünlük təşkil etdiyi adamlar isə igidlik, mərdlik əlamətlərinə malik olurlar. Ehtiraslı ruhun üstünlük təşkil etdiyi adamlar isə fiziki əməyə meylli olurlar. Platon belə hesab edir ki, hər kəsdə ruhun üç hissəsinin mövcud olmasına baxmayaraq hər bir adamda onlardan yalnız biri və ya ikisi üstünlük təşkil edir.

Sokrata görə isə etikanı anlamaq üçün insan özünü tanımalıdır, onun fikrincə idrakın əsas məqsədi özünüdərketmədir. Sokratın məşhur «öz-özünü dərk et, onda insanları və allahları da dərk edərsən» ifadəsi müasir dövrümüzdəki "empatiya qur" ifadəsi ilə üst-üstə düşür. Təbii ki, bu, uyğun olmayan düşüncə ilə empatiya qurmaq məcburiyyətini ifadə etmir.

Kantın etikası ağıl və insan təcrübəsi arasındakı əlaqəni izah etməyə çalışır, nəzəriyyə ilə insan təcrübəsinin sintezini ön plana çəkir və davranışlara önəm verir. Kantın etikasına görə yaxşı görünən, doğru görünən davranışların mahiyyətinə varılması vacibdir. Kanta görə əxlaqi dəyər maraq və ya mənafe ilə şərtlənirsə əxlaqi dəyər hesab olunmur. Kantın etik nəzəriyyəsində əxlaqi dəyər məhz əxlaqi dəyər olduğu üçün mövcud olmalıdır.

Cəmiyyət və şəxsiyyət arasında sosial-əxlaqi zəmində yaranan ziddiyyətlər ilk etik düşüncələrə səbəb olmuşdur. Odur ki, etikaya aid müxtəlif nəzəriyyələr dünyada gedən proseslərin etika elminə təsiri baxımından təhlil olunmuşdur.

**Etik nəzəriyyələr**

| **Mütləqlik** | **Relyativizm** |
|---|---|
| Əxlaqı insan varlığının əsası, əxlaqlı olmaq istəyini məna yaradan motiv elan edir. | Vəziyyətin qiymətləndirilməsi üçün hər bir əxlaqi dəyərin praktik yoxlanılması imkanını elan edir. |
| **Eudaimonizm** | **Hedonizm** |
| Xoşbəxtliyi əxlaqın meyarı və insan davranışının əsası elan edir. | Həzzi həyatın məqsədi və ən xeyirli vasitə elan edir. |

Mütləqlik nəzəriyyəsi etikanın mahiyyətinə ən yaxın nəzəriyyədir, əxlaqı etikanın əsas meyarı hesab edir, bu nəzəriyyədə həm Platonun, həm Aristotelin, həm də Kantın etikasındakı fəlsəfə elementlərinə rastlamaq mümkündür. Eudaimonizm xoşbəxtliyi əxlaqın meyarı hesab edir, təbii ki, burada etik prinsiplərin ziddinə olmayan xoşbəxtlikdən söhbət gedir, bu nüanslar Aristotelin nəzəriyyəsində mövcud-

dur. Relyativizm nəzəriyyəsi isə etikada praktikanın mövcudluğunu təsdiq edir, bu, Kantın etikası ilə üst-üstə düşür, ümumilikdə etikanın fərqli özəlliyi də məhz ondan ibarətdir ki, bu məfhum üzrə fəlsəfi mənəviyyat elementləri ilə yanaşı, real elementlər də mövcud olmuşdur və bu da onun dairəsini genişləndirmişdir. Odur ki, etika yalnız fəlsəfə olaraq qalmamış, praktik olaraq da inkişaf etmişdir, çünki davranışla birbaşa əlaqəli olduğundan istənilən münasibətə sirayət edə bilir, yəni həm mənfi, həm müsbət təzahürün yaranmasında birbaşa rola malikdir. Hedonizm nəzəriyyəsinə əsasən, həzz həyatın məqsədi və ən xeyirli vasitə hesab olunur. Həzz həm tibbi cəhətdən, həm də xoşbəxt olmaq üçün ən xeyirli vasitələrdən biridir, lakin həzzi həyatın məqsədi elan etmək etik dəyərlərlə üst-üstə düşməyə bilər. Odur ki, bu nəzəriyyənin elementləri nisbidir.

Etik davranış nə qədər asan səslənsə də, etik davranmaq bir o qədər çətindir. Etik davranmağı bacarmaq, etik prinsiplərə və etik davranışla bağlı bütün qaydalara riayət etmək deməkdir.

**ETİK PRİNSİPLƏR**




Etik davranış mədəniyyəti təkcə nəzakətli davrana bilmək demək deyil, təbii ki, nəzakətlilik mədəni davranış prinsipinin əsas elementlərindən biridir, lakin mahiyyət üzrə də etik - yəni dürüst, vicdanlı, məsuliyyətli, qərəzsiz, ən əsası ədalətli ola bilmək vacibdir. Lakin burada incə bir çizgi var ki, etik olmayan mühitdə qeyri-etik qaydalar keçərli olur, onda da etik insanın geri düşmə ehtimalı mövcud olur. Buna səbəb isə etik insanın əxlaqi sərhədlərinin mövcud olması, qeyri-etik insanın isə belə sərhədlərinin olmamasıdır. Etik davranış qaydalarının pozulması isə sosial ədalətə ciddi təhlükə yaradır, inkişafı ləngidir, vətəndaş məmnunluğuna mane olmaqla hüquq mühafizə orqanlarına olan etimadı zədələyir, bu zaman yeni təşəbbüslərin irəli sürülməsinə, həyata keçirilməsinə insanlarda inam qalmır. Bu səbəbdən də etik pozuntuların yaranmasının qarşısının alınması vacibdir. Pozuntuların qarşısının alınmasında, həmçinin müqayisəli etik dilemmaların həllində etikanın məşhur sualı dövriyyəyə daxil olur: *"Mən bu situasiyada necə davranmalıyam və bu davranışı özümə rəva bilirəmmi? Əgər bilmirəmsə niyə?".*

İnsan məfhumu müxtəlif olduğundan mənfi etik təzahürlərin qarşısının alınması üçün etik davranış qaydaları normativləşdirilmişdir. Ümumbeynəlxalq normativ hüquqi aktlar sırasında xidməti fəaliyyətlə bağlı müəyyən edilən davranış qaydaları üzrə meyarlar 1999-cu il tarixli Beynəlxalq Prokurorlar Assosiasiyasının Prokurorlar üçün müəyyən etdiyi Peşə Məsuliyyəti, Əsas Hüquq və Vəzifə Standartlarında birbaşa əks olunmuşdur. Burada müstəqillik və qərəzsizlik prinsiplərini ehtiva edən əlamətlər, prokurorların əsas hüquqları, vəzifələri və məsuliyyəti üzrə ümumi standartlar, prokurorların cinayət prosesində rolu üzrə xüsusi standartlar diqqətə çatdırılmışdır. Ümumi standartlara əsasən, prokurorlar:

- *peşəsinin şəraf və ləyaqətini həmişə uca tutmalı;*
- *ən yüksək standartlar olan dürüstlük və diqqətliliyi tətbiq etməli;*
- *qanuna və peşə etikasına uyğun olaraq hər zaman peşəkar davranmalı;*
- *cəmiyyətin və peşəsinin mənafeyini qorumalı;*
- *müstəqil və qərəzsiz olmalı;*
- *daim mövcud qanunvericilikdəki dəyişikliklər barədə məlumatlı olmalı;*
- *insan ləyaqətinin və hüquqlarının ümumbəşəri konsepsiyasına hörmət edərək dəstəkləməlidir.*

Sənəddə prokurorların müstəqilliyini və qərəzsizliyini ehtiva edən normalar fərqləndirilmişdir. Prokurorların müstəqilliyi ilə bağlı müəyyən edilmiş standartlara əsasən, səlahiyyətlər siyasi müdaxilədən azad şəkildə müstəqil həyata keçirilməlidir. Prokurorlara ünvanlanmış göstəriş və ya tapşırıqlar şəffaf, qanunauyğun olmalı və müstəqilliyin qorunması ilə uzlaşmalıdır.

Prokurorların qərəzsizliyi ilə bağlı müəyyən edilmiş standartlara əsasən, prokurorlar öz vəzifələrini fayda güdmədən, çəkinmədən, eyni zamanda digər şəxslərin hüquqlarına xələl gətirmədən icra etməlidirlər. Bu istiqamətdə onlar:

- *ayrı-ayrı şəxslərin və ya qrupların maraqlarına, cəmiyyətin və ya mətbuatın təzyiqinə məruz qalmamalı və cəmiyyətin mənafeyinə hörmətlə yanaşmalı;*
- *şübhəli şəxsin mövqeyini yaxşılaşdırmasından və ya pisləş- dirməsindən asılı olmayaraq, istənilən şəraitdə obyektiv davrana bilməli;*

- *həmişə həqiqətin üzə çıxmasında israrlı olmalı, bu məsələdə məhkəməyə köməklik göstərməyə çalışmalı, həm zərərçəkmiş, həm də təqsirləndirilən şəxs üçün qanuni və ədalətli həll yolunu tətbiq etməlidir.*

Qeyd edildiyi kimi, hüquqi aktda cinayət prosesi üzrə standartlar müəyyən edilmişdir. Cinayət prosesində fəallıq, dürüstlük, layiqlilik, nizamlılıq və operativlik bu standartları müəyyən edən elementlərdir. Bu standartların təmin edilməsi məqsədilə cinayət prosesində prokurorlar:

- *peşə məxfiliyini qorumalı, cinayətin araşdırılmasında iştirak edərkən, həmçinin polis və ya müstəntiqlər üzərində nəzarəti həyata keçirərkən səlahiyyətlərini obyektiv, qərəzsiz və peşəkarlıqla yerinə yetirməli, istintaq xidmətləri tərəfindən qanuna və insan hüquqlarına riayət edilməsini təmin etməli;*
- *sübutların Konstitusiyaya və qanuna müvafiq şəkildə əldə edilməsinə əmin olmaq məqsədilə onları tədqiq etməli, təqsirləndirilən şəxsin hüquqlarının kobud şəkildə pozulması ilə, xüsusən də işgəncə və pis rəftarla qanunsuz şəkildə əldə edilmiş sübutlardan istifadə etməkdən imtina etməli və bu cür üsullardan istifadə edənlərə qarşı müvafiq tədbirlərin görülməsinin təmin edilməsinə çalışmalı, cinayət işi başlayarkən yalnız əsaslandırılmış sübutlara istinad etməli;*
- *yerli qanunvericiliyə və ədalətli məhkəmə araşdırmasının tələblərinə uyğun olaraq, zərərçəkmişlərin və şahidlərin hüquqları barədə onların məlumatlandırılmasını təmin etməli, şəxsi maraqlarına toxunulduğu təqdirdə qanuni maraqlarını və mümkün problemlərini nəzərə almalı, həmçinin zərərin ödənilməsi məqsədilə yuxarı instansiyaya və məhkəməyə şikayət hüququnu izah etməli;*
- *yerli qanunvericiliyə və ədalətli məhkəmə araşdırmasının tələblərinə uyğun olaraq, məhkəmə və digər aidiyyəti orqanlarla birlikdə cinayət prosesinin digər iştirakçıları ilə yanaşı, təqsirləndirilən şəxsin də hüquqlarını qorumalı və məhkəməyədək icraat barədə mümkün qədər tez bir zamanda məlumatlandırılmasını təmin etməli;*
- *cinayət prosesi zamanı iş üzrə ittiham sərt və təmkinli formada, lakin ədalətli və yalnız sübutlara uyğun qaydada irəli sürülməli;*
- *yerli qanunların və ədalətli məhkəmə araşdırması hüququnun tələblərinə uyğun olaraq ittihamdan imtina, icraata xitam verilməsi, xüsusilə yetkinlik yaşına çatmayanlar barədə cinayət işləri üzrə icraatın ayrılması imkanlarını nəzərə almalı, şübhəli və zərərçəkmiş şəxslərin hüquqlarına hörmətlə yanaşmalı;*
- *səlahiyyətlərini yerinə yetirərkən ictimai maraqları nəzərə almalı, tövsiyələr verərkən qərəzsiz və obyektiv olmalıdır.*

Beynəlxalq Prokurorlar Assosiasiyasının Prokurorlar üçün müəyyən etdiyi Peşə Məsuliyyəti, Əsas Hüquq və Vəzifə Standartlarında həm daxili, həm də xarici əməkdaşlıq məsələlərinin tənzimlənməsinə yer ayrılmışdır. Qeyd edilmişdir ki, prokurorların hakimlərlə, vəkillərlə, polislərlə, həmçinin digər milli və beynəlxalq dövlət orqanları ilə əməkdaşlığı cinayət təqibinin səmərəliliyinin və ədalətliliyinin təmin edilməsi məqsədi daşıyır. Prokurorluq işçilərinin həmkarları ilə münasibətlərinin xüsusiyyətləri ilə bağlı qeyd edilmişdir ki, əməkdaşlıq qanunauyğun olmaqla qarşılıqlı yardıma söykənən köməklik ruhunda qurulmalıdır.

Peşə məsuliyyətini, əsas hüquq və vəzifə standartlarını müəyyən edən hüquqi sənəddə prokurorların təminatları ilə bağlı normalar əks olunmuşdur. Qeyd edilmişdir ki, peşə vəzifələrinin müstəqil şəkildə həyata keçirilməsi, ümumilikdə isə sadalanan standartlara uyğun fəaliyyətin təmin edilməsi məqsədilə prokurorlar bütün özbaşına hərəkətlərdən hökumət tərəfindən müdafiə olunmalıdır. Bu onu ehtiva edir ki, prokurorlar hədə-qorxu, maneə, müdaxilə və digər təsir üsullarından asılı olmayaraq peşə funksiyalarını yerinə yetirməkdə israrlı olmalı, peşə funksiyalarının lazımi şəkildə yerinə yetirilməsi nəticəsində şəxsi təhlükəsizliyinə təhlükə yarandıqda isə özünün və ailə üzvlərinin mühafizəsi və təhlükəsizliyi üçün təsirli tədbirlər görülməlidir. Nəzərdə tutulmuşdur ki, prokurorlar:

- *obyektiv amillərə əsaslanan, peşəkar keyfiyyətləri, qabiliyyətləri, çalışqanlığı, təcrübəsi, dürüstlüyü nəzərə alınmaqla ədalətli və qərəzsiz prosedur əsasında işə qəbul imkanlarına malik olmalı;*
- *müvafiq xidmət şəraiti və onların fəaliyyəti ilə adekvat olan güzəştlərlə, həmçinin əsassız şəkildə azaldıla bilməyən ödənişlə təmin olunmalı;*
- *əmək şəraitinə və digər amillərə uyğun olaraq iş stajı, pensiya yaşı və pensiya ilə təmin olunmalı;*
- *peşə vəzifələrinin yerini yetirilməsi ilə bağlı olmayan hərəkətlər üzrə prokurorluq işçisi barəsində şikayət olunduqda və barəsində intizam tənbeh tədbiri tətbiq edildikdə işə tez və ədalətli baxılaraq obyektiv qərarın verilməsi hüququna malik olmalı;*

- *maraqlarını təmsil etmək, öz peşə hazırlıqlarını təmin etmək və statuslarını qorumaq məqsədilə qanunla qadağan olunmayan birliklər və ya digər təşkilatlarda birləşmək hüququna malik olmalı;*
- *peşə standartlarına və etikaya zidd olan qanunsuz əmri icra etməmək hüququna malik olmalıdır.*

Bu qəbildən normalar eyni zamanda 2001-ci il tarixli Hakimlərin Davranışı Üzrə Banqalor Prinsiplərində və 2005-ci il tarixli Prokurorluq İşçilərinin Etik Davranış Qaydaları Üzrə Avropa Rəhbər Göstərişlərində (Budapeşt Prinsipləri) də əks olunmuşdur.

Şəxsi davranışı ehtiva edən normalar beynəlxalq normativ hüquqi aktlar sırasında 2001-ci il tarixli Banqalor və 2005-ci il tarixli Budapeşt Prinsiplərində əks olunmuşdur. Banqalor Prinsiplərində ümumilikdə qeyd edilmişdir ki, hakim məhkəmə funksiyalarının yerinə yetirilməsi ilə bir araya sığmayan fəaliyyətlə məşğul olmamalıdır. Prinsiplərin məzmununda xüsusi olaraq fərqləndirilmişdir ki, şəxsi və ya işgüzar nüfuzunun zədələnməməsi üçün təsir təəssüratı yaradan davranışa səbəb olan hallara imkan verilməməlidir. Həmçinin ailə üzvü və ya başqa şəxs tərəfindən vəzifələrin icrasına təsir göstərən hədiyyə, borc, miras və ya hər hansı formada başqa yardım qəbul və ya tələb edilməsinin yolverilməzliyi təsbit edilmişdir.

Etik davranışın tənzimlənməsi ilə bağlı Azərbaycan Respublikasında xeyli işlər görülmüş, əksər sahələrdə etik davranış qaydalarına dair tələblər müəyyən edilmişdir. Normativ hüquqi sənədlərin məzmununda xidməti və xidmətdən kənar vaxtlarda davranış qaydalarının tənzimlənməsi ilə bağlı normalar nəzərdə tutulmuş, korrupsiya təzahürləri üzrə ümumi normalarla yanaşı xüsusi normalar fərqləndirilmişdir.

Ölkədə həyata keçirilən korrupsiyaya qarşı mübarizə siyasətinə dəstək olaraq etik prinsiplərə uyğun davranış modelinin öyrənilməsi aktuallaşmış, belə davranış modelinə əlçatanlığın təmin edilməsi məqsədilə etik davranış qaydaları ilə bağlı məlumatlılığın artırılması nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 23 noyabr 2018-ci il tarixli 739 №- li Sərəncamı ilə təsdiq edilmiş, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçuları korpusunun formalaşdırılması məqsədi daşıyan “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019 – 2025-ci illər üçün Strategiya”nın 5.10-cu bən- dində dövlət orqanlarında etik davranış qaydalarının tətbiqi, bu sahədə maarifləndirmə və mübahisələrin həllinə məsul olan etik müvəkkil vəzifəsinin təsis edilməsi nəzərdə tutulmuş, bu istiqamətdə görülən tədbirlər çərçivəsində “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Qanuna “Etik davranış üzrə müvəkkil” adlı 21-1-ci maddə əlavə edilmiş, müvəkkilin vəzifə və səlahiyyətləri təsbit edilmişdir.

Son illər etik davranış məsələləri ilə bağlı tədbirlər genişləndirildiyindən bu sahədə müsbət nəticələrə nail olunması prokurorluq orqanlarında da qarşıya məqsəd qoyulmuşdur. Odur ki, Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Baş Prokurorluğunun İşin Təşkili Qaydaları”nda artıq bu növ müraciətlərə baxılması üçün fərqli mexanizm müəyyən edilmiş və prokurorluğun tarixində ilk dəfə 05 avqust 2020-ci il tarixdə Etik Davranış Komissiyası təsis edilmisdir.

Baş Prokurorluğun Kollegiyasının 27 dekabr 2022-ci il tarixli 6 nömrəli Qərarı ilə Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin yeni Etik Davranış Kodeksi təsdiq edilərək 1 yanvar 2023-cü il tarixdən qüvvəyə minmişdir.

Etik davranışın tənzimlənməsi ilə bağlı keçirilmiş kurs, treninq və təlimlər çərçivəsində dinləyici auditoriyasına milli və beynəlxalq qanunvericiliyin norma və tələbləri izah edilmiş, gözlənilən etik davranış modeli barədə məlumat ve- rilmiş, risk faktorları sadalanmış və praktik misallar təqdim edilmişdir.

Beləliklə, etika qaydaları qədim sivilizasiyalardan bu günə qədər mövcud olmuş və ötən əsrdən başlayaraq normativləşdirilmişdir. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 2019-cu ilin 25 iyul tarixində 5 aprel – Beynəlxalq Etika günü olaraq təsis edilmişdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. “Milli və beynəlxalq qanunvericiliyin kontekstində: Etik davranış qaydaları və şəxsi həyat anlayışı” metodiki vəsaiti – Azərbaycan Respublikasının Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi – Bakı, 2024, 116 səh;
2. https://www.fowpal.org/news/united-nations-declares-april-5- international-day-conscience#:~:text=Federation%20of%20World%20Peace%20and,the%20International%20Day%20of%20Conscience.



**İradə Xəlilova**
**Elm-Tədris Mərkəzinin böyük prokuroru,**
**Etik Davranış Komissiyasının katibi,**
**ədliyyə müşaviri**

# Azərbaycanlıların deportasiyası və Naxçıvan

*"Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır."*

**Heydər ƏLİYEV**
**Azərbaycan xalqının Ümummilli Lideri**

Deportasiya bir xalqın yaşadığı ölkə ərazisindən zorla çıxarılması, məcburi köçürülməsi və ya qovulmasıdır. Fransız kökənli "qovulma" və "sürgün" mənasını ifadə edən "deportasiya" sözü insanların doğma yurd-yuvasından didərgin salınmasında ifadə olunur. Deportasiyanın ictimai təhlükəliliyi əhalinin uzunmüddət olduğu qanuni yaşayış yerlərindən zorla çıxarılması ilə müşayiət olunan və insanların kütləvi şəkildə doğma torpağından, ölkəsindən qovulması ilə nəticələnən hərəkətlərlə xarakterizə olunur.

10 fevral 1828-ci ildə çar Rusiyası ilə Qacarlar dövləti arasında imzalanan bədnam Türkmənçay müqaviləsi ilə Naxçıvan və İrəvan xanlıqları da rus imperiyası tərəfindən işğal olundu. Beləliklə də, Şimali Azərbaycan tamamilə Rusiyaya ilhaq edildi. 1850-ci ildə isə Naxçıvan və İrəvan xanlıqları ləğv edilərək Naxçıvan, Gümrü, Yeni Bəyazit, Şərur-Dərələyəz qəzaları və Ordubad nahiyəsinin də daxil olduğu İrəvan quberniyası yaradıldı. Bununla da tarixi torpaqlarımızın bölünməsinin və zəbt olunmasının əsası qoyuldu. Osmanlı və Qacarlar dövləti ərazisində yaşayan ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi nəticəsində isə həmin dövr soyqırımı cinayətləri və deportasiya tariximizin qanla yazılmış səhifəsinə çevrildi.

Məlumdur ki, son iki yüz illik dövr ərzində xalqımıza qarşı soyqırım və deportasiya siyasəti həyata keçirən ermənilər öz hərəkətlərinə qarşı onlara arxa olan digər dövlətlərin dəstəyindən, eyni zamanda törətdikləri cinayətlərə dünya birliyinin biganəliyindən və səssizliyindən istifadə edərək Qərbi Azərbaycan ərazisindən bütün soydaşlarımızı növbəti dəfə deportasiya etməyə nail olmuş, 30 ilə yaxın bir müddət ərzində isə doğma Qarabağımızı işğal altında saxlamışlar.

1828-ci ildən başlayan deportasiya siyasəti sovetlər dönəmində daha da sürətlənmiş və 1988-ci ildə sonuncu soydaşlarımız Qərbi Azərbaycan ərazisindən deportasiya olunmuşdur.

"1948-1953-cü illərdə azərbaycanlıları Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi sürətdə deportasiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 18.12.1997-ci il tarixli Fərmanında qeyd edilir ki, son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

Bu gün dünyada deportasiyaya məruz qalmış xalqların hüquqlarının bərpası üçün bir sıra işlər görülür, deportasiya bütün bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirilir. BMT səviyyəsində deportasiyaya məruz qalmış xalqların anım günü qeyd olunsa da, təəssüflə qeyd edə bilərik ki, XX yüzillikdə 2 milyona yaxın soydaşımızın Qərbi Azərbaycandan deportasiya edilməsi faktına dünya birliyi ciddi münasibət bildirməmişdir. Yenə də ədalətsizlik, yenə də ikili yanaşma.

Xalqımızın Ümumilli Lideri Heydər Əliyevin 28 mart 2001-ci il tarixdə "31 mart – Azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciəti"ndə deyilir: "Erməni millətçiləri və şovinistləri "Böyük Ermənistan" xülyalarını həyata keçirmək üçün lap əvvəldən xalqımıza və ölkəmizə qarşı ustalıqla və davamlı surətdə informasiya və təbliğat müharibəsi aparmışlar. Total qarayaxma kompaniyası, çirkin təbliğat müharibəsi bu gün də davam edir. Ən müxtəlif üsul və vasitələrdən istifadə edən erməni şovinistləri dünya ictimaiyyətini çaşdırır, Azərbaycanın və bütün Qafqazın tarixini saxtalaşdırır, azərbaycanlılara qarşı mənəvi təcavüz kompaniyası aparır, dünya ictimaiyyətinin nəzərində "əzabkeş, məzlum erməni xalqı" obrazı yaradırlar. Erməni icmaları, erməni lobbisi bu istiqamətdə onilliklər boyu ardıcıl iş aparır. Nəticədə ermənilərin Azərbaycan xalqına qarşı bu gün törətdiyi işğal və soyqırım faktlarına biganə qalan dünya dövlətlərinin parlamentləri guya 100 il əvvəl baş verdiyi iddia edilən hadisələr barədə yanlış, siyasi konyunkturaya uyğunlaşdırılmış qərarlar qəbul edir, öz hərəkətləri ilə təcavüzkarı şirnikləşdirirlər. Öz müvəqqəti və ardıcıl uğurlarından vəcdə gəlmiş erməni siyasətçiləri və ideoloqları, bütöv xalqlara nifrət ideologiyasının açıq və maskalanmış daşıyıcıları beynəlxalq hüquq normalarına meydan oxuyur, planetimizdə bərqərar olmuş, sivil birgəyaşayış normalarını kobudcasına pozurlar".

Tarixi faktlar göstərir ki, 1828-ci ildən başlayaraq Naxçıvanda da ermənilər Rusiya hakimiyyətinin bilavasitə dəstəyi ilə bir çox qırğınlar törətmiş, burada etnik üstünlüyü ələ keçirmək üçün türk-müsəlman əhalisini deportasiyaya məruz qoymuşlar. Lakin Naxçıvan əhalisinin erməni təcavüzünə qarşı XX yüzilliyin əvvəllərindən başlayan qətiyyətli mübarizəsi onların bu planlarını həyata keçirmələrinə imkan verməmişdir. Tarix boyu Naxçıvan qədim Azərbaycan torpaqları olan İrəvan,

Zəngəzur, Vedibasar, Dərələyəz, Sürməli və başqa ərazilərlə vahid siyasi, etnik-mədəni, iqtisadi məkan təşkil etmiş, həmin ərazilərdə baş verən tarixi-ictimai hadisələr Naxçıvana da birbaşa təsir göstərmişdir. Deportasiya ilə bağlı hadisələr də buraya daxildir. Bundan əlavə, ermənilər bütün cənub-qərbi Azərbaycanda olduğu kimi, Naxçıvanda da etnik təmizləmə siyasətinə uyğun şəkildə qanlı cinayətlər törətmişlər.

Ermənilərin özlərinin "Türksüz Ermənistan" yaratmaq məqsədinə çatmaq üçün istifadə etdikləri metodlardan biri də yerli əhalini deportasiya etməkdən ibarət idi. Eyni zamanda, erməni millətçilərinin İrəvan quberniyasında, Zəngəzurda, sonra isə Ermənistan Respublikasında və Ermənistan SSR-də həyata keçirdikləri deportasiya nəticəsində on minlərlə soydaşımız öz doğma torpaqlarını tərk edərək Naxçıvana pənah gətirmiş və burada məskunlaşmışdır.

Tarixçı alim Abdulla Mustafayev qeyd edir ki, Rusiya-Qacarlar (1826-1828) və Rusiya-Osmanlı (1828-1929) müharibələrinin ruslar üçün uğurla başa çatması ilə ermənilərin Cənubi Qafqaza köçürülməsi üçün geniş imkanlar açıldı. Rusların Azərbaycan torpaqlarını, xüsusən İrəvan və Naxçıvan xanlıqlarını işğal etməsində ermənilər xüsusi fəallıq göstərmişdilər. Erməni kilsəsi, arxiyepiskop Nerses rus qoşunlarının canlı qüvvə, ərzaq və silahla təchiz edilməsində bilavasitə iştirak edirdi. 1828-ci ilin fevralın 29-da general Paskeviç göstəriş verdi ki, ermənilər başlıca olaraq İrəvan və Naxçıvan vilayətlərində və qismən Qarabağda yerləşdirilsin, bir sıra müsəlman kəndləri dindaşlarının ən çox məskunlaşdığı yerlərə köçürülsün və həmin yerlər ermənilərə verilsin. Əslində bu azərbaycanlıların öz doğma torpaqlarında deportasiya edilməsinin başlanğıcı idi. Paskeviçin başqa bir direktivi belə idi: Xristianları Naxçıvan və İrəvan vilayətlərinə getməyə razı salmaq lazımdır. Bu vilayətlərdə xristian əhalisini nə qədər mümkündürsə, çoxaltmaq lazımdır. Erməniləri Azərbaycan torpaqlarında kompakt şəkildə yerləşdirməklə, Rusiya özünün müstəmləkə, imperiya siyasətinin əsas məqsədini işğal edilmiş, din, dil, etnik-mədəni cəhətdən ona yad bir ölkədə öz gələcək hökmranlığı üçün etno-konfissional dayaq yaratmaq məqsədini reallaşdırmağa çalışırdı.

Tarixi sənədlərdə qeyd olunur ki, 1828-1829-cu illər ərzində Qacarlar dövlətindən Şimali Azərbaycana köçürülən ermənilərdən 23.568 nəfər (8599 ailə) İrəvan əyalətinin 129 kəndində, 10.562 nəfər (2137 ailə) Naxçıvan əyalətinin 61 kəndində, 1340 nəfər isə (250 ailə) Ordubad dairəsinin 12 kəndində yerləşdirilmişdir. 1828-1829-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra vilayətin ərazisinə 21.666 nəfər erməni köçürülmüş və onlar vilayətin 129 kəndində yerləşdirildi. Ümumiyyətlə, Türkmənçay və Ədirnə müqavilələrinin bağlanmasından sonra İrəvan və Naxçıvan xanlıqlarına 57.266 nəfər erməni köçürülmüşdür.

Bütün bunlar ermənilərin Cənubi Qafqaza, ilk növbədə Azərbaycana kütləvi və məqsədəuyğun şəkildə köçürülməsinin başlanğıcı idi. Bölgədə etnik-dini şəraitin dəyişdirilməsinə yönəldilmiş rus müstəmləkə siyasətinin praktik surətdə həyata keçirilməsi prosesi fasiləsiz olaraq XX əsrin əvvələrinə qədər getmiş, Sovet dövründə bu siyasət daha incə formada davam etdirilmişdir.

XIX əsrin II yarısında ermənilərin Cənubi Qafqaza miqrasiyası daha da sürətləndi. 1853-1856-cı illər Krım, 1877-1878-ci illər rus-türk müharibələri bu prosesə təkan verdi. 1873-cü ilin göstəricilərinə görə, İrəvan quberniyasında 221.191 erməni, 1886-cı ildə 375.700, 1897-ci ildə 439.926 erməni var idi. XX əsrin əvvəllərində də quberniyada onların sayı artmaqda davam etmiş və 1917-ci ildə 669.871 nəfər təşkil etmişdir.

Çar hakimiyyət orqanlarının bilavasitə havadarlığı ilə köçmə ermənilər yerli azərbaycanlıları sıxışdırmağa başladılar. Qriboyedovun özü etiraf edirdi ki, "...müsəlman mülkədarlarının torpaqlarında yerləşdirilmiş" erməni köçkünləri müsəlmanları sıxıntılı vəziyyətə salır və müsəlmanlar ehtiyat edirlər ki, ermənilər bir dəfə buraxıldıqları torpaqlara həmişəlik yiyələnəcəklər.

Ümumiyyətlə, 1826-1828-ci illər Rus-Qacarlar və 1828-1829-cu illər Rus-Osmanlı müharibələri nəticəsində İrəvan və Naxçıvan xanlıqlarının ərazisindən yerli müsəlman əhalisinin xeyli hissəsi qaçqın düşmüş, orada yalnız 81.749 nəfər (17078 ailə) müsəlman qalmışdı.

Yerli azərbaycanlıların öz torpaqlarında sayının azalması prosesi Naxçıvanda da özünü göstərirdi. Lakin ermənilərin və rusların bütün cəhdlərinə baxmayaraq Naxçıvan diyarında etnik vəziyyəti ermənilərin xeyrinə dəyişdirmək mümkün olmadı. Belə ki, ermənilərin buraya kütləvi köçürülməsinə baxmayaraq 1897-ci ilin siyahıya alınması göstəricilərinə görə Naxçıvan və Şərur-Dərələyəz qəzalarında yalnız 55 min 398 nəfər erməni, 125 min 712 nəfər azərbaycanlı yaşayırdı.

1903-cü ilin əvvəllərindən başlayaraq ermənilər azərbaycanlılara qarşı silahlı toqquşmalara başladılar. 1905-ci ilin ilk günlərindən isə öz əsas məqsədlərini - azərbaycanlıları doğma torpaqlarından qovub çıxarmağı gerçəkləşdirməyə başladılar. Bu gün tarixçilərin əlində 1905-1907-ci illərdə baş vermiş hadisələrin tarixi haqqında ən obyektiv və ümumiləşdirilmiş mənbə görkəmli yazıçı M.S.Ordubadinin "Qanlı illər" adlı sənədli kitabıdır. Bu əsər hadisələrin qızğın çağında, çoxsaylı şahid ifadələri və 245 müxbir məktubları əsasında, "hər cür şəxsi və milli qərəzdən uzaq olub hər nöqtədə üz vermiş faciə və hadisələr olduğu kimi" yazılmışdır.

Ermənilərin işğalçılıq niyyətlərinin həyata keçirilməsində əsas maneə əhalisinin əksəriyyətini türk-müsəlmanların təşkil etdiyi Naxçıvan bölgəsi idi. Ümumiyyətlə, bu bölgə əlverişli coğrafi-siyasi mövqeyə, zəngin təbii ehtiyatlara, bol taxıl mənbələrinə malik bir diyar kimi ermənilərin əsassız muxtariyyat iddialarının

əsasında dayanırdı. Bakıda acınacaqlı məğlubiyyətlə üzləşən daşnaklar bu dəfə diqqətlərini Naxçıvana yönəldib, burada etnik, hərbi-siyasi vəziyyəti öz xeyirlərinə dəyişmək üçün fəal hərəkətlərə başladılar.

Tarixi mənbələrdə qeyd olunur ki, hökumət qoşunları ilə əlbir olan ermənilər Şərurun Xanlıqlar, Şahbuzun İtqıran, Babəkin Cəhri və Sirab, Culfanın Yaycı kəndlərində faciə törədib, Zəngəzura aşmaq üçün Ordubadın Dırnıs, Unus, Pəzməri kəndlərini dağıda bilməyib, (bilməsələr də) onları mənəvi sarsıntıya məruz qoydular. Ermənilər Zəngəzurun açarı sayılan Oxçu, Şabadək, Pirdavdan, Atqız kəndlərini ələ keçirmək üçün geniş hərbi hazırlıqlara başladılar. Onlar bir tərəfdən Qafan dairəsində öz qüvvələrini toplayır, digər tərəfdən isə İrəvan, Aleksandropol, Abaran, Şuragöldən gətirilmiş könüllülərə Ordubadın ermənilər yaşayan Əylis, Kələki, Anaqurt kəndlərində təlimlər keçirdilər. İrəvandan aldıqları əmrə əsasən Əylisdəki erməni qüvvələri ilə Qatardakı erməni qüvvələri 1906-cı il avqust ayının 8-də Panusluda birləşərək Azərbaycan kəndlərini mühasirəyə almışdılar.

Oxçu kəndinin əhalisi dörd gün ərzində layiqli müqavimət göstərərək erməniləri Gicəvan kəndinə qədər qovmuş və bu kəndi ələ keçirmişdilər. Lakin avqustun 14-də Qatardan gələn erməni əsgərlərinin və ətraf erməni kəndlərindən yığılmış könüllülərin hesabına ermənilər Oxçu-Şəbadək dağlarını işğal edə bildilər. Ətraf kəndlərin əhalisi əvvəlcə Saqqarsuya çəkilir, sonra isə tam məhv olmaq təhlükəsi altında Ordubad mahalına pənah gətirməli olurlar. Ordubadlılar qaçqınları yerləşdirdikdən sonra ələ keçirilmiş kəndlərdəki insanları xilas etmək, həlak olanları basdırmaq üçün könüllülərdən ibarət dəstə yaratdılar. Ordubadda bu qədər qaçqının olması mahalın özündə çoxlu problemlər yaratmışdı. Qarabağla əlaqələr kəsildiyindən ticarət işləri tənəzzülə uğramış, qaçqınları təmin etmək üçün ərzaq çatışmırdı. Düzdür, ordubadlılar qaçqınlar üçün bütün əllərindən gələn köməklikləri edirdilər. Lakin qaçqınların öz doğma yurdlarına dönmək fikrində qəti olduqlarını yəqin etdikdən sonra, ordubadlılar qaçqınların qayıtmasını öz öhdələrinə götürdülər. Tezliklə Ordubadlılardan və qaçqınlardan ibarət 1800 nəfərlik könüllü ordu yaradıldı. Ordu bölüklərə bölünməklə baş komandanlığa tabe etdirildi. Əməliyyatın uğurla başa çatdırılması üçün hərbi plan hazırlanmış, kəşfiyyat və əlaqə dəstələri yaradılmışdı. Sentyabr ayının 16-da orduya iki istiqamətdə hərəkət edərək Girdəkan və Panuslu erməni kəndini ələ keçirmək tapşırığı verildi. 500 nəfərlik üçüncü bölük isə Lee və Təştin dağlarında mövqe tutub Mehri və digər erməni kəndlərindən köməyə gələn ermənilərin yolunu kəsməli idi. On iki saata qədər davam edən döyüşdən sonra müsəlman kəndləri azad edildi. M.S.Ordubadinin qeyd etdiyi kimi "Ordubad və mahal camaatının bu dərəcədə olan qeyrətləri milli səhifələrimizə qızılı qələm ilə qırmızı bir xətt çəkib onu bəzədi və qiymətə mindirdi".

Bu qırğınlar nəticəsində İrəvan quberniyasından, eləcə də Zəngəzur qəzasından Naxçıvana çoxlu sayda qaçqınların gəlməsi, eləcə də Naxçıvan qəzasının özündə erməni talanlarından xilas olmaq üçün azərbaycanlıların kütləvi şəkildə Arazın cənubuna köçmələri barədə mətbuat səhifələrində, memuar ədəbiyyatda və hadisələrin şahidi olmuş insanların xatirələrində çoxlu məlumatlar vardır. Qeyd edildiyi kimi, əhalinin I Ümumrusiya siyahıyaalınmasının materiallarına görə, 1897-ci ildə Naxçıvanda 125.712 azərbaycanlı və 55.398 nəfər erməni yaşamışdır.

Çar hakimiyyətinin rəsmi sənədləri də sübut edir ki, erməni ideoloqlarının iddialarının əksinə olaraq, Naxçıvandan ermənilərin qaçmaları və ya deportasiyası haqqında söhbət gedə bilməz. Əksinə bu bölgədə azərbaycanlıların planlı surətdə, tədricən sıxışdırılması prosesi gedirdi. Lakin çarizmin erməniləri Naxçıvana kütləvi şəkildə köçürməsinə baxmayaraq, bölgədə azərbaycanlılar ermənilərdən iki dəfə çox olmuşdur. 1917-ci ilin Qafqaz təqviminə əsaslanan başqa sənəddə isə Naxçıvan və Şərur-Dərələyəz qəzalarında birlikdə 161.991 azərbaycanlı (62,5 %), 83,374 erməni (36,7%) yaşayırdı. Lakin ermənilərin sayının qeyri-təbii amillər hesabına artmasına baxmayaraq, Naxçıvan bölgəsi etnik cəhətdən türk diyarı kimi qalmaqda davam edirdi.

Tarixi faktlar göstərir ki, "Ermənistan" adlanan Qərbi Azərbaycan torpaqlarından azərbaycanlıların qaçqınlıq dövrünün yeni bir mərhələsini 1918-1920-ci illər təşkil edir. Bu illərdə İrəvan quberniyasının Eçmiədzin, Sürməli, Yeni Bəyazid, Yelizavetpol, Zəngəzur və digər qəzalarından yüz minlərlə azərbaycanlı öz doğma torpaqlarından didərgin düşərək qaçqınlıq həyatı yaşamağa məcbur oldu. Hələ 1918-ci ilin əvvəllərində türk qoşunları qarşısında məğlub olaraq geri çəkilən ermənilərin İrəvan quberniyasında törətdikləri qırğınlar nəticəsində qaçqınların sayı 80 min nəfəri keçmişdi.

Eçmiədzin (Üç müəzzin) və Sürməli qəzalarının 50-dən artıq türk-müsəlman kəndinin dağıdılması və talan edilməsi ilə əlaqədar 1918-ci ilin avqustunda onların əhalisi doğma yurdlarından qaçqın düşdülər. Əhalinin əsas hissəsi İrəvan şəhərinin yaxınlığında yerləşən Zəngibasarda toplaşmışdır. Qaçqınların böyük əksəriyyəti isə müxtəlif yerlərə səpələnmişdilər və onların hara getmələri barədə dəqiq məlumat yox idi. Talin rayonundan qaçqın düşən beş min nəfər azərbaycanlı isə Arpaçayı keçərək Naxçıvana pənah gətirmişdi.

1919-cu il sentyabrın 9-da Himayəçilik Nazirliyinin İrəvandakı səlahiyyətli nümayəndəsinin "Ermənistanda müsəlman əhalisinin iqtisadi və siyasi vəziyyəti haqqında" göndərdiyi məlumatda müsəlman əhalisinin dəhşətli, acınacaqlı bir vəziyyətdə olduğu qeyd edilir və göstərilirdi ki, "... əhalinin əksəriyyəti qaçqın vəziyyətinə düşmüş və respublikadan kənarda – Şərurda, Naxçıvanda və

Sürməlidə yerləşmişdir. Ölkənin daxilində isə çox az əhali qalmışdır ki, bunlar da əsasən İrəvan şəhərində və bəzi təhlükəsiz müsəlman kəndlərində yaşayırdılar... Nəinki qaçqınların, hətta çox az sayda qalmış yerli müsəlman əhalinin də vəziyyəti olduqca ağırdır. İrəvanda əhali uzun sürən aclıqdan sonra qırılırlar. Hər cür yardımdan məhrum olan əhali hətta onlara kartoçka sistemi ilə verilən paylardan istifadə edə bilmirlər".

1918-1920-ci illərdə daşnakların Naxçıvana aramsız hücumları nəticəsində bölgənin sosial-iqtisadi və mədəni həyatı ağır vəziyyətə düşmüşdü. Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarında ermənilər 240-dan çox kəndi dağıtmışdılar. Digər tərəfdən İrəvandan, Zəngəzurdan, Vedibasardan, Dərələyəzdən qovulmuş 500 min müsəlman qaçqının böyük bir hissəsinin Naxçıvana pənah gətirməsi vəziyyəti daha da mürəkkəbləşdirmişdi. Qaçqınlar arasında aclıqdan və xəstəlikdən ölənlərin sayı on minlərlə ölçülürdü.

İrəvan quberniyasından qovularaq Naxçıvana pənah gətirən qaçqınların vəziyyəti ilə bağlı çoxlu problemlər var idi. Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi Təkinski mütəmadi olaraq Naxçıvan bölgəsində qaçqınların ağır vəziyyətdə olmaları barədə Azərbaycan Respublikasının Daxili işlər və Xarici işlər nazirliklərinə və digər hakimiyyət orqanlarına məlumat verirdi.

Naxçıvan Qaçqınlar Komitəsinin sədri Behbud ağa Şahtaxtinski 1919-cu il dekabrın 3-də bölgə general-qubernatoruna göndərdiyi məktubunda qaçqınların siyahıya alınmasının başa çatdığı və tabeçiliyində olan qəzalardakı qaçqınların sayının 39005 nəfər olduğu bildirilirdi. Eyni zamanda, Behbud ağa Şahtaxtinski Naxçıvandakı qaçqınların ağır vəziyyətindən geniş bəhs edərək, qaçqınların vəziyyətinin fəlakətli olduğundan, çoxunun açıq havada gecələdiyi və müxtəlif otlarla qidalandıqlarından, lakin indi soyuqların düşməsi ilə onların bu imkandan da məhrum olduqlarından yazır və qeyd edirdi ki, hər gün 40-a qədər ölüm halları qeydə almaq mümkündür. Xəstələri isə saymaqla qurtarmır. 40 min qaçqının sonsuz bir uçurumun kənarında və qarşısıalınmaz ölüm təhlükəsi qarşısında olduğunu bildirən B.Şahtaxtinski, əgər tezliklə mərkəzdən təcili və real kömək gəlməsə, onların hamısının son nəfərinə kimi məhv olacağını proqnozlaşdırırdı.1919-cu il noyabr ayımn axırlarında Ovçu-Şabadin və Kığı dərəsinin 25-dən artıq kəndinin müsəlman əhalisinin öz doğma yurdlarından qovularaq Naxçıvana pənah gətirməsi bölgədəki ictimai-siyasi vəziyyəti daha da ağırlaşdırdı.

1920-ci il sentyabrın 22-də 28-ci diviziyanın rəisi Nesterovskinin XI Qızıl Ordunun rəisinə göndərdiyi teleqramda daşnakların törətdikləri qırğından qaçıb Naxçıvanda məskunlaşmış qaçqınların sayının təqribən milyona çatdığını, onların çox ağır şəraitdə, açıq havada, Araz sahilində lüt, ac, taqətdən düşmüş vəziyyətdə yaşadıqları bildirilirdi.

Azərbaycan İnqilab Komitəsinin əhali arasında təbliğat aparmaq üçün Naxçıvana göndərdiyi nümayəndə heyəti 70 min qaçqının İranda, 400 min nəfərin isə Naxçıvan ətrafında açıq havada qalmasını bildirir, onların öz yaşayış yerlərinə qaytarılmaları üçün təcili tədbirlərin görülməsini xahiş edirdi. Yaranmış vəziyyətdən çıxmaq üçün Naxçıvanın Təbrizdə Ticarət nümayəndələyini yaratmışdı.

1921 -ci ilin II yarısında Zəngəzurun bir hissəsini tamamilə ələ keçirmiş Ermənistan hökuməti müxtəlif bəhanələrlə azərbaycanlı qaçqınların öz yerlərinə qayıtmalarına dair əldə olunmuş razılaşmalara nəinki əməl etmədi, hətta orada qalmış az miqdarda azərbaycanlı əhalini də sıxışdırmağa başladı.

Ermənistan İnqilab Komitəsinin qəbul etdiyi «Qaçqınlar haqqında» qərar azərbaycanlıların öz doğma yurdlarından qovulmasının yeni mərhələsinin əsasını qoydu. Naxçıvan əhalisinə yardım tək dövlət xətti ilə deyil, tanınmış xeyriyyəçilər tərəfindən də edilirdi. Azərbaycan milyonçusu H.Z.Tağıyev qaçqınların ehtiyacları üçün 5 min manat gümüş pul göndərmişdi. Naxçıvan Qaçqınlar Komitəsinin sədri vəziyyətin ağır olduğunu nəzərə alaraq əhaliyə müraciət etmişdi. Müraciətdə Naxçıvanda 40 minə yaxın qaçqının cəmləşdiyi, yerli hakimiyyət orqanlarının bu qaçqınlara lazımi səviyyədə kömək etmək imkanına malik olmadıqları qeyd olunur və "özlərinin siyasi yetkinliyini və əyilməz iradəsini dəfələrlə isbat etmiş" Naxçıvan şəhərinin vətəndaşlarından qaçqınlara yardım göstərməyə dəvət edilirdi.

Lakin bütün bunlara baxmayaraq qaçqınlıq və aclıq problemlərinin aradan qaldırılması mümkün deyildi. 1921-ci ilin quraqlıq keçməsi 1918-1920-ci illərdən yaranmış vəziyyəti daha da kəskinləşdirmiş, Naxçıvanda yerli əhalinin və qaçqınların vəziyyəti daha da ağırlaşmışdı. Qaçqınlar ot ilə qidalanırdılar ki, bu da ölüm hallarının çoxalmasına səbəb olmuşdu.

1922-ci il martın 28-də Bakı şəhərində Naxçıvanın daimi iqtisadi nümayəndəliyi açıldı. Nümayəndəliyin açılmasında məqsəd Naxçıvana yardım etməkdən ibarət idi.

Naxçıvan SSR XKS-nin 1922-ci il aprelin 25-də keçirilən iclasında qaçqınlar məsələsi müzakirə edildi. B.Şahtaxtınskiyə tapşırıldı ki, bütün imkanlardan istifadə edərək qaçqınların yeməklərinin keyfiyyətni artırsın, gündəlik çörək normalarını, onların geyimlərini və tibbi yardım göstərilməsi işini yaxşılaşdırsın. Bu məsələləri həll etmək üçün Şirinov və Y.Naxçıvanski onun sərəncamına verildi. Qaçqınlarla işin təşkilinə nəzarət Hidayət Sultanova tapşırıldı.

1923-cü il maym 13-də Zəngibasarın Çobankərə kəndindən qaçqın düşən və ilk əvvəllər Şərurun Xanlıqlar

kəndində yerləşən azərbaycanlı qaçqınlar da Culfanın boş səhralarında yerləşdirildilər. Lakin onlar orada yaşamaq istəməyərək, öz doğma yerlərinə qayıtmaq üçün müraciət etdilər. 1923-cü il iyunun 4-də Naxçıvan Vilayət İcraiyyə Komitəsi onların yerinə Xortuz kəndinin qaçqın əhalisini yerləşdirməyi qərara aldı. Lakin Ermənistan hökuməti nəinki Çobankərə, eyni zamanda Zəngibasarın Kərimarxı kəndinin azərbaycanlı əhalisinin öz yerlərinə qayıtmasına imkan vermədi. Kərimarxı, Çobankərə, Milli Dərəsi, Qulubəyli və s. kəndlərin qaçqın əhalisi Naxçıvanın Əliabad kəndində yerləşdirildi.

1924-cü ilin fevral ayında Dərələyəz qəzasının Qızılca kəndinin azərbaycanlı əhalisi öz doğma yurdlarından çıxarıldıqlarına görə onlar Ulya Noraşen kəndində yerləşdirildilər. Naxçıvan XKS-nin 1924-cü il 9 aprel tarixli qərarı ilə Zəngəzur və Sisyan qaçqınları Güznüt və Nehrəmdə yerləşdirildilər. 1924-cü il sentyabrın 1-də Naxçıvan SSR XKS-nin Rəyasət Heyəti Əliabad kəndində yerləşdirilmiş qaçqınların öz doğma yurdlarına qayıtmaları barədə xahişləri ilə əlaqədar Ermənistan MİK-nə müraciət etdi. Lakin Ermənistan hər dəfə olduğu kimi, bu dəfə də müraciəti cavabsız qoydu.

Naxçıvana köçmə arzusu bəlli olduqdan sonra erməni hakimiyyət orqanlan onlanın bu arzusunun reallaşmasına imkan verməyərək, həmin rayonların hətta 1949-cu il planına daxil edilməməsinə nail oldular. Bu, kənd təsərrüfatı işlərində işçi qüvvəssinin çatışmaması ilə əsaslandırılsa da, əslində əsas məsələ azərbaycanlı əhalinin Naxçıvanda sayının daha da artmasına imkan verməmək, bu bölgəni ilhaq etmək məqsədi güdən daşnak siyasətini gələcəkdə həyata keçirmək idi. Məhz bu məqsədlə də ermənilərin səyi nəticəsində Azərbaycan hökuməti 1949-cu ilin sentyabrında yuxarıda göstərilən səbəbləri bəhanə gətirib Sisyan rayonunun Şəki kolxozunun əhalisinin Naxçıvan MSSR Şahbuz rayonuna köçməsinə icazə verməmişdi.

1950-1980-ci illər azərbaycanlıların Ermənistandan sıxışdırılıb çıxarılmasında yeni mərhələ oldu. 1988-ci il noyabr ayının 28-də Əzizbəyov rayonunun Qarmraşen kəndinin sakinləri ermənilərin təzyiqləri ilə yurd-yuvalarından didərgin salındılar. Həmin gün Naxçıvandan gedən 10 ədəd zirehli maşın və 10 ədəd yük maşını ilə kəndin sakinləri evlərini tərk edərək Naxçıvana gəldilər.

1988-ci il noyabrın 30-da Avşar və Şidli kəndləri istiqamətindən 100-ə qədər maşında erməni saqqallıları Xalisə kəndinə soxuldular. Yalnız Naxçıvandan hərbi texnikanın gəlməsi nəticəsində əhali qırğından qurtarmış oldu. Həmin gün Xalisə kəndinin 480 ailəsi öz yurd yuvalarından qovuldular. Urud kəndinin əhalisini əsgər geyimli ermənilər avtobuslara dolduraraq kömək etmək vədi ilə aldadıb erməni kəndi olan Şələkpələkin yaxınlığında saxlayaraq onları taladılar. Kənd əhalisi əzab-əziyyətlə Batabat dağını aşaraq Naxçıvana gəldilər. Noyabrın 30-da ermənilər Gömür kəndinə basqın edərək azərbaycanlıları evlərindən çıxartdılar. Gömürlülər qarlı dağ- dərə yolunu gecə vaxtı ikən keçib, Şahbuz rayonunun ərazisinə, Qanlı gölə gəlib çıxdılar.

Ümumiyyətlə, 1988-ci il aprel ayının 1-dək Naxçıvana 9.088 nəfəri təmsil edən 1.853 ailə gəlmişdi. Həmin ailələr yerli sakinlərin evlərində, yataqxanalarda, mehmanxanalarda, ictimai binalarda, məktəblərdə yerləşdirilmişdi. Qaçqın ailələrindən 427 ailəni təmsil edən 2.493 nəfər müvəqqəti olaraq Sədərək kəndində yerləşdirilmişdi. 1988-ci ilin aprel ayından iyul ayına qədər Ermənistanda vəziyyətin daha da gərginləşməsi ilə əlaqədar Naxçıvana əlavə olaraq 8 min nəfərdən çox qaçqın gəldi. Təkcə 1988-ci ilin may ayının 28-dən iyun ayının 28-dək, bir ay müddətində muxtar respublikaya 728 ailəni təmsil edən 3678 nəfər məcburi köçkün gəlmişdi. Artıq 1988-ci ilin noyabr ayında Ermənistandan Naxçıvana 15.000 nəfərdən artıq azərbaycanlı gəlmiş, onlar muxtar respublikanın şəhər və kəndlərində yerləşdirilmişlər. Naxçıvana gələn qaçqınların böyük əksəriyyəti sonradan Azərbaycanın digər şəhər və rayonlarına köçmüşlər. 1988-ci il iyun ayının 28-dən iyul ayının 9-dək Ermənistandan gələn qaçqınlardan 123 ailəni təmsil edən 529 nəfər Şərurun Dəmirçi, Yengicə, Sədərək, Oğlanqala, Arbatan, Xələc, Dizə, Tumaslı, Mahmudkənd, Aralıq, Çomaxtur, Kərimbəyli, Püsyan, Qaraburc, Gümüşlü, Şəhriyar, Düdəngə, Maxta, Yenikənd kəndlərində və rayon mərkəzində yerləşdirilmişdir.

Soydaşlarımıza qarşı iki əsr ərzində törədilmiş soyqırım, etnik təmizləmə və deportasiya siyasətinə beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət verilməli və cinayətkarlar öz layiqli cəzalarını almalıdırlar. Çünki, deportasiya təkcə xalqımıza qarşı deyil, bütün insanlığa qarşı yönəlmiş bəşəri cinayətdir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. "Qanlı illər" M.S.Ordubadi. Bakı-1991.
2. "Qanlı günlərimiz". Mirzə Bağır Əliyev.Bakı-1993.
3. "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində". İsmayıl Hacıyev. Bakı. "Elm"-2018.
4. "Naxçıvanda erməni-Azərbaycan münaqişəsi". Elman Cəfərəli. Bakı."Nurlan" 2009.
5. "Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan". Abdulla Mustafayev. Bakı-2013



**Faiq SƏFƏROV**
**Naxçıvan Muxtar Respublikası**
**Prokurorluğunun şöbə rəisi,**
**baş ədliyyə müşaviri,**
**Prokurorluğun fəxri işçisi**

# Xanlar Vəliyevin səlahiyyət müddətinin başa çatması ilə əlaqədar tədbir keçirilib








Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyevin səlahiyyət müddətinin başa çatması münasibətilə aprelin 8-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə tədbir keçirilib.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev Xanlar Vəliyevin uzunmüddətli və qüsursuz xidməti dövründə hüquq-mühafizə orqanlarında göstərdiyi yüksək peşəkarlığı, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsində, cinayətkarlığa qarşı mübarizədə, insan hüquq və azadlıqlarının müdafiəsində, xüsusilə də Hərbi Prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsində əldə etdiyi nailiyyətləri yüksək dəyərləndirib.

Xanlar Vəliyevə Azərbaycan Respublikası Prezidentinin 17 mart 2025-ci il tarixli, 527 nömrəli Sərəncamı ilə verilmiş 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni Baş prokuror tərəfindən təqdim olunub.

Tədbirdə çıxış edən Baş Prokurorluğun idarə rəisləri Natiq Hüseynov, Mahir Abbasov, Hərbi prokurorun müavini Şəfahət İmranov və digərləri Xanlar Vəliyevlə bağlı xatirələrini bölüşərək xoş sözlər deyiblər.

Öz növbəsində Xanlar Vəliyev çıxış edərək ölkə başçısına təltif olunmasına görə dərin və səmimi minnətdarlığını bildirib, həmçinin prokurorluq orqanlarındakı fəaliyyətinə göstərilən xüsusi diqqətə və verilən qiymətə görə təşəkkür edib.

Məlumat üçün bildiririk ki, 1955-ci il təvəllüdlü Xanlar Vəliyev 1978-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirərək prokurorluq orqanlarında fəaliyyətə başlayıb. Əmək fəaliyyətinə Gəncə şəhər prokurorluğunun baş müstəntiqi və şəhər prokurorunun köməkçisi kimi başlayan Xanlar Vəliyev daha sonra Qazax və Şəmkir rayon prokurorlarının müavini vəzifələrində çalışıb, 1993–2000-ci illərdə Azərbaycan Respublikası Baş prokurorunun müavini olub.

2005-ci il 10 fevral tarixli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru vəzifəsinə təyin edilən Xanlar Vəliyev hazırki vaxtadək həmin vəzifədə çalışıb.

Prokurorluğun fəxri işçisi və hüquq üzrə fəlsəfə doktoru olan Xanlar Vəliyev xidmətləri dövründə dövlətimizin ali rəhbərliyi tərəfindən, habelə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən bir sıra mükafatlara layiq görülüb.

O, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Hərbi xidmətlərə görə" medalı, "Azərbaycan bayrağı" ordeni, "Vətənə xidmətə görə" 2-ci və 1-ci dərəcəli ordenləri, "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalı ilə təltif edilib, həmçinin "Əməkdar hüquqşünas" fəxri adına layiq görülüb.







# Prokurorluğun veteranı təbrik edilib





Azərbaycan Prokurorluğunun veteranı Qasımov Həsən Məsim oğlunun 85 illik yubileyinin tamam olması ilə əlaqədar Baş prokuror Kamran Əliyevin adından ona təbrik məktubu və hədiyyə təqdim edilib.

Görüş zamanı veteran prokuror prokurorluq orqanlarındakı xatirələrini bölüşərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən qayğı nəticəsində prokurorluq orqanlarının maddi-texniki bazasının möhkələnməsini, prokurorluq işçilərinin və veteranlarının maddi və sosial rifahının yüksəlməsini qeyd edib.

Söhbət zamanı dövlətçilik maraqlarının keşiyində hər zaman mətinliklə duran, şərəfli inkişaf yolu keçmiş, prokurorluğun adını daim uca tutan veteranlarımızın ömür yolunun gənc nəsil prokurorluq işçiləri üçün örnək olması vurğulanıb.

# Qulluqda olmanın son yaş həddinə çatmış prokurorluq işçisi ilə görüş keçirilib







Prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Lerik rayon prokuroru baş ədliyyə müşaviri Rzayev Akif Əkbər oğlunun qulluq keçməsinə xitam verilməsi ilə əlaqədar Baş Prokurorluğun inzibati binasında qəbul edilərək, ona Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən verilmiş Fəxri fərman və hədiyyə təqdim edilib.

Görüş zamanı veteran prokurorluq işçisi Akif Rzayev prokurorluq orqanlarında keçdiyi uzunmüddətli xidmət illərinə nəzər salınaraq, prokurorluq orqanlarında səmərəli fəaliyyəti, cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, habelə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində əldə etdiyi nailiyyətlər qeyd edilib, veteran prokurorluq işçisi ona göstərilən diqqət və qayğıya görə minnətdarlıq bildirib.

Akif Rzayev tədbir iştirakçıları ilə xatirələrini bölüşüb və sonda xatirə şəkli çəkilib.

# Prokurorluğun veteranı Fərman Rzayevin müsahibəsi



***Rzayev Fərman Qədimali oğlu 1 yanvar 1955-ci ildə Gədəbəy rayonunda dünyaya göz açıb. 1961-ci ildə bu rayonun Novoivanovka kənd məktəbində birinci sinfə qəbul olunmuşdur. 1986-ci ildə Daşkənd Dövlət Universitetinin Hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.***

***1986–1989-cu illərdə Özbəkistan Aqrar Sənaye Birliyində böyük hüquq məsləhətçisi, 1990–1992-ci illərdə Rusiya Federasiyasının Xabarovsk diyarında əvvəl Lazo rayon prokurorluğunda müstəntiq, böyük müstəntiq, sonradan isə diyar prokurorluğunda böyük müstəntiq və ümumi nəzarət şöbəsinin prokuroru vəzifələrində çalışıb.***

***1993-cü ildə Azərbaycan Respublikasının prokurorluq orqanlarına işə qəbul olunaraq Qazax qarnizonu hərbi prokurorunun böyük köməkçisi, 1994-cü ildən Gəncə qarnizonu hərbi prokurorunun böyük köməkçisi, 1996-cı ildən Zəngilan rayon prokurorunun köməkçisi, 2000-2005-ci illərdə Xaçmaz rayon prokurorunun köməkçisi, həmin rayon prokurorluğunun prokuror-kriminalisti, 2005-ci ildən Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru, 2007-2012-ci illərdə Azərbaycan Respublikası Baş Prokurorluğunun Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru, həmin idarənin böyük prokuror-metodisti, 2012-ci ilin mart ayından Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin müəllimi-prokuroru, 2013-cü ilin sentyabr ayından 2015-ci ilin yanvar ayının 5-nə qədər isə Mərkəzin böyük prokuroru vəzifələrində işləyib.***

***1993-cü ildə Gədəbəy rayon xalq deputatları Sovetinə deputat seçilmişdir. Qarabağ müharibəsi əlilidir. Dəfələrlə Azərbaycan və Rusiya Federasiyasının Baş Prokurorları tərəfindən mükafatlandırılıb, Azərbaycan Respublikası Prokurorluğunun "100 illiyi" yubiley medalı ilə təltif edilmişdir.***

**Fərman müəllim, tələbə vaxtları və prokurorluqda işə başladığınız ilk günü necə xatırlayırsınız və peşəkar işçi kimi formalaşmağınızda hansı həmkarınızın rolunu qeyd etmək istərdiniz?**

1986-cı ildə Daşkənd Dövlət Universitetinin Hüquq fakültəsini əla qiymətlərlə bitirdim. O zaman Moskvadan göstəriş var idi ki, hüquq-mühafizə orqanlarına yalnız yerli vətəndaşlar və rus millətindən olan şəxslər işə götürülsün. Ona görə də mən Aqrar Sənaye Birliyində hüquqşünas kimi işə başladım.

Onu da qeyd etmək istəyirəm ki, Daşkənd Dövlət Universitetinin tarixində mənim bildiyim qədər 3 nəfər azərbaycanlı universiteti fərqlənmə diplomu ilə bitirib. Onlardan biri mən, digərləri hazırda Ədliyyə Akademiyasının rektoru vəzifəsində işləyən Şahin Əliyev və Özbəkistana deportasiya edilmiş azərbaycanlılardan olan, tanınmış hüquqşünas İsa Xamedov olmuşdur. Mən institutun tələbə həyatında da çox fəal iştirak etmişəm.



*Tələbəlik illəri – 1980-1982*

Diplom müdafiəsi zamanı Mərkəzi Komitənin nəzdində yeni yaradılmış İctimai Akademiyadan S.S Alekseyev və digər tanınmış alimlər iştirak edirdi. "SSRİ cəmiyyətində şəxsin hüquqi vəziyyəti" adlı diplom işimi çox bəyəndilər. Mən aktual problemləri və bu gün tətbiq olunan mütərəqqi ideyaları o zaman təsvir etmişəm.

Sonradan mən prokurorluğa işə qəbul olunmaq üçün Xabarovsk diyarına getdim. Xabarovsk diyar prokurorluğunun kadrlar şöbəsinin rəisi Violetta Andreyevna Buçinskaya idi. O, Azərbaycanda olmuşdu və mənə çox rəğbətlə yanaşdı. Xidməti vəsiqəni mənə verəndə o qədər həyəcanlandım ki, göz yaşlarımı saxlaya bilmədim. Violetta xanım dedi: "Ürəyi təmiz oğlansan, amma ehtiyatlı ol, burda yerli millət qafqazlılarla yola getmir". Elə həmin gün məni diyarın ən kriminal rayonlarından olan Lazoya göndərdilər.

Qeyd edim ki, Lazo rayon prokurorluğunda 5 əməliyyat ştatı olduğuna baxmayaraq, ikisi yaşlı qadın, biri isə pensiya ərəfəsində olan yaşlı kişi, həmçinin 2 müstəntiq ştatı vakant olduğundan istintaqda 5 əməkdaşın iş yükü mənim

üzərimə düşdü. İlk iş günü məni kiçik bir mehmanxanaya yerləşdirdilər və gecə həyəcandan yata bilmədim. Səhərə yaxın saat 4-ə işləmiş əməliyyat qrupu gəldi, mən müstəntiq kimi hadisə yerinə getdim. Cinayət hadisəsi belə olmuşdu: Qadın spirtli içki qəbul etdikdən sonra əri ilə dalaşmış və balta ilə onu kələm kimi doğramışdı. Hadisə yerinin müayinəsi zamanı maraqlı məqamlarla qarşılaşdıq.




Mən qələmlə protokol yazmaq, sxemləri çəkmək istəyərkən qələm yazmadı. Çox sərt iqlim şəraiti var idi. Mərhum Oryol soyadlı prokuror çiynimə vurdu və mənə karandaş uzadaraq dedi: "Yadında saxla, bura sizin Qafqaz kimi, Orta Asiya kimi isti deyil. Burada qışda yalnız karandaşla yazırlar." Onun bu tövsiyəsi hər zaman yadımda qaldı. Sonra biz dost olduq. Allah ona rəhmət eləsin.

Adətən o zaman, səhv eləmirəmsə, stajorluq müddəti bir il idi. Mənim fəaliyyətimə, savadıma, bacarığıma görə 3 aydan sonra attestasiya olundum. Attestasiya sənədimi Moskvaya göndərdilər və vaxtından əvvəl mənə ilk rütbə verildi. O zaman müstəntiqlər kiçik hüquqşünaslar kimi bir ulduzla başlayırdılar, mənə isə birbaşa üçüncü dərəcəli hüquqşünas rütbəsini verdilər.

Mən Lazo rayonunda müstəntiq işləyən zaman konfransa gəlmiş SSRİ Baş prokurorluğunun yüksək rütbəli məsul əməkdaşları təəccübləndilər ki, mən qısa müddət ərzində o qədər nəticələri necə qazanmışam. Bununla bağlı mənə bir neçə sual verdilər, mən suallara tam ətraflı cavablar verdim. Neçə müddətdir müstəntiq işləməyim barədə suala cavab olaraq 3 ay müstəntiq işlədiyimi bildirdikdə çox təəccüblənərək gülümsündülər, həmçinin, bu müddət ərzində ümumilikdə 21 ağır və xüsusilə ağır cinayət işlərinin istintaqını apardığımı bildirdikdə məni çox təriflədilər. Bir il yarımdan sonra məni Diyar prokurorluğunun İstintaq idarəsinə böyük müstəntiq vəzifəsinə təyin etdilər.

Diyar prokurorluğunda işləyəndə, məni ən cinayətkar yerlərdən biri olan İndustrialniy rayonuna ezam etdilər. Orada dəmir yolu deposu və yük stansiyaları yerləşirdi. Elə bir yer idi ki, ən azı hər gün bir adam qatar vurması nəticəsində ölürdü. Qəsdən adam öldürmə ilə bağlı isə gündə 2-3 hadisə olurdu.

Həmin rayon prokurorluğunun icraatında 7 dayandırılmış cinayət işi var idi. Onları mənim icraatıma verdilər. İşlərdə ya sübutlar itirilmişdi, ya da müddətlər keçmişdi. Mən 2 cinayət işini məhkəmə baxışına göndərdim, 2 cinayət işinin icraatını dayandırdım, 1 cinayət işinin icraatına xitam verdim, 2 cinayət işi üzrə isə təqsirləndirilən şəxsləri məcburi müalicəyə göndərdim. Bundan sonra diyar prokurorluğunda mənim fəaliyyətim böyük əks-səda yaratmışdı.

Fəaliyyətim zamanı tanıdığım Diyar prokurorluğunun Ümumi nəzarət idarəsinin rəisi Qudenko Qalina Fyodorovnanı xatırlayıram. O mənim müstəntiq kimi istintaqa nəzarət idarəsi rəisinin yanında bir neçə dəfə məruzələrimi dinlədiyinə görə barəmdə maraqlanıb və rəhbərliyə müraciət edərək: "Bu oğlanı mənim şöbəmə keçirdin, çox savadlıdır" demişdi.

Mən onun rəhbərlik etdiyi şöbədə 6 ay işlədim. Qəzetlərdə, misal üçün "Tixookeanskaya Zvezda" qəzetində o zaman mənim haqqımda yaxşı məqalələr yazılmışdı. Köhnə, açılmamış, dayandırılmış cinayət işlərinin istintaqını mən aparıb uğur qazandım. Həmçinin Ümumittifaq Televiziyasında "Kriminalnaya Xronika" adlı veriliş gedirdi. Orada ən mürəkkəb cinayət hadisələrini təsvir edirdilər. Həmin verilişdə mənim apardığım dörd xüsusilə ağır cinayət işi barədə geniş bəhs edilmişdir.

Sonradan hadisələr gərginləşdi: erməni təcavüzü, Qarabağ məsələsi.... Qərar verdim ki, Azərbaycana qayıdım. Beləliklə Qazax qarnizonunda, yeni yaranmış Qazax Hərbi Prokurorluğunda fəaliyyətə başladım.

**Fərman müəllim, işlədiyiniz Qazax hərbi prokurorluğu barədə, eləcə də həmin dövr ölkəmizdə baş vermiş siyasi dəyişikliklər haqqında xatirələrinizi bizimlə bölüşə bilərsinizmi?**

Mən Azərbaycanın prokurorluq orqanlarında 1992-ci ilin dekabr ayında köçürmə yolu ilə fəaliyyətə başladım və yeni yaranmış Qazax Qarnizonu Hərbi Prokurorunun böyük köməkçisi vəzifəsinə təyinat aldım. Hərbi Prokurorluq üçün keçmiş "komsomol" adlanan qurumun inzibati binası verilmişdi. Pəncərələri olmayan, qapıları sınıq olan həmin bina pis vəziyyətdə idi.



Bizim xidməti ərazimiz Qazax, Ağstafa, Tovuz, Gədəbəy və Şəmkiri əhatə etdiyinə görə bir-iki ay işlədikdən sonra mən özüm Gədəbəyli olduğum üçün Tovuz, Gədəbəy və Şəmkir ərazilərində yerləşən hərbi hissələrlə bağlı işləri üzərimə götürdüm.

Həmin dövrdə dostlarım və qohumlarım mənə kömək edirdilər. Şəmkirdə keçmiş tikinti idarəsinin yataqxana binası boş idi. Biz öz hesabımıza oranı təmir etdik və mən özüm üçün, həmçinin prokurorluğun digər işçiləri üçün orada iş otaqları yaratdım. Prokurorluğun adı Qazax Qarnizonu olmasını baxmayaraq, oradakı şəraitin iflic vəziyyətdə olması səbəbindən prokuror və digər işçilər də Şəmkirdə fəaliyyət göstərirdi.

Uzun müddət adı Qazax Hərbi Prokurorluğu olsa da, inzibati bina Şəmkirdə yerləşirdi. Hazırda isə adı dəyişdirilərək Şəmkir Hərbi Prokurorluğu adlanır. Təəssüf ki, o dövrdə Qazaxda şərait qurmaq mümkün olmadı. Həmin dövr çox çətin idi. Ölkədə, həmçinin Müdafiə Nazirliyi sistemində hərc-mərclik hökm sürürdü.

Bildiyiniz kimi, 1993-cü ildə mənfur qonşularımızın təxribatları sərhəddə tez-tez baş verirdi. Eyni zamanda ölkə daxilində cinayətkar qruplar və siyasi dəstələr dövlətçiliyə qarşı davamlı olaraq maneələr törədir, hətta bir neçə dəfə dövlət çevrilişinə cəhd edirdilər. Lakin Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın xahişi ilə Bakıya qayıtdıqdan sonra prezident kimi fəaliyyətə başladığı ilk günlərdə cinayətkarlıqla mübarizənin gücləndirilməsi ilə bağlı Sərəncam verdi. Bu sərəncama uyğun olaraq, prokurorluq orqanları da ciddi fəaliyyətə başladı.

O dövrdə qərb bölgəsində, xüsusən Şəmkirdə hərbi cinayətkar qruplaşma yaradılmışdı. Həmin qruplaşmaya rəhbərlik edən "Romik" ləqəbli şəxs tərəfindən keçmiş Leninkənd adlanan indiki Çinarlı qəsəbəsində minə yaxın fərarilik etmiş hərbi qulluqçu və təsadüfi şəxslər toplanmışdı. Bu qrupun istifadəsində zirehli texnika, avtomobillər, hətta hava hücumlarına qarşı texnika mövcud idi. Təsəvvür edin, müstəqil dövlətin bir bölgəsində qeyri-qanuni şəkildə belə bir hərbi birləşmə yaradılmışdı. Həmin "Romik" ləqəbli şəxsin hərbi dəstəsini tərki-silah edən mən olmuşam.

Bir gün onu iş yerimə dəvət etdim. Obyektiv olduğum üçün bu qanun pozuntusuna yol verən şəxslər mənə hörmətlə yanaşırdılar. Çağırdım və ona izah etdim ki, bu hərəkətlərin axırı cinayət məsuliyyəti ilə bitəcək. O da razılıq verdi və yerləşdikləri Çinarlı qəsəbəsinə getdik. Şəmkir rayonunun o dövrdə işləyən icra başçısı Aslan Aslanov, hərbi komissar Pənah Abdullayev, mərhum briqada komandiri Cahangir Rüstəmov və onun texniki işlər üzrə müavini Dilqəm Əliyev də gəlmişdilər. Həmin yerdə bütün texnika və silahları 171 saylı hərbi hissənin balansına təhvil verdilər.



Böyük bir iş gördüm. O zaman bilirsiniz ki, qərb bölgəsində erməni təcavüzü hər zaman gözlənilirdi və daxildə belə çaxnaşmalar böyük fəlakətə gətirə bilərdi. Lakin mənim fədakar əməyim nəticəsində o qanunsuz hərbi birləşmə tərəfindən gələcəkdə törədilə biləcək faciələrin qarşısı alınmışdır.

Qazax Hərbi Prokurorluğunda fəaliyyət göstərdiyim zaman Murovdağda yerləşən erməni silahlı qüvvələri ezam olduğum hərbi hissəni atəşə tutdular. Mən ağır mərmi yarası aldım və əlil oldum. Sankt-Peterburq şəhərində cərrahi əməliyyat olundum. Bu gün şükürlər olsun yenə əlim az da olsa fəaliyyət göstərə bilir.

**Gəncə hərbi prokurorluğunda xidmət etdiyiniz zaman ən yadda qalan cinayət işi haqqında nə deyə bilərsiniz?**

Gəncə Hərbi Prokurorluğunda işlədiyim zaman bir cinayət işini xatırlatmaq istərdim. Fransanın məşhur Milli Qəhrəmanı Əhmədiyyə Cəbrayılovun faciəvi ölümü ilə bağlı başlanmış cinayət işinin istintaqını mən aparırdım. Onu qeyd edim ki, hadisə Şəki şəhərində baş vermişdi.

Əhmədiyyə Cəbrayılov Fransanın Müqavimət Hərəkatının iştirakçısı olmuşdu. O, mərhum Fransa prezidenti De Qollun silahdaşı olmuş, partizan hərəkatında böyük fəaliyyət göstərmişdi. Çox maraqlı şəxsiyyət kimi tarixə düşüb. Hadisə belə olmuşdu: Əhmədiyyə Cəbrayılov Şəki şəhərində bacısının evində şam yeməyindən sonra evinə aparmaq üçün götürdüyü içində plov olan qazanla evinə gedərkən, küçəni keçən zaman N saylı hərbi hissənin giziri idarə etdiyi yük maşını ilə onu vurmuş və sonuncu şəkər xəstəsi olduğundan komatoz vəziyyətə düşərək ölmüşdür. Bu məqamda qeyd edim ki, 90-cı illərdə küçədə ki işıqlar çox zəif idi. Xüsusilə vurğulanmalıdır ki, Əhmədiyyə Cəbrayılov Fransada “psevdonim” altında yaşayırdı. Partizanlar arasında adı Arnold idi. O, Fransada bir qadınla evlənmiş və övladları da var idi.



Azərbaycanda müharibə dövründə onun kiçik oğlu da ölümündən sonra Milli Qəhrəman adı ilə təltif edilmişdi. Digər oğlu isə o zaman sahə müvəkkili işləyirdi və cinayət işinin istintaqı zamanı onunla da tanış oldum.

Demək istərdim ki, dahi bir şəxsiyyət ucuz ölümlə rastlaşmışdı. Bir-iki ay sonra respublika səviyyəli tədbirdə Ulu Öndər öz çıxışında demişdir: “Alman faşizmi dahi şəxsiyyətin öhdəsindən gələ bilməmişdi, lakin hansısa cinayətkər ehtiyatsızlıqdan olsa da, onun həyatına son qoydu”.

Bu məsələ ilə əlaqədar qeyd etmək istəyirəm ki, təxminən 2 il əvvəl sosial şəbəkələrdə Əhmədiyyə Cəbrayılovun həyatı müzakirəyə səbəb olmuşdu və keçmiş SSRİ məkanından çoxsaylı oxucular onun haqqında müzakirəyə qoşularaq öz rəy və fikirlərini bildirirdilər. Ermənilər isə özlərinə məxsus hiyləgərliklə belə bir şəxsin olmadığını, bu məlumatın “feyk” olduğunu həyasızcasına vurğulamışdılar. Mən öz növbəmdə yuxarıda qeyd etdiyim kimi onun ölümü ilə bağlı istintaqı apardığımı və barəsində ətraflı məlumatı onların diqqətinə çatdırdım. Bundan sonra ermənilər dərhal səslərini kəsdilər və bu müzakirəyə son qoyuldu.

**Zəngilan və Xaçmaz prokurorluğunda köməkçi və prokuror-kriminalist vəzifələrində işlədiyiniz dövrü necə xatırlayırsınız?**

Qeyd etdiyim kimi yaralandıqdan sonra məni Zəngilan rayon prokurorunun köməkçisi vəzifəsinə təyin etdilər. Burada da bəxtim gətirmədi. Neft Akademiyasının şəhərciyində yerləşən yataqxanada dar bir otaqda fəaliyyətə başladım. Məcburi köçkünlərlə işləyirdim. Burada da ən yadda qalan məqam 465 nəfər gəncin kütləvi fərariliyi ilə bağlı araşdırma materialının olması idi. Hərbi sahədə cinayət işləri üzrə təcrübəmi nəzərə alaraq, rayon prokuroru 1992-ci ildən qalan materialları mənə həvalə etmişdi. Gənclər barəsində hüquqi tədbir görülməli idi. Lakin onlardan ancaq izahatlar alınmışdı. Mən ilk öncə hüquqi cəhətdən sorğularımı etdim. Hərbi sahədə cinayətlərin özünəməxsusluğu olduğundan, həqiqətən gənclərin hərbçi statusunu təsdiq edən arayış və hərbi hissənin şəxsi heyəti üzrə əmrdən çıxarışı lazım idi. Keçmiş tərkib onu edə bilməmişdi. Mən həmin iş ilə bağlı vəziyyəti o zaman Baş prokurorun birinci müavini olan İsa Nəcəfova məruzə etmişdim. İzah elədim ki, müvafiq tədbirlər görülməli və bu iş hərbi prokurorluğun aidiyyətinə keçirilməlidir. Çünki həmin şəxslər hərbi and da içmişdilər, onlar artıq hərbçi idi. Razılığa gəldik, İsa Nəcəfov məsələyə çox obyektiv yanaşdı və mən müvafiq sorğuları Müdafiə Nazirliyinə göndərdim. Baş prokurorun göstərişi ilə biz materialları aidiyyəti üzrə Respublika Hərbi Prokurorluğuna göndərdik. Qeyd edim ki, o dövrdə orduda kütləvi fərariliklər olduğuna görə Ulu Öndər şifahi olaraq onları əfv edərək hərbi hissələrə qayıtmaları barədə çağırış etmiş və cinayət məsuliyyətindən azad ediləcəklərini qeyd etmişdi. Buna görə də, qeyd etdiyim iş çox mühüm idi, 465 gəncin müqəddəratı həll olundu.

Xaçmaz prokurorluğunda işlədiyim zaman vacib məqamı qeyd etmək istərdim. 2004-cü ildə Sankt-



Peterburqda yerləşən Rusiya Federasiyasının Baş prokurorluğunun Təkmilləşmə İnstitutunda təcrübə mübadiləsinə göndərildik və kurslardan keçdik. Yekunda müvəffəqiyyətlə imtahan verdik. Sonradan mən Azərbaycan Prokurorluğu jurnalında geniş bir məqalə ilə çıxış etmişdim. Qeyd edim ki, o dövrdə prokuror-kriminalistlərin fəaliyyəti ilə bağlı əsasnaməyə əsasən, prokuror-kriminalist vəzifəsi təsnifata görə rayon prokurorunun köməkçisi vəzifəsindən sonra yəni 8-ci təsnifatda idi. Baxmayaraq ki, prokuror-kriminalist mənim kimi (Xaçmaz, Dəvəçi, Siyazən, Qusar, Quba) 5 rayona xidmət edirdi. Əsasnamədə belə absurd bir bənd var idi ki, rayon prokurorunun göstərişi ilə prokuror-kriminalist açılmamış köhnə cinayət işlərinin istintaqını da aparmalı idi. Bunu necə başa düşmək olardı? Mən də həmin məqalədə bu absurd fikri tamamilə təkzib etmişdim.

Belə ki, hər an, günün istənilən vaxtı cinayət hadisəsi baş verə bilər. Prokuror-kriminalist da hadisə yerinə gedib, iştirak etməlidir. Bu zaman rayon prokuroru arxivdən çıxarılmış bir cinayət işinin icraatını təzəliyir, verir onun icraatına. Burada müddət gedir, müvafiq istintaq hərəkətləri etmək lazımdır. Bunu necə həll etmək olar? O dövrdə Baş prokurorun köməkçisi vəzifəsində işləyən Nazir Bayramova da mən həmin fikrimi çatdırmışdım. O isə öz növbəsində Baş prokurora məruzə etdikdən sonra həmin əsasnaməyə dəyişikliklər edildi. Regionlarda işləyən prokuror-kriminalistlər rayon prokurorlarının tabeçiliyindən çıxarılaraq 5-ci təsnifata keçirildilər. Bu, onların müstəqil və sərbəst hərəkətlərini bərpa etdi. Hesab edirəm ki, çox müsbət iş gördüm.

**Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru və Baş prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin böyük prokuroru vəzifələrində işlədiyiniz dövrdə ölkənin rezonanslı hadisələri hansılar olmuşdur?**

2005-ci ilin yanvar ayında mən Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinə prokuror vəzifəsinə təyin edildim. Fəaliyyətimi obyektiv prinsiplərə əsaslanaraq həyata keçirirdim. Çəkinmədən deyə bilərəm ki, dövlət ittihamçısı vəzifəsində işləyərkən elə indiyə qədər mənim qədər müstəqil dövlət ittihamçısı olmayıb.

Cinayət-Prosessual Məcəlləsinin 84-cü maddəsində nəzərdə tutulub ki, dövlət ittihamçısı tam müstəqil bir şəxs olmalıdır. Lakin, o vaxt Baş prokurorun əmrlərinin birində qeyd olunmuşdu ki, dövlət ittihamçısı məhkəmədə çıxış edərkən öz mövqeyini əvvəlcədən dövlət ittihamının müdafiəsi üzrə idarənin və müvafiq şöbənin rəhbərliyi ilə razılaşdırmalıdır. Bilmirəm, bu gün həmin əmr ləğv olunub ya yox, lakin mən hər zaman özüm düşündüyüm qədər, biliyim, savadım mənə imkan verdiyi qədər öz mövqeyimdə qalmışam və obyektiv fikirlərimi səsləndirmişəm. Mən bununla fəxr edirəm. O vaxt mənimlə işləyən hakimlər və vəkillər bunu bu gün də təsdiq edirlər.

2007-ci ildə mən Baş prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinə təyin edildim. O vaxt baş



vermiş ən vacib hadisələrdən birini danışmaq istəyirəm.

Belə ki, Prokurorluqda istintaqa nəzarət idarəsinin ştatı 21 prokurorluq işçisi olduğuna baxmayaraq, o vaxt işçilərin çoxu başqa vəzifələrə keçirilmişdi. İdarədə cəmi 4 nəfər – rəis, məndən başqa iki nəfər işləyirdik. Təyin olunduğum gün idarə rəisi dedi: “Ağstafada qaz yanacaq doldurma məntəqəsi partlayıb, neçə nəfər adam ölüb, Baş prokurorun göstərişinə əsasən təcili ora getmək lazımdı”. Bir nəfər həmkarımla biz gecə ilə Ağstafaya getdik və səhər artıq orada fəaliyyətə başladıq. Lakin idarə rəisi zəng edərək bildirdi ki, Baş prokurorun göstərişinə əsasən, həmkarım



Kamran Əhmədov Ağstafada qalmalı, mən isə Qazaxda göldə tapılan Gürcüstan Respublikası vətəndaşının meyitinin aşkar olmasına görə təcili hadisə yerinə getməliyəm. İki gündən sonra hadisənin baş verdiyi, suvarma işləri ilə bağlı göldə su qurumağa başladı, tapança tapıldı, sonra ikinci meyit aşkar olundu və iş daha da mürəkkəbləşdi. Mən, rayon prokuroru və müstəntiq bir yerdə istintaq aparmağa başladıq.

Onu qeyd etmək istərdim ki, Qazaxdakı həmin cinayət işinin istintaqı zamanı MDB məkanında mən ikinci şəxs olaraq, "telefon billinqi" üslubundan istifadə edərək tamamilə qeyri-aşkar şəraitdə törədilən cinayəti açdım. (Birinci dəfə həmin metoddan Moskvada "Lukoyl" şirkətinin vitse-prezidentinin ölümünün istintaqı zamanı istifadə edilmişdir). Bu işdə o zaman Milli Təhlükəsizlik Nazirliyi də bizə texniki xidmət göstərmişdi.

İş böyük sensasiyaya səbəb olmuşdu və Gürcüstan Respublikası dövlətimizə nota göndərməyə hazırlaşırdı. O zaman Gürcüstan və Rusiyanın əlaqələri pozulduğuna görə Gürcüstan vətəndaşları bizim sərhədlərimizdən tez-tez istifadə edirdi. Elə anlaşılardı ki, Azərbaycanda Gürcüstan vətəndaşlarının kütləvi ölüm hadisələri baş verir. Lakin fəaliyyətimiz nəticəsində həmin cinayəti törədən şəxslər ifşa edilərək cinayət məsuliyyətinə cəlb edildilər.

Baş prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsində prokuror, sonra böyük prokuror-metodist işləyərkən, mən müxtəlif beynəlxalq tədbirlərdə yaxından iştirak etməyə başladım. Məsələn, Avropa Şurası və Avropa İttifaqı tərəfindən birgə təşkil olunmuş işgəncələrlə mübarizə proqramına Cənubi Qafqaz, Moldova və Ukrayna qoşulmuşdu. Həmin proqramla əlaqədar mən dəfələrlə beynəlxalq tədbirlərdə iştirak etmişəm, öz rəy və təkliflərimi irəli sürmüşəm, Azərbaycanın rəsmi mövqeyini çatdırmışam. Əsas da mənfur qonşularımız ermənilər susdurub, onların təcavüzkar ölkə olmasını bildirmişəm.

Onu da qeyd etmək istəyirəm ki, mən Prokurorluqda istintaqa nəzarət idarəsində işləyən zaman rəisim Nazim Abbasovla birgə bir vacib məsələni dəfələrlə müzakirə etmişik. Belə ki, Rusiya Federasiyası Cinayət Məcəlləsindən götürərək, Azərbaycan Respublikası





Cinayət Məcələsinin 133-cü maddəsinin adını "işgəncə" qoymuşdular. Təsəvvür edirsiz beynəlxalq konfranslarda bizə nöqsan olaraq bildirilirdi ki, CM-nin 133-cü maddəsi məişət zəminində olan cinayətdir və hərfi mənası "iztirablar" deməkdir. Beynəlxalq təşkilatlar tərəfindən bu məsələ ilə bağlı Azərbaycana qarşı təzyiqlər olurdu. Həmin "işgəncə" maddəsi BMT-nin 10 dekabr 1984-cü il tarixli Konvensiyasının birinci maddəsinə tamamilə uyğun gəlmirdi. 10 il bu məsələ həll olunmurdu. Nəhayət bizim nümayəndə heyəti Cenevrədə beynəlxalq konfransda iştirak edən zaman CM-nin 133-cü maddəsinə irad bildirilərkən, 133-cü maddənin adını dəyişərək "əzab vermək" adı ilə əvəz edilməsi qərara alındı. Sonradan bu dəyişiklik qanunvericilikdə də öz əksini tapdı.

Mən Bakı şəhər Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsində işləyəndə, dəfələrlə Cinayət-Prosessual Məcəlləsinin 511.1 maddəsində göstərilən haqsızlığı qeyd edirdim. Həmin maddə xəstəliyə görə həkim komissiyasının rəyinə əsasən şəxsin cəza çəkməkdən azad edilməsinə imkan verirdi. Bu imkan uzun müddət cəmiyyətdə narazılığa səbəb olmuşdu. Absurd fikrə qarşı dəfələrlə etirazımı bildirmişəm. İlk dəfə 2006-2007-ci illərdə, dövlət ittihamçısı vəzifəsində işləyərkən, birinci instansiya məhkəməsinin qərarlarından apelyasiya protestləri vermişəm. Lakin hər dəfə məhkəmələr həmin qanun boşluğundan istifadə edərək, həmin maddəni göstərib, protestlərimi təmin etmirdilər.

Buna baxmayaraq mən bu günə qədər də öz fikrimdə qalıram ki, həmin maddədə "həkim komissiyasının rəyi əsasında" sözləri "müstəqil məhkəmə psixiatriya ekspertizasının rəyi əsasında" sözləri ilə əvəz edilməlidir. Bununla da hüquqi və sosial ədalətin bərpa olmasını təklif etmişəm və bu gün də həmin fikirdə qalıram.

**Baş prokurorluğun Elm-Tədris Mərkəzində işlədiyiniz zaman Mərkəzə etdiyiniz töhfə əvəzsizdir. O dövrü necə xatırlayırsız?**

Elm-Tədris Mərkəzində fəaliyyətimə başlayarkən çox savadlı, obyektiv və təşkilatçılıq qabiliyyəti yüksək olan bir rəhbərlə, Nazir Bayramovla işə başladım. Mərkəzdə çox işgüzar bir şərait var idi və orda çox fədakar əməyim oldu. Çoxsaylı metodik vəsaitlər hazırlandı, analitik işlər aparıldı, yeni işə qəbul edilən əməkdaşlar üçün imtahanlar təşkil olundu və s.

Onu demək istəyirəm ki, mən həmin vaxt nəzəri bilik və peşə hazırlığının yoxlanılması üçün imtahan testlərinin hazırlanmasında və həmin imtahanların keçirilməsində də fəal iştirak etmişəm.

Bununla yanaşı, Ədliyyə Akademiyasında və Elm-Tədris Mərkəzində mütəmadi olaraq "Şəxsin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər" mövzusunda müəllifi özüm olduğum vəsaitlə çıxış edirdim. Bu vəsaiti Prokurorluqda istintaqa nəzarət idarəsində işləyən zaman özüm hazırlamışdım. Qeyri-təvazökar olsa da, o, sırf mənim vəsaitimdir və o tarixə də düşməlidir. Əfsuslar olsun ki, mən həmin vəsaitdə adımı qeyd etməmişəm, amma indi onu bərpa etmək istəyirəm. "Cinayət prosesində sübutlar və sübutetmə", "Cinayət prosesində axtarış və götürmə", "Texniki təhlükəsizlik və əməyin mühafizəsi qaydalarının pozulmasına görə məsuliyyət" və s. mövzular üzrə də mühazirələr oxumuşam və bu gün də bu istiqamətdə fəaliyyətimi davam etdirməyə hazıram.

**Son illər ərzində prokurorluğun veteranlarının təşkilatlanmasına, onların müxtəlif ictimai tədbirlərə cəlb edilməsinə necə yanaşırsınız?**

Qeyd etmək istərdim ki, cənab Kamran Əliyev Baş prokuror təyin edildikdən sonra prokurorluqda müsbət dəyişikliklər çoxdur. Gənc kadrlara qiymət verilir, demokratik prinsiplər həyata keçirilir, çox yaxşı işgüzar şərait yaradılır. Baş prokurorluğun aparat işçiləri də gənc olsa da, təcrübəli işçilərdir. Cəmiyyətdə də bu hallar prokurorluq orqanları barədə müsbət fikir formalaşdırır. Beynəlxalq konfranslarda bizə həmişə irad tuturdular ki, bizdə gender hüququna riayət olunmur. Lakin son zamanlar artıq 4 xanım əməkdaş rayon prokuroru təyin edilib, bir neçəsi digər rəhbər vəzifələrdə irəli çəkiliblər.

Veteranların müxtəlif tədbirlərdə iştirakı, bayramlarla bağlı keçirilən tədbirlərin təşkili, şəhid ailələrinə göstərilən diqqət cəmiyyətdə çox yaxşı, müsbət fikir

yaradır. Ona görə mən bu gün Baş prokurorluğun fəaliyyətindən razılığımı bildirmək istəyirəm.

**Təcrübəli prokuror işçisi kimi gənc həmkarlarınıza hansı tövsiyələri vermək istərdiniz?**

Veteran prokuror kimi gənc kadrlara tövsiyəm odur ki, heç bir zaman maddi marağın dalınca qaçmasınlar, işə vicdanla yanaşsınlar. Hər zaman elə çalışsınlar ki, haqq, ədalət zəfər çalsın. Xalqın hörmətini yalnız belə qazanmaq olur. Mən ilk növbədə vicdanımla, Allahımla hərəkət etmişəm və qanunu rəhbər tutmuşam. Heç bir zaman tutduğum obyektiv, demokratik yolumdan dönməmişəm. Mənim həyatda ən böyük şüarım "Şah qanun deyil, qanun şahdır" şüarıdır. Yalnız, vicdanla hərəkət etdikdə, obyektiv olduqda, həm cəmiyyət qarşısında, həm də işlədikləri yerdə hörmət qazanarlar.

**Fərman müəllim, bir daha bu maraqlı, geniş və səmimi müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk.**

**P.S.** *Baş Prokurorluqda Fərman Rzayevin "Şərəfli ömür. Ədalətli prokuror" kitabının təqdimatı ilə bağlı rəy:*

"Azərbaycan Respublikasının Baş Prokurorluğunun Elm-Tədris Mərkəzində Baş Prokurorluğun idarə rəislərinin, təqaüddə olan prokurorluq əməkdaşlarının, respublika hüquq ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə döyüşçü-prokuror Fərman Rzayevin "Şərəfli ömür. Ədalətli prokuror" kitabının təqdimatının keçirilməsi Baş Prokurorluğun diqqəti cəlb edən ənənələrinin davamıdır. Fərman müəllim müstəntiq-prokuror fəaliyyətinə Rusiya Federasiyasının Xabarovsk vilayətində müstəntiqlikdən başlamış və bu təcrübə onun prokuror kimi formalaşmasına əvəzsiz təsirini göstərmişdir. Müstəntiqlik elə bir sənət və fəaliyyətdir ki, geniş bilik və bacarıq tələb edir, cinayətlərin istintaqından kənara çıxır, müxtəlif sahələrdə dərin bilik tələb edən bir çox aspektləri ehtiva edir. Müstəntiq cinayət və cinayət-prosessual qanunvericiliyi yaxşı bilməli, onu təcrübədə tətbiq etməyi bacarmalı, vətəndaşların hüquq və azadlıqlarına riayət olunmasını təmin etməlidir. Müstəntiqin işi yüksək emosional stress, amansızlıq, zorakılıq və kədərlə mübarizə zərurəti ilə əlaqələndirilir ki, bu da müstəntiqdən psixoloji sabitlik və stressin öhdəsindən gəlmək bacarığı, həm də müəyyən şəxsi keyfiyyətlər, məsələn, analitik təfəkkür, ünsiyyətcillik, stressə davamlılıq və yüksək məsuliyyət tələb edir. Fərman müəllim keçən əsrin 90-cı illərində gərgin, ziddiyyətli olan bir dövrdə müstəntiq-prokuror işləmiş, bir çox emosional çətin cinayət işlərinin istintaqına rəhbərlik etmiş və peşəkar müstəntiq-prokuror imici qazanmış az saylı həmvətənlərimizdəndir. Keçmiş SSRİ-də və indi də Rusiya Federasiyasında peşəkar müstəntiq-prokuror imicini qazanmaq kifayət qədər çətindir və daha böyük bilik, yüksək hüquqi dil qabiliyyəti tələb edir. Fərman müəllim vətənpərvər bir insandır. Xabarovsk vilayətində, Rusiyada peşəkar prokuror imici qazandığı, geniş karyera imkanlarının onu gözlədiyi bir dövrdə keçən əsrin 90-cı illərində müstəqillik əldə etmiş vətəninə-Azərbaycana qayıtdı və prokurorluq orqanlarında gərgin işə başladı. Bəzən, vətənpərvərliklər var ki, aşkarlıqdan, ictimai qiymətləndirmədən kənarda qalır, ancaq konkret şəxslərin taleyinə toxunan humanist, xeyirxah bir fəaliyyətdir. Fərman müəllim Azərbaycandan kənarda keçmiş SSRİ məkanında müəyyən şəxsi nüfuzu olan şəxslərdən biridir və bu imkanlarından alicənablıqla istifadə edir, problemi olan insanlara köməyini əsirgəmir.

Fərman müəllim elmi-hüquqi və bədii-publisist aspektləri birləşdirən bir yazardır. O, prokurorluq orqanlarında fəaliyyəti zamanı müxtəlif beynəlxalq konfranslarda iştirak etmiş, hüquqi problemlərə elmi-təcrübi yanşması ilə fərqlənmişdir. Qanunverciliyin təkmilləşdirilməsi ilə bağlı tədqiqatlarını indi də davam etdirir.



Təqdimatı keçirilən kitab məşhur bir ziyalı nəslin nümayəndəsinin həmin nəslin ənənələrinə uyğun olan fəaliyyətinə həsr olunaraq, müəyyən mənada bioqrafik xarakter daşısa da, kitabda Fərman müəllimin prokuror kimi formalaşmasının tarixi şəraiti, şəxsi keyfiyyətlərin prokurorluq işçisi üçün vacibliyi, ölkədə keçirilən hüquq islahatları barədə geniş məlumatlar əldə etmək mümkündür. Həmçinin kitabda Fərman müəllimi yaxından tanıyan prokurorlar, ziyalılar onun fəaliyyətini xarakterizə edirlər və hər bir yanaşma onun yeni-yeni keyfiyyətlərinə diqqəti cəlb edir.

Fərman Rzayev hazırda təqaüddədir. Ancaq fəaliyyətini davam etdirir."

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189, № 12 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddə 1; Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 114-VIIQD və 115-VIIQD nömrəli, 2025-ci il 28 fevral tarixli 143-VIIQD nömrəli və 7 mart tarixli 153-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 156.2.2-ci maddədə "məsafədən idarə edilən pilotsuz uçan aparatlardan" sözləri "pilotsuz uçuş aparatlarından" sözləri ilə əvəz edilsin;

**1.2.** 262.1-ci maddənin dispozisiyasına "hava nəqliyyatının" sözlərindən sonra ", yaxud pilotsuz uçuş aparatının və ya hava nəqliyyatı qismində istifadə təyinatı olmayan digər hava gəmisinin" sözləri əlavə edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280, № 12 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddələr 1, 15; Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 115-VIIQD nömrəli, 2025-ci il 14 fevral tarixli 138-VIIQD nömrəli və 28 fevral tarixli 143-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 27.3-cü maddəyə "327.8," rəqəmlərindən sonra "327-1.2, 327-1.3," rəqəmləri əlavə edilsin;

**2.2.** 28.4.1-ci maddədə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

**2.3.** 30.2-ci maddədə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər" sözləri "əlilliyi olan uşaqlar" sözləri ilə əvəz edilsin;

**2.4.** 38.1-ci maddənin ikinci cümləsində "maliyyə, vergilərin və rüsumların ödənilməsi" sözləri "vergilərin, rüsumların ödənilməsi, maliyyə və sığorta" sözləri ilə əvəz edilsin və həmin cümləyə "əmək qanunvericiliyinin" sözlərindən sonra ", o cümlədən əməyin mühafizəsi qaydalarının, istehsalatda baş verən bədbəxt hadisələrin araşdırılması və uçota alınması qaydalarının" sözləri əlavə edilsin;

**2.5.** 43.1-ci maddəyə "275.5," rəqəmlərindən sonra "279.2, 279.3," rəqəmləri, "290.3," rəqəmlərindən sonra "294-5.5, 294-6," rəqəmləri, "296.2," rəqəmlərindən sonra "300.1, 302, 304," rəqəmləri, "327.8," rəqəmlərindən sonra "327-1.2, 327-1.3," rəqəmləri, "428.10," rəqəmlərindən sonra "428.12," rəqəmləri əlavə edilsin və həmin maddədən "295.7," və "440.3," rəqəmləri çıxarılsın;

**2.6.** 81-1.1-ci maddədə "469.2-ci" sözləri "469-1-ci" sözləri ilə əvəz edilsin;

**2.7.** 102.1-ci maddəyə "232-1-ci," sözlərindən sonra "300.1-ci, 302-ci, 304-cü," sözləri əlavə edilsin;

**2.8.** 116.1-ci maddəyə "Məcəllənin" sözündən sonra "192.2, 192.4," rəqəmləri əlavə edilsin və həmin maddədə "279.0.1" rəqəmləri "279.1.1" rəqəmləri ilə əvəz edilsin;

**2.9.** 122.1-ci maddənin birinci cümləsinə və 122.4-cü maddəyə "328" rəqəmlərindən əvvəl "327-1.1," rəqəmləri əlavə edilsin;

**2.10.** 127-3-cü maddədə və 127-4.1-ci maddənin birinci cümləsində "469.2-ci" sözləri "469-1-ci" sözləri ilə əvəz edilsin;

**2.11.** 192.4-cü maddənin dispozisiyasında "hesablanmasında və ödənilməsində, riyazi hesablamalar nəticəsində yol verilən nöqsanlar istisna olmaqla, qanun pozuntularına yol verilməsinə" sözləri "əmək qanunvericiliyinə uyğun olaraq ödənilməməsinə və ya tam ödənilməməsinə" sözləri ilə əvəz edilsin;

**2.12.** 198.1.5-ci maddəyə "riayət edilməməsinə" sözlərindən sonra ", o cümlədən əmək qanunvericiliyinin tələbləri pozulmaqla işçinin iş vaxtından artıq işlərə cəlb edilməsinə" sözləri əlavə edilsin;

**2.13.** 276-1-ci maddənin adına və dispozisiyasına "dövlət" sözündən əvvəl "vahid" sözü əlavə edilsin;

**2.14.** 279-cu maddə üzrə:

**2.14.1.** 279.0, 279.0.1 – 279.0.7-ci maddələr müvafiq olaraq 279.1, 279.1.1 – 279.1.7-ci maddələr hesab edilsin;

**2.14.2.** aşağıdakı məzmunda 279.2-ci və 279.3-cü maddələr əlavə edilsin:

**"279.2.** İstehsal proseslərində və əsas məqsədi işıqlandırma olmayan məhsullarda xüsusi istifadəsi nəzərdə tutulan közərmə lampaları istisna olmaqla, dəyişən cərəyan dövrəsində işıqlandırma məqsədilə istifadə edilə bilən 25 Vt və daha yuxarı gücə malik olan elektrik közərmə lampalarının idxalına, istehsalına və ya satışına görə –

inzibati xətanın bilavasitə obyekti olan elektrik közərmə lampaları müsadirə edilməklə, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə,

hüquqi şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.

**279.3.** Bu Məcəllənin 279.2-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə –

inzibati xətanın bilavasitə obyekti olan elektrik közərmə lampaları müsadirə edilməklə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cərimə edilir.";

**2.15.** 293-cü maddə üzrə:

**2.15.1.** 293.1-ci maddənin dispozisiyasından "və ya müvafiq icazə olmadan pirotexnik məmulat yandırılmasına, yaxud hava gəmilərinin uçuşları üçün təhlükəli quşların kütləvi toplanmasına kömək edən obyektlər qurulmasına" sözləri çıxarılsın;

**2.15.2.** aşağıdakı məzmunda 293.1-1-ci maddə əlavə edilsin:

**PROKURORLUĞUN VETERANLARI**

**"293.1-1.** Müvafiq icazə olmadan pirotexnik məmulat yandırılmasına, yaxud hava gəmilərinin uçuşları üçün təhlükəli quşların kütləvi toplanmasına kömək edən obyektlər qurulmasına görə –

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər on min manat məbləğində cərimə edilir.";

**2.15.3.** 293.2-ci maddə üzrə:

**2.15.3.1.** dispozisiyaya "digər" sözündən sonra "belə" sözü əlavə edilsin;

**2.15.3.2.** sanksiya aşağıdakı redaksiyada verilsin:

"fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər on min manat məbləğində cərimə edilir.";

**2.15.4.** 293.6-cı maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**"293.6.** İcazə olmadan Azərbaycan Respublikasının hava məkanında hava gəmisinin səsdən iti sürətlə uçmasına görə –";

**2.15.5.** aşağıdakı məzmunda 293.7 – 293.12-ci maddələr əlavə edilsin:

**"293.7.** Müntəzəm və qeyri-müntəzəm (çarter) marşrutlara icazə olmadan uçuşların həyata keçirilməsinə görə –

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər on min manat məbləğində cərimə edilir.

**293.8.** Kommersiya uçuşlarının həyata keçirilməsi zamanı istismar tələblərinə uyğun olmayan sınaqların və qəza şəraitinin imitasiyasının aparılmasına görə –

fiziki şəxslər dörd min manat məbləğində, vəzifəli şəxslər səkkiz min manat məbləğində, hüquqi şəxslər iyirmi min manat məbləğində cərimə edilir.

**293.9.** Təlim və sınaq uçuşları istisna olmaqla, uçuş zamanı sistemlərin, mühərrikin və avadanlığın sıradan çıxması hallarının imitasiya edilməsinə görə –

fiziki şəxslər dörd min manat məbləğində, vəzifəli şəxslər səkkiz min manat məbləğində, hüquqi şəxslər iyirmi min manat məbləğində cərimə edilir.

**293.10.** Hava gəmisinin istismarçıları, aerodrom istismarçıları, hava gəmisinin istismarçılarına xidmət göstərən texniki xidmət təşkilatları, o cümlədən hava hərəkəti xidmətlərini təmin edən təchizatçı tərəfindən uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin yaradılmamasına və ya fəaliyyətinin təmin edilməməsinə görə –

fiziki şəxslər iki min manat məbləğində, vəzifəli şəxslər altı min manat məbləğində, hüquqi şəxslər səkkiz min manatdan on min manatadək məbləğdə cərimə edilir.

**293.11.** Uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatlar üzrə qeydlərin, səs yazılarının, sənədlərin qorunub saxlanılmamasına və kənar müdaxilədən mühafizə edilməməsinə görə –

altı yüz manat məbləğində cərimə edilir.

**293.12.** Heyət üzvü uçuşdan əvvəl alkoqollu içki, narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarını və ya uçuşların təhlükəsizliyinə təsir göstərə bilən dərman vasitələrini qəbul etdikdə, yaxud heyət üzvünün siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən xəstəliyi olduqda hava gəmisinin bortunda vəzifəsini icra etməsinə görə –

üç min manat məbləğində cərimə edilir.";

**2.16.** 294-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 294. Aviasiya hadisəsinin və ya insidentinin baş verdiyi yerdə aşkar edilən hava gəmisinin hər hansı elementinin, yaxud onun daşıdığı əşyaların (yükün, baqajın) yığışdırılması və ya götürülməsi**

"Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş razılıq olmadan aviasiya hadisəsinin və ya insidentinin baş verdiyi yerdə aşkar edilən hava gəmisinin hər hansı elementinin, yaxud onun daşıdığı əşyaların (yükün, baqajın) yığışdırılmasına və ya götürülməsinə görə –

altı yüz manat məbləğində cərimə edilir.";

**2.17.** aşağıdakı məzmunda 294-1 – 294-6-cı maddələr əlavə edilsin:

**"Maddə 294-1. Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyanın fəaliyyətinə müdaxilə etmə**

Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyanın fəaliyyətinə, o cümlədən aviasiya hadisələrinin və ya insidentlərinin araşdırılmasına və araşdırmanın nəticələrinə dair hesabatın tərtib edilməsinə müdaxilə olunmasına görə –

fiziki şəxslər min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər on min manat məbləğində cərimə edilir.

**Maddə 294-2. Aviasiya personalına dair tələblərin pozulması**

**294-2.1.** Şəhadətnamə, vəsiqə və sertifikata malik olmayan və ya digər dövlətdə verilən, müvafiq qaydada tanınmalı olan analoji sənədə malik olmayan şəxslərin

mülki aviasiya personalı qismində fəaliyyət göstərməsinə görə –

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər iyirmi min manat məbləğində cərimə edilir.

294-2.2. Hava gəmilərinin uçuş və kabinə heyətlərinin, habelə aeronaviqasiya xidmətlərinin təmin edilməsinə cəlb olunan havada hərəkəti idarəetmə dispetçerlərinin ixtisaslarına uyğun müvafiq təlim, hazırlıq və tibbi yoxlamadan keçirilməsinin təmin edilməməsinə görə –

fiziki şəxslər dörd min manat məbləğində, vəzifəli şəxslər səkkiz min manat məbləğində, hüquqi şəxslər otuz min manat məbləğində cərimə edilir.

**Maddə 294-3. Mülki pilotsuz uçuş aparatı sistemlərinin istismarına dair ümumi tələblərin pozulması**

**294-3.1.** Müvafiq icazə alınmadan model pilotsuz uçuş aparatı klubu və ya assosiasiyasının fəaliyyət göstərməsinə görə –

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər səkkiz min manat məbləğində cərimə edilir.

**294-3.2.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı mərkəzin icazəsi olmadan nəzarət olunan hava məkanında və aerodromyanı ərazidə mülki pilotsuz uçuş aparatı sistemləri əməliyyatlarının həyata keçirilməsinə görə –

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər yeddi min manat məbləğində, hüquqi şəxslər on beş min manat məbləğində cərimə edilir.

**294-3.3.** Məsafədən idarə edən pilotun (operatorun) əməliyyatın dayandırılması və ya dəyişdirilməsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı mərkəzin verdiyi göstərişi dərhal yerinə yetirməməsinə görə –

fiziki şəxslər dörd min manat məbləğində, vəzifəli şəxslər yeddi min manat məbləğində, hüquqi şəxslər on yeddi min manat məbləğində cərimə edilir.

**Maddə 294-4. Mülki aviasiya sahəsində sığorta tələblərinə əməl edilməməsi**

**294-4.1.** Bu Məcəllənin 294-4.2-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla, hava gəmisi istismarçılarının hava gəmilərini və onların istismarı ilə əlaqədar vurulan zərərə görə öz məsuliyyətini sığortalamadan hava gəmisindən istifadə etməsinə görə –

fiziki şəxslər beş min manat məbləğində, vəzifəli şəxslər on min manat məbləğində, hüquqi şəxslər əlli min manat məbləğində cərimə edilir.

**294-4.2.** Pilotsuz uçuş aparatı istismarçılarının pilotsuz uçuş aparatını və onun istismarı ilə əlaqədar vurulan zərərə görə öz məsuliyyətini sığortalamadan pilotsuz uçuş aparatından istifadə etməsinə görə –

fiziki şəxslər üç min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər on min manat məbləğində cərimə edilir.

**Maddə 294-5. Mülki aviasiya sahəsində sertifikatlaşdırılma ilə bağlı tələblərə əməl edilməməsi**

**294-5.1.** Aviasiya personalının peşəyə yararlılığının müəyyən edilməsinin sertifikatlaşdırılmayan tibb müəssisələri və onların əməkdaşları tərəfindən həyata keçirilməsinə görə –

vəzifəli şəxslər beş min manatdan səkkiz min manatadək məbləğdə, hüquqi şəxslər iyirmi min manatdan otuz min manatadək məbləğdə cərimə edilir.

**294-5.2.** Mülki hava limanları və (və ya) aerodromlar, habelə helikopter meydançalarının sertifikatlaşdırılmadan istismarına görə –

fiziki şəxslər üç min manatdan dörd min manatadək məbləğdə, vəzifəli şəxslər yeddi min manatdan doqquz min manatadək məbləğdə, hüquqi şəxslər iyirmi min manatdan qırx min manatadək məbləğdə cərimə edilir.

**294-5.3.** Hava hərəkəti xidmətlərini təmin edən təchizatçıların, habelə sistemlərin, onların tərkib hissələrinin layihələndirilməsinə, istehsalına və ya texniki xidmətinə cəlb olunan təşkilatların sertifikatlaşdırılmadan fəaliyyət göstərməsinə görə –

vəzifəli şəxslər yeddi min manatdan doqquz min manatadək məbləğdə, hüquqi şəxslər iyirmi min manatdan qırx min manatadək məbləğdə cərimə edilir.

**294-5.4.** Mülki hava gəmilərinə texniki xidmət göstərən təşkilatların və ya mülki hava gəmilərinin və onların komponentlərinin uçuşa yararlılığının saxlanılmasını idarə edən təşkilatların sertifikatlaşdırılmadan fəaliyyət göstərməsinə görə –

vəzifəli şəxslər yeddi min manatdan doqquz min manatadək məbləğdə, hüquqi şəxslər iyirmi min manatdan qırx min manatadək məbləğdə cərimə edilir.

**294-5.5.** Sertifikatlaşdırılmamış aviasiya avadanlıqlarından və vasitələrindən istifadəyə görə –

avadanlıqlar və vasitələr müsadirə edilməklə və ya edilməməklə, fiziki şəxslər iki min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər əlli min manat məbləğində cərimə edilir.

**Maddə 294-6. Hava gəmilərinin istismar qaydalarının pozulması**

Yerinə yetirdiyi işlə və ya tutduğu vəzifə ilə əlaqədar hava gəmilərinin hərəkət təhlükəsizliyi və istismarı qaydalarına riayət etməyə borclu olan şəxs tərəfindən həmin qaydaların pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına yüngül zərər vurulmasına səbəb olduqda –

beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on gündən iyirmi günədək müddətə inzibati həbs tətbiq olunur.";

**2.18.** 295-ci maddə üzrə:

**2.18.1.** 295.1-ci maddə üzrə:

**2.18.1.1.** dispozisiyada "Aeroportun" sözü "Hava limanının (aeroportun)" sözləri ilə əvəz edilsin;

**2.18.1.2.** sanksiya aşağıdakı redaksiyada verilsin:

"fiziki şəxslər beş yüz manat məbləğində, vəzifəli şəxslər iki min manat məbləğində, hüquqi şəxslər beş min manat məbləğində cərimə edilir.";

**2.18.2.** 295.4-cü maddənin sanksiyası aşağıdakı

redaksiyada verilsin:

"fiziki şəxslər beş yüz manat məbləğində, vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər üç min manat məbləğində cərimə edilir.";

**2.18.3.** 295.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

**"295.6.** Hava gəmilərinin istismarçıları tərəfindən hava gəmisinin sərnişin və heyət üzvlərinə dair ilkin məlumatların və sərnişin adlarının qeydiyyat məlumatlarının sərnişin məlumatlarına dair "bir pəncərə" sistemi vasitəsilə real vaxt rejimində elektron formada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) ötürülməməsinə görə –

fiziki şəxslər iki min manat məbləğində, vəzifəli şəxslər beş min manat məbləğində, hüquqi şəxslər iyirmi min manat məbləğində cərimə edilir.";

**2.18.4.** 295.7-ci maddə ləğv edilsin;

**2.18.5.** aşağıdakı məzmunda 295.8-ci maddə əlavə edilsin:

**"295.8.** Azərbaycan Respublikasına mənsub hava gəmilərinin dövlət qeydiyyatına, xarici dövlətə mənsub hava gəmilərinin dövlət uçotuna alınmadan istismarına görə –

fiziki şəxslər beş min manat məbləğində, vəzifəli şəxslər on min manat məbləğində, hüquqi şəxslər əlli min manat məbləğində cərimə edilir.";

**2.19.** 296-cı maddə üzrə:

**2.19.1.** adında "maddələr və predmetlər" sözləri "yüklər, hərbi silah və sursatlar" sözləri ilə əvəz edilsin;

**2.19.2.** 296.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"296.2.** Təhlükəli yüklərin, hərbi silah və sursatların daşınma qaydalarının pozulmasına görə –

təhlükəli yüklər, hərbi silah və sursatlar müsadirə edilməklə və ya edilməməklə, fiziki şəxslər iki yüz əlli manat məbləğində, vəzifəli şəxslər beş yüz manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.";

**2.19.3.** aşağıdakı məzmunda 296.3-cü və 296.4-cü maddələr əlavə edilsin:

**"296.3.** Radioaktiv tullantıların, yenidən istifadəyə yararlı işlənmiş nüvə yanacağının, qanunvericiliklə müəyyən edilən siyahıya müvafiq toksik və digər təhlükəli tullantıların, digər radioaktiv maddələr və nüvə materiallarının, təkrar istifadə edilə bilinməyən qeyri-toksik tullantıların, habelə istifadəsi və təkrar istifadə texnologiyası ekoloji təhlükə yaradan maddələrin hava yolu ilə daşınmasına görə –

fiziki şəxslər dörd min manat məbləğində, vəzifəli şəxslər səkkiz min manat məbləğində, hüquqi şəxslər on beş min manat məbləğində cərimə edilir.

**296.4.** Təhlükəli yüklərin daşınması ilə bağlı hazırlıq keçməyən personalın təhlükəli yüklərin hava yolu ilə daşınmasına cəlb edilməsinə görə –

fiziki şəxslər min beş yüz manat məbləğində, vəzifəli şəxslər üç min manat məbləğində, hüquqi şəxslər on min manat məbləğində cərimə edilir.";

**2.20.** 298-ci maddə üzrə:

**2.20.1.** 298.1-ci maddə üzrə:

**2.20.1.1.** dispozisiyaya "yaxud" sözündən əvvəl "komanda verən pilotun," sözləri əlavə edilsin;

**2.20.1.2.** sanksiyaya "yüz" sözündən əvvəl "beş" sözü əlavə edilsin;

**2.20.2.** 298.2-ci maddənin sanksiyasına "yüz" sözündən əvvəl "beş" sözü əlavə edilsin;

**2.20.3.** 298.3-cü maddənin sanksiyasında "iki" sözü "beş" sözü ilə əvəz edilsin;

**2.21.** 299-cu maddənin sanksiyasına "yüz" sözündən əvvəl "beş" sözü əlavə edilsin;

**2.22.** 300-cü maddə üzrə:

**2.22.1.** 300.1-ci maddə üzrə:

**2.22.1.1.** dispozisiyadan "qardan" və "siqnalizasiya və rabitə" sözləri çıxarılsın;

**2.22.1.2.** sanksiyada "yüz əlli manat məbləğində" sözləri "inzibati xəta nəticəsində vurulmuş ziyanın bir mislindən iki mislinədək miqdarda" sözləri ilə əvəz edilsin;

**2.22.2.** 300.2-ci maddənin sanksiyasında "otuz" sözü "altmış" sözü ilə əvəz edilsin və həmin maddənin sanksiyasına "yüz" sözündən əvvəl "iki" sözü əlavə edilsin;

**2.22.3.** 300.3-cü maddənin sanksiyasında "iki" sözü "dörd" sözü ilə əvəz edilsin;

**2.23.** 301.1-ci maddənin sanksiyasında "əlli" sözü "yüz" sözü ilə əvəz edilsin;

**2.24.** 302-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 302. Dəmir yolu nəqliyyatı vasitələrinin və daxili avadanlığının zədələnməsi**

Dəmir yolu nəqliyyatı vasitələrinin və daxili avadanlığının zədələnməsinə görə –

inzibati xəta nəticəsində vurulmuş ziyanın bir mislindən iki mislinədək miqdarda cərimə edilir.";

**2.25.** 304-cü maddə üzrə:

**2.25.1.** 304.1-ci maddənin sanksiyasında "yüz manat məbləğində" sözləri "inzibati xəta nəticəsində vurulmuş ziyanın bir mislindən iki mislinədək miqdarda" sözləri ilə əvəz edilsin;

**2.25.2.** 304.2-ci maddənin sanksiyasında "yüz əlli manat məbləğində" sözləri "inzibati xəta nəticəsində vurulmuş ziyanın bir mislindən iki mislinədək miqdarda" sözləri ilə əvəz edilsin;

**2.26.** 319.4-cü maddənin dispozisiyasına "biletsiz" sözündən sonra "və ya müvafiq qaydada ödəniş etmədən" sözləri əlavə edilsin;

**2.27.** 320.4-cü maddə üzrə:

**2.27.1.** dispozisiyaya "biletsiz" sözündən sonra "və ya müvafiq qaydada ödəniş edilmədən" sözləri əlavə edilsin;

**2.27.2.** sanksiyada "qırx" sözü "səksən" sözü ilə əvəz edilsin;

**2.28.** 327-ci maddə üzrə:

**2.28.1.** 327.3-cü maddənin dispozisiyasında "Dəmiryol keçidlərindən keçmə qaydalarının pozulmasına və ya nəqliyyat vasitələrinin dəmir yollarını dəmiryol keçidlərindən kənar yerlərdən keçməsinə, yaxud müvafiq" sözləri "Müvafiq" sözü ilə əvəz edilsin;

**2.28.2.** 327.7-ci maddənin dispozisiyasına "327.8," rəqəmlərindən sonra "327-1.1, 327-1.3," rəqəmləri əlavə edilsin;

**2.28.3.** "Qeyd" hissəsi üzrə:

**2.28.3.1.** 1-ci bəndə "328.4" rəqəmlərindən əvvəl "327-1.1," rəqəmləri əlavə edilsin;

**2.28.3.2.** 5-ci bəndə "327.8," rəqəmlərindən sonra "327-1.3," rəqəmləri əlavə edilsin;

**2.29.** aşağıdakı məzmunda 327-1-ci maddə əlavə edilsin:

**"Maddə 327-1. Nəqliyyat vasitələrinin sürücüləri tərəfindən dəmiryol keçidlərindən keçmə ilə bağlı qaydaların pozulması**

**327-1.1.** Dəmiryol keçidlərindən keçmə qaydalarının pozulmasına və ya nəqliyyat vasitələrinin dəmir yollarını dəmiryol keçidlərindən kənar yerlərdən keçməsinə görə –

iki yüz manat məbləğində cərimə edilir.

**327-1.2.** Bu Məcəllənin 327-1.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə –

nəqliyyat vasitəsini idarə etmək hüququ üç aydan altı ayadək müddətə məhdudlaşdırılır.

**327-1.3.** Bu Məcəllənin 327-1.1-ci maddəsində nəzərdə tutulmuş xəta nəticəsində zərər çəkmiş şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə görə –

üç yüz manat məbləğində cərimə edilir və ya nəqliyyat vasitəsini idarə etmək hüququ altı aydan bir ilədək müddətə məhdudlaşdırılır.";

**2.30.** 338-ci maddə üzrə:

**2.30.1.** 338.2-ci maddənin dispozisiyasından ", dəmiryol keçidinin" sözləri çıxarılsın;

**2.30.2.** aşağıdakı məzmunda 338.2-2-ci maddə əlavə edilsin:

**"338.2-2.** Piyadalar tərəfindən dəmir yolunun piyadaların keçməsi üçün müəyyən edilmiş yerlərdən kənar keçilməsinə görə –

qırx manat məbləğində cərimə edilir.";

**2.30.3.** 338.5-ci maddənin sanksiyasında "qırx" sözü "səksən" sözü ilə əvəz edilsin;

**2.31.** aşağıdakı məzmunda 403-1-ci və 403-2-ci maddələr əlavə edilsin:

**"Maddə 403-1. Hüquqi şəxsin benefisiar mülkiyyətçisi barədə məlumatların və sənədlərin təqdim edilməməsi**

**403-1.1.** Hüquqi şəxsin benefisiar mülkiyyətçisi barədə məlumatların təqdim edilməməsinə, yəni:

**403-1.1.1.** hüquqi şəxsin, habelə xarici hüquqi şəxsin nümayəndəlik və ya filialına münasibətdə xarici hüquqi şəxsin benefisiar mülkiyyətçisi ilə bağlı dürüst, dəqiq və yenilənmiş məlumatların "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş hallarda və qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməməsinə;

**403-1.1.2.** hüquqi şəxs, habelə xarici hüquqi şəxsin nümayəndəlik və filialı tərəfindən benefisiar mülkiyyətçisi barədə məlumatların qanunla müəyyən edilmiş mərhələlər üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməməsinə görə –

vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə edilir.

**403-1.2.** Hüquqi şəxsin benefisiar mülkiyyətçisi ilə bağlı təsdiqedici sənədlərin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş müddət ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməməsinə görə –

vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə edilir.

**Maddə 403-2. Benefisiar mülkiyyətçinin hüquqi şəxslərin dövlət reyestri məlumatlarında dəyişiklik barədə məlumatlandırılmaması**

Benefisiar mülkiyyətçinin özü barədə hüquqi şəxslərin dövlət reyestri məlumatlarında dəyişiklik edilməsi ilə bağlı hüquqi şəxs tərəfindən məlumatlandırılmamasına görə –

vəzifəli şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, hüquqi şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə cərimə edilir.";

**2.32.** 428-ci maddə üzrə:

**2.32.1.** 428.2-ci maddənin dispozisiyasında "yaxud "reklam hüququ əsasında" sözləri ", "reklam hüququ əsasında", "sponsorluq" və ya "tərəfdaşlıq" sözləri ilə əvəz edilsin;

**2.32.2.** 428.3-cü maddənin dispozisiyasına "reklam istehsalçısına" sözlərindən sonra ", rəqəmsal platforma təsirçisinə" sözləri əlavə edilsin;

**2.32.3.** aşağıdakı məzmunda 428.12-ci maddə əlavə edilsin:

**"428.12.** Bu Məcəllənin 428.1 – 428.4-1-ci, 428.6-cı və 428.10-cu maddələrində nəzərdə tutulmuş əməllərin rəqəmsal platforma təsirçisi tərəfindən törədilməsinə görə –

vəzifəli şəxslər yeddi yüz əlli manatdan min iki yüz əlli manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan dörd min manatadək məbləğdə cərimə edilir.";

**2.33.** 440.3-cü maddə ləğv edilsin;

**2.34.** 469-cu maddə üzrə:

**2.34.1.** 469.1-ci maddənin dispozisiyasında "469.2-ci və 469.3-cü" sözləri "469.3-cü və 469-1-ci" sözləri ilə əvəz edilsin;

**2.34.2.** 469.2-ci maddə ləğv edilsin;

**2.35.** aşağıdakı məzmunda 469-1-ci maddə əlavə edilsin:

**"Maddə 469-1. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari**

**sığortalanmanın təmin edilməməsi**

"İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən hər bir işçinin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanmamasına, o cümlədən müvafiq riskləri icbari qaydada sığorta etdirmək vəzifəsi müəyyən edilmiş fiziki və ya hüquqi şəxslər tərəfindən sığortaçı ilə icbari sığorta müqaviləsinin bağlanmamasına görə –

vəzifəli şəxslər min beş yüz manat məbləğində, hüquqi şəxslər beş min manat məbləğində cərimə edilir.

**Qeyd:**

Şəxs bu maddədə nəzərdə tutulmuş inzibati xətaya görə inzibati məsuliyyətə cəlb olunduqda, 20 gün ərzində xeyrinə icbari sığorta müqaviləsi bağlanmalı olan şəxsin icbari sığortalanmasını təmin etməlidir. Bu müddətdə şəxs həmin əməlin törədilməsinə görə təkrarən inzibati məsuliyyətə cəlb olunmur.";

**2.36.** 534-cü maddənin sanksiyasında "üç yüz manatdan beş yüz" sözləri "səkkiz yüz manatdan min" sözləri ilə əvəz edilsin;

**2.37.** aşağıdakı məzmunda 534-1-ci maddə əlavə edilsin:

**"Maddə 534-1. Həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılarkən hərbi geyim formasını daşımaq hüququ verilmiş şəxsin hərbi geyim formasını qanunla nəzərdə tutulmamış hallarda daşıması**

Həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılarkən hərbi geyim formasını daşımaq hüququ verilmiş şəxsin hərbi geyim formasını qanunla nəzərdə tutulmamış hallarda daşımasına görə –

beş yüz manatdan yeddi yüz manatadək məbləğdə cərimə edilir.";

**2.38.** 539-cu maddə üzrə:

**2.38.1.** adında "qərarlarının və göstərişlərinin yerinə yetirilməməsi" sözləri "fəaliyyətinə mane olma" sözləri ilə əvəz edilsin;

**2.38.2.** 539.1-1-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**"539.1-1.** Əmək müqaviləsinin bağlanması, dəyişdirilməsi və xitamının əsasları və sənədləşdirilməsi, kollektiv müqavilənin (sazişin) bağlanması və yerinə yetirilməsi, əmək şəraiti, işçilərin və iş yerlərinin attestasiyasının keçirilməsi, iş və istirahət vaxtı, məzuniyyət hüququnun həyata keçirilməsi, əmək və məzuniyyət haqlarının, ezamiyyə xərclərinin, müavinət və digər ödənişlərin ödənilməsi, qadınların və yaşı 18-dən az olan işçilərin əməyindən istifadənin xüsusiyyətləri, işçilərin sığorta olunmasının tənzimlənməsi, əməyin mühafizəsi norma və qaydaları ilə bağlı əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının icrası məcburi olan göstərişinin əmək münasibətlərinin iştirakçıları tərəfindən icra edilməməsinə görə –";

**2.38.3.** aşağıdakı məzmunda 539.3-cü maddə əlavə edilsin:

**"539.3.** Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının tələbi ilə bu Məcəllənin 539.1-1-ci maddəsində nəzərdə tutulan hallarla bağlı zəruri olan məlumatların (sənədlərin) təqdim edilməməsinə, yaxud tam, düzgün və ya vaxtında təqdim edilməməsinə (sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerlərə gəlməklə aparılan yoxlamalara münasibətdə bu Məcəllənin 602.4-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) görə –

vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.";

**2.39.** 555-ci maddə üzrə:

**2.39.1.** 555.1-ci və 555.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"555.1.** İşəgötürən tərəfindən istehsalatda baş verən bədbəxt hadisənin baş vermə faktının gizlədilməsinə və ya bədbəxt hadisənin araşdırılması üçün hadisə baş verən gün əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanına məlumatın verilməməsinə görə –

min manatdan iki min iki yüz manatadək məbləğdə cərimə edilir.

**555.2.** Bədbəxt hadisənin araşdırılması başa çatdıqdan sonra işəgötürən tərəfindən bir gündən gec olmayaraq müvafiq akt tərtib edilməməsinə və ya aparılan araşdırma barədə müvafiq akt tərtib etməkdən boyun qaçırılmasına görə –

min beş yüz manatdan iki min iki yüz manatadək məbləğdə cərimə edilir.";

**2.39.2.** 555.3-cü maddə ləğv edilsin;

**2.40.** aşağıdakı məzmunda 602-1.6-cı maddə əlavə edilsin:

**"602-1.6.** Lisenziya sahibinin lisenziyanın şərtlərinə riayət etməsinə nəzarət edən orqanlar tərəfindən "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 1 nömrəli əlavəsində nəzərdə tutulmuş fəaliyyət növlərinin həyata keçirilməsi zamanı lisenziyanın sahibi tərəfindən Azərbaycan Respublikası qanunlarının tələblərinə və lisenziyanın şərtlərinə riayət edilmədikdə və həmin Qanunun 25.1.2-ci maddəsində müəyyən edilən göstərişlər yerinə yetirilmədikdə, lisenziyanın dayandırılması və ləğvi üçün lisenziya verən orqana əsaslandırılmış təqdimatın göndərilməməsinə görə –

vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.".

**Maddə 3.** Bu Qanunun 2.5-ci, 2.8-ci və 2.14-cü maddələrində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 279-cu maddəsi ilə bağlı nəzərdə tutulmuş dəyişikliklər 60 Vt və daha yuxarı gücə malik olan közərmə lampalarına münasibətdə 2026-cı il yanvarın 1-dən, 25 Vt-dan (25 Vt daxil olmaqla) 60 Vt-a qədər gücə malik olan közərmə lampalarına münasibətdə 2026-cı il iyulun 1-dən qüvvəyə minir.

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 11 aprel 2025-ci il
№ 178-VIIQD

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci, 6-cı və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4, № 4, maddələr 362, 365, 368, № 6 (I kitab), maddə 631; 2025, № 1, maddə 1, № 2, maddə 98; Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 147-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 68.3-cü maddəyə "məhkəmələr" sözündən sonra "həmçinin məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara, habelə" sözləri əlavə edilsin;

**1.2.** 214.4-cü maddədə "188" rəqəmləri "188.1" rəqəmləri ilə əvəz edilsin və həmin maddədən "259.1," rəqəmləri çıxarılsın;

**1.3.** aşağıdakı məzmunda 214.4-1-ci maddə əlavə edilsin:

**"214.4-1.** Müvafiq icra hakimiyyəti orqanına aid hərbi hissələrin və hərbi idarələrin ərazisində həmin orqanın hərbi qulluqçuları tərəfindən törədilmiş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 329.1, 330.1, 332.1, 332.1-1, 333.1–333.3, 350.1, 350.1-1 və 351.1-ci maddələri ilə nəzərdə tutulan böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə müvafiq icra hakimiyyəti orqanının təhqiqatçıları tərəfindən məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat aparılır.";

**1.4.** 293.1-ci və 293-1.0.3-cü maddələrdə "maddəsində" sözü "və 214.4-1-ci maddələrində" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280, (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddələr 1, 15, № 2, maddə 99; Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 138-VIIQD nömrəli, 28 fevral tarixli 143-VIIQD nömrəli və 7 mart tarixli 152-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 40.0.1-ci maddəyə "məhkəmələri" sözündən sonra "və hərbi məhkəmələr" sözləri əlavə edilsin;

**2.2.** 43-cü maddənin adına və 43.2-ci maddəyə "məhkəmələrinin" sözündən sonra "və hərbi məhkəmələrin" sözləri əlavə edilsin;

**2.3.** 54-cü maddə üzrə:

**2.3.1.** 54.2-ci maddənin birinci cümləsinə "610–618-ci" sözlərindən sonra "(müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hərbi qulluqçuları tərəfindən törədilmiş hərbi xidmət əleyhinə olan inzibati xətalara münasibətdə)" sözləri əlavə edilsin;

**2.3.2.** aşağıdakı məzmunda 54.2-1-ci maddə əlavə edilsin:

**"54.2-1.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hərbi qulluqçuları tərəfindən törədilmiş bu Məcəllənin 610–618-ci maddələrində nəzərdə tutulan inzibati xətalar haqqında işlər üzrə icraatı başlayan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) səlahiyyətli vəzifəli şəxsi bu barədə dərhal ərazi üzrə müvafiq hərbi prokurora yazılı məlumat verir.".

**Maddə 3.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413 (Cild I); 2024, № 5 (I kitab), maddə 486, № 12 (II kitab), maddə 1329) 31-ci maddəsinin birinci hissəsində "habelə inzibati xətalar haqqında" sözləri "inzibati xətalara dair və digər" sözləri ilə əvəz edilsin.

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189, № 12 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddə 1, № 2, maddələr 98, 99, № 3, maddələr 217, 221; Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 172-VIIQD və 178-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 72-ci maddənin "Qeyd" hissəsinin 1-ci bəndində "72–73-2 və 74-1-ci" sözləri "72–74-1-ci" sözləri ilə əvəz edilsin;

**1.2.** 177.1-ci maddənin sanksiyasında üçüncü halda "iki" sözü "üç" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4, № 4, maddələr 362, 365, 368, № 6 (I kitab), maddə 631; 2025, № 1, maddə 1, № 2, maddə 98; Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 147-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 85.6.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 85.6.5-ci maddə əlavə edilsin:

**"85.6.5.** müstəntiqin bu Məcəllə ilə müəyyən edilmiş vəzifələrini yerinə yetirməsinə mane olan hallar (vəfat etməsi, ağır xəstəliyə tutulması və s.) yarandıqda, habelə bu Məcəllənin 85.6.2-ci maddəsinə uyğun olaraq həyata keçirilən nəzarət çərçivəsində müstəntiqin cinayətin açılması və araşdırılması üçün vaxtında müvafiq tədbirlər görməməsi nəticəsində cinayət işi üzrə icraatın əhəmiyyətli dərəcədə ləngidildiyini müəyyən etdikdə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora yazılı məlumat verməklə cinayət işini bir müstəntiqin icraatından götürərək digər müstəntiqin icraatına verir.";

**2.2.** 86.7.2-2-ci maddədə "cinayət işinin digər təhqiqatçının icraatına verilməsi barədə vəsatəti ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərir" sözləri "habelə bu Məcəllənin 86.7.2-ci maddəsinə uyğun olaraq həyata keçirilən nəzarət çərçivəsində təhqiqatçının cinayətin açılması və araşdırılması üçün vaxtında müvafiq tədbirlər görməməsi nəticəsində cinayət işi üzrə icraatın əhəmiyyətli dərəcədə ləngidildiyini müəyyən etdikdə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora yazılı məlumat verməklə cinayət işini bir təhqiqatçının icraatından götürərək digər təhqiqatçının icraatına verir" sözləri ilə əvəz edilsin;

**2.3.** 207.1.2-ci maddəyə "alınması" sözündən sonra ", habelə bu Məcəllənin 207.4-cü maddəsində nəzərdə tutulmuş iki və ya daha artıq istintaq və ya prosessual hərəkətlərin həyata keçirilməsi" sözləri əlavə edilsin;

**2.4.** 214.4-cü maddədən "177.1," rəqəmləri çıxarılsın;

**2.5.** aşağıdakı məzmunda 446.2.10-1-ci maddə əlavə edilsin:

**"446.2.10-1.** bu Məcəllənin 177.3.6-cı maddəsində nəzərdə tutulmuş istintaq hərəkətinin təxirəsalınmadan aparılması zəruri olduğu hallarda belə zəruriliyin əsaslandırılması;";

**2.6.** 447.2-ci maddədə "və əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinə" sözləri ", əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinə və bu Məcəllənin 177.3.6-cı maddəsində nəzərdə tutulmuş istintaq hərəkətinin təxirəsalınmadan aparılmasına" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 iyun 2025-ci il
№ 211-VIIQD

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**
**QƏRARI**

**Azərbaycan Respublikası Konstitusiyasının 63 və 71-ci maddələri baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 312-1-ci maddəsinin şərh edilməsinə dair**

**18 mart 2025-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev (məruzəçi-hakim), Rafael Qvaladze, Fikrət Məmmədov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 4-cü bəndinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə və 41-1-ci maddəsinin I hissəsinə müvafiq olaraq, konstitusiya məhkəmə icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının 22 may 2024-cü il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxdı.

İş üzrə hakim C.Qaracayevin məruzəsini, konstitusiya məhkəmə icraatının tərəfləri Azərbaycan Respublikası Prokurorluğunun və Azərbaycan Respublikası Ali Məhkəməsinin mülahizələrini, Azərbaycan Respublikasının Milli Məclisi Aparatı, Bakı Apellyasiya Məhkəməsi və Azərbaycan Respublikası Vəkillər Kollegiyası tərəfindən təqdim edilmiş mütəxəssis mülahizələrini, ekspertlər Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Ş.Səmədovanın, Milli Aviasiya Akademiyasının İqtisadiyyat və hüquq fakültəsinin dekanı, hüquq elmləri doktoru, professor A.Rüstəmzadənin rəylərini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək Z.Tahirovun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 32.4, 308.1, 312-1.1 və 313-cü maddələri ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının (bundan sonra – Ali Məhkəmənin Cinayət Kollegiyası) 22 may 2024-cü il tarixli qərarının Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) preambulasında öz əksini tapan qanunun aliliyinin əsas elementlərindən biri kimi hüquqi müəyyənlik prinsipinə, Konstitusiyanın 80-ci maddəsinə və 94-cü maddəsinin I hissəsinin 17-ci bəndinə, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun (bundan sonra – "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunu) 23.4-cü maddəsinə, Cinayət Məcəlləsinin 1.2 və 1.3-cü maddələrinin müddəalarına uyğunluğunun yoxlanılmasını xahiş etmişdir.

Sorğudan görünür ki, Ali Məhkəmənin Cinayət Kollegiyasının 22 may 2024-cü il tarixli qərarı ilə Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 2 may 2023-cü il tarixli qərarı dəyişdirilərək şəxs barəsində Cinayət Məcəlləsinin 312-1.1-ci maddəsi üzrə cinayət işinin icraatına əməlində cinayət tərkibi olmadığına görə xitam verilmişdir.

Qərar onunla əsaslandırılmışdır ki, "nüfuz alveri" anlayışını və həmin əmələ görə cinayət məsuliyyətinin əsaslarını müəyyən edən Azərbaycan Respublikasının 30 dekabr 2003-cü il tarixli Qanunu ilə təsdiq edilmiş Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiyasının (bundan sonra – "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiya) 12-ci maddəsinə əsasən, özəl sektorda çalışan şəxsin qərarına qanunsuz təsir göstərməyə görə pul və ya digər maddi və sair nemətin istənilməsi və ya alınması nüfuz alverinə aid edilməmiş, belə əməl cinayət hüququna zidd əməl kimi nəzərdə tutulmamışdır.

Z.Tahirov məhz özəl sektorda fəaliyyət göstərən qardaşı İ.Tahirovun qərarına qanunsuz təsir etməyə görə vətəndaş Ş.Tağıyevdən 30 manat pul almış, bu isə onun əməlinin nüfuz alveri kimi qiymətləndirilməsini, yəni Cinayət Məcəlləsinin 312-1.1-ci maddəsi ilə tövsif edilməsini istisna edir.

Sorğuda qeyd edilmişdir ki, Cinayət Məcəlləsinin 1.3-cü maddəsi cinayət məsuliyyətinin müəyyən edilməsi və cinayət törətmiş şəxslərin cəzalandırılması ilə əlaqədar Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin birbaşa tətbiqini məhdudlaşdırır.

Sorğuverən hesab edir ki, konstitusion normalar və cinayət qanununun təməl prinsipləri nəzərə alınmadan beynəlxalq müqavilə müddəasının birbaşa tətbiqi hüquq tətbiqetmə təcrübəsində qeyri-müəyyənliyin və fərqli yanaşmaların yaranmasına və nəticə etibarı ilə cinayət hüququnun mühüm prinsiplərindən olan qanunçuluq prinsipinin, eləcə də cinayət mühakimə icraatının təqsirsizlik prezumpsiyası prinsipinin pozulmasına səbəb ola bilər.

Prokurorluq onu da göstərmişdir ki, Cinayət Məcəlləsinin 308-ci maddəsinin "Qeyd" hissəsinə uyğun olaraq həmin Məcəllənin 312-1-ci maddəsində özəl sektorun vəzifəli şəxslərinin qərarına qanunsuz təsir göstərmə əməlinin kriminallaşdırılması "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiyanın 12-ci maddəsinin hüquqi təsir dairəsinin genişləndirilməsi kimi qiymətləndirilməklə dövlətdaxili hüququn öz məsələsi kimi nəzərdən keçirilməli və Konvensiyanın tələblərinə zidd hesab edilməməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu ilk növbədə qeyd etməyi vacib hesab edir ki, Konstitusiyanın 130-cu maddəsinin III hissəsinin 4-cü bəndinə əsasən Ali Məhkəmənin qərarlarının Konstitusiyaya və qanunlara uyğunluğunun yoxlanılması Konstitusiya Məhkəməsi tərəfindən həll edilən məsələlərə aid edilmişdir. Əsas Qanun Ali Məhkəmənin qərarlarının Konstitusiya və qanunlara uyğunluğunun yoxlanılmasının mümkünlüyünü məhz qanunda nəzərdə tutulmuş hallarla şərtləndirsə də, "Konstitusiya Məhkəməsi haqqında" Qanunda belə bir hal nəzərdə tutulmamışdır.

Lakin Konstitusiya Məhkəməsi Plenumunun qənaətinə görə sorğuda qaldırılan məsələ ilə əlaqədar hüquq tətbiqetmə təcrübəsində hüquqi müəyyənlik prinsipinin, habelə insan hüquq və azadlıqlarının təmin edilməsinin vacibliyini nəzərə alaraq Cinayət Məcəlləsinin 312-1-ci maddəsinin xüsusi konstitusiya icraatı qaydasında şərh edilməsi zəruridir.

Sorğu ilə əlaqədar aşağıdakılar qeyd olunmalıdır.

Konstitusiyanın 148-ci maddəsinin II hissəsinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.

Qeyd edilməlidir ki, beynəlxalq müqavilələrin implementasiyası həmin müqavilələrin hüquqi qüvvəsinin tanınmasına, beynəlxalq hüquq normalarının dövlət daxilində həyata keçirilməsinə yönələn hüquqi və təşkilati vasitələrin məcmusu kimi çıxış edir. Hüquq nəzəriyyəsində beynəlxalq hüquq normalarının həyata keçirilməsinin, yəni implementasiyasının iki əsas üsulu müəyyən olunmuşdur. Bunlara inkorporasiya və transformasiya aiddir.

İnkorporasiya üsulu beynəlxalq müqavilələrin məcburiliyinin dövlət tərəfindən tanınmasından sonra həmin müqavilələrlə müəyyənləşdirilmiş normaların heç bir dövlətdaxili akt olmadan milli hüquq sisteminə daxil edilməsini və tətbiq edilməsini nəzərdə tutduğu halda, transformasiya beynəlxalq hüquq normalarının milli hüquq normalarına çevrilməsi, yəni onların tətbiq oluna bilməsi üçün ayrıca qanunvericilik aktlarının qəbul edilməsini tələb edən üsuldur.

O da göstərilməlidir ki, insan hüquqları və onların müdafiəsi ilə bağlı olan beynəlxalq müqavilələr, bir qayda olaraq, onların implementasiya üsulları ilə əlaqədar normaları da özündə əks etdirir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə normalarının tətbiqi ilə bağlı məsələlər "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunu ilə müəyyənləşdirilmişdir. Konstitusiya Qanununun 23.4-cü maddəsinə görə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, həmin müqavilələrdə əks etdirilmiş normaların tətbiqi üçün dövlətdaxili normativ hüquqi aktın qəbul olunmasını tələb edən hallar istisna olmaqla, birbaşa tətbiq edilməlidir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin həyata keçirilməsinə yönəlmiş normativ hüquqi aktlar aşağıdakı hallarda qəbul edilir: Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin predmetini Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə tənzimlənməyən məsələlər təşkil etdikdə; Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi müvafiq normativ hüquqi akt qəbul edilmədən mümkün olmadıqda; beynəlxalq müqavilənin tərəfləri müvafiq normativ hüquqi aktların qəbul edilməsi barədə razılığa gəldikdə ("Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 24-cü maddəsi).

Göründüyü kimi, qanunvericiliyin ümumi tələbi Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyənləşdirilmiş normaların birbaşa tətbiqi ilə bağlı olsa da, belə müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün müvafiq normativ hüquqi aktın qəbul edilməsinə zərurət yarandığı hallarda birbaşa tətbiq üsulu istisna edilmişdir.

Cinayət hüquq normalarının implementasiyası ilə bağlı nəzərə alınmalıdır ki, Azərbaycan Respublikasının cinayət qanunu Cinayət Məcəlləsindən ibarətdir. Bu Məcəllə Konstitusiyaya, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinə əsaslanır.

Cinayət məsuliyyətini müəyyən edən və cinayət törətmiş şəxsin cəzalandırılmasını nəzərdə tutan qanunlar yalnız bu Məcəlləyə daxil olunduqdan sonra tətbiq edilə bilər (Cinayət Məcəlləsinin 1-ci maddəsi).

Cinayət Məcəlləsinin 3-cü maddəsinə görə, yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır.

Həmçinin cinayət məsuliyyətinin əsas prinsiplərindən biri olan qanunçuluq prinsipinin tələblərinə əsasən, əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza və digər cinayət-hüquqi xarakterli tədbirlər yalnız bu Məcəllə ilə müəyyən edilir (Cinayət Məcəlləsinin 5-ci maddəsi).

Beləliklə, hər hansı əməlin cinayət sayılması və cəzalandırılması yalnız həmin əməl bilavasitə Cinayət Məcəlləsinə daxil edilərək kriminallaşdırıldıqdan sonra mümkün ola bilər. Bu baxımdan şübhəsizdir ki, cinayət

hüquqpozmalarını müəyyənləşdirən beynəlxalq müqavilə normaları yalnız Cinayət Məcəlləsinə əlavə və ya dəyişikliklərin edilməsi ilə bağlı müvafiq qanunların qəbul edilməsi vasitəsilə tətbiq oluna bilər.

Təsadüfi deyildir ki, sorğuda qeyd olunan "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiyasının II bölməsi "Milli səviyyədə görülən tədbirlər" adlandırılmış, həmin bölməyə daxil edilmiş maddələrdə müvafiq əməlləri öz daxili hüququna uyğun olaraq cinayət hüquqpozmaları kimi tövsif etmək üçün lazım ola biləcək qanunvericilik və digər tədbirlərin görülməli olduğu qeyd edilmiş, başqa sözlə, Konvensiyanın özündə ondan irəli gələn normaların implementasiyası üçün müvafiq dövlətdaxili aktların qəbul edilməsi öhdəliyi müəyyən olunmuşdur.

O da qeyd edilməlidir ki, cinayət hüquqpozmalarını nəzərdə tutan beynəlxalq müqavilələr birbaşa tətbiq oluna bilməsə də, hüquq tətbiqedici orqanlar tərəfindən qəbul edilən qərarların və hüquqi mövqelərin əsaslandırılması zamanı Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsini təşkil edən beynəlxalq müqavilələrə və onun müddəalarına istinad edilməsi yolveriləndir.

Lakin nəzərə alınmalıdır ki, məhkəmə aktı o vaxt qanuni hesab edilə bilər ki, həm forma, həm də məzmun baxımından cinayət-prosessual qanunvericiliyin, cinayət qanununun və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarının tələblərinə cavab vermiş olsun. Məhkəmə qərarının ədalətliliyi onun əsaslandırılma dərəcəsindən asılı ola bilər (Konstitusiya Məhkəməsi Plenumunun S.Eyyubovanın şikayəti üzrə 2020-ci il 21 yanvar tarixli Qərarı).

Nüfuz alveri cinayəti ilə bağlı qeyd olunmalıdır ki, bu cinayət əməli "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiyasının 12-ci maddəsi ilə yanaşı, Birləşmiş Millətlər Təşkilatının "Korrupsiya əleyhinə" Konvensiyasının (bundan sonra – "Korrupsiya əleyhinə" Konvensiya) 18-ci maddəsində də nəzərdə tutulmuşdur.

Göstərilməlidir ki, "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiyada özəl sektorda rüşvətlə ələ alma cinayət əməlinə münasibətdə ayrıca normalar (7 və 8-ci maddələr) nəzərdə tutulmuş, lakin özəl sektorda nüfuz alverinin cinayət əməli hesab edilməsi ilə bağlı hər hansı norma öz əksini tapmamışdır. Əksinə, həmin Konvensiyanın 12-ci maddəsində məhz milli və xarici dövlət vəzifəli şəxslərinin, milli və xarici dövlət seçkili orqanlarının üzvlərinin, beynəlxalq təşkilatlarının vəzifəli şəxslərinin qərarına qeyri-qanuni təsir edəcəyini bəyan və ya təsdiq edən şəxs tərəfindən müvafiq hərəkətlərin edilməsi nüfuz alveri kimi müəyyən edilmişdir.

"Korrupsiya əleyhinə" Konvensiyanın 18-ci maddəsində də nüfuz alveri cinayəti məhz İştirakçı Dövlətin administrasiyasından və ya dövlət hakimiyyəti orqanından hər hansı qeyri-qanuni üstünlüyün əldə edilməsi məqsədi ilə əlaqələndirilmişdir.

Azərbaycan Respublikası tərəfindən ilk olaraq 30 dekabr 2003-cü il tarixli Qanunla "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiya, 30 sentyabr 2005-ci il tarixli Qanunla isə "Korrupsiya əleyhinə" Konvensiyası təsdiq edilmiş, həmçinin "Korrupsiyaya qarşı mübarizə ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 7 aprel 2006-cı il tarixli Qanunu ilə Cinayət Məcəlləsinə "Vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri)" adlı 312-1-ci maddə əlavə edilmişdir.

Həmin maddəyə müvafiq olaraq, şəxs tərəfindən öz həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək məqsədilə özü və yaxud üçüncü şəxslər üçün, birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemətin, imtiyazın və ya güzəştin istənilməsi və ya alınması, yaxud bu barədə təklif və ya vədin qəbul edilməsi (312-1.1-ci maddə) və şəxsə öz həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək məqsədilə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemətin, imtiyazın və ya güzəştin təklif olunması, vəd edilməsi və ya verilməsi (312-1.2-ci maddə) cinayət məsuliyyətinə səbəb olur.

Cinayət Məcəlləsinin otuz üçüncü fəslinin məqsədləri baxımından vəzifəli şəxs anlayışının dairəsi isə həmin Məcəllənin 308-ci maddəsinin "Qeyd" hissəsində müəyyən olunmuş, digərləri ilə yanaşı kommersiya və qeyri-kommersiya təşkilatlarının rəhbərləri və işçiləri, kommersiya və qeyri-kommersiya təşkilatlarında xüsusi səlahiyyət üzrə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər, yəni özəl sektorun vəzifəli şəxsləri də həmin kateqoriyaya aid edilmişdir.

Cinayət Məcəlləsinin 312-1-ci maddəsi ilə bağlı hüquq tətbiqetmə təcrübəsində fikir ayrılığına səbəb olan hal məhz qərarına qanunsuz təsir etmək məqsədi güdülən şəxsin özəl sektorun vəzifəli şəxslərini əhatə edib-etməməsi ilə bağlıdır.

Bununla bağlı Konstitusiya Məhkəməsinin Plenumu, ilk növbədə, qeyd edir ki, Konstitusiyanın 94-cü maddəsinin I hissəsinin 17-ci bəndinə əsasən, cinayətlərin və başqa hüquq pozuntularının müəyyən edilməsi, onların törədilməsinə görə məsuliyyətin təyin edilməsi Azərbaycan Respublikası Milli Məclisinin müstəsna səlahiyyətinə aiddir.

Bu baxımdan beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş olmasa belə, hər hansı əməlin daxili qanunvericiliyə uyğun olaraq cinayət tərkibi kimi müəyyənləşdirilməsi istisna edilə bilməz. Lakin nəzərə alınmalıdır ki, əməlin cinayət hesab edilməsi həmin əməli törədənlərə münasibətdə kifayət qədər ciddi hüquqi nəticələrin yaranmasına səbəb olduğuna görə, hər hansı hərəkət və ya hərəkətsizliyin kriminallaşdırılması, yəni əməlin hüquqpozmaların ən ağır forması kimi cəzalandırılması konkret ictimai münasibətlərin cinayət-hüquqi tənzimi ilə bağlı zərurətdən irəli gəlməklə bunun üçün kifayət qədər faktiki və hüquqi əsaslar olmasını tələb edir.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, qeyd olunan məsələyə aydınlıq gətirilməsi üçün nüfuz alveri əməlinə görə məsuliyyətin müəyyən olunması vasitəsilə qorunan ictimai münasibətlərin (cinayətin obyektinin) xarakterinin, normanın sosial mahiyyətinin, onun qəbul edilməsini şərtləndirən amillərin nəzərdən keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

İlk növbədə qeyd edilməlidir ki, Cinayət Məcəlləsinin 312-1-ci maddəsi həmin Məcəlləyə "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiyanın tələblərinin həyata keçirilməsi ilə əlaqədar görülən tədbirlər çərçivəsində əlavə edilmişdir (Azərbaycan Respublikası Milli Məclisinin 7 aprel 2006-cı il tarixli iclasının stenoqramı).

Həmçinin vəzifəli şəxslərin dairəsini müəyyən edən Cinayət Məcəlləsinin 308-ci maddəsinin "Qeyd" hissəsinə də bir neçə dəfə əlavə və dəyişikliklər edilmiş, 24 iyun 2011-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə həmin hissə yeni redaksiyada verilmiş, bu dəyişiklik vasitəsilə vəzifəli şəxslərin dairəsi genişləndirilmişdir. Belə genişləndirməni nəzərdə tutan dəyişiklik isə "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiyanın 7 və 8-ci maddələrində nəzərdə tutulmuş qaydanın məhz rüşvətlə ələ alma ilə bağlı normaların özəl sektor qurumunu idarə edən və onun üçün işləyən bütün şəxsləri əhatə etməsinin təmin olunması ilə bağlı Avropa Şurasının Korrupsiyaya Qarşı Dövlətlər Qrupunun (GRECO) tövsiyələrinin icrası məqsədindən irəli gəlmişdir (Azərbaycan Respublikası Milli Məclisinin 24 iyun 2011-ci il tarixli stenoqramı).

Göründüyü kimi, qanunverici orqan tərəfindən istər nüfuz alveri cinayət tərkibinin müəyyən edilməsi ilə, istərsə də vəzifəli şəxslərin siyahısının genişləndirilməsi ilə bağlı Cinayət Məcəlləsinə edilən dəyişikliklər Azərbaycan Respublikasının qanunvericiliyini onun tərəfdar çıxdığı beynəlxalq müqavilənin müvafiq tələblərinə uyğunlaşdırmaq niyyətindən irəli gəlmişdir.

O da nəzərə alınmalıdır ki, cəmiyyətin ümumi məqsədləri üçün ictimai əhəmiyyətli funksiyaları icra edən dövlət və bələdiyyə orqan, müəssisə və təşkilatlarının fəaliyyətində, eləcə də onların qərar qəbul etmə prosesində qanunilik, ədalətlilik, şəffaflıq və qərəzsizlik cəmiyyətin bu strukturlara olan inamını artıran, dövlət və cəmiyyət arasında qarşılıqlı etimad yaradan əsas prinsiplər sırasındadır.

Qeyd olunan prinsiplər həmin orqan və təşkilatların fəaliyyətinin yalnız qanuna əsaslanması, fəaliyyətlərində açıqlıq və hesabatlılığı, qərar qəbul etmə prosesində şəxsi və qrup maraqlarına deyil, yalnız ictimai maraqlara əsaslanmağı nəzərdə tutur.

Odur ki, dövlət və yerli özünüidarəetmə orqan, müəssisə və təşkilatlarının, xarici ölkələrin dövlət orqanlarının vəzifəli şəxslərinin, beynəlxalq məhkəmələrin və təşkilatların vəzifəli şəxslərinin fəaliyyətinə qeyri-qanuni müdaxilə cəhdlərini əngəlləmək, belə müdaxilənin mümkünlüyünə dair təəssüratın yaranmasının qarşısını almaq və bununla da onların səmərəli, dürüst və qərəzsiz fəaliyyət göstərməsini təmin etmək məqsədi ilə nüfuz alveri cinayət əməli kimi müəyyən edilmişdir.

Bu baxımdan qeyd edilən cinayət tərkibinin obyekti, yəni həmin tərkib vasitəsilə qorunan hüquqi dəyər dövlət hakimiyyətinin və yerli özünüidarəetmə orqanlarının nüfuzu, onların qanunauyğun, ədalətli və qərəzsiz fəaliyyətinə bəslənən inamı və bununla bağlı ictimai gözləntisidir.

Məhz bu səbəbdəndir ki, nüfuz alveri maddi deyil, formal tərkibli cinayət əməli kimi müəyyən olunmuşdur. Cinayət Məcəlləsinin 312-1-ci maddəsinin dispozisiyasına görə, əməlin törədilmiş hesab olunması üçün vəzifəli şəxsin qərarına qanunsuz təsir edilib-edilməməsinin, qərarın qəbul olunub-olunmamasının cinayət tərkibinin əmələ gəlməsi üçün heç bir əhəmiyyəti yoxdur. Şəxs tərəfindən öz həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edilərək vəzifəli şəxsin qərarına qanunsuz təsir etmək məqsədi ilə maddi və sair nemətin, imtiyazın və ya güzəştin təklif olunduğu, vəd edildiyi, verildiyi, istənildiyi, alındığı, yaxud bu barədə təklif və ya vədin qəbul edildiyi andan cinayət başa çatmış hesab edilir. Çünki qanunsuz təsir etmə məqsədilə belə maddi nemətin, imtiyazın və s. verilməsi, istənilməsi, alınması və həmin maddədə göstərilən digər hərəkətlərin icrası özlüyündə qeyd olunan orqan və qurumların qərar qəbul etmə prosesinin qanuniliyinə və şəffaflığına olan inama, bununla bağlı sosial gözləntilərə mühüm ziyan vurmuş olur.

Nüfuz alveri cinayət əməli ilə bağlı "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiya üzrə İzahlı Hesabatda da göstərilmişdir ki, bu əməlin cinayət hesab edilməsi ilə qorunan hüquqi maraqlar dövlət idarələrinin qərar qəbul etmə prosesindəki şəffaflıq və qərəzsizliyidir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, yuxarıda göstərilən hərəkətlərin, özəl sektorun vəzifəli şəxslərinin qərarına qanunsuz təsir göstərmək məqsədilə edilməsinin cinayət məsuliyyətinə səbəb olan əməl kimi qiymətləndirilməməsinin bir sıra səbəbləri mövcuddur.

Belə ki, dövlət idarəetməsindən fərqli olaraq, özəl sektorda fəaliyyət ictimai deyil, şəxsi və kommersiya maraqlarının təmin edilməsinə yönəlməklə, rəqabət, sərbəst bazar prinsipləri əsasında həyata keçirilir və buradakı iqtisadi münasibətlər dövlət sektoruna nisbətən daha mürəkkəb və çoxşaxəlidir. İstər beynəlxalq, istərsə də milli iqtisadi münasibətlərdə kommersiya əlaqələrinin qurulmasında haqqı ödənilən vasitəçilərdən istifadə edilməsi geniş yayılmış praktikadır. Bu baxımdan özəl sektorda qanunsuz təsir ilə qanuni fəaliyyət arasındakı sərhədin dəqiq müəyyənləşdirilməsi olduqca mürəkkəb məsələ olmaqla, müəyyən əməllərin kriminallaşdırılması bəzi iqtisadi fəaliyyətlərin cinayət kateqoriyasına daxil edilmə riskini yarada və kommersiya fəaliyyətinə müdaxilə ilə nəticələnə bilər.

Digər tərəfdən, özəl sektorda fəaliyyət göstərən hər hansı vəzifəli şəxsə təsirin göstərilməsi məqsədilə maddi nemətin istənilməsi, vəd edilməsi və s. kimi hallar birbaşa ictimai maraqların pozulması və ictimai etimadın zədələnməsi ilə nəticələnmir.

Qeyd edilənlərlə yanaşı o da göstərilməlidir ki, korrupsiya cinayətlərinin əhatə dairəsi genişləndirildiyi və şəxsin öz təsir imkanlarından istifadə etməklə özəl sektorun vəzifəli şəxsinin qərarına qanunsuz təsir göstərmək məqsədilə maddi nemətin istənilməsi, alınması kimi əməllər kriminallaşdırıldığı halda belə, bu hərəkətlərin qanunverici tərəfindən nüfuz alveri cinayəti ilə eyni obyektli, eyni ictimai təhlükəli və tamamilə eyni tərkibli əməl kimi müəyyənləşdirildiyinə dair mühakimə cinayət qanunvericiliyinin məqsəd və prinsipləri baxımından ağlabatan olmazdı.

Bununla belə nəzərə alınmalıdır ki, vəzifəli şəxs kateqoriyasına aid edilmiş şəxslərin dairəsi Cinayət Məcəlləsinin 308-ci maddəsinin "Qeyd" hissəsi ilə nəzərdə tutulmuş və burada nüfuz alveri əməlinə münasibətdə hər hansı istisna müəyyən edilməmişdir.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 312-1-ci maddəsi qanunçuluq prinsipinin əsas elementlərindən olan hüquqi müəyyənlik prinsipinin tələblərinə tam şəkildə cavab verməməklə sorğuya səbəb olan cinayət işində olduğu kimi hüquq tətbiqedənlər arasında qeyri-müəyyənliyə və fərqli yanaşmalara səbəb olur.

Cinayət və cinayət-prosessual qanunlarının tətbiqində aradan qaldırılmamış şübhələr isə təqsirləndirilən şəxsin (şübhəli şəxsin) xeyrinə həll olunmalıdır (Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 21.2-ci maddəsi).

Hər bir cinayət, habelə onun törədilməsinə görə cinayət məsuliyyəti qanunda dəqiq müəyyən olunmalı, hər kəs müvafiq normanın məzmunundan çıxış edərək öz hərəkətlərinin (hərəkətsizliyinin) cinayət hüquqi nəticələrini qabaqcadan görmək imkanına malik olmalıdır (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 182.2.4-cü maddəsinin şərh edilməsinə dair" 2011-ci il 21 oktyabr tarixli Qərarı).

Hüquq normalarının dəqiq, aydın, birmənalı və müəyyən olması, hüquq tənzimetmə sistemində onların bir-birinə uyğunluğu tələbi konstitusion prinsiplər olan hüquqi müəyyənlik və qanunçuluq prinsiplərindən irəli gəlir. Əks hal təqsirsiz şəxslərin cinayət məsuliyyətinə cəlb olunması və ya təqsirli şəxslərin cinayət məsuliyyətindən kənarda qalması, vətəndaşların hüquq və azadlıqlarının, qanuni mənafelərinin müdafiəsinin dövlət təminatını zəiflədən ziddiyyətli hüquq tətbiqetmə təcrübəsinin yaranması ilə nəticələnə bilər.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, təqsirsizlik prezumpsiyası və qanunçuluq prinsiplərinin təmin edilməsinin, eləcə də cinayət tərkibini müəyyənləşdirən hüquq normalarının hüquqi müəyyənlik prinsipinin tələbinə cavab verməsinin zəruriliyindən irəli gələrək Cinayət Məcəlləsinin 312-1-ci maddəsinin qanunverici orqan tərəfindən təkmilləşdirilməsi məqsədəmüvafiqdir.

Qeyd edilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Konstitusiyanın 148-ci maddəsinin II hissəsinin, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 23.4 və 24-cü maddələrinin, Cinayət Məcəlləsinin 1, 3 və 5-ci maddələrinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının tərəfdar çıxdığı və cinayət tərkibini müəyyənləşdirən beynəlxalq müqavilələr yalnız Cinayət Məcəlləsinə əlavə və ya dəyişikliklərin edilməsi ilə bağlı müvafiq qanunların qəbul edilməsi vasitəsilə tətbiq oluna bilər;
- Konstitusiyanın 63-cü maddəsinin I hissəsinə, qanunçuluq və hüquqi müəyyənlik prinsiplərinə, Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən Cinayət Məcəlləsinin 312-1-ci maddəsi ilə publik maraqların qorunduğu nəzərə alınaraq həmin maddədə nəzərdə tutulmuş vəzifəli şəxslərin dairəsinin müəyyənləşdirilməsi (differensasiyası) Milli Məclisə tövsiyə edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65–67 və 69-cu maddələrini və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 41-1-ci maddəsinin I hissəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin II hissəsinin, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 23.4 və 24-cü maddələrinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 1, 3 və 5-ci maddələrinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının tərəfdar çıxdığı və cinayət tərkibini müəyyənləşdirən beynəlxalq müqavilələr yalnız Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əlavə və ya dəyişikliklərin edilməsi ilə bağlı müvafiq qanunların qəbul edilməsi vasitəsilə tətbiq oluna bilər.

**2.** Azərbaycan Respublikası Konstitusiyanın 63-cü maddəsinin I hissəsinə, qanunçuluq və hüquqi müəyyənlik prinsiplərinə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 312-1-ci maddəsi ilə publik maraqların qorunduğu nəzərə alınaraq həmin maddədə nəzərdə tutulmuş vəzifəli şəxslərin dairəsinin müəyyənləşdirilməsi (differensasiyası) Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr: Fərhad ABDULLAYEV**

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

**Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I hissəsində və 29-cu maddəsində nəzərdə tutulmuş mülkiyyət toxunulmazlığı hüququ baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-1.1.1, 99-2 və 99-3.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair**

**7 aprel 2025-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze (məruzəçi-hakim), Fikrət Məmmədov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I hissəsində və 29-cu maddəsində nəzərdə tutulmuş mülkiyyət toxunulmazlığı hüququ baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-1.1.1, 99-2 və 99-3.2-ci maddələrinin şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.Qvaladzenin məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun sorğusunu və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizəsini, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Bakı Apellyasiya Məhkəməsi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi tərəfindən təqdim edilmiş mütəxəssis mülahizələrini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 99-1.1.1-ci maddəsinin "cinayət törədilərkən istifadə etdiyi" müddəasının həmin Məcəllənin 27, 28 və 29-cu maddələri ilə, Cinayət Məcəlləsinin 99-2-ci maddəsinin "cinayət törətmiş şəxsə məxsus olan digər əmlak" müddəasının, habelə Cinayət Məcəlləsinin 99-3.2-ci maddəsinin ikinci cümləsinin "cinayət törətmiş şəxsin müsadirə edilmiş əmlakdan başqa əmlakı" müddəasının Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin (bundan sonra – Cəzaların İcrası Məcəlləsi) 187-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, Cinayət Məcəlləsinin 99-1.1-ci maddəsində şəxsin cinayət törədərkən istifadə etdiyi alət və vasitələr (qanuni sahibinə qaytarılmalı olan alət və vasitələr istisna olmaqla) xüsusi müsadirə ilə bağlı dövlət nəfinə alınmalı olan əmlaklar siyahısına daxil edilmişdir.

Sorğuda o da qeyd olunmuşdur ki, ağır və xüsusilə ağır cinayətlərin törədilməsi üçün alət və vasitələrin əldə edilməsi, hazırlanması Cinayət Məcəlləsinin 28.2-ci maddəsinə əsasən cinayət məsuliyyəti yaradır. Buna baxmayaraq, Cinayət Məcəlləsinin 99-1.1.1-ci maddəsində məhz "cinayət törədilərkən istifadə etdiyi" müddəasının hərfi təfsiri belə nəticəyə gəlməyə əsas verir ki, hələ törədilməmiş, yəni hazırlıq mərhələsində olan cinayətlə əlaqədar alət və vasitələrin müsadirə edilməsi mümkünsüzdür. Sorğuverənin qənaətinə görə, belə təfsir cinayət qanunvericiliyinin xüsusi müsadirə ilə bağlı müddəalarının hüquqi təbiəti ilə uzlaşmır.

Göstərilənlər Cinayət Məcəlləsinin 99-1.1.1-ci maddəsindəki "cinayət törədilərkən istifadə etdiyi" müddəasının həmin Məcəllənin 27-ci (Başa çatmış və başa çatmayan cinayət), 28-ci (Cinayətə hazırlıq) və 29-cu (Cinayət etməyə cəhd) maddələri ilə əlaqəli şəkildə şərh edilməsini zəruri edir.

Prokurorluq, həmçinin Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 183.2-ci maddəsinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142.1, 383.1, 408.3-cü maddələri və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.4-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 2022-ci il 24 fevral tarixli Qərarındakı (bundan sonra – Konstitusiya Məhkəməsi Plenumunun 2022-ci il 24 fevral tarixli Qərarı) cinayət əməlinin törədilməsindən əvvəl əldə edilmiş və ya bu əməl nəticəsində əldə edilməmiş əmlaka münasibətdə xüsusi müsadirənin tətbiq edilə bilinmədiyinə dair hüquqi mövqeyinə istinadən qeyd etmişdir ki, bu halda Cinayət Məcəlləsinin 99-2-ci maddəsində "cinayət törətmiş şəxsə məxsus olan digər əmlak" dedikdə hansı əmlakın nəzərdə tutulduğu aydın deyil.

Həmin maddəyə əsasən, Cinayət Məcəllənin 99-1.1-ci maddəsində nəzərdə tutulmuş müsadirə edilməli olan əmlak istifadə edildiyi, özgəninkiləşdirildiyi və ya başqa səbəblərdən dövlət nəfinə alına bilinmədiyi halda həmin əmlakın dəyəri məbləğində cinayət törətmiş şəxsə məxsus olan digər əmlak məhkəmənin yekun qərarı ilə xüsusi müsadirə edilir.

Göstərilənlərlə yanaşı, Cinayət Məcəlləsinin 99-3.2-ci maddəsinin ikinci cümləsindəki "cinayət törətmiş şəxsin müsadirə edilmiş əmlakdan başqa əmlakı" anlayışının Cəzaların İcrası Məcəlləsinin 187-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsi xahiş olunur.

Belə ki, Cəzaların İcrası Məcəlləsinin 187-ci maddəsi məhkəmənin yekun qərarının icrasından sonra Cinayət Məcəlləsinin 99-1.1.1–99-1.1.4-cü maddələrində nəzərdə tutulan əmlakın aşkar edilib xüsusi müsadirə edilməsi ilə bağlı münasibətləri tənzimləyir.

Bununla bağlı Cinayət Məcəlləsinin 99-3.2-ci maddəsinin ikinci cümləsində qeyd edilən "cinayət törətmiş şəxsin müsadirə edilmiş əmlakdan başqa əmlakı" anlayışının Cəzaların İcrası Məcəlləsinin 187-ci maddəsində qeyd edilən əmlak olub-olmaması aydın olmamaqla, Cinayət Məcəlləsinin 99-3.2-ci maddəsinin məhkəmənin xüsusi müsadirə ilə bağlı yekun qərarının çıxarılması və ya həmin qərarın icrası ilə əlaqədar mərhələdə münasibətləri tənzimləyib-tənzimləmədiyi sual doğurur.

Göstərilənlərə əsasən Prokurorluq hesab edir ki, hüquq tətbiqetmə təcrübəsində qeyri-müəyyənliyin aradan qaldırılması, vahid istintaq və məhkəmə təcrübəsinin formalaşdırılması, qanunvericilik normalarının eyni qaydada tətbiqinin və hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədilə sadalanan normaların şərh olunmasına zərurət yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar, ilk növbədə, qeyd etməyi vacib hesab edir ki, Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur (Konstitusiyanın 13-cü maddəsinin I hissəsi və 29-cu maddəsinin II hissəsi).

Konstitusiya hüquq və azadlıqlarla yanaşı, onlardan irəli gələn vəzifələri də müəyyən edir və hüquqların həyata keçirilməsinə qanuni və əsaslı müdaxilələri istisna etmir.

Belə ki, mülkiyyət hüququna müdaxilə qanuni hədlər daxilində olmaqla ciddi ictimai zərurətdən irəli gəlməli və Konstitusiya prinsiplərindən kənara çıxmamalıdır (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Prezidentinin 1993-cü il 5 yanvar tarixli, 392 saylı Fərmanının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 4 iyun tarixli, 267 saylı qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair" 2004-cü il 25 oktyabr tarixli, "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinin birinci hissəsinin yeddinci abzasının şərh edilməsinə dair" 2010-cu il 29 oktyabr tarixli Qərarları və s.).

Cinayət Məcəlləsinin 99-1-ci maddəsində xüsusi müsadirə cinayət-hüquqi tədbir qismində əmlakın məhkəmənin yekun qərarı ilə məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınması kimi müəyyən edilmişdir.

Həmin maddəyə uyğun olaraq, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin cinayət törədilərkən istifadə etdiyi alət və vasitələr, cinayət yolu ilə əldə etdiyi əmlak, habelə həmin əmlak hesabına əldə edilmiş gəlirlər, cinayət yolu ilə əldə edilmiş əmlakın mülki-hüquqi əqdlərin bağlanması və ya digər üsullarla tam və ya qismən çevrildiyi digər əmlak və ya onun müvafiq hissəsi, terrorçuluğun, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların, mütəşəkkil dəstələrin və ya cinayətkar birliklərin (cinayətkar təşkilatların) maliyyələşdirilməsi üçün nəzərdə tutulan və ya istifadə olunan əmlak məhkəmənin yekun qərarı ilə məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınır.

Qeyd edilməlidir ki, xüsusi müsadirə institutunun mahiyyətinə Konstitusiya Məhkəməsi Plenumunun 2022-ci il 24 fevral tarixli Qərarında aydınlıq gətirilmişdir.

Həmin Qərarda ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin qəbul etdiyi qərarın qanuni və əsaslandırılmış olmasını zəruri edən qanunçuluq prinsipinin tələbləri nəzərə alınaraq belə nəticəyə gəlinmişdir ki, Cinayət-Prosessual Məcəlləsinin 139-cu maddəsinin mənasına görə, cinayət işi üzrə icraat zamanı təqsirləndirilən şəxsə məxsus və müsadirə olunan əmlakın cinayətin törədilməsi nəticəsində əldə olunmasını və ya bu əmlakdan əldə olunmuş gəlir olmasını, yaxud cinayətin törədilməsi üçün istifadə olunan və ya istifadəsi nəzərdə tutulan silah, alət və ya sair vasitələr olmasını, habelə təqsirləndirilən şəxsə məxsus olmasa da, onun törətmiş olduğu cinayət nəticəsində əldə olunmuş əmlak olmasını təsdiq edən hallar sübuta yetirilməlidir.

Beləliklə, cinayət törədən şəxsin əmlakının əsaslandırılmadan xüsusi müsadirəsi mülkiyyət hüququna əsassız müdaxilə olmaqla ədalətlilik, hüquq və azadlıqların məhdudlaşdırılmasının mütənasibliyi və qanuniliyi barədə konstitusiya prinsiplərinə, mülkiyyətin qanunla qorunmasına, məhkəmə müdafiəsi təminatına cavab verməməklə Konstitusiyanın 13-cü maddəsinin I hissəsinin, 29-cu maddəsinin II hissəsinin və 60-cı maddəsinin I hissəsinin tələblərinə ziddir.

Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin 99-1.1.1-ci maddəsindəki "cinayət törədilərkən istifadə etdiyi" müddəasının cinayətə hazırlıq növündə başa çatmamış cinayətə münasibətdə alət və vasitələri də ehtiva etməsi məsələsinə aydınlıq gətirilməsi üçün "cinayət törədilərkən istifadə edilən alət və vasitələr" ifadəsinin açıqlanmasını zəruri hesab edir.

"Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılmasına, axtarışına, həbsinə, müsadirəsinə və terrorçuluğun maliyyələşdirilməsinə dair" Avropa Şurasının 2005-ci il 16 may tarixli Varşava Konvensiyasının (bundan sonra – Varşava Konvensiyası) 1-ci maddəsinin c) bəndində "cinayətin alət və vasitələri" istənilən üsulla, tam və ya qismən cinayət əməlini və ya cinayət əməllərini törətmək məqsədilə istifadə edilmiş və istifadə edilməsi nəzərdə tutulan hər hansı bir əmlak kimi müəyyən edilmişdir.

Cinayət hüququ nəzəriyyəsində cinayət əməli törədilərkən alət kimi istifadə edilən əşyalar dedikdə,

cinayətin törədilməsi prosesində birbaşa istifadə olunan və ya istifadə edilmək üçün nəzərdə tutulan, insanın fiziki təsir imkanlarını artıran əşyalar başa düşülür.

Həmin əşyalara silah, nəqliyyat vasitələri, avadanlıqlar, milli və xarici valyuta, elektron valyuta, sənədli qiymətli kağızlar və s. aiddir.

Vasitələr isə cinayətin törədilməsini asanlaşdıran, onun həyata keçirilməsini yüngülləşdirən əşya kimi nəzərdən keçirilir. Onların sırasına radioaktiv, bakterioloji, kimyəvi maddələr və tullantılar, saxta sənədlər, informasiya və kommunikasiya texnologiyaları və s. daxildir. Vasitələr bəzi hallarda əməlin obyektiv tərəfinin zəruri əlaməti kimi çıxış edir. Məsələn, Cinayət Məcəlləsinin 177.2.3-1-ci maddəsi ilə nəzərdə tutulan oğurluq əməlinin obyektiv tərəfi yalnız elektron məlumat daşıyıcılarından, yaxud informasiya texnologiyalarından istifadə edilməklə törədilə bilər.

O da nəzərə alınmalıdır ki, cinayət törədilərkən istifadə edilən alət və vasitələr cinayətin törədilmə üsulundan fərqli anlayışlardır. Belə ki, üsul təqsirli şəxsin müəyyən bir ardıcıllıqla yerinə yetirdiyi hərəkətlərdən ibarət olmaqla işin konkret hallarından asılı olaraq cinayətin alət və vasitələrinə bağlı ola bilər. Cinayətin obyektiv tərəfinin əlaməti kimi istər alət, istərsə də vasitələr cinayətin törədilmə üsulundan asılı olduğu halda, üsul bəzi hallarda müstəqil xarakter daşıyır.

Qeyd edildiyi kimi, Cinayət Məcəlləsinin 99-1.1.1-ci maddəsində şəxsin cinayət törədilərkən istifadə etdiyi alət və vasitələrin (qanuni sahibinə qaytarılmalı olan alət və vasitələr istisna olmaqla) məhkəmənin yekun qərarı ilə məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınması müəyyən edilmişdir.

Cinayət Qanununda xüsusi müsadirənin məqsədləri birbaşa göstərilməsə də, qeyd olunmalıdır ki, xüsusi müsadirə yeni cinayətlərin törədilməsinin, o cümlədən alət və vasitələrin başqa cinayətlərin törədilməsində təkrar istifadəsinin qarşısının alınması, fərdlərin cinayətkar qəsdlərdən qorunması, cinayətin predmeti olan əşyaları dövlət nəfinə keçirməklə onların məhv edilərək tamamilə dövriyyədən çıxarılması kimi məqsədlərlə tətbiq edilən hüquqi institutdur.

Bu zaman istər başa çatmış, istərsə də cinayətə hazırlıq və ya cinayət etməyə cəhd kimi başa çatmayan cinayətlər törədilərkən istifadə edilən alət və vasitələrin başqa cinayətlərin törədilməsində təkrar istifadəsinin qarşısının alınmasının vacibliyi xüsusilə qeyd olunmalıdır.

Təsadüfi deyildir ki, Birləşmiş Millətlər Təşkilatının "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının 12-ci maddəsinin "b" bəndinə əsasən iştirakçı dövlətlər öz daxili hüquq sistemi çərçivəsində Konvensiya ilə əhatə olunan cinayətlərin törədilməsində istifadə olunan və ya onun törədilməsi üçün nəzərdə tutulan əmlakın, avadanlıqların və ya digər vasitələrin müsadirə edilməsini təmin etmək üçün lazımi tədbirlər görürlər.

Əks hal, yeni ictimai təhlükəli əməllərin baş verməsinə şərait yaratmaqla, dövlətin və cəmiyyətin maraqlarının müdafiəsinə və nəticədə beynəlxalq sənədlərdə, həmçinin Cinayət Məcəlləsinin 2.1-ci maddəsi ilə müəyyən edilən cinayətlərin qarşısını almaqla bağlı Cinayət Məcəlləsinin vəzifəsinə və Cinayət-Prosessual Məcəlləsinin 8-ci maddəsi ilə müəyyən edilən şəxsiyyəti, cəmiyyəti və dövləti cinayətkar qəsdlərdən qorumaqla bağlı cinayət mühakimə icraatının vəzifəsinə maneə yarada bilər.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu cinayətə hazırlığın predmeti olan alət və vasitələrin xüsusi müsadirə edilməsinin mümkünlüyünü 2022-ci il 24 fevral tarixli Qərarında istisna etməyərək hesab etmişdir ki, xüsusi müsadirə məsələsi həll edilərkən müvafiq alət və vasitələrin cinayətin törədilməsi üçün istifadə olunan və ya istifadəsi nəzərdə tutulan silah, alət və ya sair vasitələrin olması sübuta yetirilməlidir.

Beləliklə, Cinayət Məcəlləsinin 99-1.1-ci maddəsindəki "cinayət törədilərkən istifadə etdiyi" anlayışı həmin Məcəllənin 27-ci maddəsində nəzərdə tutulmuş "başa çatmış" və "başa çatmayan" cinayətlərlə yanaşı, "cinayətə hazırlıq" (Cinayət Məcəlləsinin 28-ci maddəsi) və "cinayət etməyə cəhd" (Cinayət Məcəlləsinin 29-cu maddəsi) mərhələlərində törədilmiş əməlləri də ehtiva edir.

Göstərilənlərlə yanaşı qeyd edilməlidir ki, "Məhkəmə hökmü haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun (bundan sonra – Ali Məhkəmənin Plenumu) 24 dekabr 2021-ci il tarixli Qərarının 79-cü bəndində də xüsusi müsadirənin tətbiq edilməsini nəzərdə tutan ittiham hökmünün, eləcə də bəraətverici əsaslar olmadan cinayət işi üzrə icraata xitam verilməsi haqqında qərarın təsviri-əsaslandırıcı hissəsində xüsusi müsadirənin zəruriliyi, o cümlədən əmlakın cinayətin törədilməsi zamanı alət və vasitə kimi istifadə olunmasının (başa çatmayan cinayətlər üzrə isə bu qisimdə istifadə olunmaq üçün nəzərdə tutulması) sübutlar gətirilməklə əsaslandırılması müəyyən edilmişdir.

Bununla da, Ali Məhkəmənin Plenumu hər hansı fərqləndirmə aparmadan başa çatmayan cinayətlərin törədilməsində istifadə olunan alət və vasitələrin xüsusi müsadirə edilməsinin mümkünlüyünü qeyd etmişdir.

Beləliklə, əşyanın cinayətin alət və vasitəsi kimi qiymətləndirilməsi onun bilavasitə cinayətin icrası mərhələsində birbaşa (təyinatı üzrə) istifadəsi ilə deyil, həmçinin cinayət törətmək üçün nəzərdə tutulması ilə şərtləndirilir.

Oxşar mövqe "Cinayət mühakimə icraatında əmlak müsadirəsinin tətbiqi ilə bağlı bəzi məsələlərə dair" Rusiya Federasiyası Ali Məhkəməsi Plenumunun 2018-ci il 14 iyun tarixli 17 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Rusiya Federasiyası Ali Məhkəməsi Plenumunun 2023-cü il 12 dekabr tarixli Qərarında ifadə edilmişdir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 99-1.1.1-ci maddəsinin "cinayət törədilərkən istifadə etdiyi" müddəası başa çatmış və ya cəhd növündə başa çatmayan cinayətlərin törədilməsində istifadə olunan alət və vasitələrlə yanaşı, cinayətə hazırlığın predmeti olan alət və vasitələri də əhatə edir (və ya cinayətə hazırlıq mərhələsində cinayətin alət və vasitəsi kimi çıxış edən predmetləri də əhatə edir).

Cinayət Məcəlləsinin 99-2-ci maddəsində nəzərdə tutulmuş cinayət törətmiş şəxsə məxsus olan digər əmlak anlayışına aydınlıq gətirilməsi ilə bağlı qeyd edilməlidir ki, həmin maddənin hərfi mənasından göründüyü kimi, "cinayət törətmiş şəxsə məxsus olan

digər əmlak" kimi cinayət törətmiş şəxsə məxsus olan və həmin Məcəllənin 99-1.1-ci maddəsində göstərilən əmlakı ehtiva etməyən istənilən əmlak çıxış edir.

Belə yanaşma həmçinin beynəlxalq sənədlərdə də əks olunmuşdur ("Korrupsiya əleyhinə" Birləşmiş Millətlər Konvensiyası (UNCAC), "Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılmasına, axtarışına, həbsinə və müsadirəsinə dair" Avropa Şurasının 1990-cı il 8 noyabr tarixli Konvensiyası, Varşava Konvensiyası).

Konstitusiya Məhkəməsi Plenumunun 2022-ci il 24 fevral tarixli Qərarında ifadə edilmiş və yuxarıda göstərilən "müsadirə olunan əmlakın cinayətin törədilməsi nəticəsində əldə olunmasının sübuta yetirilməsinin zəruriliyi" ilə bağlı formalaşdırdığı hüquqi mövqeyə dair qeyd edilməlidir ki, həmin mövqe xüsusi müsadirənin ümumi, o cümlədən prosessual əsaslarını müəyyən etməklə Cinayət Məcəlləsinin 99-2-ci maddəsində göstərilən "cinayət törətmiş şəxsə məxsus olan digər əmlak" anlayışının tətbiqini sual altına alan və ya istisna edən mövqe kimi qiymətləndirilməməlidir.

Xüsusilə qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsi Plenumunun həmin Qərarında formalaşdırdığı hüquqi mövqe, həmçinin cinayət əməli nəticəsində əldə edilmiş ümumi birgə və ya paylı mülkiyyətdə olan əmlaka xüsusi müsadirənin tətbiqini mümkün sayaraq bu qaydanı Cinayət-Prosessual Məcəlləsinin 248.3-cü maddəsinin tələbləri ilə əlaqələndirmişdir. Həmin maddənin ikinci cümləsində isə cinayət yolu ilə əldə edilmiş əmlak və ya cinayətin predmeti istifadə edildiyi, özgəninkiləşdirildiyi və ya başqa səbəblərdən dövlət nəfinə alına bilinmədiyi halda həmin əmlakın dəyəri məbləğində təqsirləndirilən şəxsə məxsus olan digər əmlak üzərinə həbs qoyulması müəyyən edilmişdir.

Göründüyü kimi, Cinayət-Prosessual Məcəlləsinin 248.3-cü maddəsinin müddəaları Cinayət Məcəlləsinin 99-2-ci maddəsinin məzmunu ilə uyğunluq təşkil edir.

Odur ki, Cinayət Məcəlləsinin 99-2-ci maddəsində "cinayət törətmiş şəxsə məxsus olan digər əmlak" anlayışı həmin Məcəllənin 99-1.1-ci maddəsində nəzərdə tutulmuş əmlakı ehtiva etməyən, cinayət törətmiş şəxsin törədilən cinayətlə əlaqəsi olmayan hər hansı əmlakını ehtiva edir.

Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin 99-3.2-ci maddəsinin ikinci cümləsindəki "cinayət törətmiş şəxsin müsadirə edilmiş əmlakdan başqa əmlakı" anlayışının Cəzaların İcrası Məcəlləsinin 187-ci maddəsində nəzərdə tutulan "xüsusi müsadirə olunmalı olan digər əmlak" (yəni, 99-1.1.1–99-1.1.4-cü maddələrində göstərilən əmlak) olub-olmaması ilə bağlı aşağıdakıların qeyd edilməsini vacib hesab edir.

İlk növbədə, Cinayət Məcəlləsinin 15-1-ci fəslinin 99-1-ci maddəsində əmlakın dövlət nəfinə alınmasında ifadə olunan xüsusi müsadirə və 99-3-cü maddəsində nəzərdə tutulan cinayət nəticəsində əmlakın qanuni sahibinə vurulmuş ziyanın ödənilməsi anlayışlarının fərqli olması nəzərə alınmalıdır.

Belə ki, xüsusi müsadirə Cinayət Məcəlləsinin 99-1.1.1– 99-1.1.4-cü maddələrində, həmçinin həmin Məcəllənin 92-2-ci maddəsində (göstərilən zəruri hallarda) sadalanan əmlakın məhkəmənin yekun qərarı ilə məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınması ilə bağlı cinayət-hüquqi tədbir kimi müəyyən edilmişdir.

Cinayət-Prosessual Məcəlləsinin XIX fəslində fiziki və hüquqi şəxsin əmlakına vurulmuş ziyana görə cinayət mühakimə icraatı zamanı mülki iddia vermək hüququ isə cavabdehin məhz mülki-hüquqi məsuliyyətinin realizəsinə xidmət edir.

Qeyd edildiyi kimi, Cinayət Məcəlləsinin 99-3-cü maddəsi cinayət nəticəsində vurulmuş ziyanın müsadirə edilmiş əmlak vasitəsilə ödənilməsi hallarını tənzimləyir. Bu zaman müsadirə məsələsi həll olunarkən, ilk növbədə, cinayət nəticəsində əmlakın qanuni sahibinə vurulmuş ziyan ödənilməlidir (Cinayət Məcəlləsinin 99-3.1-ci maddəsi).

Maddənin məzmunundan göründüyü kimi, cinayət qanunu ilə nəzərdə tutulmuş müsadirənin tətbiq edilməsi üçün əsasların yarandığı hallarda əmlak imperativ şəkildə, ilk növbədə, dövlət nəfinə deyil, zərərçəkmiş şəxsə vurulmuş ziyanın ödənilməsinə yönəlməlidir.

Hətta Cinayət Məcəlləsinin 99-2-ci maddəsində sadalanan hallarda cinayət törətmiş şəxsə məxsus olan digər əmlakın müsadirəsinə əsas yaransa belə, cinayət nəticəsində əmlakın qanuni sahibinə vurulmuş ziyanın ödənilməsi üçün cinayət prosesində mülki iddia verildiyi təqdirdə, həmin əmlak xüsusi müsadirə edilməməklə cinayət törətmiş şəxsdən alınaraq əmlakın qanuni sahibinə vurulmuş ziyanın ödənilməsinə yönəldilməli, əmlakın üzərinə xüsusi müsadirənin təmini tədbiri kimi həbs qoyulduqda isə əmlakın üzərinə həbs qoyulmasının əsası xüsusi müsadirənin təmini tədbirindən mülki iddianın təmini tədbirinə dəyişdirilməlidir.

O da qeyd edilməlidir ki, Cinayət Məcəlləsinin 99-3.2-ci maddəsi əmlakın xüsusi müsadirəsini deyil, cinayət prosesində zərərin ödənilməsi məsələsini tənzimlədiyi üçün həmin maddənin ikinci cümləsinin "cinayət törətmiş şəxsin müsadirə edilmiş əmlakdan başqa əmlakı olduğu hallarda ziyanın qalan hissəsi cinayət törətmiş şəxsin həmin əmlakının hesabına ödənilir" müddəası məhz mülki iddianın təmini tədbiri olaraq cavabdehin başqa əmlakının üzərinə həbsin qoyulmasını, mülki iddia təmin edildiyi təqdirdə isə həmin əmlakın məcburi qaydada vurulmuş ziyanın ödənilməsinə yönəldilməsini ehtiva edən norma kimi qiymətləndirilməlidir. Bu halda "başqa əmlak" kimi cinayətin törədilməsindən əvvəl və yaxud törədilməsindən sonra cinayət törətmiş şəxsə məxsus hər hansı əmlak çıxış edə bilər.

Göstərilən maddələrin təhlili, öz növbəsində, əmlakın xüsusi müsadirəsi ilə yanaşı cinayət nəticəsində əmlakın qanuni sahibinə vurulmuş ziyanın ödənilməsinə yönəldilməsi məsələlərinin hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraat zamanı həll edilməsini istisna edir. Bu, həmçinin Cinayət-Prosessual Məcəlləsinin sadalanan məsələlərin məhz məhkəmənin yekun qərarı ilə həll edilməsini nəzərdə tutan 41.1-1, 346 və 353-cü maddələrinin tələblərindən irəli gəlir.

Cəzaların İcrası Məcəlləsinin 187-ci maddəsi isə hökmün əmlakın müsadirəsinə dair hissəsinin icrası mərhələsində Cinayət Məcəlləsinin 99-1.1-ci maddəsinə əsasən barəsində xüsusi müsadirə tətbiq edilməli olan əmlak aşkar olunduqda həmin əmlakın, müstəsna

olaraq, xüsusi müsadirə edilməsi hallarını nəzərdə tutur. Maddədə göstərildiyi kimi, xüsusi müsadirə cinayət-hüquqi tədbiri icra edildikdən sonra barəsində həmin tədbir tətbiq edilən şəxsin xüsusi müsadirə olunmalı olan digər əmlakı aşkar edildiyi hallarda, icra məmuru yekun qərar çıxarmış məhkəməyə və ya yekun qərarın icra edildiyi yerin məhkəməsinə həmin əmlakın müsadirə edilməsi barədə təqdimat verir.

Göründüyü kimi, Cinayət Məcəlləsinin müsadirə edilmiş əmlak hesabına əmlakın qanuni sahibinə vurulmuş ziyanın ödənilməsini nəzərdə tutan 99-3.2-ci maddəsi və Cəzaların İcrası Məcəlləsinin məhkəmənin yekun qərarının icrasından sonra aşkar edilmiş əmlakın xüsusi müsadirəsini müəyyən edən 187-ci maddəsi fərqli münasibətləri tənzimləyən normalardır. Bununla bağlı, Cinayət Məcəlləsinin 99-3.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulan başqa əmlak anlayışı ziyanın ödənilməsinə yönələ biləcək istənilən əmlakı ehtiva etdiyi halda, Cəzaların İcrası Məcəlləsinin 187-ci maddəsinə əsasən "digər əmlak" dedikdə Cinayət Məcəlləsinin 99-1.1.1–99-1.1.4-cü maddələrində nəzərdə tutulan xüsusi müsadirə (dövlət nəfinə) edilə bilən əmlak başa düşülməlidir.

Qeyd edilməlidir ki, müxtəlif qanunvericilik aktları fərqli ictimai münasibətləri, yaxud ictimai münasibətlərin müxtəlif aspektlərini tənzimlədiyindən həmin normativ aktlarda anlayışlara verilən izah və təriflər, bir qayda olaraq, onların hüquqi məqsəd və təyinatına, yerinə yetirdiyi funksiyalara uyğun müəyyən edilir. Məhz bundan irəli gəlir ki, eyni anlayış bəzən müxtəlif normativ aktlarda fərqli mənalar kəsb edə və ya əhatə dairəsinə görə bir-birindən fərqlənə bilir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsində nəzərdə tutulmuş mənzil toxunulmazlığı hüququ baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 157-ci maddəsində əks olunmuş "mənzil" anlayışının şərh edilməsinə dair" 2024-cü il 25 noyabr tarixli Qərarı).

Bu səbəbdən Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 99-3.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulan "başqa əmlak" anlayışı Cəzaların İcrası Məcəlləsinin 187-ci maddəsindəki "digər əmlak" anlayışı ilə əlaqəli olmamaqla, həmin normalar konstitusiya-hüquqi təyinatı, habelə bu normalar ilə tənzimlənən məsuliyyətin (mülki-hüquqi və cinayət) həyata keçirilməsi vasitələri baxımından fərqli məqsədlərə xidmət edir.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Cinayət Məcəlləsinin 99-1.1.1-ci maddəsində nəzərdə tutulmuş "cinayət törədilərkən istifadə etdiyi" müddəası hazırlanan cinayətdə alət və vasitələr kimi istifadə edilməsi nəzərdə tutulan əşyaları da əhatə edir;

- Cinayət Məcəlləsinin 99-2-ci maddəsinin "cinayət törətmiş şəxsə məxsus olan digər əmlak" müddəası həmin Məcəllənin 99-1.1-ci maddəsində göstərilən əmlaka aid edilməyən cinayət törətmiş şəxsə məxsus olan hər hansı əmlakı nəzərdə tutur;

- Cinayət Məcəlləsinin 99-3.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş "cinayət törətmiş şəxsin müsadirə edilmiş əmlakdan başqa əmlakı" müddəası məhkəmənin yekun qərarı ilə cinayət nəticəsində əmlakın qanuni sahibinə vurulmuş ziyanın ödənilməsinə yönələn, həmçinin cinayətin törədilməsindən əvvəl və ya törədilməsindən sonra cinayət törətmiş şəxsə məxsus olan istənilən əmlakı ehtiva edir;

- Cinayət Məcəlləsinin 15-1-ci fəslinin, eləcə də Cinayət-Prosessual Məcəlləsinin 41.1-1, 346 və 353-cü maddələrinin tələblərindən irəli gələrək əmlakın xüsusi müsadirəsi ilə yanaşı, cinayət nəticəsində onun qanuni sahibinə vurulmuş ziyanın ödənilməsinə yönəldilməsi məsələləri məhkəmənin yekun qərarı ilə həll edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65–67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-1.1.1-ci maddəsindəki "cinayət törədilərkən istifadə etdiyi" müddəası hazırlanan cinayətdə alət və vasitələr kimi istifadə edilməsi nəzərdə tutulan əşyaları da əhatə edir.

**2.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-2-ci maddəsinin "cinayət törətmiş şəxsə məxsus olan digər əmlak" müddəası həmin Məcəllənin 99-1.1-ci maddəsində göstərilən əmlaka aid edilməyən cinayət törətmiş şəxsə məxsus olan hər hansı əmlakı nəzərdə tutur.

**3.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-3.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulan "cinayət törətmiş şəxsin müsadirə edilmiş əmlakdan başqa əmlakı" müddəası məhkəmənin yekun qərarı ilə cinayət nəticəsində əmlakın qanuni sahibinə vurulmuş ziyanın ödənilməsinə yönələn, həmçinin cinayətin törədilməsindən əvvəl və ya törədilməsindən sonra cinayət törətmiş şəxsə məxsus olan istənilən əmlakı ehtiva edir.

**4.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15-1-ci fəslinin, eləcə də Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 41.1-1, 346 və 353-cü maddələrinin tələblərindən irəli gələrək əmlakın xüsusi müsadirəsi ilə yanaşı, cinayət nəticəsində onun qanuni sahibinə vurulmuş ziyanın ödənilməsinə yönəldilməsi məsələləri məhkəmənin yekun qərarı ilə həll edilməlidir.

**5.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**6.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**7.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr: Fərhad ABDULLAYEV**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**
**Q Ə R A R I**

# Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144, 199, 214, 214-1, 214-3, 215, 228, 229, 274, 278 və 283-1-ci maddələrinin "Qeyd" hissələrinin bəzi müddəalarının şərh edilməsinə dair

**12 may 2025-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Fikrət Məmmədov, İsa Nəcəfov, Kamran Şəfiyev (məruzəçi-hakim) və Xanlar Vəliyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144, 199, 214, 214-1, 214-3, 215, 228, 229, 274, 278 və 283-1-ci maddələrinin "Qeyd" hissələrinin bəzi müddəalarının şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun sorğusunu və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizəsini, Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyası, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası və Azərbaycan Respublikasının Vəkillər Kollegiyası tərəfindən təqdim olunmuş mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının dosenti M.Bayramovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

## MÜƏYYƏN ETDİ:

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 144, 199, 214, 214-1, 214-3, 215, 228, 229, 274, 278 və 283-1-ci maddələrinin "Qeyd" hissələrində nəzərdə tutulmuş şəxsin cinayət məsuliyyətindən əməllərində başqa cinayət tərkibi olmadığı halda azad edilməsini müəyyən edən müddəanın şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, Cinayət Məcəlləsinin 72.1-ci (səmimi peşmanlıqla bağlı cinayət məsuliyyətindən azad etmə) maddəsinə görə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs könüllü gəlib təqsirini boynuna aldıqda, cinayətin üstünün açılmasına fəal kömək etdikdə, cinayət nəticəsində dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri başqa yolla aradan qaldırdıqda cinayət məsuliyyətindən azad edilə bilər.

Həmin Məcəllənin 72.2-ci maddəsinə əsasən isə başqa növ cinayət törətmiş şəxs, bu Məcəllənin 72.1-ci maddəsində nəzərdə tutulmuş şərtlər mövcud olduqda, yalnız bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində bilavasitə müəyyən edilmiş hallarda cinayət məsuliyyətindən azad edilir.

Cinayət Məcəlləsinin 72.2-ci maddəsində qeyd olunan əsaslarla həmin Məcəllənin Xüsusi hissəsinin bir sıra maddələrinin "Qeyd" hissələrində cinayət törətmiş şəxslərin cinayət məsuliyyətindən azad edilməsi müəyyən edilmişdir. Bəzi maddələrdə cinayəti törətmiş şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün onun əməlində başqa cinayət əməlinin tərkibinin olmaması tələbi nəzərdə tutulmuşdur.

Sorğuverən qeyd etmişdir ki, təcrübədə belə maddələrdə nəzərdə tutulan cinayətləri törətmiş və maddələrin "Qeyd" hissələrində cinayət məsuliyyətindən azad edilmə üçün əsas olan hərəkətləri etmiş şəxslərin əməllərində başqa cinayət əməlinin tərkibi olduqda onun "Qeyd" hissənin aid olduğu maddə üzrə cinayət məsuliyyətindən azad edilməsi ilə bağlı fərqli yanaşmalar mövcuddur.

Bəzi hüquq tətbiqedənlər hesab edirlər ki, şəxsin əməlində başqa cinayət tərkibi olduqda o, yalnız həmin cinayətə görə məsuliyyətə cəlb edilməli, müvafiq hərəkətləri etmiş olduğu təqdirdə isə Cinayət Məcəlləsinin 144, 199, 214, 214-1, 214-3, 215, 228, 229, 274, 278 və 283-1-ci maddələrinin "Qeyd" hissələrinə əsasən cinayət məsuliyyətindən azad olunmalıdır.

Digər yanaşma tərəfdarlarına görə şəxsin əməlində başqa cinayət tərkibi də olduğu halda o, müvafiq maddələrin "Qeyd" hissələrinə əsasən cinayət məsuliyyətindən azad edilməməli, cinayətlərin məcmusu üzrə məsuliyyətə cəlb olunmalıdır.

Prokurorluğun qənaətinə görə, hüquq tətbiqetmə təcrübəsində ziddiyyətlərin aradan qaldırılması, vahid istintaq və məhkəmə təcrübəsinin formalaşdırılması, qanunvericilik normalarının eyni qaydada tətbiqinin və

hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədilə Cinayət Məcəlləsinin 144, 199, 214, 214-1, 214-3, 215, 228, 229, 274, 278 və 283-1-ci maddələrinin "Qeyd" hissələrində nəzərdə tutulmuş şəxsin cinayət məsuliyyətindən əməllərində başqa cinayət tərkibi olmadığı halda azad edilməsini müəyyən edən müddəanın şərh olunmasına zərurət yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar aşağıdakıların qeyd edilməsini vacib hesab edir.

Cinayət törətmiş şəxsin dövlət məcburetmə tədbirlərinə məruz qalmalı olması cinayət qanunvericiliyinin ümumi qəbul olunmuş yanaşmasıdır. Cinayət məsuliyyəti cinayət törətmiş şəxsin dövlət adından mühakimə edilməsini, təqsiri müəyyən edilmiş şəxslərə cəza və digər dövlət-məcburiyyət tədbirlərinin tətbiq edilməsini nəzərdə tutur ki, bu da ictimai münasibətlərin qorunmasında, cinayətlərin qarşısının alınmasında, cəmiyyət üzvlərinə çəkindirici təsirin göstərilməsində mühüm vasitə rolunu oynayır.

Cinayət törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsinin labüdlüyünə baxmayaraq, həmin şəxslərin qanunla nəzərdə tutulan bir sıra hallarda cinayət məsuliyyətindən azad edilməsi istisna edilmir. Cinayət məsuliyyətindən azad etmə şəxsin törətdiyi cinayətə görə dövlət adından mühakimə edilməsindən və barəsində ittihamedici hökmün çıxarılmasından, habelə cəzanın tətbiq edilməsindən imtina etməklə azad edilməsidir. Belə azad etməyə əsas verən hallar, onun şərtləri və qaydaları cinayət və cinayət-prosessual qanunvericilikləri ilə müəyyənləşdirilir.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72-ci maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndinin "cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilmə" ilə bağlı müddəasının şərh edilməsinə dair" 2022-ci il 28 dekabr tarixli Qərarında formalaşdırdığı hüquqi mövqeyə əsasən, cinayət məsuliyyətindən azad etmə təqsirləndirilən şəxsi məhkəmənin ittiham hökmündən və dövlət-məcburiyyət tədbirlərinin təsirinə məruz qalmaq vəzifəsindən azad etmək barədə səlahiyyətli dövlət orqanının rəsmi aktında ifadə edilmiş qərardır.

Cinayət məsuliyyətindən azad etməni o zaman əsaslandırılmış və ədalətli hesab etmək olar ki, cinayət törətdikdən sonra təqsirləndirilən şəxsin cinayət cəzası təyin edilmədən azad edilməsi şəxsin hüquq və azadlıqlarının, bütün hüquq qaydalarının cinayətkar qəsddən müdafiəsinə maneə olmur və bununla yanaşı təqsirkar şəxsin islah olunmasına, yeni cinayətlərin törədilməsinin qarşısının alınmasına yardımçı, cinayət qanunvericiliyinin vəzifələrinə isə müvafiq olur və cəzanı tətbiq etmədən də onun məqsədlərinə nail olmağa imkan verir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73.1 və 73.2-ci maddələrinin şərh edilməsinə dair" 2022-ci il 25 iyul tarixli Qərarı).

Cinayət məsuliyyətindən azad etmə halları Cinayət Məcəlləsinin 11-ci fəsli (72-75-ci maddələri) ilə yanaşı, həmin Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrinin "Qeyd" hissələrində də nəzərdə tutulmuşdur.

Məlum olduğu kimi, Cinayət Məcəlləsinin Xüsusi hissəsindəki maddələrdə müəyyən olunan qeydlər həmin maddələrin ayrılmaz tərkib hissəsini təşkil edir. "Qeyd" hissələrində öz əksini tapmış və cinayət məsuliyyətindən azad etmə ilə bağlı münasibətləri tənzimləyən normaların Cinayət Məcəlləsinin Ümumi hissəsində deyil, məhz Xüsusi hissəsindəki maddələrdə nəzərdə tutulması ondan irəli gəlir ki, həmin qeydlərdə göstərilən məsuliyyətdən azad etmənin əsasları, şərtləri, müəyyən olunma məqsədi bir-birindən tamamilə fərqlənir. Onlar hər hansı kateqoriyadan olan cinayət əməllərinə ümumilikdə şamil oluna bilmir və hər bir cinayət əməlinin xarakterinə uyğun olaraq həmin əməli nəzərdə tutan normanın qeydində onun tərkib elementi kimi müəyyən edilməklə, digər maddələrdə nəzərdə tutulmuş cinayət tərkiblərinə münasibətdə tətbiqi istisna edilir.

Konstitusiya Məhkəməsinin Plenumu "Cinayət Məcəlləsinin 306-cı maddəsinin "Qeyd" hissəsinin həmin Məcəllənin 11-ci fəsli və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39, 40, 41 və 43-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 2023-cü il 7 iyul tarixli Qərarında da göstərmişdir ki, Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddələrinin "Qeyd" hissələrində istər Cinayət Məcəlləsinin 72.1 və 73.1-ci maddələrində göstərilən şərtləri, istərsə də tamamilə fərqli şərtləri məsuliyyətdən azad etmə üçün əsas kimi təsbit edən qanunverici hər bir cinayətin xarakterindən, ictimai təhlükəlilik dərəcəsindən, cinayət məsuliyyətindən azad edilməni şərtləndirən hərəkətlərin icrası nəticəsində əldə olunacaq nəticələrin əhəmiyyətindən asılı olaraq belə normaları müəyyən etməkdə fərqli məqsədlərdən çıxış etmişdir. Bu hallarda məsuliyyətdən azad edilmə heç də yalnız cinayət törətmiş şəxsin ictimai təhlükəliliyini itirdiyinə görə deyil, həmçinin cinayətlərin törədilməsinin və ya onun mənfi nəticələrinin baş verməsinin qarşısının alınması, daha əhəmiyyətli ictimai münasibətlərin mühafizəsi və cinayət qanunvericiliyinin qarşısında duran digər vəzifələrdən irəli gəlir.

Odur ki, sorğuda istinad edilən maddələrin "Qeyd" hissələrində nəzərdə tutulmuş tənzimetmənin məhz mahiyyəti və təyinatı nəzərə alınmaqla qaldırılmış məsələyə münasibət bildirilməlidir.

Həmin maddələrin "Qeyd" hissələrinin əksəriyyətində məsuliyyətdən azad etmənin şərti olaraq "cinayət əməlinin qarşısının alınmasına yardım etmə" (Cinayət Məcəlləsinin 214 və 214-1-ci maddələri), "Azərbaycan Respublikasının mənafelərinə ziyan vurulmasının qarşısının alınmasına sair formada kömək etmə" (Cinayət Məcəlləsinin 274 və 278-ci maddələri), bəzilərində isə "cinayətin predmetini könüllü surətdə təhvil vermə" (Cinayət Məcəlləsinin 228 və 229-cu maddələri), "zərərçəkmiş şəxsi azad etmə" (Cinayət Məcəlləsinin 144 və 215-ci maddələri) kimi müddəalar müəyyən olunmuşdur. Bu isə ondan irəli gəlir ki, belə cinayət əməllərinin vaxtında aşkarlanıb qarşısının alınmaması daha təhlükəli nəticələrə səbəb ola, habelə başqa cinayətlərin törədilməsinə şərait yarada bilər. Qanunvericilikdə öz əksini tapmış bu kimi cinayət əməllərini törədən şəxslərin müəyyən şərtlərdə məsuliyyətdən azad edilməsinə imkan verən hüquq normaları da məhz təqsirkar şəxsi müvafiq hərəkətlərin icrasına stimullaşdırmaqla

baş verə biləcək ictimai təhlükəli nəticələrin vaxtında qarşısının alınmasına, cinayətin predmetindən istifadə edilməklə başqa ictimai təhlükəli əməllərin törədilməsini önləməyə xidmət edən hüquqi vasitə kimi çıxış edir.

Nəzərə alınmalıdır ki, belə əməllərin yüksək ictimai təhlükəliliyinə baxmayaraq bu cinayətlərə görə məsuliyyətdən azad olunma dispozitiv deyil, müvafiq şərtləri yerinə yetirən şəxsə münasibətdə tətbiq edilməli olan imperativ normalar kimi təsbit edilmişdir. Bununla da cinayət törədən şəxsdə məsuliyyətdən azad olunacağına dair əminlik yaratmaqla o, müvafiq hərəkətləri icra etməyə təşviq edilir ki, nəticədə daha ictimai təhlükəli nəticələrin baş verməsinin qarşısı alınır, dövlətin və cəmiyyətin mənafelərinin qorunmasına nail olunur.

Qeyd edilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə qənaətə gəlir ki, şəxsin əməlində başqa cinayət tərkibinin olması onun Cinayət Məcəlləsinin yuxarıda sadalanan maddələrinin "Qeyd" hissələrinə uyğun davranış nümayiş etdirdiyi təqdirdə həmin qeydin aid olduğu maddə üzrə cinayət məsuliyyətindən azad edilməsinə mane olmamalı, yol verdiyi digər cinayət əməlinə görə isə cinayət məsuliyyəti istisna edilməməlidir.

Məsələn, Cinayət Məcəlləsinin 144 və ya 215-ci maddəsi ilə nəzərdə tutulmuş əməli törətmiş şəxs könüllü olaraq zərərçəkən şəxsi azad edərsə, o həmin maddələrin "Qeyd" hissələri üzrə cinayət məsuliyyətindən azad olunmalıdır. Lakin şəxsin əməli həm də digər cinayətlərin törədilməsi ilə müşayiət olunduğu təqdirdə o, müvafiq əməllərə görə cinayət məsuliyyətinə cəlb olunmaqla Cinayət Məcəlləsinin 144 və ya 215-ci maddəsi üzrə məsuliyyətdən azad olunmalıdır.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234-cü maddəsinin "Qeyd" hissəsinin birinci bəndinin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsi ilə əlaqəli şəkildə şərh olunmasına dair" 2024-cü il 1 oktyabr tarixli Qərarında ifadə edilmiş hüquqi mövqe də ondan ibarət olmuşdur ki, normada müəyyən edilmiş şərtləri yerinə yetirən şəxs məhz həmin əmələ münasibətdə "Qeyd" hissəsinə əsasən cinayət məsuliyyətindən azad edilir.

Oxşar hüquqi mövqe Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun (bundan sonra – Ali Məhkəmənin Plenumu) müvafiq qərarlarında da öz əksini tapmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu sorğuda xüsusi ilə qeyd edilən Cinayət Məcəlləsinin 228-ci maddəsinin "Qeyd" hissəsinə münasibətdə bildirməyi vacib hesab edir ki, həmin normanın məzmununa əsasən şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün iki şərt mövcud olmalıdır:

- Cinayət Məcəlləsinin 228-ci maddəsində göstərilən əşyalar (odlu silah, onun komplekt hissələri, döyüş sursatı və s.) könüllü surətdə təhvil verməli;
- əməllərdə başqa cinayət əməlinin tərkibi olmamalıdır.

"Silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların qanunsuz hazırlanmasına, dövriyyəsinə və talanmasına dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" Ali Məhkəmənin Plenumunun 27 may 2005-ci il tarixli Qərarının 15-ci maddəsinə əsasən, odlu silahı, onun komplekt hissələrini, döyüş sursatını, partlayıcı maddələri və qurğuları könüllü surətdə təhvil verən şəxs, əgər onun əməlində başqa cinayət əməllərinin tərkibi yoxdursa, Cinayət Məcəlləsinin 228-ci maddəsi ilə məsuliyyət daşımır.

Ali Məhkəmənin Plenumunun göstərilən mövqeyinə görə, əməlində Cinayət Məcəlləsinin digər bir maddəsində, məsələn 232.1-ci maddədə (odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə) təsbit edilən cinayətin tərkibi olan şəxs könüllü olaraq odlu silahı təhvil verərsə, ictimai faydalı məzmun daşıyan bu cür davranışın doğurduğu hüquqi nəticələr ona tətbiq edilməli və o, yalnız Cinayət Məcəlləsinin 232.1-ci maddəsi ilə məsuliyyətə cəlb edilməli, Cinayət Məcəlləsinin 228-ci maddəsində göstərilən əməllərə görə isə həmin maddənin "Qeyd" hissəsinə əsasən cinayət məsuliyyətindən azad edilməlidir.

Cinayət Məcəlləsinin Xüsusi hissəsinin digər maddələrinin cinayət məsuliyyətindən azad etməni nəzərdə tutan "Qeyd" hissələrində "əməldə başqa cinayət tərkibinin olmaması" ilə bağlı hər hansı müddəanın nəzərdə tutulmaması səbəbindən sorğuda qeyd edildiyi kimi hüquq tətbiqetmə təcrübəsində yaranan fikir ayrılığına münasibətdə nəzərə alınmalıdır ki, Cinayət Məcəlləsinin müvafiq maddələrində elə cinayət tərkibləri nəzərdə tutulmuşdur ki, onlar bir çox hallarda ya cinayət əməlinin xarakterinə, ya da cinayət məsuliyyətini ağırlaşdıran tövsifedici tərkiblərin əlamətlərinə görə başqa cinayətlərin törədilməsi ilə müşayiət oluna və cinayətlərin məcmusununun yaranması ilə nəticələnə bilər (məsələn, qanunsuz olaraq əldə edilmiş və ya hazırlanmış silahdan istifadə etməklə müxtəlif cinayətlərin törədilməsi (Cinayət Məcəlləsinin 228, 229-cu maddələri və s.).

Bu baxımdan Cinayət Məcəlləsinin 144, 199, 214, 214-1, 214-3, 215, 228, 229, 274, 278 və 283-1-ci maddələrinin "Qeyd" hissələrində nəzərdə tutulmuş "əməlində başqa cinayətin tərkibi olmadıqda", "onun hərəkətlərində başqa cinayətin tərkibi yoxdursa", "əməlində başqa cinayət tərkibinin əlamətləri olmadıqda" kimi oxşar məzmunlu müddəalar şəxsin əməlində başqa cinayət tərkibinin olmadığı halda müvafiq qeydə əsasən tamamilə cinayət məsuliyyətindən azad edilə biləcəyini müəyyən edən, əməldə digər cinayət tərkibi olduqda isə yalnız həmin cinayət əməlinə görə cinayət məsuliyyətinə görə cəlb edilməli olduğunu ehtiva edən tənzimetməni nəzərdə tutur.

Əks yanaşma, yəni həmin müddəaların genişləndirici şərhi müvafiq təşviqedici normaların müəyyən edilməsi zamanı qanunvericinin güddüyü məqsədə (cinayət törədən şəxsi ictimai faydalı davranışa stimullaşdırmaqla daha təhlükəli nəticələrin, başqa cinayət əməllərinin qarşısının alınması) və Cinayət Məcəlləsinin 2-ci maddəsində təsbit edilmiş vəzifələrə uyğunsuzluq təşkil edər.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

- Cinayət Məcəlləsinin 144, 199, 214, 214-1, 214-3, 215, 228, 229, 274, 278 və 283-1-ci maddələrinin "Qeyd" hissələrində nəzərdə tutulmuş hərəkətləri yerinə yetirmiş şəxs həmin maddə üzrə cinayət məsuliyyətindən azad edilir. Şəxsin əməlində başqa cinayət tərkibinin də olduğu halda o, yalnız həmin cinayətə görə məsuliyyətə cəlb edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65–67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144, 199, 214, 214-1, 214-3, 215, 228, 229, 274, 278 və 283-1-ci maddələrinin "Qeyd" hissələrində nəzərdə tutulmuş hərəkətləri yerinə yetirmiş şəxs həmin maddə üzrə cinayət məsuliyyətindən azad edilir. Şəxsin əməlində başqa cinayət tərkibinin də olduğu halda o, yalnız həmin cinayətə görə məsuliyyətə cəlb edilir.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**3.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr: Fərhad ABDULLAYEV**

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU
## Ə M R
## № 150/60

### Azərbaycan Respublikası Baş prokurorunun 26 sentyabr 2020-ci il tarixli 15/6 nömrəli əmri ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "İşin Təşkili Qaydaları"nda dəyişiklik edilməsi haqqında

**Bakı şəhəri** **7 may 2025ci il**

"Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilərək Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda dəyişikliklərin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 28 dekabr 2024-cü il tarixli 06 nömrəli qərarının icrasının təmin edilməsi barədə" 29.12.2024-cü il tarixli 150/59 №-li əmr imzalanmışdır.

Həmin əmrin ikinci bəndində Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda təsdiq edilmiş dəyişikliklərə uyğun olaraq, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "İşin Təşkili Qaydaları"nda müvafiq dəyişikliklərin hazırlanıb təsdiq üçün təqdim olunması nəzərdə tutulmuşdur.

Qeyd olunanlara əsasən "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 26 sentyabr 2020-ci il tarixli 15/6 nömrəli əmrlə təsdiq edilərək icraya yönəldilmiş Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "İşin Təşkili Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 13.3-cü və 13.4-cü bəndlərdə "Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestrinə" sözləri "Elektron prokurorluq" informasiya sisteminin "Prokurorluğun Normativ Reyestri" (PNR) moduluna" sözləri ilə əvəz edilsin.

**1.2.** Aşağıdakı məzmunda 15.4-1-ci bənd əlavə edilsin:

**"15.4-1.** Rəhbərlər kağız formatda verilmiş sənədlərə təqdim olunan gün, yaxud ertəsi gündən gec olmayaraq baxmalıdırlar. Sənədə hansı idarə və ya şöbə tərəfindən baxılması və nəticəsinin rəhbərə məruzə edilməsi rəhbərin dərkənarında əks olunur. Dərkənarda sənədin icra qaydası və xarakteri, habelə icraçıları (zəruri hallarda icra müddəti) barədə konkret göstəriş öz əksini tapmalıdır. İcra üçün əlavə tapşırıq verilməsi lazım olmayan sənədlərdə yazışma nömrəsi göstərilməklə icraçının soyadı qeyd olunur. Dərkənar sənədin üzərində və ya standart vərəqin dörddə birindən az formatda olmayan ayrıca vərəqdə yazılır, imzalanır, sənədin qeydiyyat nömrəsi və tarixi qoyulur.

**1.3.** Aşağıdakı məzmunda 15.14-2-ci bənd əlavə edilsin:

**"15.14-2.** Vətəndaşların müraciətləri, habelə cinayət işləri və materiallar ilə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəhbərliyinə məruzə ilə bağlı tərtib edilmiş arayışlar yalnız nəzarət icraatlarına əlavə edilir, həmin arayışların material və cinayət işlərinə əlavə edilməsi yolverilməzdir."

**1.4.** 15.15-ci bənddə "idarə və şöbələrin prokurorları tərəfindən" sözləri "Baş İdarə rəisi, onun müavinləri,

idarə və şöbələrin rəisləri, onların müavinləri, Baş İdarənin böyük prokurorları və əvvəlcədən tərtib edilmiş növbətçilik qrafikinə uyğun olaraq Təşkilati və informasiya təminatı idarəsinin prokurorları tərəfindən" sözləri ilə əvəz edilsin.

**1.5.** 15.20-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"15.20.** Təşkilati və informasiya təminatı idarəsi qəbul edilmiş vətəndaşların müvafiq qaydada qeydiyyatının aparılmasını və qəbulun həyata keçirilməsi üzrə təşkilati və nəzarət tədbirlərinin görülməsini, "Vətəndaşların qəbulu həyata keçirildikdən sonra qəbul ilə bağlı zəruri məlumatların dərhal EPİS-in "Vətəndaş qəbulu" moduluna daxil edilməsini təmin edir."

**1.6.** 16.1-ci bənddə "Baş idarənin əməliyyat işçiləri" sözləri "Baş İdarənin İstintaq, Preventiv tədbirlər və təhqiqat, Əməliyyat idarələrinin və Əməliyyat təminatı şöbəsinin əməliyyat işçiləri" sözləri ilə əvəz edilsin.

**1.7.** Aşağıdakı məzmunda 20-2.2-1-ci bənd əlavə edilsin:

**"20-2.2-1.** Elektron imza (SİMA TOKEN) itirildikdə yenidən bərpa edilməsi xərcləri işçi tərəfindən müvafiq Sertifikat xidmətləri mərkəzinə ödənilir. İmza itirildikdə işçi tərəfindən dərhal birbaşa rəhbərinə, sonuncu tərəfindən isə Təşkilati və informasiya təminatı idarəsi vasitəsilə Təşkilat və icraya nəzarət idarəsinə məlumat verilir. İşçi başqa vəzifəyə təyin edildikdə, sərəncama götürüldükdə, orqandan xaric edildikdə, təqaüdə çıxdıqda, öldükdə, həmçinin Elektron imza (SİMA TOKEN) yararsız hala düşdükdə Təşkilat və icraya nəzarət idarəsinə təhvil verilir."

**1.8.** Aşağıdakı məzmunda 21.1-1-ci bənd əlavə edilsin:

**"21.1-1.** Kollegiya qərarının icrası ilə əlaqədar Baş İdarənin aidiyyəti struktur qurumları tərəfindən icrasının nəticəsinə dair məlumatların konkret müddət nəzərdə tutulduğu halda icra edildikdən 1 iş günü ərzində, müddət nəzərdə tutulmadığı halda isə növbəti hesabatı dövrünün başlamasına 1 ay qalmış EPİS-in "Təşkilat və icraya nəzarət idarəsi" modulunun "Kollegiya" alt moduluna yerləşdirilməsi təmin edilir."

**1.9.** 35.50-ci bənddə "hazırlayır." sözü "hazırlayır, "Vətəndaşların qəbulu həyata keçirildikdən sonra qəbul ilə bağlı zəruri məlumatların EPİS-in "Vətəndaş qəbulu" moduluna daxil edilməsini təmin edir." sözləri ilə əvəz edilsin.

**1.10.** Aşağıdakı məzmunda 35.58-1-ci bənd əlavə edilsin:

**"35.58-1.** Baş idarədə təhvil-təslim aparılması aşağıdakı qaydada aparılır:

**35.58-1.1.** Baş İdarənin böyük prokurorları, idarə və şöbələrin böyük prokurorları, prokurorları, prokuror-kriminalistləri, mühüm işlər üzrə böyük müstəntiqləri və müstəntiqləri, mühüm işlər üzrə böyük əməliyyatçıları və əməliyyatçıları vəzifəyə təyin və vəzifədən azad edilən zaman təhvil-təslim struktur qurumların rəhbərləri tərəfindən aparılır. Təhvil-təslimin nəticəsi təhvil-təslimdə iştirak edən aidiyyəti şəxslər tərəfindən təsdiq edilməklə və ya imzalanmaqla bu barədə EPİS vasitəsilə Təşkilati və informasiya təminatı idarəsinə məlumat verilir.

**35.58-1.2.** Təhvil-təslim Baş İdarənin əməliyyat işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə əmr elan edildikdən ən geci 7 gün müddətində həyata keçirilməlidir.

**35.58-1.3.** Baş İdarənin strukturuna daxil olan qurumlarda aparılmasından asılı olaraq təhvil- təslimin nəticələrinə dair tərtib olunmuş aktlarda aşağıdakı məlumatlar əksini tapmalıdır:

**35.58-1.3.1.** əməliyyat və texniki işçilərlə komplektləşdirilməsi işinin vəziyyəti;

**35.58-1.3.2.** iş planları üzrə müvafiq sənədlərin mövcudluğu;

**35.58-1.3.3.** icraatda olan və həllini tapmamış vətəndaşların müraciətlərinin, cinayət xarakterli materialların, istintaq edilən cinayət işlərinin mövcudluğu;

**35.58-1.3.4.** daxil olmuş tapşırıqların icra vəziyyəti;

**35.58-1.3.5.** istintaq edilən və icraatı dayandırılmış cinayət işləri üzrə maddi sübutların mövcudluğu;

**35.58-1.3.6.** xidməti silahların mövcudluğu;

**35.58-1.3.7.** kriminalistika texnikasının, nəqliyyat vasitələrinin, prokurorluğun əsas vəsaitləri və digər inventarlarının mövcudluğu;

**35.58-1.3.8.** kargüzarlıq işlərinin aparılması qaydalarına müvafiq olaraq təsdiq edilmiş siyahı üzrə naryadların və qeydiyyat kitablarının mövcudluğu;

**35.58-1.3.9.** dəftərxanaya təhvil verilmiş xidməti sənədlərin, naryadların, vətəndaşların müraciətləri və cinayət xarakterli məlumatlar üzrə materialların, icraatına xitam verilmiş cinayət işlərinin mövcudluğu və onların sayının müvafiq qeydiyyat jurnallarındakı göstəricilərə uyğun olub-olmaması;

**35.58-1.3.10.** möhür və ştampların saxlanılması vəziyyəti;

**35.58-1.3.11.** fəaliyyətə dair digər zəruri məlumatlar.

**35.58-1.4.** Məxfi sənədlərin və digər məxfi məlumat daşıyıcılarının təhvil-təslimi xüsusi qaydada aparılır.

**35.58-1.5.** Təhvil-təslim zamanı məxfi sənədlərin və digər məxfi məlumat daşıyıcılarının saxlanılması və uçotu vəziyyətinin Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası"nın tələblərinə uyğunluğuna diqqət yetirilməlidir.

**35.58-1.6.** Məxfi sənədlərin və digər məxfi məlumat daşıyıcılarının mövcudluğu müvafiq qeydiyyat jurnalları ilə üzləşdirilməlidir.

**35.58-1.7.** Məxfi sənədlərin və digər məxfi məlumat daşıyıcılarının təhvil-təslimi haqqında ayrıca akt tərtib olunmaqla, həmin aktda:

**35.58-1.7.1.** məxfi sənədlərin və digər məxfi məlumat daşıyıcılarının saxlanılması və uçotu vəziyyətinin "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası"nın tələbləri ilə uyğunluğuna dair məlumatlar;

**35.58-1.7.2.** məxfi sənədlərin və digər məxfi məlumat daşıyıcılarının mövcudluğunun müvafiq qeydiyyat jurnalları ilə üzləşdirilməsinin nəticələri;

**35.58-1.7.3.** məxfi sənədlərin və digər məxfi məlumat daşıyıcılarının məxfilik dərəcələri, rekvizitləri və onlara dair digər zəruri məlumatlar əks olunmalıdır.

**35.58-1.8.** Məxfi sənədlərin və digər məxfi məlumat daşıyıcılarının təhvil-təslimi haqqında akt iki nüsxədə tərtib edilməklə, təhvil-təslimdə iştirak edən aidiyyəti şəxslər tərəfindən imzalanır və müəyyən olunmuş qaydada məxfiləşdirilir.

**35.58-1.9.** Təhvil-təslim aparıldığı struktur qurumda məxfi sənədlər və digər məxfi məlumat daşıyıcıları mövcud olmadıqda aktda bu barədə müvafiq qeyd aparılır.

**35.58-1.10.** Məxfi sənədlərin və digər məxfi məlumat daşıyıcılarının təhvil-təslimi haqqında akt həmin sənəd və məlumatlarla işləməyə buraxılışı olan şəxs və ya şəxslər tərəfindən ayrıca tərtib olunmaqla, aktın birinci nüsxəsi müvafiq qaydada təsdiq olunaraq Baş İdarənin məxfi kargüzarlığı həyata keçirən müvafiq struktur qurumunda, ikinci nüsxəsi isə təhvil- təslimin aparıldığı qurumların məxfi sənədlər naryadında saxlanılır.

**35.53-1.11.** İdarə digər struktur qurumlarla birlikdə təhvil-təslim aktları üzrə zəruri tədbirlərin görülməsini təmin etməklə bu istiqamətdə işin yaxşılaşdırılması üçün təkliflər verir."

**1.11.** 36.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"36.1.** Təşkilati və informasiya təminatı idarəsinin dəftərxana sektoru və digər struktur qurumların dəftərxanaları (və ya kargüzarlıq funksiyalarını icra edən dövlət qulluqçuları) müvafiq olaraq sənədlərin Baş İdarədə, idarə və şöbələrdə hərəkəti, onlar Baş İdarəyə, idarə və şöbələrə daxil olduğu və ya yazıldığı andan icra edildiyi və ya göndərildiyi anadək sənədlərin dövriyyəsini təmin edir. Sənədlərin qəbulu, ilkin qeydiyyatı, EPİS-ə daxil edilməsi, çeşidlənməsi, kargüzarlıq və arxiv işinin aparılması, zəruri hallarda isə sənədlərin kağız formasında icraçılara çatdırılması dəftərxana işçiləri tərəfindən həyata keçirilir. Sənədlər Baş İdarəyə, idarə və şöbələrə daxil olduğu gün, yaxud ertəsi gündən gec olmayaraq EPİS-də qeydiyyata alınaraq icraya yönəldilməsi təmin edilir. Sənədlərə qeydiyyat nömrələri EPİS tərəfindən avtomatik olaraq verilir."

**1.12.** 39.27-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"39.27.** Korrupsiyaya şərait yaradan halların aradan qaldırılması, gələcəkdə bir daha təkrar törədilməməsi və qanun pozuntularından çəkindirmək məqsədi ilə müvafiq orqan və qurumlara təqdimatlar göndərir, vətəndaşa və ya vəzifəli şəxsə rəsmi xəbərdarlıq edir, təqdimatlara baxılmasında iştirak edir və bu barədə görülmüş tədbirləri izləyir. "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununa əsasən prokurorun öz səlahiyyətlərini həyata keçirərkən qanunla müəyyən edilmiş qaydada etdiyi xəbərdarlıq və verdiyi təqdimatlar EPİS-in "PrAk RXəbərdarlıq" və "PrAk Təqdimat" modulları vasitəsilə tərtib edilir."

**1.13.** 40.13-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"40.13.** Korrupsiya ilə bağlı cinayət işlərinin istintaqı zamanı cinayətin törədilməsinə şərait yaradan halları müəyyən edir, gələcəkdə bir daha təkrar törədilməməsi və qanun pozuntularından çəkindirmək məqsədi ilə müvafiq orqan və qurumlara təqdimatlar göndərir, vətəndaşa və ya vəzifəli şəxsə rəsmi xəbərdarlıq edir, təqdimatlara baxılmasında iştirak edir və bu barədə görülmüş tədbirləri izləyir. "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununa əsasən prokurorun öz səlahiyyətlərini həyata keçirərkən qanunla müəyyən edilmiş qaydada etdiyi xəbərdarlıq və verdiyi təqdimatlar EPİS-in "PrAk RXəbərdarlıq" və "PrAk Təqdimat" modulları vasitəsilə tərtib edilir."

**1.14.** Aşağıdakı məzmunda 41.23-cü bənd əlavə edilsin:

**"41.23.** Korrupsiyaya şərait yaradan halların aradan qaldırılması, gələcəkdə bir daha təkrar törədilməməsi və qanun pozuntularından çəkindirmək məqsədi ilə müvafiq orqan və qurumlara təqdimatlar göndərir, vətəndaşa və ya vəzifəli şəxsə rəsmi xəbərdarlıq edir, təqdimatlara baxılmasında iştirak edir və bu barədə görülmüş tədbirləri izləyir. "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununa əsasən prokurorun öz səlahiyyətlərini həyata keçirərkən qanunla müəyyən edilmiş qaydada etdiyi xəbərdarlıq və verdiyi təqdimatlar EPİS-in "PrAk RXəbərdarlıq" və "PrAk Təqdimat" modulları vasitəsilə tərtib edilir."

**1.15.** 44.2.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

**"44.2.5.** Baş Prokurorluğun "İşin Təşkili Qaydaları" və bu Qaydalarda nəzərdə tutulmuş, habelə EPİS-də nəzərdə tutulmuş funksionallıqları yerinə yetirirlər."

**1.16.** 52.2-ci bənddə "Baş idarənin əməliyyat işçiləri" sözləri "Baş İdarənin İstintaq, Preventiv tədbirlər və təhqiqat, Əməliyyat idarələrinin və Əməliyyat təminatı şöbəsinin əməliyyat işçiləri" sözləri ilə əvəz edilsin.

**1.17.** Aşağıdakı məzmunda 52.3-1-ci bənd əlavə edilsin:

**"52.3-1.** "Qaynar xətt" əlaqə mərkəzində növbədə olan əməkdaşlar aşağıdakı qaydalara riayət etməlidirlər:

**52.3-1.1.** növbədə olduğu müddətdə xidməti geyim formasında olmalı;

**52.3-1.2.** növbədə olduğu müddətdə xidmət yerinin özbaşına tərk edilməsi hallarına yol verilməməli, üzrlü səbəblərdən xidmət yerinin tərk edilməsi zərurəti yarandıqda bu barədə əməkdaş tərəfindən onun əvəzlənməsi üçün bilavasitə rəhbəri qarşısında məsələ qaldırılmalı, eyni zamanda Təşkilati və informasiya təminatı idarəsinin növbətçi əməkdaşı məlumatlandırılmalı və yalnız əvəzedici əməkdaş xidmət yerinə gəldikdən və növbə sonuncuya təhvil verildikdən sonra xidməti yer tərk edilməli;

**52.3-1.3.** növbədə olma müddəti bitdikdən sonra, digər növbətçi əməkdaş növbəni təhvil alanadək xidmət yeri tərk edilməməli;

**52.3-1.4.** təsdiq edilmiş qrafik üzrə müəyyən edilmiş tarixdə növbəyə çıxmağın üzrlü səbəblərdən mümkün olmayacağı halı əvvəlcədən əməkdaşa məlum olduqdan dərhal sonra bu barədə onun digər əməkdaşla əvəzlənməsi barədə bilavasitə rəhbəri qarşısında məsələ qaldırılmalı və Təşkilati və informasiya təminatı idarəsinə məlumat verilməli;

**52.3-1.5.** növbədə olan zaman əlaqə mərkəzinin fəaliyyətini təmin edən proqram təminatı, kommunikasiya xətləri və digər avadanlıqlarda yarana biləcək texniki nasazlıq və çətinliklərlə bağlı Mərkəzin işində fasilə yarandıqda və ya kommunikasiya keyfiyyəti aşağı düşdükdə bu barədə dərhal Təşkilati və informasiya təminatı idarəsinin növbətçi əməkdaşı məlumatlandırılmalı;

**52.3-1.6.** növbədə olan zaman əlaqə mərkəzinə edilən bütün zənglər cavablandırılmalı, müraciət müəlliflərinə "Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksi"nə uyğun olaraq qayğı və həssaslıqla yanaşılmalı, çoxsaylı zəngləri ilə mərkəzin işinə maneçilik törədən müraciət müəlliflərinin mobil nömrələrinin texniki vasitələrlə məhdudlaşdırılması üçün Təşkilati və informasiya təminatı idarəsinin növbətçi əməkdaşına məlumat verilməli;

**52.3-1.7.** korrupsiya hüquqpozmaları və korrupsiyaya şərait yaradan hüquqpozmalar kateqoriyasına aid olan müraciətlər qeydiyyata alınmalı, digər növ müraciətlərə dair müraciət müəlliflərinə aydın və səlis hüquqi izah verilməklə onların düzgün yönləndirilməsi təmin edilməli;

**52.3-1.8.** müraciət qeydə alınarkən məzmunu konkret, aydın və hüquqi yazı üslubunda tərtib edilməli (hadisənin qısa təsviri göstərilməklə baş verdiyi yer və tarix, hüquqpozmaya yol verən şəxs haqqında zəruri məlumatlar və digər məlumatlar əks etdirilməli);

**52.3-1.9.** korrupsiya hüquqpozmaları və korrupsiyaya şərait yaradan hüquqpozmalarla bağlı olmasa belə, istisna hal kimi ictimai rezonansa səbəb ola biləcək, təxirəsalınmaz tədbirlər görülməsini tələb edən, törədilən və ya hazırlanan cinayətlərlə bağlı olan, habelə bağlı cinayətlərin açılması ilə nəticələnmə ehtimalı daşıyan müraciətlər qeydiyyata alınmaqla dərhal Baş İdarənin rəhbərliyi və Təşkilati və informasiya təminatı idarəsi məlumatlandırılmalı;

**52.3-1.10.** məlumatı qeydə almaqdan yayınmaq məqsədi ilə müraciət müəllifinin ərizə ilə Baş İdarəyə müraciət ünvanlamasının tövsiyə edilməsi və bilərəkdən yanlış yönləndirilməsi hallarına yol verilməməli."

**2.** Əmrin icrasına nəzarət Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisinə həvalə edilsin.

**3.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 150/61**

**Azərbaycan Respublikası Baş prokurorunun 14 sentyabr 2020-ci il tarixli 15/2 nömrəli əmri ilə təsdiq edilmiş Bakı şəhər prokurorluğunun "İşin Təşkili Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

**Bakı şəhəri** **7 may 2025ci il**

"Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilərək Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda dəyişikliklərin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 28 dekabr 2024-cü il tarixli 06 nömrəli qərarının icrasının təmin edilməsi barədə" 29.12.2024-cü il tarixli 150/59 №-li əmr imzalanmışdır.

Həmin əmrin ikinci bəndində Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda təsdiq edilmiş dəyişikliklərə uyğun olaraq Bakı şəhər prokurorluğunun "İşin Təşkili Qaydaları"nda müvafiq dəyişikliklərin hazırlanıb təsdiq üçün təqdim olunması nəzərdə tutulmuşdur.

Qeyd olunanlara əsasən "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 14 sentyabr 2020-ci il tarixli 15/2 nömrəli əmrlə təsdiq edilərək icraya yönəldilmiş Bakı şəhər prokurorluğunun "İşin Təşkili Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 9.3-cü bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Vətəndaşların qəbulunu həyata keçirdikdən sonra qəbul ilə bağlı zəruri məlumatların EPİS-in "Vətəndaş qəbulu" moduluna daxil edilməsini təmin edir."

**1.2.** Aşağıdakı məzmunda 14.14-cü bənd əlavə edilsin:

**"14.14.** "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununa əsasən prokurorun öz səlahiyyətlərini həyata keçirərkən qanunla müəyyən edilmiş qaydada etdiyi xəbərdarlıq və verdiyi təqdimatlar EPİS-in "PrAk RXəbərdarlıq" və "PrAk Təqdimat" modulları vasitəsilə tərtib edilir."

**1.3.** 15.6-cı bənddə "elektron qaydada" sözləri "EPİS vasitəsilə" sözləri ilə əvəz edilsin.

**1.4.** Aşağıdakı məzmunda 15.9-cu bənd əlavə edilsin:

**"15.9.** Vətəndaşların qəbulu həyata keçirilir, onların müraciətlərinə dair müvafiq izah və məlumatlar verilir. Vətəndaşların qəbulu həyata keçirildikdən sonra onların müraciətlərinə baxılmasının nəticələrinə dair zəruri məlumatların EPİS-in "Vətəndaş qəbulu" moduluna daxil olunması təmin edilir."

**1.5.** Aşağıdakı məzmunda 18-1-ci bənd əlavə edilsin:

**"18-1.** Cinayət təqibi üzrə qiyabi icraatın açılması

**18-1.1.** Cinayət təqibi üzrə qiyabi icraatın açılmasına dair vəsatət və təqdimatlar həmin sənədlərdə göstərilən halları təsdiq edən sənədlərlə birlikdə EPİS-in müvafiq modulları ilə Şöbəyə göndərilir.

**18-1.2.** Vəsatət və təqdimatlara CPM-nin tələblərinə əsasən baxılır, əsaslı olduqda təqdimat razılaşdırılması üçün Bakı şəhər prokurorunun müvafiq müavini tərəfindən təsdiq edilir və tabe prokurorluğa EPİS vasitəsilə göndərilir.

**18-1.3.** Vəsatət və təqdimat əsassız hesab edildikdə müvafiq qərar qəbul edilməklə EPİS vasitəsilə tabe prokurorluğa göndərilir."

**1.6.** 25.2.1-ci yarımbənddə "vətəndaşların şəxsi qəbulunu həyata keçirir, onların müraciətlərinə baxır və" sözləri "vətəndaşların müraciətlərinə baxır və onların şəxsi qəbulunu həyata keçirməklə müraciətlərinə baxılmasının nəticələrinə dair zəruri məlumatların EPİS-in "Vətəndaş qəbulu" moduluna daxil edilməsini təmin edir," sözləri ilə əvəz edilsin.

**1.7.** 25.2.20-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

**"25.2.20.** idarə prokuroru cinayət işinin istintaqının aparılmasının həvalə edilməsi qənaətinə gəldikdə və bunun üçün qanunvericilikdə nəzərdə tutulmuş əsaslar olduqda, bu barədə müraciət layihəsini hazırlayır, həmin layihəni idarə rəisi və Bakı şəhər prokurorunun müavini ilə razılaşdırmaqla, Baş Prokurorluğa göndərilməsi üçün Bakı şəhər prokuroruna təqdim edir;"

**1.8.** Aşağıdakı məzmunda 25.2.5-1 və 25.2.5-2-ci yarımbəndlər əlavə edilsin:

**"25.2.5-1.** İdarə prokuroru cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə müstəntiqin vəsatəti daxil olduqda, cinayət işinin materiallarını və vəsatəti öyrənir, vəsatətin cinayət prosessual qanunvericiliyin müddəalarına uyğun tərtib edilib-edilmədiyini yoxlayır, cinayət təqibi üzrə qiyabi icraatın açılması üçün cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulmuş əsasların mövcud olub-olmadığını müəyyən edir, kifayət qədər əsaslar olduqda, müvafiq təqdimatın layihəsini hazırlayaraq Bakı şəhər prokurorunun müavininə təqdim edir. Bakı şəhər prokurorunun müavini Bakı şəhər prokuroru ilə razılaşdırmaqla, cinayət təqibi üzrə qiyabi icraatın açılması haqqında təqdimatı imzalayır.

**25.2.5-2.** İdarə prokuroru cinayət təqibi üzrə qiyabi icraatın açılması üçün kifayət qədər səbəb və əsasların olmadığını müəyyən etdikdə vəsatətin müdafiə edilməsindən imtina edilməsi haqqında qərar layihəsini Bakı şəhər prokurorunun müavininə təqdim edir. Qərar imzalandıqdan sonra idarə rəisinin müşayiət məktubu ilə aidiyyəti istintaq orqanına göndərilir."

**1.9.** Aşağıdakı məzmunda 26.1.5-1-ci yarımbənd əlavə edilsin:

**"26.1.5-1.** İdarə prokuroru cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı daxil olduqda, cinayət işinin materiallarını, vəsatəti və təqdimatı öyrənir, vəsatətin və təqdimatın cinayət prosessual qanunvericiliyin müddəalarına uyğun tərtib edilib-edilmədiyini yoxlayır, cinayət təqibi üzrə qiyabi icraatın açılması üçün cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulmuş əsasların mövcud olub-olmadığını müəyyən edir, kifayət qədər əsaslar olduqda müvafiq təqdimatın layihəsini razılaşdırılması üçün Bakı şəhər prokurorunun müavininə təqdim edir. Təqdimat əsassız hesab edildikdə bu barədə müvafiq qərar qəbul edilir və idarə rəisinin müşayiət məktubu ilə EPİS vasitəsilə tabe prokurorluğa göndərilir."

**1.10.** 29.2-ci bənddə ikinci halda "əldə edilmiş" sözlərindən sonra "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın.

**1.11.** 51.1-ci bəndə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

"Sənədlərə qeydiyyat nömrələri EPİS tərəfindən avtomatik olaraq verilir."

**1.12.** 56.3-cü bənddə "Rəhbərlik tərəfindən" sözlərindən sonra "kağız formatda verilmiş" sözləri əlavə edilsin.

**1.13.** Aşağıdakı məzmunda 78.2.11-ci yarımbənd əlavə edilsin:

**"78.2.11.** Vətəndaşların müraciətləri, habelə cinayət işləri və materiallar ilə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəhbərliyinə məruzə ilə bağlı tərtib edilmiş arayışlar yalnız nəzarət icraatlarına əlavə edilir, həmin arayışların material və cinayət işlərinə əlavə edilməsi yol verilməzdir."

**1.14.** 79.3-cü bənddə "növbəti iş günü ərzində müvafiq prokurorluğun xüsusi elektron məlumat bazasına daxil edilməsi təmin olunur" sözləri "dərhal EPİS-in "Vətəndaş qəbulu" moduluna daxil edilməsi təmin olunur" sözləri ilə əvəz edilsin.

**1.15.** 79.4-cü bənddə "növbəti iş günü ərzində müvafiq prokurorluğun xüsusi elektron məlumat bazasına daxil edilməsini" sözləri "Vətəndaş qəbulu" moduluna daxil edilməsini" sözləri ilə əvəz edilsin.

**1.16.** 79.5-ci bənddə birinci cümlədə "elektron məlumat bazalarının aparılması" sözləri "EPİS-in "Vətəndaş qəbulu" modulunun işlənməsi", ikinci cümlədə "elektron məlumat bazalarının aparılmasını" sözləri "EPİS-in "Vətəndaş qəbulu" modulunun işlənməsini" sözləri ilə əvəz edilsin.

**1.17.** 79.9-cu bənddə "xüsusi elektron məlumat bazalarında yerləşdirilməsini" sözləri "EPİS-in "Vətəndaş qəbulu" modulunda yerləşdirilməsini" sözləri ilə əvəz edilsin.

**2.** Əmrin icrasına nəzarət Bakı şəhər prokuroru və onun müavinlərinə, Bakı şəhər prokurorluğunun Təşkilat və icraya nəzarət şöbəsinə həvalə edilsin.

**3.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, Bakı şəhər prokurorluğuna və tabe rayon prokurorluqlarına göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**